I Cild

Şeirlər

II Cild

Poemalar

III Cild

Pyeslər

IV Cild

Nəsr

V Cild

Elmi əsərlər

VI Cild

*Publisist əsərlər*

VII Cild

*Məktublar, tərcümələr, aforizmlər*

“Prometey”in kitabxanası

**NƏRİMAN HƏSƏNZADƏ**

# *Seçilmiş Əsərləri*

7 cilddə

*2-ci cild*

*(Poemalar)*

**Bakı – 2010**

"Prometey"in kitabxanası

*N.Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə. 2-ci cild (Poemalar).*

**Tərtibçi:** **Nazim Həsənzadə,**
*filologiya elmləri üzrə*
*fəlsəfə doktoru*

**Ön sözün müəllifi:** **Nizami Cəfərov,**
*AMEA-nın müxbir üzvü,*
*filologiya elmləri doktoru,*
*professor*

**Redaktor:** **Güldanə Əmrullahqızı,**
*filologiya elmləri üzrə*
*fəlsəfə doktoru, dosent*

*"Prometey"in kitabxanası seriyasından Xalq şairi Nəriman Həsənzadənin yeddicildliyinin ikinci cildinə daxil edilmiş əsərlər müxtəlif illərdə çıxan kitabları əsasında tərtib olunduğundan, vaxtilə həmin kitablara yazılmış giriş məqalələrindən(bəzi fikirləri) və rəsm əsərlərindən bir neçəsini burada vermək qərarına gəldik.*

*Bununla da məqsədimiz həm müasir oxucuları ədəbi prosesin ayrı-ayrı mərhələləri ilə bir növ yaxından tanış etmək, həm də sevimli şairimizin qələm və fırça dostlarını minnətdarlıqla bir daha xatırlamaqdı.*

© "Prometey" – 2010

# Poema sənəti...
# Və Nəriman Həsənzadənin
# Poemaları

Xalq şairi Nəriman Həsənzadənin yaradıcılığı ədəbi-bədii təfəkkürün bütün spektrlərini özünəməxsus iyerarxiya ilə əhatə edir; funksional intensivlik etibarilə ilk növbədə lirika gəlir, sonra dramaturgiya, sonra epiklik (epikmiqyas)...

Böyük sənətkar-mütəfəkkirin həm şeirlərində, həm poemalarında, həm dramaturgiyasında, həm də nəsr-publisistikasında bu məqamların bir-birini necə izlədiyini, bir-birindən necə doğulduğunu görməmək mümkün deyil.

Ümumən dünya ədəbiyyatında təcrübə belədir ki, şairlər şeirdən başlayırlar, nasirlər hekayədən, dramaturqlar ya şeirdən, ya da hekayədən... Yəni "kiçik janr"lardan... Sonra "böyük janr"lara keçirlər: poema, povest, roman, dram-pyes, faciə, komediya... (Epos...) İnsanın (cəmiyyətin) ədəbi-bədii təfəkkürü isə, əksinə, eposdan

başlamışdır. Poema çoxsaylı ədəbi janrlardan birinə çevrilənə qədər özünəməxsus bir "tənəzzül tarixi" yaşamışdır; yeni dövrdən etibarən "poema" adlandırılan əsərlər vaxtilə bütövlükdə ədəbiyyata bərabər idi: şumerlərin "Bilqamıs"ı, Homerin "İliada" və "Odisseya"sı, türk dastanları, Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si, ümumiyyətlə, dünya eposu, əgər belə demək mümkünsə, poema idi... Və ədəbiyyat, onun müxtəlif janrları "poema"dan doğuldu: nəsr də, dramaturgiya da, poeziyanın müxtəlif janrları da... Höte "Faust"u, Puşkin "Yevgeni Onegin"i, Hüseyn Cavid "Arif"i, Səməd Vurğun "Azərbaycan"ı ... yaradanda adı məlum olan və ya olmayan dahi sələflərini təqlid edirdilər... Haqlı idilər, ona görə ki, ədəbiyyat - bədii yaradıcılıq onsuz da təqlid edir: həm sinxron gerçəkliyi, həm də özünün tarixini...

Şumerlərin, misirlilərin, yəhudilərin, iranlıların, slavyanların, germanların, romanların... dahi sənətkarları min illər, əsrlər boyu nəzmlə möhtəşəm dastanlar yaratdılar. İstər orta əsrlərdə, istərsə də sonralar hansı böyük söz sənətkarı istəməzdi ki, dünya eposunu yaradan naməlum (və universal) dahinin xələfi olmasın?!

...Bir janr olaraq poemanın genotipində bütövlükdə ədəbiyyat-dastan var, ona görə də böyük sənətkarların yaradıcılıq təcrübəsində lirik, dramatik və epik poemaların (dastan-stilizasiyaların) olması tamamilə təbiidir. Və şair dramaturgiyaya da poemadan keçir, yəni, əslində, səhnə üçün poema-dastan yazır... Hüseyn Cavid də belə etdi, Səməd Vurğun da... Və Nəriman Həsənzadə də!.. Öz böyük sələfləri kimi Nəriman Həsənzadənin də yaradıcılıq stixiya-istedadı poema-dastan miqyasındadır. Hər şeydən əvvəl ona gürə ki, şairin, demək olar, hər bir şerində - ümumən lirikasında bir epos genişliyi, yaxud kontekst hiss edilir. İkincisi, elə şeir silsilələri var ki, Qurbani, Aşıq

Abbas, Aşıq Ələsgər yaradıcılığında olduğu kimi, hərəsi bir süjet-dastan təşkil edəcək qədər ardıcıldır. Və üçüncüsü, tale (tarix) nəyi diqtə edibsə, şair onu yazıb...

Nəriman Həsənzadənin poema-dastan yaradıcılığının, əslində, ümumən yaradıcılığının əsas qəhrəmanı ya bilavasitə Azərbaycan, ya da Azərbaycanı simvolizə edən lirik-dramatik-epik "Mən"dir...

"Zümrüd quşu", "Nəriman", "Kimin sualı var", "Nuru Paşa"... kimi poemalarında şair qəhrəmanlarının tərcümeyi-halını məhz mənsub olduğu millətin tərcümeyi-halı səviyyəsinə qaldırır: klassik dastanlardan gələn təbii bir yaradıcılıq enerjisi (və estetikası) ilə inandırır ki, adi insan da, böyük şəxsiyyət də milli tarixi missiya daşıyır... Millət o zaman güclü olur ki, adi insanını yüksəltsin, böyük şəxsiyyətini tanısın, ictimai yaddaşına (tarixinə) yazıb örnəyə çevirsin...

Nəriman Həsənzadə poemalarında bir şairin ola biləcəyi qədər tarixçidir, əslində, tarix filosofudur; bu isə o deməkdir ki, Hüseyn Cavid, Səməd Vurğun... kimi o da tarixin - yaşanmış həyatın statistikasından, xronologiyasından daha çox mahiyyətinə, bu günə gətirib çıxaran (və ya çıxarmayan) məntiqinə nüfuz edir. Ona görə də tendensiyalı tarixçilərin "hiyleyi-şərr"ini görür, mənsub olduğu millətin danılmış tarixinin konturlarını cızır, bir sıra hallarda isə onun (tarixin bu və ya digər bir dövrünün) bütün mənzərəsini "bərpa edir".

Məlum məsələdir ki, şair, tarixçidən fərqli olaraq, təsvir etdiyi dövrün iqtisadi-təsərrüfat münasibətlərindən, yaxud tikinti-memarlıq texnologiyalarından, yaxud da siyasi-ideoloji münaqişələrin təfsilatından bəhs etmir. Mütəfəkkir-sənətkar üçün tarix insanın (ümumiyyətlə, insanlığın) yüksəlişi, tərəqqisi tarixidir, bir az da konkretləşdirsək, sözün geniş mənasında, qəhrəmanlığın (və qəhrə-

manların) tarixidir. Şair üçün bu və ya digər bir dövrün məzmunu, idealları, yaxud, "idealsızlığı" bir qılınc, yaxud söz qəhrəmanında, bir məhəbbət, yaxud nifrət mütəfəkkirində təzahür edə bilər (və edir)...

Nəriman Həsənzadə poemalarının bir qayda olaraq tarixi qəhrəmanları həm də müasirdir. Və bu müasirlik, sadəcə, öz tarixilə fəxr etmək kimi kifayət qədər populyar, bəzən hətta konyukturaya qədər gedib çıxan, bir ictimai-mənəvi ehtiyacla məhdudlaşmır. Şair tarixi bu günün (və bu günü tarixin) kontekstində təhlil edir - bu təhlildə dəqiqlikdən başqa, o qədər böyük səmimiyyət də var ki, onun (şairin) "qaibdən xəbər verdiyinə" inanmaya bilmirsən...

Böyük şairin bütün yaradıcılığı üçün səciyyəvi olan bir məqam da var ki, onun poemalarına bilavasitə aiddir: o da ictimai (universal) səviyyəyə qaldıra bildiyi tərcümeyi-halıdır. Ümumiyyətlə, bu məqam epos təfəkkürü üçün xarakterikdir: dastan "müəllifi" həmişə öz tərcümeyi-halını cəmiyyətin tərcümeyi-halı kimi təqdim edir... "Dədə Qorqud"dan "Koroğlu"ya, "Əsli Kərəm"dən "Aşıq Qərib"ə qədər...

Dünyanın bütün böyük şairləri kimi, Nəriman Həsənzadə də eposdan gəlir. Və eposun əbədi yaradıcılıq texnologiyaları ilə yaradır...

**Nizami CƏFƏROV**

# Müəllifdən

Dünya işıq, yol qaranlıq, söz bələdçidi. Mən bu bələdçinin köməyilə qaranlıq yolları keçdim, Müstəqillik Aktına qol çəkdim, dünyanın İşığını gördüm. "XXI əsrə giriş" əsərimi də yazdım. Bundan sonra da yazmaq həvəsilə yaşayıram. Bəlkə bu, mənim taleyimdi.

Böyük Nizami deyirdi ki, nailiyyəti, uğuru – hünər, istedad yox, tale həll edir. Baxt!

Mən bu yollarda istedadlı gənclər gördüm ki, "Ey kimsəsizlər Kimsəsi!" deyərək, - kömək axtara-axtara yerlərini özgəsinə verdilər.

Mənim qabağıma yaxşı insanlar çıxdılar, – həyatda da, ədəbiyyatda da mənim taleyim oldular. Onları mən axtarıb tapmamışdım, – nağıllarda olduğu kimi, özləri qabağıma çıxmışdılar.

Görüşlərim demək olar ki, təsadüfi olmuşdu. Təsadüfi halları filosoflar zərurət adlandırır. Bəlkə düz fikirdi? Hər halda, nə yaxşı, dünyada təsadüflər var!

İndi, nəşr etdirdiyim yeddicildliyimdə də dünyasını dəyişənləri hörmətlə, həsrətlə xatırlayıram. Sağ olanlara minnətdaram.

Həyatım, tərcümeyi-halım əsərlərimdədi. Nəhayət, hörmətli oxucularım onları oxuduqca görəcəklər ki, nə qədər təzyiqlərə, təqiblərə məruz qalmışam...

Bu, şikayət deyil, sadəcə etirafdı.

Burada "yaxşı" dediyim ilahi insanlar haqqında ayrıca, bir az da geniş yazmaq fikrindəyəm...

"Nəriman", "Kimin sualı var?", "Zümrüd quşu" əsərlərimin üzə çıxmasına, uğur qazanmasına mane olan çətinliklərin qarşısının alınmasında Ümummilli lider Heydər Əliyevin böyük təsiri olmuşdur. Birini burada misal çəkmək istəyirəm.

O vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində keçirilən və bizim Yazıçılar İttifaqı rəhbərliyinin də iştirak etdiyi Büro iclasında MK-nın Birinci katibi Heydər Əliyev deyirdi ki, mən Azərbaycanın XIX əsr həyatından, taleyindən danışanda, adətən Mirzə Fətəli Axundovun "Puşkinin ölümünə Şərq poeması" əsərini misal çəkirəm. O dövrdən bəhs edən başqa əsər yoxdur?..

Mən yerdən: - Var, yoldaş Heydər Əliyev, - deyə cavab verdim.

Büro iclaslarında yerdən icazəsiz danışmaq, Birinci katibin sözünü kəsmək olmazdı. Görünür, sual məni tutmuşdu. Ətrafdan mənə narazı baxışlar zilləndi...

– Belə bir əsər varsa, nə üçün mən oxumamışam? Mənim xəbərim yoxdur?… - Bu sözləri deməyə Heydər Əliyevin tam haqqı var idi. Tariximizi gözəl bilirdi, mütaliə onun stixiyasıydı. Hər bir yaradıcı ziyalını yaxşı tanıyırdı və səxavətlə tanıdırdı. Tariximizdə nadir dövlət başçılarından idi ki, sənəti, sənətkarı bu qədər sevirdi, qiymətləndirirdi.

O, bir anlıq pauzadan sonra yenə Büro iclasını davam etdirdi. Başqa söz soruşmadı.

O gün gecə saat bir radələrində, İttifaqın birinci katibi mərhum İmran Qasımov mənə zəng vurdu. Əsərin orijinalını da, ruscaya tərcüməsini də Heydər Əliyev istəyir. Sabah təqdim etməliyəm, – dedi.

İmran müəllimin "Zümrüd quşu" əsərimdən xəbəri var idi. Poema ayrıca kitab şəklində təzəcə nəşr olunmuşdu. Hələ SSRİ dövlət mükafatına da təqdim edilməliydi. Bu barədə mənə, İmran müəllimin özü demişdi. Rusiyanın böyük şairi Vladimir Solouxin sətri tərcümə ilə tanışlıqdan sonra mərhum yazıçı İsmayıl Şıxlıdan mənə məktub göndərmişdi (onlar "Peredelkino" yaradıcılıq evində istirahət edirdilər). V.Solouxin yazırdı ki, əsəri mən tərcümə edəcəyəm. Lakin Bakıda məni elə tələsdirdilər ki, poemanı başqa bir rus şairinin tərcümə etməsinə razılıq verdim. Əsər "Literaturnıy Azerbaydjan" jurnalının iki nömrəsində ixtisarla dərc edildi.

Burada, məhz bu əsərdən söhbət getdiyinə görə, xalq yazıçısı Elçinin adını hörmətlə çəkmək istərdim. İttifaqın katibi vəzifəsində işləyirdi. Onun xeyirxahlığı bir çox məqamlarda dada çatırdı. Şairin də, yazıçının da buna ehtiyacı var. Əlbəttə, bu, başqa bir söhbətin mövzusudur.

Poemanın Azərbaycan və rus variantı Heydər Əliyevin özünə çatdı. Bir həftə sonra isə qəzetlərdə mənə "Respublikanın Əməkdar incəsənət xadimi" Fəxri adının verilməsi barədə onun fərmanı çap edildi. Qısaca bu qədər...

* * *

Məlumdur ki, Homerdən, Nizamidən üzübəri böyük sənətkarlar bütün əsrlərdə çağdaş olurlar. Yaratdıqları əsərlərə görə də yaşadıqları epoxaya qiymət verilir.

Böyük rus şairi Puşkin də belədir. Heç şübhəsiz, o da birinci növbədə öz xalqının, öz dövrünün oğludur. Yalnız bundan sonra digər xalqlara və dövrlərə aid edilə bilər.

Bu günlərdə əsərlərimin yeddicildliyini nəşrə hazırladığım zaman, "Zümrüd quşu"nu yenidən oxudum... Çalışmışdım ki, çar imperiyası şəraitində sahibsiz bir milləti sənətilə - toxuduğu xalılarda yaşadan bir azərbaycanlı qadının şəxsində ümumiləşdirim; böyük rus şairi Puşkin və A.A.Bakıxanov mühitində tariximizi, taleyimizi araşdırım. Buna görə də mən o qadını sadəcə "Zümrüd quşu" adlandırdım. Mənim anlamımda - xilaskar, fədakar mənasında.

Bu il yay məzuniyyətimi Kislovodskda keçirərkən, şəhərin mərkəzi kitabxanasında xeyli məşğul oldum, sovet dövrü çapı qadağan edilən və indi Rusiya nəşriyyatlarının buraxdığı yeni (V.Pottonun beşcildlik "Kafkazskaya voyna", A.Şirokoradın "Rusiyanın dostları və düşmənləri" seriyasından "Persiya - İran. İmperiya na Vostoke" və s.) kitabları alıb oxudum.

"Zümrüd quşu" poemasını yenidən işləyəndən sonra "Seçilmiş əsərləri"mə daxil etmək qərarına gəldim.

Yeri gəlmişkən deyim ki, görkəmli rus şairi (Moskva) V.Semyonovun tərcüməsində poema ruscaya "Puşkin Qafqazda" adı ilə (1987) tərcümə və nəşr olunmuşdu.

Məlumdur ki, böyük rus şairi Puşkin ikinci müsəlman polkunun (Qarabağ atlılarının) döyüşçülərilə onların hərbi düşərgəsində görüşüb, "Oktava"[1] adlandırdığı "Şirvan polku"na poema həsr edib, əsirlikdə olan türk sərkərdəsi Haqqı Paşaya, Qafqaza və qafqazlılara ("Qafqaz"[2] şeirini xatırla) olduqca səmimi münasibət bəsləyib. Bəlkə də bütün bunlara görə (başqa səbəbləri də istisna etmirəm) feldmarşal Paskeviçin əmrilə o, Moskvaya yarımçıq qayıtmalı olmuşdur.

Bu məsələlər poema ayrıca kitab şəklində nəşr olunandan sonra da məni düşündürürdü...

Puşkinin öz sözləri də mənə haqq verir ki, məhz belə düşünüm. Tiflisdə dostlarından birinin - ordudan nə tez qayıtdın? - sualına o, belə cavab vermişdi ki, Paskeviçin yedəyində gəzmək məni cana gətirmişdi. Mən istəyirdim, bizim igid qafqazlıların qəhrəmanlıq hünərini tərənnüm edim - bu, bizim doğma epopeyamızın şərəfli bir hissəsidir. Amma o məni başa düşmədi və tələsdi ki, məni ordudan qovsun. Budur, mən də çıxıb gəldim...

Poemanı işlədiyim vaxtlarda fars, ərəb, rus, ingilis, dillərində olan ədəbiyyatla, qədim Yunan və Roma mütəfəkkirlərinin əsərlərilə, bir sıra arxiv materialları ilə də yaxından tanış oldum. Onları buraya köçürsəydim, uzun-uzadı bir siyahı alınardı.

Poema yeni, təkmilləşmiş variantda məncə daha dolğun, daha tarixi görünür.

Tarixdən külü yox, odu götürməyə çalışdım. Ola bilsin ki, odqarışıq kül də gəlib. "Odu - külün vasitəsilə saxlamaq olar" (Nizami Gəncəvi).

*2010*

---

[1] Oktava - musiqidə: qammanın 8-ci tonu; ədəbiyyatda: birinci altı misrası iki çarpaz qafiyəli, iki axırıncı misrası isə yanaşı qafiyəli səkkiz misralı şeir bəndi nəzərdə tutulur (*müəllif*).

# Nuru Paşa

## Qəhrəmanlıq dastanı. XX əsr

*Türk can qoydu bu torpaqda*
*"Azərbaycan!" deyə-deyə.*
*Tarix! Səni oxuyuram*
*mən türkə "Can!" deyə-deyə.*

## GƏLƏCƏYƏ ÜNVANLANAN QƏHRƏMANLIQ DASTANI

***...Tarixdə adətən qələbə çalanlar qəhrəman sayılır. Zirvədə tutulur, ehtiramla anılır, adına olub-olmamış rəvayətlər qoşulur. Bu rəvayətlərin, "qəhrəmanlıq dastanlarımızın ömrü qəhrəmanlığımızın ömründən daha uzun olur". Professor Nizami Cəfərovun təəssüflə qeyd etdiyi bu fikir də cəmiyyətin funksional mövcudluğuna xas təbii haldir. Cəmiyyət daima qəhrəmanlıq, yaxud da daima uğursuzluq vəziyyətində qala bilməz. Hər iki hal davamlı prosesə çevriləcəyi ehtimalında belə, artıq öz mahiyyətindən kənarlaşır. Nizami bəyin xalq üçün arzuladığı qəhrəmanlıq ömrünün uzunluğunu şərtləndirən əsas dəyəri elə özü də təsdiqləyir.***

***Qəhrəmanlıq dastanlarının ömrü uzun olursa, deməli o dastanı yaradan və yaşadan insanlar qəhrəmanlıq aşiqidir.***

***Şəninə sağlığında nəğmələr oxunan qalib ordu komandanı Nuru Paşa 90 il sonra Azərbaycan seirinin baş qəhrəmanına çevrildi. Nəriman Həsənzadənin yaratdığı "Nuru Paşa" oxucuların təfəkküründə şairin gördüyü obrazda yaşayacaqdır. Bəs tarixi əsərlər təcrübəsi zəngin və uğurlu olan şair Nuru Paşanı necə gördü, necə yaratdı?***

***"Nuru Paşa" dastanının ruhu şair üçün aparıcı bir motivdən yoğrulmuşdur: "Tarix! Səni oxuyuram mən türkə "Can!" deyə-deyə". Bununla belə türk, müsəlman təəssübkeşliyinin kölgəsində qalmayan böyük bir sevgi var onun qəlbində: Vətən sevgisi - Azərbaycan sevgisi! Tarixin cazibədar ideologiyalarını bu sevginin fövqündə deyil, ona xidmətdə arzulayan Nəriman Həsənzadənin "Nuru Paşa" əsəri bu günün gələcəyə qəhrəmanlıq çağırışıdır...***

**Firdovsiyyə Əhmədova,**
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının dosenti,***
***tarix üzrə fəlsəfə doktoru***

**"525"-ci qəzet, 15 sentyabr 2010-cu il**

# *Millətimin soyqırımına*

Bakının ən uca, "Dağüstü park" deyilən yerində, Şəhidlər Xiyabanının qonşuluğunda, məşhur türk sərkərdəsi Nuru Paşanın komandanlığı ilə 1918-ci ildə Bakını düşmən rus-bolşevik, eməni-daşnak birləşmələrinin işğalından qurtarmağa gələn Türk-Qafqaz ordusunun əziz xatirəsinə abidə (15 iyul 1999) ucaldılmışdır.

Türklərlə azərbaycanlılar çiyin-çiyinə vuruşub, 1130 şəhid vermişlər.

Burada Ayulduz emblemi altında onların hamısının öz adı və doğulduqları yerlərin adları qızıl hərflərlə daş lövhələr üzərinə həkk olunmuşdur.

Ankaradan, İstanbuldan, Kayseridən, Antalyadan, Beyrutdan, Bağdaddan, Amasyadan, Bosniyadan, Triyestdən, Bolqarıstandan, Bursadan, Diyarbəkrdən, Dağıstandan, Çanaqqaladan, Ərzurumdan, Ərzincandan, Əskişehirdən, Kosovodan, Konyadan, İzmirdən, Sinopdan, Sivasdan, Növşehirdən, Suriyadan, Makedoniyadan, Hələbdən və b. yerlərdən gələn bu unudulmaz mehmetciklər "ikinci vətənlərində" əbədi uyuyurlar.

Ruhları şad olsun!

**Müəllif**

Nuru Paşa at belində,
Türkiyədən,
Karsdan gəlir.
"Azərbaycan!" deyə-deyə,
yaralanmış
aslan gəlir.
Ermənінin xəyanəti -
rusdan gəlir,
farsdan gəlir.
Bakı qətl meydanıdı –
geniş meydanlar
car çəkir,
daşnaksütun bolşeviklər
qan gölündə
avar çəkir.
Dərin dəryalar qoynunda
çökür
Osmanlı dövləti.
"Çökməyəcək türk milləti" –
deyir hərbiyyə naziri
Ənvər Paşa.
Sərəncamdı
bu, birbaşa.
Vətən səni şəhid verir,
girov qoyur,
Nuru Paşa.

Azərbaycan -
şərəfinə
himn oxuyur,
Nuru Paşa.
Alovların qucağına
nazirin
qardaşı gəlir.
Mürğ quşudu –
qanadında
bir dəyirman
daşı gəlir.
İldırımla -
əlbəyaxa,
şimşəklə -
yanaşı gəlir.
Qisas gəlir,
tufan gəlir,
qovğa gəlir.
Mənim xalqım, Nuru Paşa
arxasıza
arxa gəlir.
Türk bayrağı yellənirsə, –
İstiqbaldan
xəbər verir.
Zaman Türkün tarixinə
türksoylu
İskəndər* verir.

* Müəllif İskəndər Makedoniyalıya işarə edir (*red.*).

* * *

Var ol səni, arxam mənim,
arxalı
səs-sədam mənim,
Fatehlərin varisidir,
Turanlı
Şahzadəm mənim.
Türküm mənim,
irqim mənim.
Fikri düşmən cəbhəsində,
özü
bayraqlar altında.
Bayraq vətənsiz olanda,
itir –
ayaqlar altında.
Türk döşündən süd əmibsə,
türkə bəsdi.
Türk laylası eşidibsə,
türk dönməzdi.
Türk belindən gəlibsə,
türk basılmazdı.
Türk naləsi eşidirsə,
türk almazdı.
İldırım! – de, türkə – azdı.

* * *

Altı qandı, üstü qanlı
göz yaşıdı
bu torpağın.
Göz yaşı – qan yaddaşıdı
bu torpağın.
Aç sinəni səhərlərin
dağ yelinə,
Nuru Paşa!
Qığılcımlar səpələnsin
at nalından at belinə,
Nuru Paşa.

* * *

Ermənilər pusqudaydı
top-tüfənglə.
Gəncəlilər - yol üstündə -
duz-çörəklə.
Gözləyirdi göydən enən
bir xilaskar
mələk kimi.
Vaxtın əli tətikdəydi,
açılacaq
tüfəng kimi.
Tarix əsrin əvvəlinə
nur çiləsin
fişəng kimi.
Tarixi -
tarixi anlar,
tarixi qeylü-qal yazır.

Tarixçilər tarix deyir,
tarix özü
sual yazır.
Türk qılıncı parlayanda,
tarixə
İstiqlal yazır.

* * *

Azərbaycan gedə bilər,
Azərbaycan itə bilər.
Ermənilər türksoylunu
didim-didim
didə bilər.
Hələ Bakı Sovetində
iclas gedir,
məşvərətdi.
Bu məşvərət - qırğınlara
bəraətdi.
Bu bəraət - bu millətə
xəyanətdi.
Hələ şəhər Şaumyanın
əlindədi.
Hələ daşnak Lalayanın
mauzeri
belindədi.
Oyaqdılar -
"haram qatıb" yuxusuna
gecəyarı, –
türk ovuna çıxıb yenə
Hamazaspın
adamları.

Bizim Poylu körpüsünə
sancıb alman –
bayrağını.
Neft istəyir, –
bir başmağa qoyub
iki ayağını.
O da guya menşeviklə
canhacandı.
Orda rusdu,
burda «yan»dı,
ingilisdi,
italyandı.
Leş gəzirlər,
Allah, Allah, –
gör nə qədər
quzğun gəlib.
Azərbaycan, başın üstə
Türk Qartalı
qanad gərib.
Küçələrdə athaatdı,
qaçhaqaçdı,
susub millətçi natiqlər, –
millət acdı.
Kim qorusun anaları,
bacıları? –
Öldürürlər uşaqları,
qocaları.
Yoxa çıxıb "şanlı"
Bakı qoçuları.

Buruqları qoruyurlar,
Bakını yox.
Sahibkarın başqa yerdə
bazarı yox,
dükanı yox.
Bakı – sağmal bir inəkdi,
sağanı çox,
baxanı yox.
Rəiyyətin bəyi çoxdu,
xanı çoxdu, –
Xaqanı yox.
Üstündə bir gözmuncuğu,
boynunda dağdağanı yox.
Sözü keçmir, axtarmayın hacıları.
Bağlayıblar qapıları, bacaları.
Dilində: "Əlhəmdülillah!
Bismillah, rəhman-ir-rəhim!"
Nə deyir o, mənim xalqım, –
Döyüş?
Təslim?!
Nə gününə şükr eləyir
namaz üstə?
Qan tökülüb Kür boyunda,
Araz üstə.
Əsəblər bəyanat verir
gündə bir
etiraz üstə.
Xəyanət bardamaş qurub
ocağının qırağında.

Azərbaycan –
Azərbaycan sorağında!
Vətən deyən, vətənsizdi,
Mənim yanımda mənsizdi,
sənin yanında sənsizdi.
Neft - xarici şirkətlərin,
yer - millətin.
Neft - əvəzsiz sərvətidi
təbiətin.
Göz dağıdı neft, Allahım,
əsiriyik
bu sərvətin.

* * *

Türkəm, - deyən bir millətin
soyqırımı,
matəm günü!
Baxtın, taleyin kəm günü!
Harayına çağırırdı
Azərbaycan
yer üzünü, -
dünya görsün erməninin
hər üzünü.
"Hoydu, dəlilərim, hoydu!
Baş bir yana, leş bir yana,
tərpənir ağzım içində
dil bir yana,
diş bir yana..." –
deyən ərlər hanı, Tanrım?

Torpağın üstünə püskür
torpağın altını, Tanrım!
Yerdən çıxsın yer altında
yatanlarım.
Oxu oxla nişan alıb
oxu göydə
tutanlarım.
Qılıncı düşmən başında
şimşəktək
oynadanlarım.

* * *

Səlcuqların əli çatmır
bu haraya,
şahı matdı.
Şah babam Eldəniz yatmır,
Atabəylər
narahatdı.
Xətainin qılıncını
göndərərdi
Səfəvilər,
dilində "Allahu-Əkbər!",
Türkün qılınc ləhcəsində
danışardı
erməniylə.
Çarpışardı yerlə-göylə.

* * *

Sultan onda əl qaldırdı
Qızılbaşa.
Əl qaldırmaz,
eşitmişik –
əl tutar qardaş qardaşa.
Qardaşımsan, Paşam mənim,
Nuru Paşa.
O dəmdə nə sən varıydın,
nə "Bir millət, iki dövlət" –
deyənimiz.
Yoxuydu bir həyanımız.
Sünni-şiə davasıydı,
İki türkün bir-biriylə
ölüm-dirim
savaşıydı.
Bir səadət beşiyində,
fəlakət
ab-havasıydı.
Türkün qanı axdı, şair!
Sünni-şiə eyni qandı.
Ölən kimdi? –
müsəlmandı,
öldürən də müsəlmandı.
Özü səndən, adı səndən,
soy-kökü,
soyadı səndən.

Tükəndimi yer üzündən –
Haqqa ruhani bir ülfət,
ülfətdə
gördüyüm vəhdət?!

Zühur eylə,
əlac eylə,
cihad eylə,
ya Məhəmməd!

* * *

Millət yenə şiə deyir,
sünni gəzir,
Azərbaycan!
Yaram göynər, ruhum sızlar
əsr-əsr,
Azərbaycan!
Türk qaçanı nişan almaz
kürəyindən.
Tikan çıxdı
Avropanın, Rusiyanın
ürəyindən.
Ayırdılar,
buyurdular.
Gizli səlib yürüşünə
səsləyirdi,
Nuru Paşa.
Türk yarası türkəçara
istəyirdi,
Nuru Paşa.

* * *

Lenin ordan car çəkirdi, –
dəyişdirin
vəziyyəti.
Bizdən vətən istəyirdi
vətənsizə,
rus dövləti.

Həştərxana daşıyırdı
neftimizi,
gəmi-gəmi.
"Gülüstan"dan, "Türkmənçay"dan
millətə nə qalmışdısa,
miras kimi.

* * *

Bir cəhənnəm səhnəsiydi,
Şamaxı zəlzələsiydi,
Şamaxıda
qətl-qarət!
Şirvanşahlar sarayının
ocağıydı
bu məmləkət.
Mayasında şeir-sənət,
şerə-sənətə itaət.
Rəqqasə kənizlər hanı?
Şairlər, Məclislər hanı?
Beyləqani,
ya Xaqani,
şair Fələki Şirvani?!
Deyin, qalxsın məzarından
şahlar şahı Məniçöhr,
"sözünün şahı" Əhsitan!
Şahlar indi necə yatır
torpaq altda?
Torpaq üstə şahlıq qalıb
ayaq altda.
Minbərlərdə batil oldu
məscidlərin
duaları.

Ağızlarda, dodaqlarda
yandı
Quran ayələri.
Deyilənlər dil-dil gəzib
el-el yaydı şayələri.
Sarayların, xaqanların,
şahların
sonu buydumu?!
Allah, Allah, var olanlar
yoxuydumu?!
Oyaq dünya yuxuydumu?!
Ağsuda su qurudumu?
Göyçayda çay soğuldumu?
İstiqlalım doğulanda
boğuldumu?

* * *

Kəndləri yandırırdılar,
türkləri oddayırdılar.
Ayaqlayıb meyitləri,
üstündən
addayırdılar.
Dilimizi kəsirdilər, –
türk dilidi –
deyirdilər.
İnsan donu geyirdilər
bu vəhşilər –
insana bənzəmək üçün,
ya insanam demək üçün.

* * *

Türkün döyüş bayrağında
doğan Aya,
Hilala bax!
"Allah! Allah!" deyənlərin
gözlərində
suala bax!
Bu yürüşə, bu hücuma,
bu şanlı
cah-cəlala bax.
İgidlərin sırasında
"Hücum!" deyən
İgid gəlir.
Azərbaycan! Səndən ötrü
gör neçə min
Şəhid gəlir!
Türkdən doğulan türk gəlir:
Kərbəladan Kərkük gəlir.
İzmirdən, Sivaşdan gəlir.
Bakı odlar içindədi,
savaşa –
savaşdan gəlir.
- Mehmet!
- Mehmet! -
çağırırlar bir-birini.
Yerlər-göylər hifz eləsin
mehmetlərin
hər birini.
- Annəm! Annəm! – deyib gəlir.
Annəsini Türkiyədə
qoyub gəlir -

Azərbaycan anasının
köməyinə.
Sənə qurban, Paşam mənim,
sənin o türk
ürəyinə!

* * *

Türk sözüylə türk qılıncı
həmrəy oldu,
qarı düşmən.
Qalxdıq İslam Ordusunun
Azərbaycan səngərindən.
Türkiyədən Quran gəldi,
əzan gəldi.
Öz adını öz qanıyla
yazan gəldi.
Ankaradan, Ərzurumdan,
Ədirnədən,
Ədənədən,
O Vətəndən bu Vətənə.
Yaşa millət!
Yaşa vətən!
Beşikdə dil aça-aça
səngərdə
doğmalaşdılar.
Kayserilər,
ağdamlılar,
samsunlular,
ağdaşlılar.

* * *

Paşa balam,
sənin adın ordan gəlir.
Bu damara, o damardan,
bax, o qandan
bu qan gəlir.
Sən gələndə, Nuru Paşa,
sən yaşında,
cavan gəlir.
Nə qədər ki, sərhəd boyu
hədələyir,
bizi yağı;
nə qədər ki, almamışıq
Zəngəzuru,
Qarabağı;
nə qədər ki, yalan-böhtan
ayaq açıb
yeriyəcək;
nə qədər ki, qulaq səsdə,
göz yol üstə
çürüyəcək,
demə, harda doğulacaq
Nuru Paşa?!
Balkanlarda doğulacaq Nuru Paşa.
İstanbulda, Ankarada
doğulacaq
Nuru Paşa.
Bakı, Şirvan, Gəncə,
Qazax
vətənidi.
Hansı yerə bassa ayaq,
vətənidi.

Vətənində doğulacaq –
Nuru Paşa.
Yenə kəhər at belində
qayıdacaq
Nuru Paşa.
Yenə türkün bayrağını
qaldıracaq,
yenə türkün torpağını
qoruyacaq,
yenə türkün qılıncına
sığınacaq.
Ey türk oğlu,
haraylasan
onu nə vaxt, -
Nuru Paşa
doğulacaq,
doğulacaq,
doğulacaq,
elə o vaxt!

Türk can qoydu bu torpaqda
"Azərbaycan!"
deyə-deyə.
Tarix! Səni oxuyuram
mən türkə
"Can!" deyə-deyə.

*Bakı-Kayseri-Bakı.*
*Mart-aprel, 2009.*

# Qarabağdan gələn var...

*Bir səs qulağıma görün nə dedi: –*
***utanma,***
***inanma,***
***ərinmə** – dedi.*
*Həjatın sirləri bəlkə bundadı?!*
*İşı‹a tuşlanan k‰l…ə bundadı.*

***"...Qarabağdan gələn var..." poeması xalqla ədəbiyyatın, mənəviyyatın həmrəyliyinin yaradılmasına xidmət edir. Vətəndaş bir şair qələmindən çıxıb. Mənəviyyatımızın, ədəbiyyatımızın, tariximizin, vətəndaşlığımızın ölməzliyinə daha bir parlaq nümunədir.***

***...Əziz şair, siz bu əsərinizdə dediyiniz dərdlərin bir çoxunu hələ "Nəriman" poemasında demişdiniz...***

***...yaxşı ki, bu xalqın sizin kimi şairləri, ziyalıları da az deyil...***

***...Məmməd müəllim bağbanlıq etdiyi bağda tək teyil. O, 40 il məktəb direktoru işləmiş, Bakı müəllimlər qurultayında iştirak etmiş, indi isə xidmətçiliyə "layiq" görülmüş Səyyarəsinə baxanda da, Tuğ kəndinin adını yana-yana çəkəndə də, ağlayanda da, güləndə də... siz onun yanındasınız, Nəriman müəllim!***

***Vətəni veriblər, bağ istəyirlər,***
***bağbanın üstünə düşən kişilər...***

***...siz "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor olanda da Aqanbekyanın 1987-ci ildə Parisdə verdiyi müsahibəyə cavab olaraq akademik Ziya Bünyadovun cəsarətli məqaləsini cəsarətlə ilk dəfə siz çap etdiniz! Və bunun üstündə MK-ya çağrıldınız, "dərsinizi" aldınız. Ancaq yolunuzdan çəkinmədiniz... Axırda qazansınız nə oldu? İnfarkt oldunuz.***

***Və bu əsəri də həkimlərin qadağasına baxmayaraq, infarkt olduğunuz halda yazdınız. Özü də 3 günə. Birbaşa diktafona diktə etdiniz. Canlı İsaq-Musaq quşlarını görəndə susa bilməzdiniz. Susmadınız da...***

**Barat Vüsal**
***"Ədəbiyyat qəzeti",***
***23 sentyabr, 2005.***

*Mən %oz talejimi onun talejində …%orürəm.*
Şekspir

*Qaraba‹ın Tu‹ kəndində uzun illər müəllimlik etmiş Məmməd müəllim və həmin müddətdə məktəb direktoru vəzifəsində çalışan həjat joldaşı Səjjarə xanım hazırda 3№-li xəstəxanada (biri qapıçı-ba‹ban, o biri xidmətçi) işləjir. Hər ikisi ali təhsillidir. Qaçqındılar.*

Müəllif

## I

Hamı bir ba‹banın üstünə düşüb.

Dejirlər: Ba‹ nijə bu …ünə düşüb?
İŞTAR rəjin janmırmı, ot janıb …edir,
budaqlar baltasız budanıb …edir.
Nijə sulamırsan ba‹ı-ba‹çanı,
Ba‹bansan, bəs sənin insafın hanı?

Ba‹ban da qurujub,
                …ələn s%oz vurur,
bir şam a‹a‡ına s%ojkənib durur.
Ba‹a su lazımdı, o …uja bilmir,
zəmanə dəjişib, s%oz dejə bilmir.
Hərə %oz ba‹ına aparır suju,
hər təzə məhlədə təzə bir quju.
A‹a‡lar kəsilib çıxır dibindən,
dejirlər "bizimdi" jüz ilə bitən.

“Bizimki” olanı verib …əlmişik,
odu …‰zümüzlə …‰rüb …əlmişik.
Burda jer b‰lürlər, hasar tikirlər,
qəbristan jerində bazar tikirlər.
Vətəndə hər kəsin ajrı vətəni,
biri dilənçidi, biri “mədəni”.
Hasarı beş dəfə bojundan hündür,
biri, sa‹lı‹ında quju h‰rdürür.
Hasardan kənarda istehkam qurub,
bizim Azərbaj‡an əs…əri durub.
Biri vətənini qorujur, fəqət
o biri vətəndən qorunur əlbət.

Məmməd müəllimdi ba‹ı saxlajan,
iri darvazanı açıb-ba‹lajan.
Jüz illik şamlara xidmət eləjən,
…ələn xəstələrə h‰rmət eləjən.
Bilir ki, Baş həkim çox narahatdı,
-İşlərin ne‡ədi?
-Nijə, babatdı.
Qısa ‡avab verir Məmməd müəllim,
baxışı suallım, dili məsəllim.
Bu jaşda “ikin‡i ixtisas” alır,
“Qulfallah” oxujur, dəstəmaz alır.
İnsan ‰mür boju ‰mür istəjir,
müəllim arada başqa s‰z dejir.
Ömür istəjir ki, o Tu‹u …‰rsün,
istəmir “‡ənnətdə” qoltu‹u …‰rsün.
İstəjir bir dəfə ahıl jaşında,
…edib süfrə açsın bulaq başında,
Bir də dostlarına h‰rmət eləsin,
məni də Bakıdan dəvət eləsin.

Janında qajçısı, k‰hnə qəməsi,
çajı, çaj dəst…ahı, ç‰rək süfrəsi.
Qajış kəmərində ba‹ban mişarı,
əlləri a‹a‡da, …‰zü budaqda.
Durur darvazada ba‹ın açarı,
evinin açarı itibdi Tu‹da.
Tuta ‡alaq vurur, tənəji kəsir,
istirahət …ünü o zəhmət çəkir.
Arxı təmizləjir, ç‰r-ç‰pü jı‹ır,
indi də ç‰rəji bu ba‹dan çıxır.
Bir işdə jüz işin qulpundan tutur,
…ah ondan japışır, …ah bundan tutur.
„edib ordan alıb, burda satmajır,
‰zünü, ‰z…əni o, aldatmajır.
A‹ır davranışı, asta s‰hbəti,
nə ev-eşiji var, nə də səhhəti.
Elə bil bir ‡anda iki nəfərdi,
biri qürub ça‹ı, biri səhərdi.
Biri jol …‰zləjir, səfər üstədi,
biri son mənzilə jəhər üstədi.
Birini dindirsən, …‰rərsən …ülər,
birini dinləsən, janıb t‰külər.
Arabir ‰zündən ‰zünü danır,
nejləsin, dünjası çıra‹ban dejil.
Ba‹ı belləjəndə, bir az utanır,
dejir ki, o mənəm, o ba‹ban dejil.

Qaçqın – bir millətin …‰zündə jaşdı,
Zəmanə ən b‰jük hejkəltəraşdı.
Əsrin tələbidi hər jeni hejkəl,
üçrən…li bajraqda jeddi miljon əl.

Bir az danışdırdım mən bu hejkəli,
bojnubükük …‰rdüm, …‰zük‰l…əli.
İçində qov‹alar baş-başa jatır,
pərdəsi ‰rtülü bir tamaşadır.

– Bir …‰zəl uşaq var mələkdi, mələk,
elə ki, jaz …əlir, sızanaq t‰kür.
Tu‹un suju …ərək, havası …ərək,
burdakı havanı, suju …‰türmür.
„‰türüb qaçdıqca biz başımızı,
qaçırda bilmədik baş daşımızı.
Babalar torpa‹ı tapşırdı bizə,
…‰rəsən jurdsuza, ja vətənsizə,
çadırda ‰lənə rəhmət düşürmü,
birinin jadına Məmməd düşürmü?..

Ej şirin ləh‡əlim, ej qaçqın ellim,
s‰hbət arasında nəjdi bu fə‹an?
Dünən dərs dejirdin, Məmməd müəllim,
bu …ün müəllimə dəsr dejir Zaman.
Açıb kitabları varaqlajardın,
şa…irdi dindirib, qijmət qojardın.
Sən şa…ird olubsan, bu dərd – müəllim,
Zaman qijmət qojur, Məmməd müəllim.
Zəmanə jaxşını jamandan seçir,
həjatda var olan, jox ola bilməz.
Bir millət ojanıb hərbi marş keçir,
müəllim sırada jıxıla bilməz.
Bu dünja bilir ki, bu haqq joludur,
qoj jansın düşmənin m‰hnət içində.
Qəsbkar – torpa‹ın sahibi olmur,
o keşikçi olur bu dərd içində.

„ərək daş olasan, dəmir olasan,
daş-dəmir içində xəmir olasan.

„ərək jo‹rulanda xəmir olasan,
odda bişirsələr, ç‰ørək olasan.
Fəlsəfi məna ver sən adi s‰øzə,
dejirlər ç‰øp düşər qorunan …‰øzə.
Jerijən aja‹a jolda daş dəjər,
ən müdrik adamlar belə s‰øz dejər.
Müdrik olma‹ın da ‰øz a‹rısı var,
hər şeji …‰ørənin …‰øz a‹rısı var,
hər başa düşənin baş a‹rısı var,
bir də bu dünjada jaş a‹rısı var.
Jaşaja-jaşaja başa düşürsən,
başa düşəndə də işə düşürsən.
İşı‹a tuşlanan k‰øl…ə bundadı,
həjatın sirləri bəlkə bundadı?!

Qovsalar tələsmə, jüjürsən əjlən,
‰øzünə s‰øjkənib qalxma‹ı ‰øjrən.
Bir qo‡a …‰ørdü ki, dünjadan k‰øçür,
əziz dost, dost joxdu – s‰øjlədi, – heç ‡ür.
zünə …ülənin …‰ør nədir qəsdi:
üzün – üzü üzdü, astarı üzdü.
Aşa‹ı dejəndə, juxarı bojlan,
orda s‰øz alırlar burdakılardan.
Nəji dərk edirsə, inkar edən var,
inkar etdijini təkrar edən var.
Öjrən o quşdan ki, jemi dərd olub,
dimdiji jer eşir, …‰øzü d‰ørd olub.
Bir səs qulağıma görün nə dedi: –
**utanma,**
**inanma,**
**ərinmə** – dedi.
Həjatın sirləri bəlkə bundadı?!
İşı‹a tuşlanan k‰øl…ə bundadı.

Məni qabaqlajır Məmməd müəllim,
demə jaralıjmış o məndən betər.
Burda bu kişijlə tutur s‰hbətim,
x a s i j j ə -
t tutanda, hər şejə dəjər.
– Nəji var, el-oba …‰türüb qaçır,
juxusuz qalmaqdan …‰z ajışırdı.
Mal-qojun mələşir, itlər ulaşır,
qadınlar, uşaqlar qışqırışırdı.
Bir maşın d‰nmüşdü jolun içində,
…‰jdə fırlanırdı qoşa təkəri.
Bir bina uçmuşdu da‹ın d‰şündə,
qrad dolu kimi deşirdi jeri.

Bir qadın çaşmışdı o vurhavurda,
‡‰n…ə aparırdı əlində kəndir.
Mən dedim: aj ba‡ı, qoj onu burda,
‡anını qurtar ki, erməni …əlir.
Dedi: kənddə qaldı evim-eşijim,
elə bir ‡‰n…ədi bu varım-joxum.
Onu da o‹luma qurban demişəm,
əs…ərdi, sən…ərdə vuruşur o‹lum.
Qəfil nişan alıb bir vəhşi vurdu,
qurd hijləsiz dejil, ilan zəhərsiz.
Qurbanlıq aparan qurban olurdu,
vuruşan o‹lundan xəbər-ətərsiz.
Qurulu ev-eşik, barlı ba‹-ba‹at,
ermənijə qaldı bizdən “amanat”.

Dolan buludlara d‰nür bir anlıq,
xırda püsələjir Məmməd müəllim.
*İSTAR*zündə-…‰zündə əminamanlıq,

içində mələjir Məmməd müəllim.

– Nə jaxşı qır‹ına ara verdilər,
…‰r neçə kürəji jerə verdilər.
Daha ‡avanların mejidi …əlmir,
şəhidin janında şahidi …əlmir.
Nə qədər …əlin var, indi dul qalıb,
jüz şəhid o‹uldan bir o‹ul qalıb.
Tankları davadan …ətirirdilər,
şəhərə ‰lüm, qan …ətirirdilər.
Vəzifə üstündə didişha-didiş,
jaralı jerimiz demə bu imiş.
Çoxu istəjirdi burda şah olsun,
Bakı da ikin‡i Qaraba‹ olsun.
Amma düz dejiblər, bir jana baxsan,
donuzu darıdan …ərək qovasan.
Namərd bəs eləmir, "bəsdi!" deməklə,
tojuq da …etmir heç "kiş" eləməklə.

Bu a‹ır s‰hbətdi, Məmməd müəllim,
‰zü jıxılanı ‰zündən soruş.
Sənin çəkdijini mən indi bildim,
mənim çəkdijimi barı sən soruş.
Bəzən a‡ıjıram düzü, bir şejə,
indi qapı-qapı ehtija‡ …əzir.
Bir ha‡ı on dəfə …edir Məkkəjə,
bir ha‡ı dalın‡a neçə a‡ …əzir.
Artır var hərisi, d‰vlət hərisi,
tarixə ləkədi, torpa‹a jamaq.
Erməni dı‹alar qırırdı bizi,
müsəlman dı‹alar qojmur jaşajaq.
Hajana baxıram, hamı pul sajır,
nə qaçqın sajan var, nə h‰rmət-izzət.

†ibləri dolanın …‰zü dojmajır,
bəs elm,
            bəs təhsil,
                        bəs mədənijjət?!
Hansı müəllimə h‰rmət ola‡aq,
uşaqlar bu alver jolilə …etsə?
Siniflər bəlkə də tam boşala‡aq,
məhbəslər dola‡aq bu, belə …etsə.

Qaraba‹ mənim də juxuma …irir,
…etdi haq jolunda ərlər-ərənlər.
Erməni Şuşada kilsə tikdirir,
Bakıda pul səpir toja …ələnlər.
Bakı m‰‡üzəli bir şəhərdi ki,
həmişə dildədi, həmişə …‰zdə.
Xari‡i maşınlar o qədərdi ki,
xari‡i bajraqlar çatışmır üstə.
Joxdu bizimkijlə ‰z…əni seçən,
o …‰jdən enibdi, bu Ajdan …əlir.
Bilmirsən səfirdi maşında keçən,
joxsa alverçidi, Dubajdan …əlir.
Baxıb qurujuram hejrət içində,
millət axtarıram millət içində.

Millət də seçilir, Məmməd müəllim,
səninki olsa da, o səndən dejil,
vətəndə do‹ulub, vətəndən dejil,
adam lap kiçilir, Məmməd müəllim.

– Biz həsrət qalmışıq evə-eşijə,
burda ad qojurlar itə-pişijə.
Xari‡dən jeməji-içməji …əlir,
adamın ‰lkədən k‰çməji …əlir.

Dejən bizimkidi, ‰z…əsi dejil,
jəqin reklam üçün bir az pul …əlir.
Bura ledilərin ‰lkəsi dejil,
Qərbdən Şərqə tərəf neçə qol …əlir.

Biz də it …‰rmüşük, pişik …‰rmüşük,
…‰rdüjümüz şejdə işıq …‰rmüşük.
Onların ajrı‡a jeri olubdu,
itə jal veriblər, pişijə tikə.
Pişik dəjirmanda dən qorujubdu,
it ‡anavar basıb tər t‰kə-t‰kə.
Şahdan üstün olub it sədaqəti,
b‰jük Nizaminin bujdu hikməti.

Dünən oxumuşam,
                    bir mü‹ənnimiz,
jubilej keçirdir ‰z pişijinə.
„edib çadırları …əzəjdi dərdsiz,
baxajdı qaçqının "ev-eşijinə".

Jəqin o mə‡lisdə mü‹ənni qoçaq,
pişijin dilində mijoldaja‡aq.
Bilmirəm, insana nə pislik olub,
nijə bu a‹rıja d‰zür təbiət.
Bəlkə qanımızda naqislik olub,
mənəvi çürüjür bəlkə ‡əmijjət?!
„izlədə bilmədim mən bu xiffəti,
nə dejim, bəlkə də bir …ilej olur.
Azadlıq, əslində mədənijjətdi,
Azadlıq qazanan ‡avabdeh olur.

Baxıram: müəllim, qaçqın, vətəndaş! –
k‰hnə dostum kimi, sa‹ əlim kimi.
Vətən deməjəjdi bəziləri kaş,
vətəndaş olajdı müəllim kimi.

Mənim İstiqlalım dərd olub mənə,
insana qajnajıb-qarışmaq …ərək.
İstiqlal qazanan ‰lkədə, jenə
İstiqlal u‹runda vuruşmaq …ərək.

– Düz qırx il tarixdən mən dərs keçmişəm,
keçdijim jolları sərbəst keçmişəm.
Orda keçmişimə o sahib çıxır,
jol keçən …‰rəndə, müsahib çıxır.
Çoxdu şairləri, elm adamları,
əli qələm tutan “erməni” jazır.
“İtir” ələ keçən əljazmaları,
“müsəlman” oxujan, “erməni” jazır.
Məxəzlər oxudum mən qana-qana,
jazılar …‰rmüşəm Alban dilində.
Tarix kitablarım qalsın bir jana,
tariximiz qaldı düşmən əlində.
Azıx ma‹arası, Alban kilsəsi,
daşa d‰nənlərin daş dəbilqəsi.

„edib juxularda kəndə baxıram,
jol …edən …‰rürəm, jolda tələsmir.
Məktəbə dəjirəm, evə qalxıram,
juxuda erməni qaba‹ı kəsmir.
Tu‹un adını çək, unutma bizi,
ulu babaların varisi bizik.
Danır ermənilər tariximizi,
danılan tarixin jarısı bizik.
Mən orda ba‹ saldım,
                    orda jaşajan
apardı mejvəmdən, dərdi …ülümdən.
Burda dejirlər ki, …uja naşıjam,
bir ba‹ı be‡ərmək …əlmir əlimdən.
Zor ilə, …ü‡ ilə sifariş olmur,
kübrəsiz, pejinsiz ba‹da iş olmur.

Çox çəkdim torpa‹ın əzijjətini,
əlimdən …ələnlər …‰zümdən …əlir.
Nə bu ba‹ dəjişir xasijjətini,
nə ba‹ban bu ba‹a ‰jrəşə bilir.

nvanım – Neftçilər jataqxanası,
Orda jaşajırıq qaçıb …ələndən.
Bir otaq veriblər, bir quş juvası,
elə ikimizik, Səjjarəjlə mən.
Bu dünja onsuz da müvəqqətidi,
o da – müvəqqəti jaşajış jeri.
Tu‹da ba‹ladı‹ı saat itibdi,
qalır biləjində o qajış jeri.
– Bizi Şüvəlanda jerli ‡amaat
‰z qohumu kimi çəkdi d‰şünə.
„üzəran qururuq jenə bir babat,
biz də jarajırıq kəndin işinə.
Ajrılıq çəkirik …‰r nə zamandı, –
o evə, eşijə biz jad olalı.
Bir tikə ç‰rəji tapmaq asandı,
azadlıq tapmırıq, azad olalı.
Hələ ki, ‡anımız sa‹-salamatdı,
imtahana çəkir hələ vəzijjət.
Jaşlı nəsilinki mənəvijjatdı, –
o da bizim kimi k‰hnəlir əlbət.

Allah – bəndəsinə bu zülmü qıjmaz,
açıb buraxmazlar ‰küzü jolda.
Ölkə başçısı var, o belə qojmaz,
o jollarda qalıb, biz …‰zü jolda.

Dünja xəbər tutur səs-sora‹ından,
kəsir qaba‹ını ‰lüm də, qan da.
O da qaçqın düşüb iş ota‹ından,
o da qajıda‡aq biz qajıdanda.

Məmməd müəllimə hejran qalıram,
s‰zündə h‰rmət var, səsində qüvvət.
Mənə təsəllidir ondakı inam,
ürək də ürəji eşidir əlbət.
Daş daşa s‰jkənsə, daş divar olar,
daş şikəst eləjər aja‹a düşsə.
Jol …etsən, jol uzaq, dünja dar olar,
keçinin axsa‹ı qaba‹a düşsə.

Jaş …əlib jetişdi əllijə, jüzə,
dojduq jabıların kişnəməsindən.
Vətəndə istedad …‰zdən düşürsə,
…ülən məddah olur, a‹lajan vətən.
Dünən Bəxtijara b‰htan dedilər,
şikəst elədilər Məmməd Arazı.
Mənim talejimə uzandı əllər,
kimijdi? – toxların a‡ mafijası.
Mənim dedijimi mənsiz dejirdi,
bir çu‹ul jozurdu qul ləh‡əsində.
Dildən dərs dejənlər kəkələjirdi,
xırda qəzetlərin səhifəsində.
„‰zümdə od …‰rdüm, başımda tüstü,
içimə saldıq‡a dərdi, qubarı.
stümə hürdülər …ünorta üstü,
qula‹ı kəsilmiş əl tulaları.
Mən susdum, dedim ki, bir vaxt ola‡aq,
kürsüjə qalxa‡aq həqiqət ‰zü.
Bilmədim ürəjim infarkt ola‡aq,
infarktdan jatırmış ‡əmijjət ‰zü.
„edin, tərifləjin bir-birinizi,
mən bir ‰mür sürdüm, siz sürün iki.
Satın ‰lünüzü və dirinizi,
BAZAR sizinkidir, VƏTƏN mənimki.

## II

Müəllim …‰rür ki, mən fikirdəjəm,
xəjalım uçubdu, ‰züm jerdəjəm,
Mənə bir qadını o nişan verir,
əvvəlki s‰hbətə təzə ‡an verir.

– Odur, o tərəfdə həjat joldaşım,
ot-alaq toplajır jerdən o …ündə.
Onun barəsində mən nə danışım,
məktəb müdirijdi Tu‹un ‰zündə.
Burda da bu düşdü onun pajına,
o mənə həjandı, mən ona həjan.
Bakı müəllimlər qurultajına
dəvət olunmuşdu hələ o zaman.
Onda …‰rəjdiniz …ərək bu qızı,
hamı tanıjırdı bu Tu‹lu qızı.
O zaman... müəllim dəjişir valı,
o təhqir olubdu qaçqın olalı.

– „əlib maaşımı soruşur naşı,
dejir arvadıyın jaşı neçədi?
Kişidən maaşı, qadından jaşı
soruşan nə bilim, nə qulbeçədi?!

Bəzən ça‹ırıram:
– Səjjarə!
– Məmməd!
O da mənə …‰rə darıxır əlbət.
Bu ba‹da biz İsaq-Musaq quşujuq,
amma mahnımızı lal oxumuşuq.

Qaçqının …ününü mən belə …‰rdüm,
millət ajnasında qəbilə …‰rdüm.
„edib qisasını o almajın‡a,
düşmənin jurduna od salmajın‡a,
taraz jerisə də, o natarazdı,
‰zündən ‰zünə bir etirazdı.

Səyyarə dajanıb jol qıra‹ında,
t‰külür şamların ijnə jarpa‹ı.
Süpür…ə solunda, dırmıq sa‹ında,
çəhrajı tül ‰rtür qara torpa‹ı.
„‰rünür kənarda əl arabası,
nə jazım,
məlumdu mən‡ə sonrası.

Kimsə papiros çəkib,
k‰tükləri jerdədi.
Qəzet ‡ırıb atıblar,
son xəbəri jerdədi.
Dəmir qutu …‰rünür,
üstü reklam, içi boş.

Burda da …‰rünürsən,
anan ‰lsün, a sərxoş!
„edib bir-bir d‰şürür,
əjilir hərəsinə,
doldurur vedrəsinə.
Süründük‡ə k‰l…əsi, –
köl…əsijlə süpürür,
kirpijilə süpürür,
nəfəsijlə süpürür.
✳İŞTARrəklərə təravət,
…‰zlərə işıq verir.

İtib ‰z jaraşı‹ı,
ba‹a jaraşıq verir.
Səliqə-sahman verir,
dərd alıb, dərman verir.

Birdən qanrılıb baxır,
qurujur hejrətindən.
Qumruların jerişi
jajınmır diqqətindən.
Oxujur Qaratojuq,
bülbülün ləh‡əsilə,
mat qojur ‡əh-‡əhilə.
Qızıl…ül q‰nçələnib,
‰tə bilmir janından.
Aja‹ı "…edək" dejir,
ürəji dejir "dajan".
Bir dildə, bir a‹ızda:
iki rəj, iki fikir.
O, xidmət eləsə də,
"xidmətçi" ola bilmir.

Paltarını dəjişdi,
ba‡ım, sənin talejin.
*İŞTAR rəjini dəjişə
bilmədi fəqət sənin.
Zaman aldı əlindən
Qaraba‹da Tu‹unu.
Lakin ala bilmədi
bu hissini, duj‹unu.
Ba‹, …‰zəllik, ot-alaq...
…‰r nəjlə qarşılaşdın.
Birinə ürək açdın,
birinə ətək açdın.

Ba‹a xadimlər …əlir,
nə bilsin kimlər …əlir.
H‰kumət maşınları,
məşhur həkimlər …əlir.
„ələnlər ba‹a baxır,
eh, ona nijə baxsın.
Qojma, müəlliməni
d‰nüb …erijə baxsın.
„‰rər ‰zü-‰zünü
ürəjində çat qalar.
Tanıdı‹ı qadını
tanımaz o, mat qalar.

Müdirdən – xidmətçijə,
demə, bir addım imiş.
Bu hansı xidmətçidi?
O hansı qadın imiş?!

Bir …‰zü məktəbin o zən… səsində,
bir …‰zü işıqlı sinifdə qaldı.
Qırx illik müəllim tə‡rübəsində
nə dərsə …e‡ikdi, nə evdə qaldı.
Hanı əjin-başı, palı-paltarı?
„ejdi kənd içində, rajon içində.
Dünjanın əzəlki axar-baxarı,
…‰r ne‡ə dəjişdi bir an içində.

Amma bir xidməti ona z‰vq verir,
ba‹da süfrə açır kənd adətilə.
Məmməd müəllimə x‰rək …ətirir,
jaşajır əvvəlki nəzakətilə.

Müəllim qalmajır zarafatından:
– Nə dadlı x‰rəkdi.
– Nuş olsun ‡ana.
– Bir az istiotu çıxıb jadından.
– skümə bükmüşəm.
– „əl bəri, dajna!
Jenə ç‰rək kəsir, jenə çaj süzür,
…‰zündən oxunur qadın ülfəti.
Jenə o s‰hbəti, o …ülər üzü,
jaşa, ej ailə münasibəti!

„‰ründü …‰zümə qadın hejkəli,
…‰z nurdan düşəndə, o məşəl tutur.
Dünjadan qopanda kişinin əli,
qadın əsa olur, ona əl tutur.
Dinlə ‰mür boju o do‹ma səsi,
səmtinə s‰z desən, …edəndi qadın.
Qadınsız qalanda, vətən nejləsin,
vətənsiz qalanda, vətəndi qadın.
Bir də talejiniz xəzan …‰rməsin,
həjatda deməjin bir də "nejləjim?!"
Ba‹da qumru kimi siz qoşa …əzin,
bu da bir taledi, Məmməd müəllim.

Mən də janıqlıjam qadın sarıdan,
k‰zərir sinəmdə hələ bu o‡aq.
Evin bəzəjini …‰rdüm o zaman,
evi bəzəjəni …‰rmədim an‡aq.
Bir səhvin zərbəsi neçə iz qojur,
…əz Araz aşa‹ı, axtar Kür boju.
Jaş ‰tür, ‡an düşür, bədən qurujur,
…‰z jaşı qurumur bir ‰mür boju.
Düz on bir il keçdi, jaralı k‰nlüm,
fələjin bor‡una ‰dəndi ‰mür.

Qadınsız bir evdə, mən sonra …‰rdüm,
“qadın” dejə-dejə jaşamaq olmur.

Qonşuda vuruldu a‹birçək qadın,
d‰zdü a‹rılara bir kişi kimi.
Ərinin …‰zündə şimşək ojnadı,
jaş t‰kdü bir lejsan ja‹ışı kimi.
Mən uşaq …‰rmüşdum, anadan ajrı
jerdə bükülmüşdü bir jumaq kimi.
Kişi …‰rməmişdim, qadından ajrı
h‰nkürüb a‹lasın o uşaq kimi.
Sonradan …etdi ki, dursun pusquda
qisas istəjirdi qanıjla jusun.
Sa‹dısa, salamat qajıtsın o da,
‰lübsə, qoj jeri behiştlik olsun.
Kimsə dejibdi ki, kişi a‹lamaz,
hanı …ülə-…ülə ‰lən kişilər?
Arvadı itirən kişini dujmaz,
arvadı janında olan kişilər.

Bir ‰zünə baxdı, bir də ərinə,
səsində sızladı eşqi, həsrəti.
„‰rdü şair …əlib …‰rüşə jenə,
şairdən başladı o da s‰hbəti.
– Müşfiq də …əzibdi bizim da‹ları,
janında erməni jazıçıları.
Tatul Hurjan idi, Markar Davtjan,
adları jadımda qalıb o vaxtdan.
Şəklini …‰rmüşdüm.
Kənddə …‰rəndə,
birin‡i tanıdım Müşfiqi mən də.
Adımı soruşdu …ülümsəjərək,
dedim: Səjjarədi, dedi: mübarək.

Dedi: səjjarədi bütün kəhkəşan,
onlar …‰j qızıdı, sən jer qızısan.
Bildinmi, adıjın mənası nəjmiş?
Müşfiqin ‰zü də bir m‰‡üzəjmiş.
Atam ad vermişdi mənə dünjada,
Müşfiq məna verdi sonra bu ada.
Qaldı ürəjimdə bir insan kimi.
Sonra eşitdim ki, qajıdan kimi
Müşfiqi tutublar, xalq düşmənijmiş,
amma demədilər …ünahı nəjmiş.
Tatul Hurjan ilə Markar Davtjan,
salamat çıxmışdı o vurhavurdan.
Hamımız mat qaldıq onda Müşfiqə,
dedik …‰zə …əldi o sinədəftər.
Dojun‡a əl çaldıq onda Müşfiqə,
qojnumuzda qaldı sonra o əllər.
Fəxrimiz olanı d‰vlət qojmadı,
fəxrimiz olmajan fəxri ad aldı.
†amaat ‰zü də bir haja düşdü,
ortabab şairlər ortaja düşdü.

Eşit bu s‰hbəti, bu sadə qəlbi,
ej həjat aşiqi, həjatda saflaş.
Bizə a‹ıl verən “a‹ıl sahibi”,
sənin ürəjini oxujajdı kaş.

Müəllim qapıda …‰zətçi olub,
dünənki qəssabı qorujur polis.
Məktəb direktoru xidmətçi olub,
fatihə oxujur çadırda artist.

Xahişə …edirsən, qojub qaçırlar,
bir aqil a‹lajır, jüz nadan baxır.

Meşədə qar‹alar qarıldaşırlar,
bülbüllər qısılıb kənardan baxır.

"Spiker", "Kommersant", "Eksklüziv"...
dilçilər, dilimiz bir babat olur.
Nizami †əfərov* hardadı, dejin,
çürüjüb a‹ızda s‰z bojat olur.
Millət unudulur, millət dedik‡ə,
arxaik s‰zlərə nəqərat olur.
Rusdan in…ilisə keçir uşaqlar,
dəjməjin, başları "salamat olur".

Jəqin dərsimizi düz veribdilər,
‡əsarət olmamış, ehtijat olur.
D‰jüb sinəsinə natiq ‡oşmasın,
tək səbir …ələndə, narahat olur.

Dajan qaba‹ımda, a mehribanım,
əlində süpür…ə, d‰şündə ‰nlük.
Sənə xanım dejim, Səjjarə xanım,
sən jox, Vaxt utansın, bu üzüd‰nük!
Səni Müşfiq …‰rüb, sənə ‡an dejib,
jer dejib, …‰j dejib, kəhkəşan dejib.
Səni tale …‰rüb, qısqanıb ona,
qəmlə sevin‡ini şərik veribdi.
Sən hansı paltarı …ejsən də, sınma,
sənin qijmətini Müşfiq veribdi.

---

* „‰rkəmli dilçi alim *(müəllif)*.

– „‰züm jolda qalıb o vaxtdan bəri,
o məktəb, o sinif, o zən… səsləri
dərsə ça‹ırardı qabaqlar məni,
qisasa ça‹ırır xejli var məni.
Mən …etsəm ‡əbhəjə, məni kim qınar,
ürəjim …‰jnəjir o torpaq üçün.
„e‡əni – a‹ saçım işıqlandırar,
sən…ərdən-sən…ərə jol tapmaq üçün.
Biz orda dərs dedik mənəvijjatdan,
zorla ajırdılar bizi həjatdan.
Bizim proqramda ‰lüm olmadı,
qəddarlıq olmadı, zülüm olmadı.
Torpa‹ı zəbt etmək dərsi keçmədik,
qonşunu ‰ldürmək dərsi keçmədik.
Erməni tutanda burnunu kəsmək,
bir xançal …ü‡üjlə bojnunu üzmək,
qızlara sataşıb, qarnını deşmək,
erməni qanını tojlarda içmək
bizim qanunlarda bu, jasaq oldu,
xalqı talamaqdan xalq uzaq oldu.

Kirpijin titrəjir, Məmməd müəllim,
…‰rürəm, …‰zündə əsən küləkdi.
– Mən hardan başlajım, hansını dejim,
elə nə zamandı, peşəm deməkdi.

„əlib şa…irdlərim …‰rürlər məni,
düzdür ki, hər h‰kmü bir zaman verir.
Suala tuturlar nə qədər məni,
müəllim şa…irdə imtahan verir.

Burda müəllimə darıxır hərdən,
bir sürmə çəkibdi …‰zünə nis…il.
Ot-alaq axtarmır əjilib jerdən,
kəndə jol axtarır orda elə bil.

Bilirəm, qazılan quju dərindi,
mən ona demirəm, desəm, a‹rıdar.
Dejirəm, darıxma, Allah kərimdi,
dünjanın düz vaxtı jenə qajıdar.

Bizə nə olub ki, Allaha şükür,
…edib dərs dejərik jenə ikimiz.
Uza‹a bojlanıb, bojnunu bükür,
məni dinləsə də səssiz-səmirsiz.

Xiffət çəkdijini ‰zü də danmır,
susur a‹lı kəsib, …‰zü …‰rsə də.
Qadınlar müdrikdi, s‰zə inanmır,
kişilər nə qədər a‹ıl versə də.

Salıb ürəjinə ba‹ın dərdini,
burda mən …‰rürəm o qəhər çəkir.
Dilinə …ətirmir Tu‹un dərdini,
qadın dərdini də kişilər çəkir.

Da‹lar bürünürdü dumana, sisə,
şamlar buda‹ını üstə əjirdi.
Müəllim astadan nə dejirdisə,
başıjla mənalı təsdiqləjirdi.

– Aj a‹ır ellərim, aj ata jurdum,
orda sən ajrısan, burda mən ajrı.
Jenə sujun axıb, otun bitirmi,
o jerlər ne‡ədi, bu jerdən ajrı?

Qaldı haramıja o ba‹ jerimiz,
o jajlaq jerimiz, o da‹ jerimiz.
S‰ndü qaladı‹ım o‡aq jerimiz,
orda nəjim qaldı küllərdən ajrı.

Baxtımız bu əldən o ələ düşdü,
işimiz …etdik‡ə …et-…ələ düşdü.
El eldən ajrıldı, jüz elə düşdü,
mən burda nejləjim ellərdən ajrı?

Sabah desələr ki, …edirik jenə,
o …ünün səhəri səfərbər ollam.
Mən silah …‰türrəm bel əvəzinə,
mən mülkü paltarda bir əs…ər ollam.
Orda xəstə …‰rsəm, xidmətçi ollam,
orda d‰jüş …etsə, bələdçi ollam.
Orda ba‹ salsalar, mən ba‹ban ollam,
orda hünər vaxtı qəhrəman ollam.
Şəhid olanlara əvəz olaram,
orda mən ‰lərəm, ‰lməz olaram.

Tu‹dan uzaqlarda o səs-sədajdı,
bir …‰zü qapıda, darvazadajdı,
hər qapı açanda, ürək açırdı, -
şəfa qajna‹ına, o ba‹ jerinə.
Biri ça‹ırsajdı, qalxıb qaçırdı
a‹saqqal jerinə, uşaq jerinə.

Jenə danlajırlar, jenə dejirlər,
baxır o …‰zlərə …‰zündə məhşər.
Vətəni veriblər,
ba‹ istəjirlər
ba‹banın üstünə düşən kişilər.

Kül altda od jatır, o‡aq-o‡aqdı,
dejin, janılmasın kül …‰rən olsa.
Od jenə k‰zərib alışa‡aqdı,
o külü bir bala üfürən olsa.

İndi heç bilmirəm Məmməd müəllim,
sənin …‰rüşünə mən ne‡ə …əldim.
Sən ne‡ə danışdın bu dərdi mənə
bu dərdi Allahmı …‰ndərdi mənə.

*İŞTARrəjin nə qədər …‰r həssas imiş,
alın jazısıdır bəlkə bu qismət.
İnfarktdan jatdı‹ım burda az imiş,
üstəlik dərd verdi mənə təbiət.

*1997*

# Qafqaz

*...O‡a‹ımız s‰nə bilməz,*
*bajra‹ımız enə bilməz,*
*sən…ərimiz uça bilməz,*
*qaçqınların qaçan jeri joxdu daha,*
*qaça bilməz!*
*Bir sən…ərə sı‹ar Qafqaz,*
*bir tabuta fəqət sı‹maz!*

*"Qafqaz ‰zünün ümumdünja-tarixi*
*əhəmijjətini bir daha nümajiş etdirdi.*
*İran və junan istilaları kimi, Roma*
*jürüşlərinə də burada son qojuldu".*

T.Mommzen

Qafqaz mənim ə‡dadımın vətənidi,
əzabımın, fərjadımın vətənidi,
‰lənimin, itənimin vətənidi.
Qafqaz mənim vətənimin vətənidi.
Tarixini xışla jazdı torpaq üstə.
A‹ çalmalı bir əs…ərdi ulu Qafqaz,
dajanıbdı ajaq üstə
San‡ılıbdı bajraq kimi – da‹-da‹ üstə.
Şimşəklərin, pələn…lərin ‰z adı var, ‰z adəti,
bir də Qafqaz təbiəti.
Bən‰vşənin bojnubükük xasijjəti,
burda da bir qədim Qafqaz təbiəti.
Prometejdən Şamilədək s‰zü büt‰v, andı qəti.
Bu da Qafqaz təbiəti.

Qafqazlıjam dejə bilməz filankəslər, –
o kəslər ki, Qaraba‹ı səndən istər, məndən istər.
Qafqazımdan Qafqaz istər, vətənimdən vətən istər.
Tə‡avüzdü hər nijjəti,
tə‡avüzkar ola bilməz bizim Qafqaz təbiəti.

İs…əndərdən üzü bəri,
Pompejlərin, Sezarların aja‹ının izi bəri.
Neçə dilin bir əzbəri!
Vətən oldu, məhbəs oldu Qafqaz mənə,
mən azadlıq istəjəndə, qəfəs oldu Qafqaz mənə.
Məhbusu mən, vətəndaşı mənəm onun,
bəlkə Fəxri Xijabanda itən daşı mənəm onun?!
„ülüstandan, Türkmənçajdan,
on birin‡i ordujadək,
beşijindən ata-baba jurdunadək
Qafqaz bojda daşıdılar, Qafqaz, səni,
Xəzər səni, Kürüm səni, Araz səni.
Sonra sərhəd, sonra sərhəd dirəkləri,
bu da Qafqaz hakiminin Qafqazdakı şah əsəri!

Qərbə, Şərqə saraj qurub, ev tikməji ‰jrədənlər,
Sonra …edib qaranquşdan juva tikmək ‰jrəndilər, –
meşələrə çəkildilər,
toxum kimi səpildilər, torpaq kimi əkildilər.
Əsir Qafqaz evdə Novruz bajramını qejd elədi,
Da‹da-daşda pen‡ər jı‹ıb, jemlik jedi.
Qazaja‹ı, quşəppəji, a‡ıtərə,
əli …‰jə a‹ız açdı, a‹zı jerə.
Ot içindən ot axtardı süfrəsinə,
analar ‰oz k‰orpəsinə
Qafqazda qan əmizdirdi d‰oşündən süd əvəzinə.
„‰ormədi bu a‡ıları, a‹rıları
rusun, farsın nə‡abətli xanımları,
Fransanın, İn…ilisin lediləri,
amma Qafqaz sovqatıjdı jedikləri.

Qafqazlılar,
Qafqazdakı azsajlılar
“quldur” oldu quldurların nəzərində,
mə‹rur oldu mə‹rurların nəzərində.
Jajda-qışda a‹ kürkü qar,
əlçatmajan, ünjetməjən sıldırımlar,
adi‡ə …‰j …urultusu, …‰jdə çaxan ildırımlar
vüqarını verdi ona, həjasını verdi ona,
qəzəbini, qisasını verdi ona.
Quldur dejil, i…id oldu, qoçaq oldu,
vətənpərvər o‹ulları vətənindən “qaçaq” oldu,
o‹lu ‰lən qəhrəmanın jandı ba‹rı o‡aq oldu,
jer partizan nərəsindən …e‡ə-…ündüz ojaq oldu.
Xalqlar jenə unutmajıb bu adəti,
bu da Qafqaz təbiəti.

Qanlı janvar Qaniçəndən jadi…ardı,
ona – ləkə, bizə – vətən jadi…ardı.
O şanlı …ün, o kin-qisas unudulmaz, Azərbaj‡an.
„‰r nə dejib qo‡a Qafqaz Azərbaj‡an:
qar nə qədər çox ja‹sa da, jaza qalmaz, Azərbaj‡an.

Jenə qanlı nikolajlar tériflənir,
atamanlar, ‡əld alajlar təriflənir.
Jermolovun, Paskeviçin xatirəsi əziz olub,
Qafqazı qan çana‹ına d‰ndərənlər təmiz olub.
İkibaşlı bir qartalın hikkəsilə,
qanunların ikibaşlı diqtəsilə
…izlədilir çeçenlərin sojqırımı məlumatı,
bu da b‰jük millətlərin “demokratik” hərəkatı.
Bu da Milad bajramının bir t‰hfəsi,
bu da İsa pej‹əmbərin t‰vsijəsi.

Küçələrdə itlər jejir rus …ən‡inin mejidini,
bir aj dejil təzə əs…ər paltarını …ejindiji.
Sonun‡u son xəbərlərin jarıb‰htan, ja qejbətdi,
Qafqaz, bu da azadlıqdan qazandı‹ın əsarətdi.

Aman qatil!
bu nə sirdi, danış bujur, –
mən adını çəkən kimi a‹zımda s‰z qan qoxujur.
Biz Allaha jalvararıq, xatırlajıb ululları,
k‰l…ə kimi ajaqlanır jerdə insan hüquqları.

Qo‡a tarix, ulu Qafqaz! Aç sinəmin jarasını,
mən deməsəm, kim dejə‡ək bu torpa‹ın a‹rısını.
Bir az jenə sıxlaşdırın çijinlərin sırasını.
Mən …‰rürəm bu rüz…arın, bu …edişin sonrasını.
Qır‹ın …edir, talan …edir, d‰jüş …edir,
dünjada jerdəjiş …edir.
Ərazimiz jad əllərdə, hələ ‰lüm qoxusu var,
sülh dejirik, ‡avabında müharibə qorxusu var.

Qafqaz o‹lu, vətən o‹lu, jaxşıları seç pisindən,
seç Qafqazın mərdlərini satqınından, xəbisindən,
vəzifəjə hərisindən.
Namussuzdan namusunu qoru bu …ün,
süfrəmizin ruzusunu qoru bu …ün.
O‡a‹ımız s‰nə bilməz,
bajra‹ımız enə bilməz,
sən…ərimiz uça bilməz,
qaçqınların qaçan jeri joxdu daha, qaça bilməz!
Bir sən…ərə sı‹ar Qafqaz,
bir tabuta fəqət sı‹maz!

*1995*

# Hadi və Əsgər

## ("Nəriman" poemasından)

***Düz on beş il bundan qabaq, "Vışka" qəzetinin səhifələrində çap olunmuş kiçik bir məlumatı indi də xoş təəssüratla xatırlajıram: Şair N.Həsənzadə ... Nəriman Nərimanov haqqında poema üzərində işləjir.***

***N.Həsənzadə o vaxtlar universitetin aspiranturasında oxujurdu, istedadlı şair kimi tanınmışdı. 5-6 kitabı çap olunmuşdu. Universitetdə poezija dərnəjinə rəhbərlik edirdi.***

***Sonra mətbuatda parçalar çap olundu. "Nəriman" poemasından bu parçalar çap olunmuş qəzetlər və jurnallar əldən-ələ keçdi... Poemanın ilk variantı nəşr edildi. İndi isə "Nəriman" poemasının daha da büt‰vləşdirilmiş və jenidən işlənmiş nəşri (ikin‡i nəşri) təzə‡ə açıb oxu‡uların qapısını.***

***Poemanın sonunda əsərin jazıldı‹ı tarix də …‰stərilib. Demə, müəllif qəzetdə həmin məlumat çap olunandan altı il qabaq başlajıbmış (Nəriman) poemasını işləməjə! Bu sanballı əsər ijirmi ilə başa …əlib.***

***...bu d‰vr i‡timai-sijasi …ər…inliklər və toqquşmalar d‰vrüdür, mübariz qəhrəmanlıqlar d‰vrüdür, dramatik-fa‡iəvi hadisələr d‰vrüdür.***

***...Müəllif həmin illərin daxili mübarizəsini və həjə‡anlarını uzun müddət həssaslıqla mənimsəmiş, "‰zümləşdirərək" həm forma, həm də məzmun baxımından jeni və son dərə‡ədə …ərəkli olan bir poema jaratmışdır. Əsərdə hadisələrin təsviri epik-lirik formanın sahillərini aşır, …ər…in dramaturji konfliktlər fonunda təqdim edilir. Təsadüfi dejildir ki, əsər epik-dramatik poema adlandırılmışdır...***

***..."Nəriman" poeması jalnız şair N.Həsənzadənin dejil, müasir Azərbaj‡an poezijasının ‡iddi nailijjətlərindəndir...***

***Şair poemanın ikin‡i nəşrinə jazdı‹ı kiçik müəllif s‰zünü bu sətirlərlə bitirir: "Mən... s‰zümü dedim. Bundan sonra, əziz oxu‡ular, s‰z sizindir". Biz‡ə, bu m‰vzu …ələ‡əkdə şairi jenə də rahat buraxmaja‡aq (İjirmi il bu m‰vzu üzərində işləjib mejdana samballı bir poema çıxarsa da!) Biz poemanın …ələ‡ək nəşrlərində də jeni parçalar və jeni fəsillərlə …‰rüşə‡əjik.***

**Hidayət**

***"Sovet Ermənistanı", 31 mart 1979-‡u il***

*"...Nəriman, onun yaşayıb-yaratdığı keşməkeşli dövr, mənalı həyatı, mübarizəsi iyirmi ilə yaxın bir vaxtdır ki, qəlbimdə yaşayır...*

*O böyük insanı xatırlayanda, istər-istəməz bizim Qarayazı meşəsinin ətəyində məğrur dayanan Poylu körpüsünü, orada ömrünün sonuna kimi fəhləlik eləyən atamı və gənc yaşlarından dul qalmış anamı yada salıram... Axı, Poylu körpüsü yandırılan ili N.Nərimanov oraya gedib, atam da onunla görüşüb partiya rəhbərinə bələdçilik etmişdir...*

*...görüşlərdə məndən tez-tez soruşurdular ki, necə olubdu mən bu poemanı yazmışam. Göründüyü kimi, Nərimana, onunla əlaqədar hadisələrə mənim qəlbimdə uşaqlıqdan məhəbbət oyatmışlar. Əlbəttə, buna görə birinci növbədə anama minnətdaram...*

*...Mən onun əlində 1 yaşında qalmışdım, mənə ali təhsil verdi, həyatı, insanı sevməyi öyrətdi...*

**Əzizim Nəriman, mehriban insan,**
**bir eşqi min canda yaşayan insan.**
**Poylu vağzalında –**
**yanğın vaxtı siz**
**deyirlər atamla görüşmüsünüz.**
**Atamın yoldaşı deyim mən sənə,**
**dostu ya qardaşı deyim mən sənə.**
**Əmimmi, dayımmı düşürsən mənim,**
**axır ki, payıma düşürsən mənim..."**

**N.Həsənzadə.**
***"Nəriman" poeması (2-ci nəşr) kitabından.***
**Bakı, "Yazıçı", 1978.**

*Azadlıq,*
*Azadlıq,*
*hm, hm... Azadlıq!*
*Azadlıq içində batdıq, qırıldıq.*
*Alman azadlı‹ı istemiyorum,*
*sultan azadlı‹ı istemijorum,*
*istemem in…ilis azadlı‹ını,*
*ja rusun aferis azadlı‹ını.*
*Mənim azadlı‹ım sanma ç‰rəkdir,*
*AZƏRBAJ†AN AZADLIĞI …ərəkdir.*

*Dedim şeytanə min rəhmət,*
*adəm övladı görən gündən.*
Məhəmməd Hadi

Bakı.
İjirmin‡i il.
Silah dolu maşınlar,
atlar, toplar, qoşunlar
səpələnib hər jana.

A‹ır toplarla …əlir
bahar Azərbaj‡ana.
Fəqət, saçı pərişan,
fikri dal‹ın bir insan
əllərində vərəqlər
jol üstündə dajanmış,
üzü mis kimi janmış.
„ələn qızıl əs…ərə
baxır xejli maraqlı,
baxır s‰zlü-soraqlı.

HADİ
İmzasını qojmuş miləl ‰vraqi həjata,
jox millətimin xətti bu imzalar içində!

ƏS„ƏR
Jox, dajanın, vuruşur vətənin o‹lu-qızı,
A‹ır batinkalarla jazırıq imzamızı.

HADİ
Hm, hm... sən buna bax, batinkalarla!
Tapdandı bu torpaq batinkalarla.
Hər onu …‰rdük‡ə jaram sızladı,
dedilər ki, Hadi a‹ılsızladı.
Mən onun u‡undan divanə oldum,
şer jazma‹ım da bəhanə oldu.
Bu mənim şerim,
andım,
məsləkim! –
satıram... ah, joxdur alanım mənim.

Bəlkə su çıxsajdı jerin dibindən,
ajaqlar altında qalmazdı vətən.
Neft mənim %olkəmə fəlakət oldu,
nə xejir, nə də ki, bərəkət oldu.
„əlmələr apardı, kimsəsiz olduq,
jandıran %oz…ələr, janan biz olduq.
Qulaq …ətirdilər kar olmaq üçün,
„%oz təklif etdilər kor olmaq üçün.
A‹ız …ətirdilər jumulmaq üçün,
a‹ız içində dil, lal olmaq üçün.
İllər jaman t%okdü qaş-qaba‹ını,
qurtara bilmədik qəm ilə jasdan.
An‡aq jüz illərlə jad bajra‹ını
asdıq bajramlarda %oz qapımızdan...

De, nijə susmusan, mə…ər daşmısan?
Vətəni satıblar m%ohtərəm o‹lan
bir az in…ilisə,
            bir az almana,
                        bir az italjana,
                                    bir az sultana.
Mənim şerlərim qalmışdı jalnız,
mən %ozüm satıram onu, alınız.

ƏS„ƏR
Tanıdım şairim, nədir m%ohnətin,
sən əziz o‹lusan bir məmləkətin.

HADİ
Hankı məmləkətin, hankı millətin?
varmı elə bir şej... sən nə s%ojlədin?!

Saldat, istəjirsə məni məmləkət,
de, nejçin səfillər padşahıjam?
Mənə …ülə‡əksən, dəlijəm, əvət,
jollara atılmış qara şahıjam.
Ha, ha... ha... səfillər padışahıjam.
H‰kmsüz,
          fərmansız,
                    imzasız,
                              adsız...
tək ‰züm tabejəm əmrimə jalnız.
Düşdü fərjadımla ahım da‹lara,
sədam jetişmədi kar qulaqlara.
Nə şerə, nə s‰zə h‰rmət etdilər,
bir şair …‰rəndə nifrət etdilər.
Ölü ürəklərdə həvəs …‰rmədim,
bir isti, bir do‹ma nəfəs …‰rmədim.

ƏS„ƏR
Şairim, vətənin ‰vladıjıq biz.

HADİ
Vətən ‰vladları a‡ da və işsiz!
Sahibsiz vətənin ‰vladı olmaq,
jetim olmaq kimi bir şejdir an‡aq.
Jaşamaq ‰zü də bir ‡ür xəjalat!
Məşhur “top allahı” bəs hanı, saldat?
M‰htərəm …eneral?
Dajan, bir... adı?..
†ənab Şıxlinski!
          Hm, tanımadın?

ƏS„ƏR
Bütün allahlarla qurtardıq tamam,



**Rəssam: *Elmas Hüseynov***



bir də ki, mən onu tanımamışam.

HADİ
Bu ki, lap a‹dır.
Hələ fəxr edijor... utanmaq …ərək.

ƏS„ƏR
Şairim, kim isə utana‡aqdır,
bir az vaxt …ərək.
Mətin addımlarla …əlir ordumuz,
azad nəfəs alsın ana jurdumuz.
Qoj sevin‡ bürüsün bütün ‰lkəni,
həvəsdən, ilhamdan salanlar səni
b‰jük stollardan salına‡aqdır,
xalqların qisası alına‡aqdır.

Azadlıq, azadlıq …əlir, şairim,
dünjaja bir şadlıq …əlir, şairim.
Sənin də ilhamın ‡oşub ça‹lasın,
indi dost sevinsin, düşmən a‹lasın.

HADİ
Saldat... dediklərin əski bir şüar,
Mənim jor‹un k‰nlüm rahatlıq arar.
Nədir əlindəki o qanlı silah?
Azadlıq qan üstə gəliyor, Allah!
Azadlıq,
Azadlıq,
hm, hm... Azadlıq!
Azadlıq içində batdıq, qırıldıq.
Alman azadlı‹ı istemiyorum,
sultan azadlı‹ı istemijorum,
istemem in…ilis azadlı‹ını,
ja rusun aferis azadlı‹ını.
Mənim azadlı‹ım sanma ç‰rəkdir,
AZƏRBAJ†AN AZADLIĞI …ərəkdir.

Əs…ər düşünür ki, qəribədir çox,
izləjir bəlkə də fəlakət onu.
B‰jük bir şairin talejinə bax,
pozmuşdur pozulmuş ‡əmijjət onu.

ƏS„ƏR
Şairim, silaha sarılmasaq biz,
azad olmaja‡aq jenə ‰lkəmiz.
Bir də ki, heç zaman jandım-‰ldümdən,
xejir …‰rməjibdi dünjada vətən.
Bu jolda halaldır axsa qanımız,
doktor Nərimanov, tanıjırsınız?

HADİ
Əvət, tanıjıram... doktor Nəriman.
Saldat, bir şerlə ne‡ədir aran?

Bu dəmdə sarsılıb jıxılır əs…ər,
bir …üllə şinelin deşir qolunu.
Silah əlindədir, ‰zü bir təhər
‡ırıb jajlı‹ını ba‹lajır onu.
„et, – dejir, – şairim, d‰jüşür vətən,
qəfil …üllələrə qurban olma sən.
Hadi fikirlərə qərq olub durur,
qəlbinin qəzəbi bejninə vurur.

HADİ
“Həjatın səsləri guşumda həp fərjad şəklində,
bu insanlar ki, qardaşdı və lakin jad şəklində.
Bu torpaq qanlı avlaqdı, bəşər səjjad şəklində,
ədavət daima vardı, məhəbbət ad şəklində.
Fərəhlər həbs olunmuş, hüznlər azad şəklində,
müsibətlər, bəlalar, qüssələr abad şəklində...”
Faqat, vuruşujor ‰lümlə həjat,
sən vurmaq isterken vuruldun, saldat!

Şair fikirdəjdi üzündə qubar,
sıxırdı qəlbində min kədər onu.
Əlindən düşürdü bir-bir varaqlar,
alıb aparırdı küləklər onu.
Şeri jarpaqlara qarışdırırdı,
divardan divara japışdırırdı.

Vuruşur mejdanda səadətlə kin,
varaqlar dejir ki, dəjişsin zaman.
Şeri d‰jüşlərə …edən şairin,
‰zü jol üstündə qalib pərişan...

*1958*

# Kimin sualı var?

## Epik-dramatik poema

***Xəlil Rza Ulutürk qələm dostu N.Həsənzadənin “Kimin sualı var?” əsərini oxuyarkən səmimi hisslərini elə ordaca, – kitabın demək olar ki, hər səhifəsində – “əla”, “yaşa!”, “5” , “ağladım” ifadələri ilə bildirmiş, hətta kitabın son vərəqlərinin ağ yerlərində müəllifə “məktub” da yazmışdır...***



Сағ ол, Нәримансымыз, әʼла
поема - милли шүур ҝүзҝү-
сү јаратмысан! Сән
Низамиси, Нәсимиси, Фү-
зулиси олан бөјүк пое-
зијанын әсил варисисән,
Сабир вә Ҹавидләрин, Вур-
ғун вә Шәһријар кими
дағларын давамчысысан.
Мән бу поемада Мүшфиги
инҹәлији, Рәсул Рза ҹәсур-
луғу вердим. Набат



КИТАБЫН ИЧИНДƏКИЛƏР

Чаваблы суаллар — *Нəби Хəзри* . . . . . . . 3
Əдалəтин гəфил тəклифи вə Илһамын изтираблары 6
Илһамын аспирантураја гəбул олунмасы вə Əдалəтин изтираблары . . . . . . . . . . . 20
Илһамын вə Əдалəтин ушаг бағчасында Агкүлə көрүшмəлəри . . . . . . . . . . . 37
Əдалəтин евлəнмəси вə Агкүнүн онун тојуна кəлмəси . . . . . . . . . . . . 61
Агкүнүн бағча мүдирəсинə мəктубу вə Əдалəтин е'тирафы . . . . . . . . . 81
Агкүнүн Илһама мəктубу вə Əдалəтин Илһамын көрүшүнə кəлмəси . . . . . . . . 100

*Oxuya-oxuya*

*cırlaşırıq biz,*
*filosof oluruq*
*biz görə-görə.*
*Kimsə könlü*
*sınıq, ürəyi qırıq,*



Редактору *Зулфугар Шаһсевəнли.*
Рəссамы *А. Һүсејнов.*
Бəдии редактору *И. Гулијев.*
Техники редактору *Х. Сəфəрова.*
Корректору *С. Мусајева.*
ИБ № 1574.
Јығылмаға верилмиш 20. 03. 84. Чапа имзаланмыш 24. 08. 84. ФГ 05183. Кағыз форматы 70×90 1/32. Мəтбəə кағызы № 1. Əдəби гарнитур. Јүксəк чап үсулу. Шəрти ч/в. 4,68+1 јап. шəкил. Рəнкли шəрти ч/в. 4,72. Учот нəшр. в. 5,0. Тиражы 7 000. Сифариш № 334. Гијмəти 95 гəп.
Азəрбајчан ССР Дөвлəт Нəшријјат Полиграфија вə Китаб Тичарəти Ишлəри Комитəси.
«Кəнчлик» нəшријјаты Бакы, Һүсү Һачыјев күчəси, 4.
26 Бакы комиссары адына мəтбəə, Бакы, Əли Бајрамов күчəси, 3.
Издательство «Гянджлик», Баку, ул. Г. Гаджиева, 4.
Типография им. 26-ти бакинских комиссаров, Баку, ул. Али Байрамова, 3.

*yaşayır bir ömrün ağrısı canda.*
*Beləcə*
*doğulub bəxt axtarırıq,*
*özümüz itirik bəxti tapanda.*

## *PROLOQ ƏVƏZİ*

Mənim sualım var,
cavab ver bu gün,
Mən axı, nə qədər
lal durmalıyam?!
İndi əlimi yox, —
görünmək üçün,
İndi mən —
səsimi qaldırmalıyam.

# *ƏDALƏTİN QƏFİL TƏKLİFİ VƏ İLHAMIN İZTİRABLARI*

## I

Fikir dar papaqdı, sıxır başımı,
təbiblik şey yoxdu,
dərman neyləsin.
Divana söykəndim çatıb qaşımı,
ürək narahatdı, divan neyləsin.

Yeridim, sandım ki, çəkələk deyil,
dəmirdən çəkmə var ayaqlarımda.
Bu dəm müdirimi gördüm elə bil,
eşitdim səsini qulaqlarımda:
"Mən razı deyiləm sənin işinlə,
yaz çıx ərizəni…
öz xahişinlə!"
Bəlkə mən haqsızam,
haqlıdı müdir,
bəlkə qələtimin başqa adı var.
Hardasa bir vergül yaxşı görünmür,
Hardasa bir defis əhvalatı var.

Soyuq yellər əsir onun səsində,
təhsil illərindən o hələ pərtdi.
Mən adi korrektor vəzifəsində
böyük görünmüşəm, —
bu, elə şərtdi.
Yazığı gəlincə sənə bir kəsin,
Qoy həsəd aparsın — bu məsləhətdi.
Kiçik stollarda — böyük neyləsin,
böyük stollarda kiçik — namərddi.

"Mən razı deyiləm sənin işinlə,
yaz çıx ərizəni…
öz xahişinlə!
Burda mən müdirəm, qərarım budur…"
On il bundan qabaq mənə dərs deyən,
sonra tanıdıqca, xətrimə dəyən
professorumun əziz oğludur.

Məndən inciməsin müəllimlərim,
bu ada əbədi bir hörmətim var.
Sizə şöhrət olsun qoy bu əsərim,
lakin danışmağa çox söhbətim var.

Ömrü uzun olur söz həyatının,
qızınsa ürəyin od nəfəsilə.
Mən ərsəyə çatdım
bir dul qadının
fəhlə evindəki tərbiyəsilə.
Yoldaş professor, deyərsən nədir,
niyə ayırırsan
bizi fəhlədən?
Sualın bəlkə də lap yerindədir,
amma sən ayırdın, öz oğlunu, sən.

**II**

Sinifdə həmişə sən dərsdən qabaq
— Kimin sualı var? —
bizə deyərdin.
O vaxt biz susardıq,
sən inciyərdin,
biz sual verməzdik, sinifdə ancaq,

deyərdik zamanın, əsrin səsiyik,
deyərdik, gör kimin tələbəsiyik.
Misallar gətirib tarixdən bizə,
dost kimi girərdin ürəyimizə.
Tarixə dönərdin,
"Ata" deyərdik,
səni oğlundan çox biz istəyərdik.
Hamıya vətənin oğlu deyərdin,
hörmətlə kürsündən baş da əyərdin.

Sənə oxşadardıq təmkinimizi,
oğlun o zaman da saymazdı bizi.
Onun hər ədası bizi əyərdi,
bizim ağzımızca kəkələyərdi.
Bundan zövq alardı, xoşallanardı,
İsmin hər halında
o hallanardı.
Biz elə bilirdik üçüncü kursdan,
qovdular əmrlə sənin oğlunu.
Bir zaman aldadıb atdığı qızdan,
xəbərin-ətərin necə?
Oldumu?!

Yazıq qız necə də soldu-saraldı,
özü uşaq ikən uşağa qaldı.
Yaxın qoymadınız ailənizə,
qorxdunuz,
əskiklik olardı sizə.
Alim adamsınız, ona da yalnız
bir alim qızını almalıydınız.
Onun da arxası söykənsin dağa,
getsin qabağa.
Sizə kiçik olsun, bizə də rəhbər,
aldığı arvada ərə gedənlər.

Biz fəhlə oğluyduq,
biz onda nəydik,
bir fəhlə qızıyla evlənməliydik.
Bizim də cəmiyyət arxamız oldu,
bir arzu, bir niyyət arxamız oldu.

Qızdan danışdılar bizə sonradan,
dedilər,
işləyir gedib o vaxtdan.
Hardasa, bir uşaq baxçasındadı,
qara gün o qızın ağ saçındadı.
O vaxtdan gizlədir,
adı qız qalıb,
uşaqlar içində uşaqsız qalıb.
İndi qəbristanda kiçik bir qəbir,
onun gedən yeri, gələn yeridir.

Kimsə "faciə"ni* nikbin sayıbdı,
qəhrəman ölübdü,
ağlamayıbdı.
Ölənə ağlamaq acizlik deyil,
amma professor, bu, sizlik deyil.

## III

Sən maşın alanda oğluna dünən,
Çit köynək tikirdi mənə
dul anam.
Oğluna ad günü düzəldəndə sən,
mən hələ bilmirdim necə dolanam.
Mənim fəhlə atam yox idi, bəli,
məni atalılar yetim sayırdı.

---

* Şair o vaxt dəbdə olan "Nikbin faciə" janrını nəzərdə tutur (*red.*).

Dünyada
qabarlı bir qadın əli,
mənim saçlarımı sığallayırdı.

Qoymurdu köksümü ötürüm bir dəm,
şirin çay verirdi pendirlə, yağla.
Lakin mən köksümü
çox ötürmüşəm
qışda da gəzmişəm yalınayaqla.

İydə tikanları batıb əlimə,
yamaqlı şalvarım bir də cırılmış.
O sıx meşələri sən elə bilmə,
gəzib-dolaşmışam mən qarış-qarış.

Bəzən  qəlb ağrımı duymadı heç kim,
sandım taleyimdi hər parlaq ulduz.
Uşaqlıq qazancım,
siz heç bilmədim,
hansı köynəyimə yamaq oldunuz.

**IV**

Ruhun inciməsin qoy,
əziz ata,
can ata!
Məni yaradan ata!
Sonra seçdim dünyada
ağı, qaradan, ata.
Utandım mən arabir;



**Rəssam:** ***Arif***



Həyatda öz içimdən
asıldım mən arabir:
yazanda
"fəhlə oğlu".
Gəldilər əlioxlu –
alim oğlu,
ədib oğlu,
katib oğlu,
rəis oldu,
si... lis oğlu
hakim oğlu
və kim… oğlu
qarşıma çıxdı, ata.
Mənim qürur hissimə
Qərəzlə baxdı, ata.
Dandılar
nüfuzumu,
ünvanımı,
adımı.
Ancaq dana bilmədi
heç kəs istedadımı.
Bu da mənə bəs oldu,
dünya dolu səs oldu,
ilhamım sönməz oldu.
Qəlbi,
ruhu codların,
bütün antipodların
darıxdım arasında.
Yaxşılar sırasında
yer seçdim mən özümə.
Öz imzam, adım oldu,
adım –
həyatım oldu.

**V**

Bir gün ac qalmadıq fəqət biz evdə,
razı yola saldıq gəlib-gedəni.
Bizim o kiçicik kişisiz evdə,
mənim
“kişi” anam böyütdü məni.

Çalışdı, əlləşdi axşama qədər,
qarışdı gözündə qış ilə bahar.
Qadınkən adına "kişi" dedilər,
gör nəylə fəxr etdi bizim analar.
Tərsinə!
İşə bax, hər şey tərsinə,
ona desəydilər:
"gözəl",
"tər sinə",
"mehriban",
"ya pəri",
"ya da gülyanaq"…
xətrinə dəyərdi,
dünyaya bir bax!
Gedib ağlayardı, təhqir sanardı,
yazıq öz-özünə ovsunlanardı.
Qulaq as sözümə,
                    əhlikef oğlan,
anan o günləri görməyib heç vaxt.
Ərsəyə çatsan da ayılmamısan,
gözlərin süzülür xumarlanaraq.

Mənim gəlin anam pis gün görərək,
idarə süpürdü,
                    ağrıdı beli.

Sənin xanım anan qonaqlıqlarda
özgəyə göz vurdu ərindən gizli.

Mənim gəlin anam pis gün görərək,
içindən çəksə də,
sınmadı üzdə.
sənin xanım anan boya sürtərək,
yüz yerdə əyildi dikdaban üstə.

Ərsiz –
dul anamın köz əllərini,
ocaqda yandırdı hər axşam-səhər.
Ərli anayınsa qız əllərini
öpdü... evinizə gələn kişilər.
Mən böyük olmuşam,
sən daim uşaq,
tərlan oylağında mən sar görmüşəm.
Sən qadın əlini zərif, yumuşaq,
mən qadın əlini qabar görmüşəm.

Burda bir söhbəti xatırlayıram,
bir gizli xiffəti xatırlayıram,
bir qəlbi köyrəyi xatırlayıram,
o dağı, göynəyi xatırlayıram:
"İki ulağımız var idi bizim,
piyada gedərdik,
yol uzanardı.
Birini minməyə qoymazdı əmim,
boğazım quruyar, dilim yanardı.
Səbrim tükənərdi, yol uzanardı.
Başımdan od töküb, məni əyərdi,
tale köməyini əsirgəyərdi".

Belə bir hekayət danışırdı o,
qanıma qaynayıb-qarışırdı o.

Daha zaman keçir,
                    daha yaş ötür,
nə qədər desəm də, bu gecdir artıq.
Sən mənə gülürsən, mən sənə, müdir,
qohum da olsaydıq, biz yad olardıq.
Şamın işığıyla,
günün şöləsi,
dərənin dibiylə,
dağın zirvəsi,
yaxud qabarlı əl,
boyalı dırnaq,
yəqin müqayisə olmayıb heç vaxt.
A müdir,
bir şeyə mat qalmışam mən,
bayaq deməmişəm, yadımdan çıxıb.
O boyda savadlı bir ailədən,
sən boyda oxumuş bir nadan çıxıb.

## VI

Gün buralara, kölgə dağlara!
Gün buralara, kölgə dağlara!
Üşüyəndə oxudum
bu nəğməni, ay müdir.
dinlədi dağlar məni,
daşlar məni, ay müdir!
Ayağımda  gön çarıq,
başımda papaq oldu,

çiynimdə çomaq oldu,
mənim üst köynəyimin
üstündə yamaq oldu.
Böyüklərtək düşündüm,
adımsa uşaq oldu.
sən boranda, qarda da,
bəzən köynəklə gəzdin.
çıxıb eynəklə gəzdin
Qışın keçdi
                yay kimi.
Sən içdin ayı, ili
hər gün şirinçay kimi.
Çəkdi evə dönməyin
ikiyə də,
                üçə də.
Maşınının işığı
Göründü hər küçədə.
Başın papaq görmədi,
çiynin çomaq görmədi,
Əynin yamaq görmədi.
Sənin həyat yolunu
bir günə keçmək olar.
Səninkinə bənzəmir
mənim keçdiyim yollar.
Görünən zirvələrə
dərədən baxmışam mən.
O yoldan dönüb, yenə
o yola çıxmışam mən.
Axtardığım itibdi,
mən gəzmişəm o ki var.
Sonra özüm itmişəm,
özümü axtarıblar.

Sən "büdrəmək" sözünü
eşitmisən həyatda.
Amma elə bilirsən
buz üstə olur o da.
Hələ çox qapılara
xoş gələrək,
ay müdir,
açdın öz evinizin
qapısıtək,
ay müdir.
Açmağa getdiyim
qapını bəzən,
örtülü görəndə
sevinmişəm mən.
Sözlər eşitmişəm,
təhnizli sözlər.
Sənsə çoxlarına
əziz olmusan.
Səni sevindirən,
Güldürən üzlər
məni qorxuzubdu,
ay müdir oğlan.

**VII**

Çağrış vərəqəni qaytardı atan,
sən əsgər getmədin, əhlikef oğlan.
Yaşımız bir oldu,
bəxtimiz ayrı,
eşqimiz,
qəlbimiz,
əhdimiz ayrı!

Əsgərlik davadan çətin ki deyil,
Vətən mənimkidir,
            səninki deyil!

## VIII

Onun nə imkanı, nə həvəsi var,
məni siz dinləyin,
tələbə dostlar!
Mən tələbə gördüm, tələbə ikən,
özü şübhəliydi öz görkəmindən.
Əyni makintojlu, çəkməsi laklı,
başı şlyapalı,
cibi daraqlı,
barmağı üzüklü,
gözləri sərxoş,
cib dolu, baş zəngin, başın içi boş.
Tələbə yanında durduğu zaman,
turistə oxşardı bazburutundan.
Ancaq müəllim də var idi, bəzən
əyni seçilməzdi tələbəsindən.
Dinəndə bilərdik yalnız kimdir o,
didəndə bilərdik müəllimdir o.
Kiminin
əyninə hörmət olubdu,
kiminin
beyninə hörmət olubdu.
Biz yeri düşdükcə demişik bunu,
demişik onların kim olduğunu.
Susanlar görmüşəm, tələbə dostlar,

Sonra
"susa-susa" böyük olublar.
Ötən tələbəlik yada düşübdü,
ürəyim təzədən oda düşübdü.
Köynəyim varıydı, gündə yuyardım,
şalvarım varıydı,
                deyim bu dərdi:
pambıq döşəyimin altda qoyardım,
orda sabahadək ütülənərdi.
Mən onu ütüsüz ütüləyərdim,
mən onu əynimə sonra geyərdim.
Vuruldum o ildə mən də bir qıza,
ürək,
        düşündüm ki,
                əmanət sevir.
Mən vəfalı oldum o vəfasıza,
gördüm ki, sevgi də var-dövlət sevir.
Məni qınamayın,
                gördüyüm budur,
məni dindirməyin,
                sinəm doludur.
Mənim fəlsəfəmi dəyişdi o qız,
getdin də,
        çıxdın da,
                ay etibarsız.
Dözmüşəm, ötüşüb indi o günlər,
düzü, heç bilmirəm neçə il olur.
Sonra bilmişəm ki, doğru deyiblər, —
"İnsan dözən olur, insan fil olur".[1]

---

[1] Misra şair Osman Sarıvəllinindi (*müəllif*).

Gedir o yolları, o, yenə gedir,
bir kəsin xəbəri yoxdu xəbərdən.
Bilməyə-bilməyə, a yoldaş müdir,
oturdun bilənlər stolunda sən.
Elə buna görə bir yana baxsan,
sən də, yoldaş nazir,
danlanmalısan.

Mənim sualım var, —
bu torpaq, bu yer,
indi, professor, cavab istəyir.
Oğluna, qızına cavab ver, cavab.
özündən-özünə cavab ver, cavab.
Səndən hər tanıyan cavab istəyir,
səndən Qazax,
Muğan cavab istəyir.
səndən Şəki,
Şirvan cavab istəyir.
səndən Azərbaycan
cavab istəyir.

(Ərizəmi gözləyir o
indi yəqin?
Ərizəmdi bu da mənim, —
qoy gözləsin).

## *İLHAMIN ASPİRANTURAYA QƏBUL OLUNMASI VƏ ƏDALƏTİN İZTİRABLARI*

### I

Ədalət tərs baxıb susdu xəlvəti,
gözün güzgüsündə sındı ovsunu.
"Aspirant!" —
ədayla təkrar elədi,
sonra bərk sümürdü papirosunu.

Quruyub mat qaldı təbəddülata,
mən qəbul olmuşdum, bu, gizlin deyil.
Şahmat taxtasında
adi piyada,
vəzirin yolunu kəsdi elə bil.
Boşalan təkərtək yatdı qərəzi,
Bu zərbə həlalik onun bəsiydi.
Qanmazın qanana
Hökm eləməsi —
Həyatın daimi faciəsiydi.

Onun nəzərində qiymətdən düşüb,
mən öz qiymətimi aldım nəhayət.
Amma saçlarıma gördüm dən düşüb,
bu da qiymət idi,
ana təbiət!

Yaşamaq ölümdən çətindi yüz qat,
bir işi görməyə kimsə can çəkir.
Amma neyləyəsən, belədir həyat, —
günəş də hardasa,
buluddan çəkir.

**II**

İstədim yanaşım.
Elə bu zaman,
gördüm atasını xeyli pərişan.
Bir az əsəbiydi,
bir az da köyrək,
gedirdi alnının silib tərini.
Əynindən sürüşüb düşürdü pencək,
qocalıq əymişdi çiyinlərini.
Mən onu görmürdüm neçə iliydi,
mən uzaq bir ada,
o sahil idi.

Baxıb arxasınca tutuldum, ancaq,
o belə deyildi neçə il qabaq.
Bizə dərs deyəndə bir az ucaydı,
yerişi qətiydi,
belə deyildi.
Gedib yaxaladı kişini bu dəm,
onun dediyini
dana bilmirəm.
"Heç sənin nüfuzun yox imiş, ata,
çörəyinin duzu yox imiş, ata.
Mənim korrektorum…
bir kənd uşağı!
gözü eynəklidi,
“başıaşağı!”
Ona "beş" yazdılar…
guya yadam mən,
kiçik korrektordan bisavadam mən?!
Gərək sənədləri mən saxlayaydım,
gərək öz işçimi qabaqlayaydım.

Sonradan verəydim…
Heç tələsmirəm,
aspirant olmaqdan ötrü əsmirəm.
Yox, indi bu sözlər bir şeyə dəyməz,
bir qiymət qoymadı sənə filankəs!
Tutaq mən bilmədim,
sən ki, atamsan…
Hələ zavkafedra…
kiçik adamsan?!
Özün professor…
o kimdi , hm, kim?!
Fəlsəfə elmləri namizədi…hm!
Yox, indi bu sözlər bir şeyə dəyməz,
bir qiymət qoymadı sənə filankəs."

## III

Ədaya fikir ver, qocaman alim,
özündən törəyən özünə qənim.
Nəydi o istehza,
o söz: filankəs!
Gərək sən oğluna deyəydin ki, kəs!
Gərək təvəzökar olaydı bir az,
professor oğlu belə danışmaz.
Gərək
nəzakət də öyrənəydi o,
böyüyə
hörmət də öyrənəydi o.
Burda mən özünə deməsəm, olmaz,
mən fikir vermişəm hələ bir şeyə,
sizin proqramda gərək ki, bir az,
etika,
filan da düşür dərsliyə.

Müəllim,
          tələbə münasibəti,
kiçiyin böyüyə hörmət-izzəti,
sinifdə,
ya çöldə ülfət, ehtiram,
bağışla, özümdən söz artırmıram,
Gərək bunları da oğluna ancaq,
ayrıca fənn kimi keçəydin o vaxt.

Atalar oğluna himayə durur,
oxudur xüsusi fakültələrdə.
Oğullar sonradan vəzifə tutur, —
onlar yuxarıda,
                    biz yenə yerdə!
Qulaq həsrət qalır bəzən bir sözə,
kömək istəyirsən,
kimsə yad olur.
İstedad – arxayla gəlir üz-üzə,
yıxılan yenə də
                    istedad olur.

O dedi,
          mən sındım sənin yerinə,
qırılıb töküldüm mən şüşə kimi.
Dərd olub qalacaq bəlkə də mənə, —
səninlə sonuncu görüşə kimi.

Mənə elə gəldi nəsil cırlaşır,
sahibsiz yurd kimi sən talanırdın.
O mənim gözümdə
eybəcərləşir,
sən mənim gözümdə
                    xırdalanırdın.

Baş-ayaq durmuşuq yer üstə, nədir?
Ya ata olduğun çıxıb yadından?!
O kimdir,
            nəçidir,
                        ya nəkarədir, —
üzr istəyirsən öz övladından!

Nə dostun bağışlar, nə də tələbən,
nə üstə gəzdiyin bu doğma torpaq.
İki qatdanıbsan,
                        sən ata ikən
Haqsız oğlundu ki,
                        ədasına bax!

Şairim,
            bir qəlbin duyğularına,
Hardasa yaşayan gizlinə dəymə.
Atanın atalıq qayğılarına,
ananın analıq hissinə dəymə.

Doğmalıq ülfətdi, canda qılıqdı,
odur rövnəq verən bəzən həyata.
Ata üz döndərsə,
övlad yazıqdı,
övlad üz döndərsə,
bədbəxtdir ata.
Oğul,
sözlərimə sən də həssas ol,
ayrılır hardasa axırda yollar.
Atalar xatirə danışır, oğul,
əməllə yaşasın gərək oğullar.

Ay keçir,
il gəlir,
ömür-gün ötür,
təəssüf eləyib həyatda yanma.
Atanda qiymətli nə varsa, götür,
zəif bildiyinə sən arxalanma.

Mən bir misal çəkim,
sən ölçü apar, —
fildə fil gücü var, fil yerişi var.
Yerişi adidir, gücü bir ovsun.
Yerişdə yıxılsa,
duruşda qalmaz.
Yerişin qoy insan yerişi olsun,
gücün qoy fil gücü,
başqa cür olmaz.
Kök ilə budaqdı oğul və ata,
Çiçəkdi torpaqdan bitib göyərən.
Bulaqlar nə qədər duru olsa da,
güc yenə seldədi,
Sən ondan öyrən.
Bulaq suyundakı duruluğu da,
saxla sən özündə,
gərəkdir o da.

## IV

Özün, professor, uşaq deyilsən,
biz də yaşayırıq bir niyyət üçün.
Oğlunu rütbəyçün oxutdun, əhsən!
Bizi də… görünür, "cəmiyyət" üçün?!

Bizə oğul dedin, vətəndaş dedin,
qayğını oğlundan əsirgəmədin.
Bir az çalışdın ki, zəhmət çəkməsin,
özü sərbəst oldu,
                    adı Ədalət,
Cədvəldə qiyməti "beş" olan kəsin,
sinifdə hörməti "iki"ydi fəqət.

Biz kimik?
Bir candan biz süd əmmişik,
başqa bir iqlimdən biz gəlməmişik.
Bir söz deyiriksə,
doğruyuq, axı.
Ən isti kürədir, ürək söz üçün
Biz də bu millətin oğluyuq, axı,
biz kimin üstünə gedək söz üçün?!

Sən mənə pis baxma,
belə,
birtəhər,
oğluna qul oldun, bizə mötəbər.
o heç sarsılıbmı namus, ar çəkib,
qırmızı görmüşəm daim rəngini.
Böyük adamlardan misallar çəkib
ya bizi aldatdın,
ya evdəkini.
Sənin kafedranda alim — tələbən,
nə deyir,
          qulaq as, sən ona hökmən.
Oğlundan söz düşüb bir yerdə yəqin,
o da deyibdi ki, qoy özü desin:

"Mən onu kəsmədim,
bilən kəsilməz.
Amma mən gördüm ki, o yersiz gəlib.
Elmin qapısına, tapşırılan kəs,
elmdən büsbütün xəbərsiz gəlib,
Mən dedim bilet çək, dedi ki, atam.
Filan professor…
sizi unutmaz.
Dedi: — mən müdirəm, nəşriyyatdayam…
Gördüm yox,
bu söhbət elmlə tutmaz.
Gözün tilsimindən qopdum birtəhər.
Görmürük dayazda dərini bəzən.
Həyatda heyif ki,
belə üzdülər
tutur istedadın yerini bəzən.
O biri —
korrektor vəzifəsində,
ona qulaq asmaq necə xoş idi.
Şərq ilə Demokrit fəlsəfəsində
əlaqə axtarıb fikir söylədi.
Başqa iqlimi var hər cəmiyyətin,
Yetişən hər zəka dövrün səsidi.
Hər böyük sənətkar, –
dedi millətin
Fəlsəfi inkişaf səviyyəsidi.
Burda mən neyləyim, vicdan neyləsin.
ayırmaq istədi gör kimi kimdən.
Gərək professor heç inciməsin,
Həqiqət üstündü
müəllimimdən".

**V**

Alim qarşısında mən tər tökmüşəm,
bizə şöhrət olub həmişə bu ad.
Mən səni
hər yerdə misal çəkmişəm,
sən məni gör harda sındırdın, heyhat!
ADU-da* dərs dedi bizə bir zaman,
Möhbalı Qasımov —
gözəl bir alim.
Zəka sahibiydi o sadə insan,
əsl professor,
əsl müəllim.

Nə vaxt zəng çalındı, bilmədik o vaxt,
saatlar uzandı bir əyyam kimi.
İstədik o zaman filosof olaq,
Biz ya Hegel kimi,
ya Xəyyam kimi.
Caviddən deyəndə cavidləşərdi,
Kantdan danışanda, əsl Kant idi.
Bəzən tələbəylə o, dərdləşərdi,
Heydər Hüseynovun
tələbəsiydi.
Mir Cəlal müəllim əvəzsiz idi,
O da uşaq kimi
saf, təmiz idi.
Xalqın içindəydi xalq yazıçımız,
Zaman çatdırmışdı onu şöhrətə.
Bir fəxri ad üçün "öz dostlarımız"
təqdimat vermədi
Ali Sovetə.

---

* Azərbaycan Dövlət Universiteti (*red.*).

Bir az Adildə* də "gecikmişdilər",
bir az ləngidilər, ancaq bir qədər, —
sonra
          başsağlığı imzaladılar,
Adili hörmətlə yola saldılar.
Mir Cəlal susurdu, qeybət düşəndə,
Qorkidən deyərdi sədaqət ilə
Pərəstiş eylərdi sədaqət ilə.
Bir də Tolstoya, —
                    söhbət düşəndə.
Doğmalıq duyurdum onun səsində
yıxılsam, qoymazdı o yerdə məni.
Sonra təhlil etdi məqaləsində,
Vurğunu,
          Müşfiqi
                    və bir də məni.
Mən onda kim idim, bir gənc, arxasız!
Sözümün  dayağı o idi yalnız.
Böyüklər böyüklük axtarır hər vaxt,
kiçiklər xırdalıq görürlər ancaq.

Artıq mən gəlmişəm mənzili yarı,
bilirəm,
          həyatda bu hikmət nədir.
Səadət adlanan evin açarı,
mən gördüm, inaddır, mübarizədir.

Kimsə güzəşt deyib olub-keçənə,
amma misal çəkib dünən bir nəfər, —
Bərkə düşə-düşə bərkiyər çənə,
gündə sıyıq yesə,
                    diş də tökülər.

---
* Adil Babayev (B.Adil) – (*red.*).

Mənim də yan alır gəmim sahilə,
sular lal dayansa, o gələ bilməz.
Həyatda ən böyük istedad belə,
bir sığal görməsə,
yüksələ bilməz.

## VI

Yenə o illəri gətirdim yada,
Hardasa yaşayır xəlvəti qubar.
Məni görmürdülər qabaq sırada
səni — evinizdən çağırırdılar.

Nə haqqın var idi,
nə ixtiyarın,
ancaq yayılırdın səs-səda kimi.
Adın — əvvəlində siyahıların,
daim hallanırdı mübtəda kimi.

Uzalı qalırdı əlim havada,
Mən söz istəyirdim, o da birtəhər.
Amma kar qulaqlar —
danışmasan da
səni məndən qabaq eşidirdilər.

Bir para gənclər də yaltaqlanaraq,
sənin tərəfinə keçirdi o vaxt.
Sənin məddahların,
yaltaq uşaqlar,
guya biliyin var, istedadın var.
Atan gözümüzə kül üfürürmüş,
(o bizə baxsa da,
səni görürmüş).

Bir şeyi dərk etdim həyatda yalnız,
insan xırdalanır
susduqca ürək.
Niyə siz həmişə arxalısınız,
Niyə biz həmişə üzr istəyək?!

Arada sözləşir, sirləşirsiniz,
bir an vermirsiniz məqamı əldən.
Niyə siz dil tapıb birləşirsiniz,
Niyə tək qalırıq
biz haqlı ikən?

Niyə istedadlının
üzündə həyası var?
Niyə istedadsızın
hardasa arxası var?
Üstündə etiketi,
böyründə markası var.
Niyə istedadlıda
istedadı
danırlar.
Niyə istedadsızla
daim maraqlanırlar.
Niyə istedadsızı
tərifləyir
həriflər.
Niyə istedadlıya
deyilmir
o təriflər?...

Yol boyu beləcə fikirləşirdim,
ay Allah,
mən necə fikirləşirdim!

Sənsə ayrılmırdın hələ nəşədən,
evdə boşaldırdın, dolmurdu mədən.
Deyən də mən idim,
                    eşidən də mən.

## VII

Nədir əmr verməmək ondan ötəri,
qələm əlindədir,
                    möhür yanında,
Adi bir insanın ülvi hissləri,
nə qəlbində yaşar,
                    nə vicdanında.

Nə qanun tanıyır, nə də cəmiyyət,
qanunlar çağrılmış bir bayatıdı.
onun şıltağına daimi xidmət,
işçidən daimi tələbatıdı.

## VIII

Oğlun elə bilmə qabağa çıxıb,
onu həyatda yox
                    axtar həyətdə.
Sizin ailədən bir ağa çıxıb,
ağasız,
          sinifsiz bir cəmiyyətdə.
Seyflər,
          açarlar,
                    katibə,
                              möhür…
telefon zənginə otur, qulaq as.
Təmkin əvəzinə xalis təkəbbür,
stol arxasında
                    "müsbət" bir obraz!

Sənin nüfuzuna danışır, dinir,
keçib qürrələnir stulla, mizlə.
"Antipod" adıyla o, lənətlənir,
bizim haqdan gələn
gur səsimizlə.

## IX

Aspirant!
dəyişdi o gündən adım,
daha nəşriyyata mən qayıtmadım.
Yazıb ərizəmi göndərdim ancaq,
bir yaxın dostuma dedim ki, apar.
o deyib:
bilirəm, vaxtı olacaq,
qoy gəlib işləsin ştatdankənar.

Sözə fikir verin —
"ştatdankənar",
Yəqin utanıbdı öz əməlindən,
Amma mən bilirdim ştatdakılar
qaçmaq istəyirdi
bir vaxt əlindən.

Papiros yandırıb fikrə gedərək,
ötən illəri də xatırlayıbdı.
İsmarıc göndərib;
gəlsin, görüşək,
biz yoldaş olmuşuq, bizə ayıbdı.

Deyib: unutmasın qoy bizi İlham,
Hərdən kafedraya biz də dəyərik.
Qoy yazsın, işləsin,
mən də burdayam,
elmi əsərini nəşr eləyərik.

Ayrıldıq.
İstehza edirdi hər gün,
indi mehribandı, buna varam mən.
Nə bilim,
aspirant olduğum üçün,
bəlkə o pisliyə minnətdaram mən.

Ayrıldıq.
Öz hökmü ayrılığın da,
onun da qəribə aləmi varmış.
kimsə deyibdi ki,
məğlub olanda
insanda insanlıq üzə çıxarmış.

Mən onu kəşf etdim məğlub olanda,
sonra xatırladım bir düz söhbəti:
qaya çapılanda,
dağ yarılanda,
yerdən üzə çıxır yerin sərvəti.

Çapılıb,
yarılıb deyəsən o da,
ilk dəfə hiss edib torpağı, daşı.
Bəlkə də o zaman gətirib yada, —
mən varam —
köhnəki sinif yoldaşı.

Deyirlər, get-gedə mehribanlaşır,
işdə salam verib, salam alırdı.
Həyatda sındıqca, o, insanlaşır
endikcə,
elə bil o, ucalırdı.

Görüşlər dururdu hələ qabaqda,
yamanca bürüyüb bir hiss qəlbimi.
Beş il tanımadım, bir oxusaq da,
beş gündə tanıdım, —
kəsilən kimi.

Bəlkə də məntiqi bir məqam olur, —
tanınır susan da, "mənəm" deyən də.
Tanınır, tanımaq istəməyən də,
dünyanın hərəkət qaydası budur.
Günahkar kim idi?
Özü, ya dünya?
Xasiyyət,
tərbiyə,
ailə,
həyat?!
Hələ bu suallar qalsın bir yana,
yüz dərdə bir dərman axtarma, ustad.

Qalxmaq istəyirəm mən bəmdən zilə,
köklənmiş taram mən, unutma, ustad.
Hələ əlimdən tut,
çatım mənzilə,
məni suallara çox tutma, ustad.

Ürəkdən inandım mən bir misala,
dünyada hər dərdin bir əlacı var.
Mən indi bildim ki,
mənim sığala,
onun da təhqirə ehtiyacı var.

## *İLHAMIN VƏ ƏDALƏTİN UŞAQ BAĞÇASINDA AĞGÜNLƏ GÖRÜŞMƏLƏRİ*

### I

Qalxdı professor daş pillələri,
yaşın əzabına dözdü birtəhər.
Bu dəmdə İlham da girdi içəri,
elə bil sözləşib görüşürdülər.
— Salam professor!
— Təbrik edirəm!
Aspirant… professor məna verirdi.
"Ədalət oğlumdu, İlham tələbəm" —
bu sözü İlhama eşitdirirdi.
— Sən qəbul olundun, qaldı Ədalət.
o da sonra gəlib
oxuyar, əlbət.

Alimin təbriki,
tərifi üzə! —
Necə, doğrudanmı özü duymadı.
Bəlkə də eyhamla deyilən sözə
İlham məna verib məhəl qoymadı.

— Sən məndən inciksən deyəsən, İlham,
hardasa deyibsən,
xatırlamıram, —
guya professor xoşbəxt oxuyub,
Həyat onun üçün bir səyahətdi.
Oğlunun adını
Ədalət qoyub,
bu da ədalətsiz bir hərəkətdi.

— Demişəm,
danmıram,
o söz mənimdi,
amma professor, Ədalət kimdi?
Sizin oğlunuzdu,
tələbənizdi,
elə bil siz qayıq
o da dənizdi.
Ləpələr qaldırır, endirir sizi,
mən gördüm, o necə dindirir sizi.
Sizinlə üz-üzə gəldi Ədalət,
sizdə bir mütilik, onda qəbahət.
Çünki xahişiniz tutulmamışdı,
birinci dəfəydi siz sınırdınız.
Qabaqlar belə bir gün olmamışdı,
Xahişlər oduna
qızınırdınız.
Tutuldum o anda peşiman olub,
Harda danışmışam, mat qalıbdılar.
Atalar,
görmüşük, qəhrəman olub,
oğullar onlardan dərs alıbdılar.
Yumağa döndünüz uca dağ ikən,
buydumu həyatda sizin dərsiniz.
Gülünc görünürdü tarix və vətən
sizin dilinizdə…
bağışlayın siz.

Əvvəl professor xeyli tutuldu,
götürə bilmədi bu ittihamı.
Sonra susduğuna peşiman oldu,
dedi başa salım gərək İlhamı.
İndi nə deyirsə
səbirsiz deyir,
hər açıq söhbətin öz mənası var.

Əvvəl "sən" deyirdi…
İndi "Siz" deyir, –
görünür, aspirant etikası var.

— İlham, tək qazandım səadətimi,
mən asan gəlmədim Ədalət kimi.
Atam professor, anam filankəs
olmayıb,
Ədalət bunları bilməz.
Mənə doğma ikən hardasa yaddı.
bəlkə bu taledi, amma həyatdı.
Bəxtimi təzədən
necə oyadım?
Nəsillər dəyişir, hörmət başqadı.
Eynidir oğlumla mənim soyadım,
tərcümeyi-halım fəqət, başqadı.

Mən dağda böyüdüm,
o bu şəhərdə,
mən kənddə,
o uca mərtəbələrdə.
Mən çanta gəzdirdim,
o, şax diplomat,
mən qurşaq bağladım,
o, dəbli saat.
Mən tütək götürdüm,
o, maqnitofon.
mən sadə geyindim,
o, ağ və əlvan.
Mən öz hesabıma qalxdım həyatda,
mənim hesabıma
ucaldı o da.

Bəlkə günahsızdı Ədalət, oğlum,
mən onun dalınca nə deyim sənə.
düzdür, özgələrə tələbkar oldum,
güzəştə getdim mən ona, əksinə.
O, arxayın oldu,
                    burda uduzdum,
sən də bağışlama, bu minnət deyil.
O məni danladı, mən onda susdum,
əlbəttə, bu, ona ləyaqət deyil.
Dünən öz oğlumla gəldim üz-üzə,
bu gün tələbəmlə…
                    nə deyim sizə!

O nahaq deyirdi "nə deyim sizə!"
yox , bu, təbiidir, qəribə deyil.
Əslində
            alimlə tələbə deyil,
talelər gəlmişdi burda üz-üzə.

Dəyişib əvvəlki hökmünü insan,
istedad ayrıdı,
            nüfuz, ad ayrı.
Dəyişib əvvəlki etika, filan,
millət o millətdi
                    tələbat ayrı!

Niyə, professor uşaq deyil ki,
özü dərk eləyir daha dərindən.
İndi uşaq olub o elə bil ki,
bir tutan əl gərək
                    onun əlindən.

Hardasa biganə bir münasibət,
bəzən nəzarətsiz bir söz, bir adət,
yığılıb üst-üstə nə yaman oldu,
üzə deyilənlər
                    ürəyə yatmır.
Sular dama-dama göl, ümman oldu,
üz görüm,
                    əl indi bir yana çatmır!

— Dünən öz oğlumla gəldim üz-üzə,
bu gün tələbəmlə…
                    nə deyim sizə!

— Narahat olmayın bundan ötəri,
bir söz var, bilmirəm amma kim deyib.
Qorxu — bədəndəki hüceyrələri
məhv edir.
Nə vaxtsa bir alim deyib.
Üz-üzə gələndə təmiz güzgütək,
insan — bir-birini göstərsin gərək.
Torpaq var,
tarix var,
xalq var,
o xalqın
gözünün içinə baxanda
qorxun!
Zamanla üz-üzə gələndə
qorxun!
xalqlar qabağına çıxanda
qorxun!..

Bəlkə qorxu deyil mənəvi qərar,
bəlkə qanunların qanunu budur.

Şəxsiyyət istəyir
bütün zamanlar,
yoxsa cəmiyyətdə inkişaf olmur.
Dərsdə deyərdiniz bizə bunları,
dediyiniz ayrı,
özünüz ayrı!

Susur professor gözündə eynək,
ürək nəfəs alır sükut içində.
O başa düşür ki,
İlham deyəcək,
günəş gizlənibdi bulud içində.

Sən hər kim olsan da…
Qadın, ya kişi,
sözünlə işinə məhəl qoymasan, —
əvvəl ailədə nəzərdən düşüb,
sonra cəmiyyətdə tək qalacaqsan.

Yuxarı boylanma yoxuşda durub,
ürək töyşüdümü,
zor dizə düşür.
Dünya nərdivandı, kimsə düz qurub,
ayaq büdrəyəndə əl üzə düşür.
Bəlkə də ağırdı yaşın xiffəti,
söz də köz kimidi,
qəfil yandırır.
Ağ saçın hər başda yoxdu qiyməti,
saça da qiyməti baş qazandırır.

— Varsa, professor, deyin səhvimi,
yəqin bu yollarda mən itməliydim.

İndi mənim sizə dediklərimi,
əksinə,
    mən sizdən eşitməliydim.

Lakin susa-susa uduzmusunuz,
burda,
    professor vəzifəsində.
Deyirlər, o vaxt da siz susmusunuz,
Heydər Hüseynovun məsələsində.

Hardasa dandınız onun adını,
siyasi etika qoymadı guya.
Şəxsi maaşını,
            mükafatını
Hədiyyə göndərdi Qızıl Orduya.

O təşəkkür aldı sonra bir axşam,
ordumuz çatmışdı düşmən səddinə.
Hələ Stalindən
            şəxsi teleqram! –
Fəlsəfə elmləri namizədinə.

Bir dayaq olardı sizin səsiniz,
alim inadınız çıxmazdı yaddan.
Yəqin əhəmiyyət verməmisiniz,
haqq-hesab istəyir
            həyat sonradan.
Bir tarix yoludu bir ömür yolu,
eniş arxadadı,
            yoxuş qabaqda.
Sizsiniz millətin qabaqcıl oğlu,
kimə arxalansın xalq dar ayaqda?

Bir az sərt deyirdi,
ciddi-cəhd ilə,
səsində, sözündə başqaydı inam.
Qeyrət istəyirdi ləyaqət ilə,
tələb eləyirdi əslində İlham.

* * *

Susurdu professor,
yol çəkirdi gözləri.
Dərk edə bilmirdi o,
Eşitdiyi sözləri.

Tələbəyə dönmüşdü
tələbəsi önündə.
O idi gizlənən də,
O idi gizlədən də.

Nə desin, necə sığsın,
bu boyda dağ,
qəlibə?!
Hardan bilir bunları,
İlham, adi tələbə!

Təzədən yaşayardı
bacarsaydı illəri.
necə uzaqda qaldı,
bir ömrün sahilləri.

Dərs deyərdi sinifdə,
Yadda xatirat qalıb.
Özünə dərs deyirlər,
İndi buna mat qalıb.

Ağrıyırdı ürəyi,
Qəribə məqam idi.
Ağrıyan, ufuldayan
Əslində İlham idi.

- Hörmətli professor,
bağışlayın məni siz, -
Ağgünün taleyində
daş oldu ürəyiniz.

Bütün fakültə bildi,
Yayıldı səsi-ünü.
“Əxlaqsız!” –
Ad qoydular,
çıxartdılar Ağgünü.

Bizi eşitmədilər,
kim idi sözə baxan.
Sizin rəyiniz ilə
qərar çıxartdı dekan.

Bir məqamda qorxdunuz,
bir məqamda susdunuz.
Millətin taleyindən
bizə dərs oxudunuz.

Hanı mühazirələr,
Hünər təbliğ etdiniz.
Bir qızın taleyini
həll edə bilmədiniz.

Qorxdunuz…
evlənsələr,
batırar adınızı.
Ədalət –
oğlunuzdu,
Ağgün –
millətin qızı.
Ləkələndi namusu.

## II

Bir qız ağlayırdı o axşam üstü,
Xəlvətə çəkilib ufuldanırdı.
Qəlbində od-ocaq, gözündə tüstü,
açıq tüstülənib,
                    gizli yanırdı.
Xəlvətə çəkilib ufuldanırdı.

Özünə bəs idi qəmi, qüssəsi,
Hıçqırığı səssiz,
                    fəğanı səssiz.
Həyatda ilk dəfə aldanan kəsi
sonra inandırmaq çətindi, şəksiz.

O yaxşı bilirdi səbəbi nədir,
ağrının gizlisi nə yaman olur!
Göz yaşı qadının öz əlindədir,
ağlayır,
          elə ki, peşiman olur.

Peşiman olmuşdu,
                    gec idi daha,
təzədən kül dönüb od-ocaq olmaz.

Atılan gülləni,
tökülən suyu,
ya deyilən sözü
qaytarmaq olmaz.
Yanına gəlmişdi Ədalət, İlham,
neçə il sonradan hörmət, ehtiram.
Ağgün mat qalmışdı
Bir az İlhama,
bir az Ədalətə.
Dinmirdi amma.
Sual verəni də özüydü qızın,
cavab verəni də… necə yanmasın.
Özüydü səhv edib sinə gərən də,
ağlını itirən,
ağıl verən də.
Susan da özüydü,
ufuldanan da,
əvvəl təsdiq edib, sonra danan da.
Özü gah İlhamı tərifləyirdi;
gah da Ədalətin tərəfindəydi.

– Yalandı dünyada
sevgi, məhəbbət,
kimdi eşq oduna alışıb-yanan.
Dünyada sevirəm deyənə lənət! –
Kimsə aldadandı,
kimsə aldanan.
Kül mənim başıma, ağılsız oldum,
özüm qadın ikən guya qız oldum.
Aldatdım özümü gedib çox yerə,
qızlıra qoşuldum heç nahaq yerə.

– Yox, Ağgün, çətindi səni unutmaq,
sən  sadəlövh oldun,
                    mən onda axmaq, –
deyib sözarası dindi nəhayət,
təsəlli verirdi guya Ədalət.
– Yəqin baxçadasan elə o vaxtdan?
– O vaxt professor düzəltdi, - atan.

Bağçada indi də elə bilirlər
onun qohumuyam.
          Hm, mən bəxtəvər.
O vaxt…
biləndə  ki, hamiləyəm mən,
atan çağırtdırdı, qorxdum qəfildən.
Mən xəcalət çəkdim,
öldüm,
          utandım,
nə dedi, əvvəlcə hamsını dandım.
O vaxtdan tərgitdim düz danışmağı,
o özü soruşdu sonra uşağı.
Mən dana bilməyib susdum arada.
dayandıq üz-üzə
                    "gəlin-qaynata".
İlk dəfə hiss etdim gəlinliyimi,
o nə məni gördü, nə mənliyimi.
Mən ilk səhvimi də orda anladım,
orda öz-özümü söydüm, danladım.
Mənə pul uzatdı,
dedi ki,
buyur,
dedi ki,
Ədalət hələ oxuyur.
Bizim adımıza bu ləkə olmaz,
dedi ki, bu boyda mərəkə olmaz.

Bağçaya zəng vurub xahiş elədi,
kiməsə - bir yerə düzəldin, - dedi.
Getdim ürəyimdə bu ağrı, bu qəm,
haraya gedirdim,
deyə bilmərəm…
Bəlkə də qalmayıb sənin yadında,
sonra…
maraqlanıb soruşmadın da.

Ədalət gülürdü mərhəmət ilə,
o bunu Ağgünə hörmət sayırdı.
O, unut, –
dedikcə nəzakət ilə,
bu biri təzədən xatırlayırdı.

– Kənddən,
evimizdən məktublar gəlir,
oxuyub cırıram, mənə ar gəlir.
Anam ismarlayır,
gəlsin birtəhər,
elçilər istəyir məni, elçilər.
Mən də anam kimi qadınam, yazıq.
Nə elçilər bilir,
nə anam yazıq!
Bəzən xəbər alır rəfiqələrim,
kimi gözləyirsən?!
Nə cavab verim.
Deyirəm, birinin boyu gödəkdi,
deyirəm, qız kimi biri qəşəngdi,
biri çox arıqdı,
biri içəndi,
nə bilim, birinin başı keçəldi,

guya bəyənmirəm,
                    tutmur ürəyim.
– Mənə nə deyirsən?!
– Sənə də deyim.
Bunları dedirdən sən oldun elə,
mən kimə lazımam de, indən belə.

Ağgün köks ötürdü fikrə gedərək,
Ədalət duymurdu bu ağrıları.
– Ağgün, istəyirsən gizli görüşək,
o vaxtdan məndədi bağın açarı.
Bir ada -
hamının gözündən uzaq,
Həmən o qapıdı,
                    həmən o otaq.
Qoy heç kəs bilməsin, biz gedib-gələk,
yaşasın dünyada gizli səadət.
Qadın -
hökm eləsin, həzz alsın gərək,
belə yaradıbdı sizi təbiət.
Görünür,
qadının tərifi budur.
– Yəqin təbiət də tərəfkeş olur,
Hələ hökm eləyib həzz almamışam,
mən ki,
          təbiətdə yad olmamışam.

Düşdü xatirinə neçə il qabaq,
                                        kim deyir,
Yaddaşdan can oda düşmür?!
Gün var – ömür boyu olmur unutmaq,
il var – ömür boyu heç yada düşmür.

Ağgün Ədalətə arxayın oldu,
amma əmanətə,
o xayın oldu.
Ədalət hardasa sözünü dandı,
Ağgün qız yatmışdı, gəlin oyandı.
Dünyada təzədən doğuldu Ağgün,
elə bil var idi,
yox oldu Ağgün.

– Gizli səadəti götür özünə,
mən azmı çəkmişəm bu əziyyəti.
Ürəyim göynəyir uşaq səsinə,
açıq istəyirəm
                    mən səadəti.
Mənim ərim olsun, mən arvad olum,
ona hörmət olum,
                              etiqad olum.
Üstündə əsərəm göz olmaq üçün,
mənim həm gündüzüm, həm gecəm olar.
Başını yuyaram zövq almaq üçün,
ona hər xidmətim – əyləncəm olar.

Başın çəkdiyini ürək unutmaz,
gərək taleyini düşünsün insan.
Özünə bir tay tap,
                    bizimki tutmaz,
arvadlar içində subay qalıbsan.

Bəzən günahkarıq bizim özümüz,
şahzadə oluruq, şahımız olmur.
Oğlanın boyunu tutur gözümüz,
ağıl axtarmağa ağlımız olmur.

Gözün tutduğuna
ağıl yox deyir,
ağıl dediyini
          göz bəyənməyir.

Biz necə görüşdük, nəydi bu ülfət,
bəlkə düz deyirlər, bu da yazıdı.
Hələ sən ada bax:
Ağgün,
Ədalət! –
Taleyin qəribə istehzasıdı.

Beləcə, sözünü dedi hörmətlə,
başqa təklifini uddu Ədalət.
Ağgünün
qəlbindən üzüldü əli,
Ağgünün
əlindən  tutdu Ədalət.

Nə qədər əl tutub o əllər ilə,
soruşma,
hamısı çıxıbdı yaddan.
Tapıb gəzdiyini gözəllər ilə,
əsl gözəlini itirən oğlan.

Açıb ürəyini gizli, aşikar,
məhəbbət oxuyub dumanda çəndə.
Həyatda məhəbbət bəsləyən də var,
məhəbbət sözünü
                    əzbərləyən də.

* * *

– Xeyir ola, Ədalət?
– Heç, gəldim elə-belə.
Özümü danlayırdım,
yanına gələ-gələ.

Görmürdüm beş il olar,
dedim tanımaz əlbət.
– Saçına dən düşübdü,
bu beş ildə, Ədalət.
– Dəyişmişəm?
– Nə deyim?
Dünya dəyişir, dönür.
Əvvəl nazik tələbə,
indi ciddi bir müdir.

Boyun qalxıb elə bil,
gözündə –
qayğı dərin.
Azalıb amma bir az
üzündə gülüşlərin.
– Yox, sənə elə gəlir.
– Görmürəm beş il olar.
– Ağgün,
        ürək istəsə,
çox şeyə nail olar.

Qız mənə verdi sözə:
– Nail oldun sən o vaxt.
Gözüaclıq deyilmi
hər şeyə
        nail olmaq.

Arada sükut oldu,
nə səmir,
nə səs oldu.
Səmada bulud oldu,
günəş görünməz oldu.

– Ağgün, bir söz soruşum,
düzünü de, sən allah.
– Yalan danışmamışam
mən nə indi
nə o vaxt.

Silkələdi bu cavab,
Həm sadəydi, həm çətin.
Sözün yeli toxundu
üzünə Ədalətin.

– İlham yadında olar,
tələbə yoldaşımız.
– Eynəkli,
əlaçımız,
əslində qardaşımız.
Xeyir ola?
– Xeyirdi.
– Mənə bacı deyərdi
mən də sadəcə: İlham.
Nə biləydi
mən o vaxt
nə yuvanın quşuyam.

– Aspirantdı ADU-da,
qapanıbdı kitaba.
Yanımdaydı qabaqlar, –
korrektor,
fəhlə baba!

Düşüb kişinin üstə,
kafedrada bir axşam.
Səni guya
filan vaxt
mən yoldan çıxartmışam.

Atam vətəndaş deyil,
guya daşdı sinəsi.
Nə bilim, qəzetlərin
şablon,
baş məqaləsi!

Vurmaq istəyir İlham
təzədən aramızı.
hardan bilir
o, Ağgün,
bizim macəramızı?

* * *

Silkələyib oyatdı
yatan duyğularını.
Başdan ağlını aldı,
əldən
ixtiyarını.
İlləri xatırladı,
nələri xatırladı.
İlhamın gözlərində
kədəri xatırladı.

Danışırdı o gözlər,
səssiz idi söhbəti.
Ürəyindən
                gözəcən
yol gəldi məhəbbəti.

Onda eşidilməyən
bir ürəyin səsiydi.
Onun ilk məhəbbəti
bunun
      əyləncəsiydi.

– Sən bilmədin,
Ədalət,
ovsunladın bir qızı.
Bütün fakültə bildi
bizim macəramızı.

İndi bildim, nə imiş
bu gəlişdə niyyətin.
Heyif,
      daha puç oldu
gözümdə əziyyətin…

Əsən sərin küləklər
soyutdu bu ülfəti.
Ağgün ikinci dəfə
itirdi
      Ədaləti.

## III

Qız bilmirdi.
O axşam,
baxçaya gəldi İlham.
Yenə gözündə eynək,
əynində sadə pencək.
Yenə o boy,
                o qamət.
Ah, Ədalət, Ədalət!

Sarsıldı bu görüşdən.
Həm şad oldu, sevindi,
Həm sındı bu görüşdən.
Bilsəydi,
bəzənərdi,
taxardı sırğasını,
rəngini-boyasını
çəkərdi qaş-gözünə, –
əlbəttə,
qaydasında.
Qız kimi sevilərdi
qadınlıq dünyasında.

Bir şeyə mat qaldı qız,
Ədaləti görəndə, –
Bu hisslər oyanmadı
nədənsə,
      ürəyində.
–Niyə gəlib görəsən?
Nədir qəsdi,
                niyyəti?
Görübmü Ədaləti?!

Bağçada qarşıladı
gülərüzlə o axşam.
– Xoş gördük,
Ağgün bacı.
– Xoş gəlibsən,
ay İlham.

Çay gətirdi əlüstü,
oturdular yan-yana.
– Heç gələrmi ağlına?
Hara uçdu o illər?
Ordan-burdan danışıb,
söz tapa bilmirdilər.

– Ağgün,
"Bərpa" kağızı!
Qayıt fakültəmizə.
Adın çıxdı təmizə.
Qayıt üçüncü kursa,
unut
nə olubdusa.

Çoxlarının diplomu
alındı əllərindən,
çoxu xaric edildi
üçdən,
beşdən,
ikidən.
Düzlük ilə həqiqət
üzə çıxdı,
nəhayət!

Var idi bir-ikisi,
utanıb-ölmədilər.
Deyəndə nədi bunlar? –
Danışa bilmədilər.

Qohum-əqrabasına
xidmət olub həyatı.
Kimlərə tapşırılıb
xalqın
müqəddəratı.
Hələ ziyalı qoyub
bir parası adını.
Rüşvətə həsr eləyib
kimsə,
istedadını.

Ağladı uşaq kimi,
qız, uşaqlar içində.
Dünya gülər üzündə,
dünya ağlar içində.

Necə unutsun Ağgün,
elə bil ki, nəhs kimi, –
unutmaq istədiyin
unudulmur
tərs kimi.

Gizli bir səadətə
çağırırdı Ədalət.
Əsl səadətini
İlham gətirdi fəqət.

Necə getsin baxçadan,
isinişib uşaqlar.
Təhsili necə olsun? –
Tay-tuş var,
el-oba var.

– Eləmi ad qoydular,
nə üzlə dönüm geri.
Düz sinəmdən vurdular,
göynəyir
yara yeri.

Haçalandı fikiri,
Danışmadı, dinmədi,
Qaldı yol ayrıcında,
Hara dönsün,
bilmədi.

* * *

İlham da demədi mən aspirantam,
qız bir ülfət duydu onun səsində.
Qoşa dayandılar:
Ədalət,
İlham! –
Çəkdi gözlərinin tərəzisində.

Quzeydə qar gördü, güneydə çiçək,
daha nəzərində başqaydı aləm.
Ədalət deyirdi -
"gizli görüşək",
"qayıt fakültəyə" –
deyirdi İlham.

İstədi öyrənsin Ağgün birtəhər,
evi, ailəsi, həyatı varmı.
– Sonra ürəyinə ayrı şey gələr,
Mən qadın,
o oğlan…
                yaxşı çıxarmı?!

Arada əzəli hörmət, ehtiram,
unutmaq olarmı ötən illəri.
Ağgünün
əlindən tutmadı İlham,
Ağgünün
qəlbindən tutdu əlləri.

Tənələr eşitmək asan gəlməsin,
kim təklik çəkibdi,
deyin,
      o duyar.
Həyatda büdrəyib yıxılan kəsin
bəlkə də bir xoş söz qolundan tutar.

Qəlbi çırpınırdı başqa aləmdə,
Hanı bir ürəyi açıb oxuyan?
Çiçəyə dönmüşdü Ağgün bu dəmdə,
Yanında yox idi ətrini duyan.

Ağgün deyirdi ki, bir sualım var,
Həyatda sevməyin mənası varmı?
Həyatda yenidən yaşamaq olar,
itən səadəti
                tapmaq olarmı?!

## ƏDALƏTİN EVLƏNMƏSİ VƏ AĞGÜNÜN ONUN TOYUNA GƏLMƏSİ

Şəhər mehmanxanası
sığmırdı bir şəhərə
Tül , ipək pərdələrə
bürünmüşdü,
yanırdı.
Həyat xumarlanırdı
mehr-ülfət içində.
Quş südü, ceyran budu! –
süfrə nemət içində.
Gözünü yum,
fikirləş,–
nə gəlirsə ağlına.
Pəhrizi olanların
bu axşam vay halına!

Bir az yuxarı başda,
“rəyasət heyətində”
iki nəfər,
bəxtəvər.
İki nəfər qayğısız,
Badam ağacı kimi
ağ çiçək açmışdı qız.
Sinəsində brilyant,
qolunda zəngli saat,
gəlinin yanında bəy –
Ədalət.
Yaşa həyat.
Damağında siqaret –
"firma", dümağ tüstüsü,
nə artıq söz, nə söhbət.

Elə bil zəncirlənib
oturmuşdu Ədalət.
Dünən qəfildən oldu
Ədalətin dəvəti.
Tək çağırdı İlhamı
o, Ağgündən xəlvəti.
– Gedim, deyim üzünə? –
məndə elə üz olmaz.
Getməyim?
Nə deyərlər,
xeyir işdi, düz olmaz.
Bir fəhlə qəsəbəsi, –
"yuxarı təbəqəsi".
planı dolduran yox,
plana əl çalanlar.
Sitatları deməkdə
Sinədəftər olanlar.
Bir az televizordan
əlavə qazananlar,
maşına, bağa
"hədər"
pulunu xərcləyənlər.

Qalxdı mərtəbələri,
yığılmışdı camaat.
Zərfin üstündə "İlham",
içində əlli manat.
Aspirant maaşının
tən yarısı –
hədiyyə.
Əlli də puldu, niyə?!
Başqaydı bu ziyafət.

Gələcək arvadından
çəkinirdi Ədalət.
Qız kiminsə
qızıydı,
filankəs arxasıydı.
Düzəldib örpəyini
qımışırdı könülsüz.
Süfrəni çəkirdi ki,
tarım dursun, düppədüz.
Bir qulluq gözləyirdi,
əyilirdi.
– Nə dedin?
Qız dinmirdi, lal idi.
Oturuşu –
məzəmmət,
baxışı –
sual idi.

Çalırdı çalğıçılar,
gecəsi filan qədər.
Çalğıçılar
qəlbi yox,
cibi tərpədirdilər.
Azərbaycan toyunda
cəngəlliklər havası.
Nə Üzeyir,
nə Qara,
nə Fikrət,
nə Niyazi!
Nə tarın öz səsiydi,
nə "qəmsiz" kamançanın,
əbədi naləsiydi.

Nə əlində mikrofon
haray salan cavanın.
Barmağında üzüyü,
dəbdi,
        niyyətdi bu da.
Əynində qız köynəyi, –
mədəniyyətdi bu da.
Ziyalının mütisi
susur, –
        zillətdi bu da.
Ovuşdurub alnını
qalxmaq istədi İlham.
–Axı, mən ki, burdayam!
Mədəniyyət xətrinə
susuruq biz,
                ay haray! –
bu necə camaatdı.
Qışqırıb yoxdu deyən –
bizim torpağa yaddı.
–Ayıbdı.
Yanındakı
qolundan tutdu bu dəm.
–Mikrofondu oxuyan,
ya müğənni?
–Bilmirəm.
–Əl çalırsan?
–Neyləyək.
Bu axşam toydu, gərək,
əl çalaq, tərif deyək.
–Hər şeyə tərif demək,
əl çalıb mədh eləmək
qadağan olsun gərək.



*
*
*



Biri söz istəyib qalxdı ayağa,
qədəhi tərpənir,
səbri daşırdı.
Bir məclisə baxdı, bir də arağa,
sağlıq demək üçün hazırlaşırdı.
Stolda səs idi, natiq mədəni,
dayandı İlhamla kürək-kürəyə.
Kəsdi çalğıçılar, susdu müğənni,
o da qədəhini qoydu süfrəyə.
Təklif gözləyirdi, buydu qərarı,
diqqət istəyirdi sözünə o da.
(Qiymətli sözümüz,
qələm dostlarım,
bəzən ucuz olub nadan yanında).
Bəzən baxıbdılar belə…
birtəhər,
bir söz var, bilmirəm kim olub deyən:
toyuğa daş-qaşla
arpa veriblər,
daş-qaşı görməyib, arpa dənləyən.
Sirrinə vardıqca mən bu hikmətin,
qəlbim qulağıma deyir, qulaq as, –
toyuq nəzərilə baxsalar, yəqin
arpa bazarında
bizimki tutmaz.
Alim var, kiminsə xidmətindədi,
tapın istedadı, o darda qalır.
Hər kəs öz "ədəbi" şöhrətindədi,
doğma ədəbiyyat
kənarda qalır.
Kimdi, tanıyırıq filan sənətkar,
uçurlar göylərin yeddi qatında.
Təzədən

məcburi "tanıtdırırlar",
Azərinformun məlumatında.
Elə bil hardasa sinə döyürlər,
qeyri-müqəddəsin adı dilində.
Bəzi tənqidçilər
sağlıq deyirlər,
qədəhi çatışmır yalnız əlində.

Təklif gözləyirdi, dedilər buyur,
Hörmət istəyirdi,
qalxdı hörmətə.
Adam var, özünü təmkinli tutur, –
satır ucuzunu baha qiymətə.
O, belə başladı: Ədalət halal,
təmiz süd əmibdi, qəlbi təmizdi.
Hələ professor, bu qoca qartal,
bizim fəxrimizdi, şöhrətimizdi.
O belə uzatdı:
Əziz tamada,
bizim Ədalətin nurlu yolu var.
Hələ professor, xalq adamıdı,
o ev xoşbəxtdi ki, belə oğlu var.
O, belə qurtardı:
– Şərab doldurun,
Ədalət, var olsun doğma səsiniz.
İçək sağlığına professorun,
bizə professor, siz gərəksiniz.
İndi nə deyəsən, necə deyəsən,
fikirdə gör necə
itir tarazlıq.
Kəlamlar yaradan millətə əhsən! –
dilini xərcləyən natiqə yazıq.
İlham deyirdi ki, belə şey olmaz,

sular axa-axa gərək durulsun.
Gərək tariflənən
qızarsın bir az,
tərif deyənin də
həyası olsun.
Niyə bu insanlar simasız olur,
nadanlar gör kimi nadan sayırlar.
Düz söz eşidəndə – həyasız olur,
Həqiqət deyəndə – böhtan sayırlar.

Başqa bir natiq də ayağa durdu,
Hələ çox olacaq söz alan, İlham.
Deyilən sözlərdən
sərxoş olurdu,
içdiyi şərabdan ayılan İlham.
– Yəqin əl-ayağa dolaşan bizik,
kim isə tanıyır, görür onları.
Qabağa çəkirlər
tələm-tələsik,
bəxti özündən tez doğulanları.
Bəzən içimizdə batır səsimiz,
Hardasa düşür də sözümüz yerə.
Oxuya-oxuya
cırlaşırıq biz,
filosof oluruq biz görə-görə.
Kimsə könlü sınıq, ürəyi qırıq
yaşayır bir ömrün ağrısı canda.
Beləcə
doğulub bəxt axtarırıq,
özümüz itirik bəxti tapanda.

Qaldırıb başını mat qaldı İlham,
o mat qalmamışdı bu qədər hələ.

Xəlvəti gəlmişdi Ağgün o axşam,
toyda oturmuşdu rəfiqəsilə.
Nə deyim, bəlkə də sevindi İlham,
görsəydi,
      Ədalət utanmalıydı.
Ağgün bildirdi ki,
– Mən burda yoxam! –
demək, həqiqəti o, danmalıydı.

Elə bil təzədən dəyişdi aləm,
dili dandığını gözü görürdü.
– Mən təhqir oluram, –
deyirdi İlham –
süfrə yoldaşına eşitdirirdi.

* * *

“Sağlıq” ənənəsini
            pozmaq istədi İlham.
Professor gördü ki,
            ayaq üstədi İlham.
– Buyur, – dedi,
– Ay İlham,
            amma çatıldı qaşı.
– Aspirantdı ADU-da,
Ədalətin yoldaşı.
İzahat verdi bir az,
Təqdimat verdi bir az.
Köhnə tanışlığına
Təzə ad verdi bir az.
Gəlinin qulağına
            pıçıldadı Ədalət.
Yüz ölçüb bir biçirdi.

Dedi İlham, nəhayət:

– Bir xalqa sərhəd olan
Arazı unutdunuz, –
Arazın sağlığına!
Bizim fakültəmizdə
qız var idi bir zaman, –
o qızın
        sağlığına!
Cavidləri yetirən
        və Cavidi gətirən
        bir xalqın sağlığına!
Ovcu qabar bağlayan
        əllərin,
        boş ciblərin,
        sağ canın
        sağlığına!
Kirayə qalanların
        sağlığına,
Ədalət!
Maaşı zəhmətindən
        aşağı olanların
        sağlığına,
Ədalət!
Haqqını tələb edən
        bütün arxasızların,
        bütün atasızların
        sağlığına,
        Ədalət!
Qürbətdə Füzulinin
sümükləri çürüyür –
sümüyün sağlığına!

Bir para dirinin yox,
ölünün sağlığına!
"Yeni Gəncə" tikilir,
Gəncənin
sağlığına!
"Babək" gəldi tanıyaq –
Küçənin sağlığına!
Çalmasın çalğıçılar,
Üzeyirin
sağlığına!
Əsl sözün, sənətin
və şerin
sağlığına!
Stolda söz gəzirdi,
– Belə, kimdi bu İlham?
– Arxası bərkdi yəqin?
– Hər kimdi,
minnətdaram.

Yazıqlar, susa-susa
danışdınız, nəhayət.
İlhamın arxasıdır
dandığınız həqiqət,
gördüyünüz cəmiyyət.
– Və sənin sağlığına! –
İlhamın şərəfinə
qaldırıldı qədəhlər.
Haqq verilməsə,
dostum,
haqqı tələb edirlər.

* * *

Yallı oynayırdı gənclər əl-ələ,
Ortada qalmışdı
                    bəy ilə gəlin.
Kim isə deyirdi sidq bir ürəklə, –
bizim cavanların başına gəlsin!
Ağgün seyr edirdi fikrə dalaraq,
gözü qayğılıydı,
                    ürəyi həşəm.
Ağ paltar geymişdi gəlin, ağappaq,
Bəy çinar kimiydi – uca, möhtəşəm.
Məclis əl çalırdı sədaqət ilə,
bir işıq düşmüşdü hər dost qəlbinə.
Ağgün də əl çaldı nəzakət ilə,
Səadət dilədi
                    qız rəqibinə.
İlham o əlləri gördü bu zaman,
Dedi öz-özünə: "Bu da təzədi.
Təhqir eləyənə
          təhqir olunan
          əl çalır, ilahi,
                    bu, möcüzədi".

Ağgünü çaşdıran bilmədi nəydi,
yox, İlham, sən bunca mat qalma ona.
Ağgün bu səhvini duya bilsəydi,
özü mat qalmazdı öz tutduğuna.

Qadın mürəkkəbdi bir hikmət kimi,
bəzən ovsunlanıb sehirli qalır.
Qadın möcüzədir təbiət kimi,
sirri açıldıqca,
                    o sirli qalır.

Gizlədə bilmirdi qız xiffətini,
tikanlar bitirdi gül dodağında.
Deyirdi: "Kiminsə səadətini
kimsə oğurlayır göz qabağında.
Gedim Ədalətə indi nə deyim,
o itib içində dumanın, çənin.
Niyə şəriklidi mənim taleyim,
Niyə ad mənimdi.
qismət özgənin?"
Ağgün bir anlığa yumdu gözünü,
düşündü qəribə mərhəmət ilə.
Bir az qəhərləndi,
sonra özünü
müqayisə etdi qız rəqibilə.
"Saçları qaydada aralanmayıb,
gözündə buz gördüm yaş əvəzinə.
Mən hələ qadınam – qaş alınmayıb,
o qızdı – xətt çəkib qaş əvəzinə.
Boyda-buxunda da, nəzakətdə də,
mən ondan gözələm…
lap surətdə də".

Ağgün, düz deyirsən, belə de, açıq,
xiffətdən ürəkdə nisgil qalıbdı.
Nemət sayılsa da təvazökarlıq,
daim istedadı dala salıbdı.
Sadağa istəmə,
tələb et ancaq,
yadında saxla ki, şöhrət verilməz.
Qəhrəman hər kimsə, cəbhədə bir vaxt,
Səngərə yatmasa,
o qalxa bilməz.

Sevdin saf ürəklə sən Ədaləti,
amma qorunmadı bu eşq, bu ilqar.
İndi deyirsən ki, bu səadəti
gözüm baxa-baxa oğurlayırlar.
Sənə bir söz deyim, ağır gəlməsin,
yıxılan hər yerdə torpağa düşür.
Bir şeyə inan ki,
                    ləngiyən kəsin
rəqibi oyaqdı, qabağa düşür.
Məhəbbət – qaş ilə, göz ilə deyil,
uğrunda can qoysan, bir ömrü bəzər.
Hələ evlənmək də –
                    ailə deyil,
qalın kitablarda ön sözə bənzər.
Ağgün, qırışdırma alnını bu gün,
dünya səbir versin qoy bir az sənə.
Ürəyin yarası görünmür, Ağgün,
alnında iz qalsa,
                    yaraşmaz sənə.

* * *

– Ağgün,
            səni Ədalət
çağırmadı toyuna?
– Çağırsaydı,
            getməzdim,
düşmən olardım ona.
– Niyə gəldin bəs, Ağgün,
            necə gəldin?
– Nə deyim.

Mən necə gəldiyimi
bilsəydim,
nəydi dərdim.
– Görsəydi, nə deyərdin
Ağgün, səni Ədalət?
– Toyun mübarək olsun! –
belə deyərdim, əlbət.
– Ürəyini yenidən
bağlardınmı o ada?
– Məndən asılı olsa,
sevməzdim heç onda da.
– Xoşuna gəldimi qız,
Gözəldimi o, Ağgün?
– Gözəl yoxdu dünyada,
qismət var
insan üçün.
– Dözəydin bir az gərək,
Ağgün, sındın elə bil.
– Sevəsən,
sınmayasan,
bu da heç mümkün deyil.
– Ağgün, nədir qərarın,
lap tək qaldın sən, indi?
– İkilikdə tək idim,
nədir dəyişən indi!
– Qayıt, gözləyir anan,
Ağgün, daha uzaq gəz.
– Anam elçi gözləyir,
məni
qəbul eləməz.

* * *

Beləcə düşünürdü
yatağında xeyli var.
Döşəyi –
   sual idi,
            yorğanı –
            bu cavablar.
Özünü aldadırdı
toyda dözüb birtəhər.
Ağlayıb sızlayırdı
o indi hönkür-hönkür.
Ey qadın məhəbbəti,
sən nitqimi bağladın.
Orda necə əl çalıb,
burda necə ağladın?
Qürurun bir söz deyir,
ürəkdə başqa maraq.
Səndəki
zərifliyə,
səndəki
sərtliyə bax.
O gecə yuxusunda
gördü düşüb dərinə.
Ədalətlə oynayır
toyda,
qızın yerinə.
Əl çalırlar Ağgünə,
nə çoxdur onu duyan.
Qız rəqibi ağlayır, –
səadət oğurlayan.

Elə gülür,
sevinir,
azad olub qüssədən.
Ayılıb öz səsinə
ağlayır qız təzədən.
Tərsinə yozur Ağgün,
yuxusunu o saat.
Neyləyim mən, Ədalət,
nə deyim mən,
ey həyat.

* * *

Gecədən keçmişdi, bildi Ədalət,
dedilər pul salıb toyuna İlham.
– Yəqin ürəyində qalıb ədavət? –
mən, axı, pul üçün çağırmamışam.
Bir zaman oxuduq,
tələbə olduq,
bir az ikimiz də qəribə olduq.
Bir yerdə işlədik sonra birtəhər,
o, adi korrektor,
mən ona rəhbər, –
nəşriyyat müdiri… küsdü həyatda,
indi o, ADU-da,
mən nəşriyyatda.

Görüşüb özünə dedi, nəhayət,
elə bil qəddini bir yük əyirdi.
Birinci dəfəydi, səsində xiffət,
Ədalət İlhamdan
üzr istəyirdi.

İlham deyəndə ki, sən ey bixəbər,
Ağgün də gəlmişdi, gördü o toyu.
Alnında qəfildən puçurlanan tər,
axdı pencəyinin yaxası boyu.
– Sənin toyun idi,
Ağgünün yası,
bəzənib gəlmişdi o öz yasına.
Oğlanlar yalandı, qızın vəfası! –
mat qaldım bir qəlbin təmənnasına.
Yadına düşürmü?
– Unutmamışam.
İndi ayılmışam, onda dəliydim.
– Bu qıznan necəsən?
– Nə deyim, İlham…
– Bə niyə evləndin?
– Evlənməliydim.
İlhama çatmırdı adi həqiqət, –
"Nə var Ədalətdə?.. Bu da Ədalət.
Bir az əhlikefdi,
bir az gəzəyən,
nəyinə vurulub bu Ağgün görən?
Bəlkə qadınların pitimi budur,
ağlı da,
qəlbi də,
gözündə olur?…"
– İlham, sən incimə, bu sənə çatmaz,
başqadır həyata baxışlarımız.
Fikir söyləməyə tələsmə bir az,
nə qadın görübsən, hələ sən nə qız.

Çaşdırar insanı
                    təsirə düşmək,
öyrən qadınlardan, özün soruş, bil.
Qadınla, ya qızla gedib görüşmək,
mən səni bilmirəm, məncə, səhv deyil.
Qadın təsəllidi xeyirdə, şərdə,
necə başa salım,
                    çətindi, İlham.
Bəlkə kişiliyi biz kişilərdə
tərbiyə edən də qadındı,
İlham.
Bizə də borcludur, məncə qadınlar,
bu da qanunudur yəqin həyatın.
Qadında –
          qadınlıq örtülü qalar,
kişi nəfəsini duymasa qadın.
Xətrinə dəyməsin, yatdın-oyandın,
səssiz yola saldın illəri, səssiz.
Mənim həyatımda ilk qız, ilk qadın,
bir Ağgün olubdu –
                    evdən xəbərsiz.
Kənddən qızlar gəlir şəhərə müdam,
burda, ev-eşikdən uzaq olurlar.
Bəzən aldanırlar, uşaq olurlar,
sonra da gec olur,
                    əzizim İlham.
Ağgün də beləcə ayrıldı evdən,
o mənə inandı, mən ki, danmıram.
O vaxt səhv elədim,
                              tələbə ikən,
elə ikimiz də yanıldıq, İlham.
O vaxt ləkələdik öz adımızı,
bu dünya elə bil bir dünya qəmdi.

Subaykən –
gizlində gəzdiyim qızı,
evliykən sevirəm – bu, faciəmdi.
Ürək tələsdirir, ağıl ləngidir,
biri qaç – deyəndə, biri dur! – deyir.
Birinin səhvinə o biri yanır,
oyanan yatanda,
yatan oyanır.
Bəlkə də bu, sadə bir oyun deyil,
Ağıl da, ürək də əslində yükdü.
İnsanın ürəyi –
İlham, elə bil,
insanın ağlından yaşca böyükdü…

Arada qəfildən səyridi gözü,
uşaqlıq çağından qalır bu adət.
İlham istədi ki,
dəyişsin sözü,
yenə qızın üstə qayıtdı söhbət.

– Baxçaya getmişdim, Ədalət, o gün,
başıma yığışdı nə qədər uşaq.
Rayona köçübdü dedilər Ağgün,
dedilər,
o bir də qayıtmayacaq.
Təmizə çıxmışdı Ağgünün adı,
o, üçüncü kürsa qayıtmalıydı.
Gərək oxuyaydı…
bu da məhəbbət,
qız sənin əlindən getdi, Ədalət.
Görünür, onun da taleyi budur,
bir ümid dünyada puç olur daha.

İnsan tutduğundan xəbərsiz olur,
xəbər tutanda da
gec olur daha.
Ədalət gördü ki, o eyham vurur,
sözləri haqlıdı, ürəyi həssas.
– İlham, düz deyirsən, bir məqam olur, –
keçdimi,
təzədən geri qayıtmaz.

* * *

O axşam hardasa
gedib içmişdi,
bir az gec qayıtdı evə Ədalət.
Gəlin təzə bəydən bərk incimişdi,
qolları üstündə yatırdı fəqət.
Onun qulağında bir səs, bir səda,
gözü fikirliydi,
fikri qorxulu.
Ağgün qəlbindəydi, gəlin yanında,
yarıoyaq idi, yarıyuxulu.
– Bu dünyada bir dünyam var, narahat,
mən özüm də narahatam, nə vaxtdı.
Qolum üstə sən yatırsan bu saat,
ürəyimdə başqası var,
oyaqdı.

İlham deyirdi ki, axırı budur,
bir ümid dünyada puç olur daha.
İnsan tutduğundan xəbərsiz olur,
xəbər tutanda da
gec olur daha.

## *AĞGÜNÜN BAĞÇA MÜDİRƏSİNƏ MƏKTUBU VƏ ƏDALƏTİN ETİRAFI*

Çox çəkdi İlhamın müdafiəsi,
təbrik elədilər güllə-çiçəklə.
Avtoqələm oldu dostun töhfəsi, -
Ədalət
          öpdü də onu ürəklə.

İlham son söz dedi qalxıb kürsüdən,
alqışlar susdurdu cavan alimi.
Gedib professor öpdü üzündən,
danışdı
          ikinci opponent kimi.

Razıydı İlhamın istedadından,
çoxdan tanıyırdı, -
tələbəsiydi.
Xeyir-dua verdi o öz adından,
bu da kafedranın ənənəsiydi.

Dostlar saxlamışdı İlhamı zalda,
"Təşəkkür!"
"Sağ olun!!!"
O, baş əyirdi.
Bir laborant qız da bu dar-macalda,
gözünü tələsik sürmələyirdi.

Həyatın qəribə dəmləri olur,
o qızın nə tanış gözləri vardır.
İnsanlar elə bil
                    ekiz doğulur,
Ağgünə gör necə bənzəri vardır.

Səsi təbiətin doğma səsiydi,
Hardasa yad oldu amma Ədalət.
Ağgün –
təbiətin hadisəsiydi,
gizlədi sonradan onu təbiət.

Bir az qayğılıydı, bir az pərişan,
bağçaya yollandı ordan Ədalət,
mənəvi sarsıntı, ruhi əziyyət
o indi görürdü,
varmış doğrudan.

Qabaqlar deyirdi: yalandı sevmək,
bəlkə də yalandı sevirəm demək,
həyatda şəhvət var, bir də ehtiras,
yoxsa yer üzündə cəmiyyət artmaz.

İnsan qocaldıqca bədən soyuyur,
Nə gözdə nur qalır, nə qolda qüvvət.
Nə onu duyurlar, nə də o duyur,
Əlvida, ey həyat…
bu da təbiət.
Ədalət gedirdi ürəyində köz,
Yanıb-yaxılırdı,
öz qənimiydi.
Məhəbbət – Ağgünə bənzədilən söz,
Ağgün – məhəbbətin sinonimiydi.

Ədalət bilirdi gedibdi Ağgün,
bağçanın yolları nə səssiz olub.
Bəs niyə gəlmişdi? –
Sual verməyin,
məhəbbət qədimdən məntiqsiz olub.

Bunu yaxşı bilir Ədalət özü,
həyatda nə vardır sevgiyə əvəz.
Ayrıca
          məntiqdi məhəbbət özü,
ürək məfhum kimi hallana bilməz.
Bağça müdirəsi gəldi qabağa,
tanış nəzərlərlə baxdı qonağa,
– Buyurun.
– Sağ olun.
Əl tutdu onlar,
Ədalət dedi ki, bir mətləbim var,
Ağgün eşitdim ki, gedib rayona,
istədim bir məktub göndərim ona.
Gəldim,
          ünvanını öyrənim yalnız,
yoxdur gedən gündən xəbər-ətəri.
– Məncə… Ədalətdi sizin adınız,
Ağgün xatırlardı…
                              belə ötəri.

Bağça müdirəsi tanıdı yəqin,
qatdı-qarışdırdı sözü rəng ilə.
-Sizin adınızı çəkirdi Ağgün
arabir…
          xüsusi bir ahəng ilə.
(Mən indi gördüm ki, qurtarıb sözüm,
düşmən hücum etdi, dost yada döndü.
Birinin
          üzündə soyuq təbəssüm,
birinin
          alnında tər oda döndü).

– O məktub yazıbdı, sizdən şikayət,
nədir şikayəti?
Sizə məhəbbət.
Mübtəda Ədalət, xəbər Ədalət,
təyin Ədalətdi, zərflik Ədalət.
(Baxça müdirəsi heykəltəraştək
yondu elə bil ki, daş Ədaləti, –
boynunda qalstuk,
                    əynində pencək,
üzündə-gözündə könül həsrəti).

– Məktubu verirəm, siz də oxuyun,
gərək üstünüzə qəm ələnməsin.
Sonra ya qaytarın,
ya ayrı qoyun,
Həyat yoldaşınız şübhələnməsin.

Ədalət, bu sözə baxma birtəhər,
gərək ürəyində bir səbir olsun.
Şübhə nəm kimidi,
                    düşsə çürüdər,
ya dəmir ağacı, ya dəmir olsun.
Ailən dağılar, bir az ayıq ol,
Ədalət,
          kişidə iki ad olmaz.
Gəlin istəyirsə, sən də layiq ol,
evdə, ailəylə zarafat olmaz.

Ağgün qəm gətirdi, sevirsən onu,
amma bu dünyanın boz üzü sərtdi.
Qəm də ləyaqətdi, qoru sən onu,
sevinc – gözəlliksə,
                    qəm – ülviyyətdi.

Ağgün könül verdi sədaqət ilə,
Ədalət, gör sonra kim şərə düşdü?!
Özünü mətbəxdə gizləmə belə,
sirrin
                vərəqlərdən dillərə düşdü!
(O niyə verirdi məktubu görən,
ona ki yazmayıb, niyə oxusun?!
Ağgünün sözündən xəbərsiz gələn,
barı
taleyindən xəbərdar olsun).

Ədalət yatmışdı, guya oyandı,
evdə sönən işıq
                                mətbəxdə yandı.
Gecə saat iki, saat üç idi,
dünya yuxudaydı, Ağgün yuxuda.
O, Ağgün! – desə də,
                                                daha gec idi,
səs verən yox idi ona dünyada.

Məktub – doğma evin yad iqlimiydi,
qurtara bilmirdi, roman kimiydi.
Elə roman idi əslinə baxsan,
Heyif ki,
                həcm ilə ölçülür roman.
Yazıb ömrü boyu kimsə xam qalır,
Hardadı sənətin abrı, isməti.
Bir roman yazırlar,
                                bir kəlam qalır,
o da hər yazının olmur qisməti.
İndi dərk edirdi bunları fəqət,
nəşriyyat müdiri bizim Ədalət.

Gecədən keçsə də, qalxıb çay qoyur,
dəmləyir əzəlki bir adət ilə.
Məktubu mətbəxdə açıb oxuyur,
Ədalət düşünür
ədalət ilə.
Bağçaya yazmışdı məktubu Ağgün,
kimin əllərinə keçdi o, görən.
Bilsəydi Ədalət alıb baxacaq,
bir cümlə yazardı məktuba ancaq.
Yazardı: Ədalət,
siz xoşbəxt olun,
başqa bir niyyəti yoxuydu onun.

"Gələndə görüşüb vidalaşmadım,
üzr istəyirəm, mən haqsız oldum.
O vaxt ürəyimi sizə açmadım,
açdım o kəsə ki, mənasız oldum.
Uçdu dövlət quşum,
qırdı qəlbimi,
əlimdən bilmədim heç hara düşdü.
Biz çayda üzürdük balıqlar kimi,
mən sudan quruya,
o tora düşdü.
Həyatda o idi mənim həyatım,
etiraf qıza da, məncə, ar deyil.
Qızlıq ismətimi mən bağışladım,
Ədalət –
bəlkə də günahkar deyil.
Görüşdük, beləcə ötüşdü illər,
mən də qadın kimi yaşadım, ərsiz.
Mən ölü qundağı
sonra birtəhər,
gizlicə basdırdım ondan xəbərsiz.

Analıq hissini duydum o gündən,
gördüm, hər məqamda dəyişir insan.
Mən ana olmuşdum –
adım qız ikən
                    o ata olmuşdu –
subay bir oğlan.
Atası hardasa hiss eləmişdi,
məni ömrü boyu bəlkə unutmaz.
Çağırıb yanına mənə demişdi, –
Bizim ailəylə
                    səninki tutmaz.

O vaxtdan dəyişdi mənim həyatım,
arabir ağladım bu qismət üçün.
O vaxtdan bağçaya meylimi saldım,
sizə minnətdaram –
                    mərhəmət üçün.
Bu qız bilmirdiniz kimdi, nəçidi,
sirrim açıldıqca, mən sirr olurdum.
"Ağgün tərbiyəli tərbiyəçidi", –
tərif deyirdiniz,
                    təhqir olurdum.
Bəlkə sizə yaddı bu hiss, bu duyğu,
nədir, mən bilirəm hissi yaşamaq.
Nə qədər çətindi
                    bir ömür boyu,
daim göz önündə gizli yaşamaq.

Toyuna getmişdim mən Ədalətin,
təhqir olunmağa şəxsi rəyimlə.
Özgəsi getsəydi, danlardım yəqin,
Özüm bacarmadım
                              öz ürəyimlə.

Sizə… danışardım yeri düşsəydi,
düzdür ki, keçənə güzəşt deyərlər.
Bəlkə yad oğlanla mən görüşsəydim,
o toya getməzdim…
ancaq bu qədər.
Mən öz tutduğuma indi yanmıram,
yazılan yazılıb, olan – olacaq.
Daha məhəbbətə
mən inanmıram,
O vaxt Ədalətə inandım ancaq…"

Ədalət çaşmışdı məktub əlində,
gör nə qərar verib, nə fərman yazıb.
Onun nə sonunda, nə əvvəlində,
nə bir tarix qoyub,
nə ünvan yazıb.

Nəydi radionun gecə dalğası? -
Məşhur bəstəkarın təzə mahnısı.
Sözlər hər pərdədə
qəlbə dəyirdi,
Ədalət mətbəxdə gecələyirdi.
Bir səs qulağına gəlirdi onun, -
"Gərək üstünüzə qəm ələnməsin.
Məktubu qaytarın,
ya ayrı qoyun,
Həyat yoldaşınız şübhələnməsin".

Ədalət mətbəxdə, gəlin otaqda,
ikisi bir yerdə, ayrı bir səhər!
Ədalət mətbəxdə, Ağgün uzaqda,
ayrı olsalar da
bir yerdəydilər.

* * *

Səhər şəfəqlərilə
yer üzü nurlanırdı.
Şehdə çimən təbiət
gündə qurulanırdı.
Dünyada bir təzəlik,
həyatda bir təravət.
Hər gün təzə doğulur
elə bil ki,
              təbiət.
Oyaq idi Ədalət,
ayılmışdı gəlin də.
O fikir dünyasında,
bu xoşbəxtlik selində.
Çatmırdı gənc ərinə
gəlinin həssaslığı.
Bəlkə
təzadlardadı
həyatın tarazlığı?!

Gülümsəyirdi gəlin,
gəlin başqaydı bu gün.
Bir məqam axtarırdı
sirrini açmaq üçün.
İpək, tül pərdə kimi
saçları yayılırdı.
Gah yuxu aparırdı,
gah qəfil ayılırdı.
Dünya
saray kimiydi,
gəlin –
              şahzadə, pəri.

Ədalət tanımırdı
tanıdığı gözləri.
Gülümsəyirdi gəlin,
– Deməliyəm, Ədalət.
Deyimmi?
– De.
– Deyimmi…
Hamiləyəm, Ədalət.
Ən böyük səadəti
xəbər verirdi gəlin.
Uşaq sevinciydi bu
uşaqsız
            ailənin.
– Atamdan, ailədən
Utanıram, nə bilim;
amma istəyirəm ki,
bilsin rəfiqələrim.
İyirmi beş yaşında
biri gedibdi ərə.
Beş il keçir, Ədalət,
uşağı yoxdu hələ.
İndi uşaq evindən
uşaq götürüb xəlvət, –
o qədər şaddılar ki…
mən də şadam,
Ədalət.

Sual verirdi gəlin,
dalbadal neçə sual.
Dinləyirdi Ədalət,
qulağı kar,
            dili lal.

Gülümsəyirdi gəlin,
o, iki nəfər idi.
Tək qalmışdı Ədalət,
dünya birtəhər idi.

* * *

İşdə də o sözü xatırlayırdı, –
Ata olacaqsan demişdi gəlin.
"Qadın səadəti bundadı yəqin,
qadın ikiləşir,
bölünür, artır,
beləcə, çoxalır insan bələkdən,
əvəz olunuruq əvəzsiz ikən…"

Ədalət həyatı indi duyurdu,
indi dərk edirdi nədir bu nemət.
Stolun üstündə çay soyuyurdu,
içindən qızırdı amma Ədalət.
"Nə səsinə getdim, nə naləsinə,
nə çağırdı məni…
bu da məhəbbət.
Dərd verdim Ağgünə həzz əvəzinə,
taqsırı nə idi?
Mənə sədaqət.

Qadın var, gizlində mənimlə gəzir,
üzdə öz ərinin üstündə əsir.
Namusdan danışır dözümün altda,
"sədaqət sayılır görünür, bu da…"

Ədalət özünü asıb-kəsirdi,
Soyuq ürəyində yellər əsirdi,
Nəydi bu dünyada qəsdi-qərəzi,
Ağgünün taleyi bükürdü onu.
"Hamiləyəm" deyən
gəlinin səsi
evə, ailəyə çəkirdi onu.

Yaşadı bir qəlbin min əzabını,
yüz ölçdü,
            bir biçdi,
                        geciydi daha.
İlham icazəsiz açdı qapını,
Ədalət sevinclə qalxdı ayağa.
Qapının ağzında öpüşdü onlar,
günləri, ayları saldılar yada.
İlhamın getdiyi neçə il olar,
alim qayıtmışdı o, nəşriyyata.
O indi
elmlər namizədiydi,
fikrində, hissində daha qətiydi.
Üz-üzə oturub danışırdılar,
təzədən qaynayıb-qarışırdılar.
İlham görürdü ki, başqadır tamam
Ədalət dəyişib.
– Amma, ay İlham,
vəzifə stolu sıxır arabir,
görürəm, ürəyim bərk narazıdı.
Bizdə tərsinədi – vəzifə hərdən
sui-istifadə eləyir məndən.

Görürəm, bu dünya qəm dünyasıdı.
Bir işləyən olur,
bir də dişləyən,
var, İlham, mənim də xətrimə dəyən.
Üzündə,
səsində,
nəfəsində kin,
gəlir bir həyasız bəzən "ərk" ilə.
Üzünə tüpürmək istədiyimin
keçirəm, dalınca öskürmək ilə.
Nitqində kommunist tələbkarlığı,
şübhəli gözündə xəbis varlığı,
doğma sözümüzü pis yozub ölən,
yıxılan görəndə baltalı gələn,
meşşanlar!
Saçlarım ağardı, İlham,
Ədalət tutulur.
– Ağırdı, İlham.
Demə vəzifənin hökmü böyükdü,
Harda hökm varsa,
orda da can var.
Mən indi bildim ki, vəzifə yükdü,
yük altda daimi bir imtahan var.

İlham qulaq asdı, İlham dinlədi,
İlham danışanda, sinəm göynədi.
Gördüm ki,
yarası yaram olubdu,
Hardasa halalı haram olubdu.
Gördüm ki, mənimdi fikri, əzabı.

– Mənə dərs verdilər saathesabı.
Dedilər, özünə iş tap birtəhər,
                    ştatlar tutulub.
Düz deyirdilər.
Çoxu qohumbazdı, yerlipərəstdi,
amma millət deyir, millətə qəsddi.
İndi hər kafedra –
                    bir xanlıq olub,
Hər alim –
          ayrıca dekanlıq olub.
Birinin qoluna toxunsan əgər,
bütün sitatları əzbərdən deyər.
"İlham danışandı" –
                    deyirdi atan,
xətrinə dəyməsin, inciyəm ondan.
İtir, qaralanır fikrin sədləri.
Elmə hökm eləyir
                    bəzən bir əda.
Hər axşam elmlər namizədləri,
sənətdən danışır televiziyada.
Qəribə qərəzlə
                    qəribə dillə,
başlayır qəribə müqayisələr.
Sabirlə,
          Homerlə,
Mirzə Cəlillə…
Gözümdən düşübdü, vallah, dahilər.
Nadan arifanə deyir sözünü,
bilikli yerinə qoyur özünü.
Dəstələr düzəlib söz demək olmur,
Həqiqət deyirsən,
                    həqiqət budur.

Həyat maraqlıdı, darıxma, İlham,
tərcümeyi-halda sənə qohumam.
Keçdim o yolları,
arxada qaldı,
uzaqda, hardasa bir ada qaldı.
O gün bir ağsaqqal baş bulayaraq,
dedi: siz heç kəsə böhtan deməyin.
Dedi:
istedadın səhvini heç vaxt,
boğazına salıb sürütləməyin.
Mənə ilhamımı çox görürdülər,
mən öz taleyimi görürdüm, İlham.
Desəm, –
aşıq demiş, –
öldürürdülər,
deməsəm –
mən özüm ölürdüm, İlham.

Təzə yaranırdı onda bu əsər,
məni telefonda hədələdilər.
İzahat istədi məndən bir nəfər,
Mənim məhkəməmi qurdular, İlham,
Üzlülər
üzümə durdular, İlham.
Ədəbi şeytanlar məni dandılar,
bir para yaltağa yaltaqlandılar.
Üzümə dedilər
yazma, kənar dur,
namərdin əlinə keçmişdi fürsət.
Mən yazdım, gələndə yazmamaq olmur,
Yazdım ki,
"Qoy zəfər çalsın ədalət!".

* * *

İlham Şekspiri çox oxuyardı,
bir də Evripidi həssas duyardı.
Antik fəlsəfəni varaqlayardı,
Sezarla,
            Hegellə maraqlanardı.
Aşıq Ələsgərdən əzbər deyərdi,
qoca Herodota
                        o, baş əyərdi.
Astiyaqla bağlı əfsanələrdən,
ağıllı fikirlər deyərdi hərdən.

Amma narazıydı o, dünyamızdan,
Deyirdi
            neytron kəşf edir insan.
Göydən stronsi yağışlar yağır,
qışda gün yandırır, yayda qar yağır.
Üzeyri dinləyib, o, məst olurdu,
fikri açıq idi,
                        sərbəst olurdu.

"Yeni yazanlar çıxıb,
            yeni ədəbiyyatdı.
Yazırlar ki, təzədi,
            oxuyuram,
                        boyatdı.

Halal olsun
　　　sənətin öz yiyəsinə,
mən həmrəyəm
　　　düz söz ilə, düz rəy ilə.
Şekspirin,
　　　baxan yoxdu pyesinə,
tamaşa var, təriflənir
　　　"bəh-bəh" ilə.
Atabəylər meydanından
söz düşübdü,
　　　bizdən fikir soruşsalar,
　　　biz deyərdik, –
Qızıl Arslan Nizamiylə
görüşübdü,
bir abidə qoysaydılar,
　　　sevinərdik".

– Nə yaxşı, ay İlham? –
　　　　　　　dedi Ədalət,
səsində, sözündə İlhama hörmət.
Səni, istəyirdim, təbrik eləyim.
Diplomun gəlibdi.
– Sağ ol, almışam.
Keçirdim, qalxdım ki, bir sənə dəyim.
Bəlkə görüşmədik.
– Nə sözdü, İlham?
– O söz ki, Ədalət, gedirəm kəndə,
Gələrsən yanıma, meylin çəkəndə.

– Qayıt nəşriyyata, bir ştat alaq,
əl-ələ verərik…
bir yerdə olaq.
– Kənddə də həyat var, gərək qayıdam.

Açıq danışırdı fikrini İlham,
Bir də Ədalətdən nə danmalıydı,
kimi var, oduna o yanmalıydı.
– Şəhərdə,
nə deyim,
vallah, Ədalət,
xırda tayfalara bölünüb millət.
Hərə özününkünü çəkir qabağa,
kimsə başa keçir, biz də ayağa.
Deyirlər,
yazırlar hələ nə qədər,
şüurlar nə zaman yetişəcəklər?!
Dəyişib elə bil bu dünya bir az,
bəzən unudulur insan həyatı.
Füzuli dirilsə,
hörməti olmaz,
nə fəxri adı var,
nə mükafatı.
– Qayıt nəşriyyata.
– Yox, yox, Ədalət.
Götür-qoy elədim, budur məsləhət.
Taleyin hər yerdə üzü gülməyib,
demə, bu söhbətim ancaq nalədi.
Kənddə də yel əsib qoz tökülməyib,
bilirəm hamsını…
görək, taledi.

Ədalət dedi ki, lap qəribədir,
gör necə ilişib
                    günəş buluda.
Qəlbində nə varsa, danışdı bir-bir,
oxudu Ağgünün məktubunu da.
– Onda vəfa gördüm, bir də sədaqət,
kim gedib Ağgünün özünə desin…
Arada fikirli susdu Ədalət,
peşiman olana
                    İlham nə desin?!
– Sən özün özünə dayaqsan, İlham,
ya orda kənd olsun, ya burda paytaxt.
Sən mənim yerimə layiqsən, İlham,
mən
sənin yerini tutmuşam ancaq.

– Yox, yox, darılmıram, Ədalət, inan,
özün bilirsən ki, bu, mənə yaddı.
Bir layiq olan var,
                    bir də yer tutan,
biri – nəzəriyyə, biri – həyatdı.
Çıtırğı gül açır bir ağac bəzən,
heyranam həyatın fəlsəfəsinə.
Qoruna bilmirsə qardan, küləkdən,
bəhrəsi nə olur axırda… heç nə.
Yazan kim olsa da,
                    pozan həyatdı,
oğulsan tab gətir, əhsən! – həyatdı.

İlhama qibtəylə baxdı, nəhayət,
gördü ki, qəlbinə bir işıq düşüb.
– Bir az qəribədir, –
dedi Ədalət, –
yaxşılar pislərlə qarışıq düşüb.
Gör necə başladım, necə bitirdim,
nə olsun, mən indi nəşriyyatdayam.
Ağgünü itirdim,
səni itirdim,
əslində özümü itirdim, İlham.

* * *

Qədim pillələri enirdi İlham,
gəldiyi kimi də dönürdü İlham.
Gedirdi
özündən-özünə doğru,
enişdə-yoxuşda yol aça-aça.
O da vətənpərvər bir vətən oğlu! –
Su səpən yox idi amma dalınca.
Hardasa,
bir nəğmə oxuyurdular,
Elə bil İlhama toxunurdular.
Ədalət donmuşdu məktub əlində,
qəlbi odlanırdı onun dilində;
– Qulaq as,
efirdən gələn bir səsə,
"Səadət hər kəsin öz əlindədir".
Səadət hər kəsin öz əlindəsə,
bizim çəkdiyimiz iztirab nədir?..

## *AĞGÜNÜN İLHAMA MƏKTUBU VƏ ƏDALƏTİN İLHAMIN GÖRÜŞÜNƏ GƏLMƏSİ*

### I

Köhnə kitablarını
töküb-töküşdürürdü.
İlham indi görürdü:
annotasiya – tərif,
ön söz əvəzi – tərif,
astarı-üzü tərif.
Reklam –
        yəni bu qədər!
Kitab deyil,
                elə bil
başmaq tərifləyirlər.
Ədib deyil,
                elə bil
pustalçı tərif olur,
oxucu hərif olur?!
Nə bilim, "xalq şairi",
ya qeyri xalq şairi.
Bəs necə adlandıraq
misal üçün Sabiri,
ya Aşıq Ələsgəri?!

Seçirdi kitabları,
        əsəbiydi o yəqin.
Deyirdi "xidmətidi"
bunlar da
        Ədalətin.
– Bir yandan filankəsin
artır xətri-hörməti;

bir yandan ucuzlaşır
kitabının qiyməti.
Azalır oxucular,
satıcılar dərd çəkir.
Müəllifin yerinə
millət
        xəcalət çəkir.
"Atabəylər dövləti",
Didro,
        Vurğun,
                Arrian,
Sonra "Dədə Qorqud"u
bir tərəfə qoyurdu,
qalanını kənara.
– Kağız defisit olub,
kitab makulatura.

Sinəsində bir ağrı,
bir gizilti duyurdu.
Gecə saat ikiydi,
uzanıb oxuyurdu.
– Ən qədim tayfalardı
İskitlər,
        bəs Qəbələ?!
Qədim "əlif-beyimiz",
ən ulu taleyimiz.
At oynadan
        cəllada,
        qələm tutan
                ələ bax.
Bir az qaldır başını,
eradan əvvələ bax.

Herodotu xatırla,
Strabon nə deyir? –
Azərbaycan
                    ən qədim
xalqlardan da qədimdir.
Midiyada
Atropat,
Azərbaycanda
Babək, –
fərmanlar veribdisə
taleyimiz var demək.

* * *

İstəyirdi yatmasın,
oyaq qalsın o gecə,
son dəfə,
          ürəyincə.
Sabah yola düşəcək,
sabaha nə qalırdı,
eh, daha nə qalırdı.
Yatdı, yuxu apardı,
çatıldı qalın qaşı.
Qədimlərdə dolaşdı
təxəyyülü,
          yaddaşı.
Bir az qabaq elə bil
o deyildi danışan,
tüstülənən,
                    alışan.

Silinmişdi üzündən
qayğıları dünyanın.
Yuxu sığal çəkirdi
əsəbinə İlhamın.
Sabah yola düşəcək,
sabaha nə qalırdı,
eh,
    daha nə qalırdı.

## II

Gün güzgü tutmuşdu pəncərələrdə,
qalxıb geyinmişdi İlham eloğlu.
Fikiri kənddəydi,
                özü şəhərdə,
yarıoyaq idi, yarıyuxulu.

Arxaya boylandı, qabağa baxdı,
bir tərəf həsrətdi, bir tərəf arzu.
Həsrətdən arzuya –
                mənzil uzaqdı,
bəzən bir ömürlük yol olur azı.
Həyatdı, sirləri dərindi onun,
nə qədər istəsən bir də çevir, çək.
Əvvəli
addımla başlanan yolun,
sonu harda bitir?..
                eh, kim ölçəcək.

Çamadan yanında,
                məktub əlində
elə bil qatardan qalmışdı İlham.
Doğma kənd yolunun lap əvvəlində
Ağgündən bir məktub almışdı İlham.

Bir az tələssəydi, daha geciydi,
dalınca kimiydi düşüb axtaran.
Məktubu İlhama çatdırdılar ki, –
indicə gətirdi poçtalyon oğlan.

Ağgün yalvarırdı:
                    "Gəlirəm, İlham,
kənddə taleyimdən bezaram daha.
Sən ki, şəhərdəsən,
                    qərar tutaram,
pozulan bəxtimi yazaram daha.
Mən indi bilmişəm –
                    ləyaqət, filan,
sən demə, diplomla ölçülür, İlham.
Mən ölmüş neyləyim, mən günahkaram,
mənə nə desələr susaram daha.
Uzağa atılan ağır bir daşam,
dünyaya yaz gəlib,
                    mən burda qışam.
Nə ayaq üstəyəm, nə yaxılmışam,
özüm öz yolumda hasaram daha...".

Tərpənə bilmədi durduğu yerdən,
tikildi torpağa iynə-sap ilə.
İlham bulud olub tutuldu birdən, –
İlham
          yağmalıydı bu hesab ilə.

– İlahi,
          nə çəkir bu qız o gündən –
İlham eşitmişdi bir özgəsindən,
İnsanın düşməni
                    qəmdi, kədərdi,

qadın fikir çəksə
daha betərdi.
Qadın köks ötürsə solur elə bil,
qəm çökür hüsnünə duman-çən kimi.
Əslində çürüdür qadını nisgil, –
nəm – misi
dəmiri çürüdən kimi.

Dərdini danışsan dərdsizə bir gün,
yəqin danar onu,
deyər nə olsun.
Hələ bir bədbəxtin taleyi Ağgün,
qəzetə düşməyib nümunə olsun.
Kimsə xəbərsizdi yəqin həyatdan,
dünya ondan ötrü zövq-səfadır.
Onun nəzərində xoşbəxtdir insan,
qayğısız,
fikirsiz bir müqəvvadır.

Dünən bir kolxozçu nitq eləyirdi,
Filan plenumdan
əzbər deyirdi.
Elə bil raykomun o, katibiydi,
rəqəmlər gətirib məntiq qururdu.
Ağız onunkuydu,
söz özgəninki,
ekrana düz baxıb səhv oxuyurdu.
Onu iş yerində gedib dinləsən,
Elə danışar ki, deyərsən əhsən!
Duzu,
koloriti,
ləhcəsi,
andı,
görərsən necə də qəlbə yatandı.

Gərək ürəklərdən götürək sözü,
nüfuzu itəndə söz şərə düşər.
Bəlkə də insanın öz ürək sözü,
öz dilindən çıxsa
dillərə düşər.
Sən bir də Ağgünün məktubuna bax,
Gör orda nə yazır:
"Bilməzdim heç vaxt,
kənddə də kiminsə bəxti üzdədi.
Bir işdən ötəri İlham, nə müddət, –
kişilər –
xəlvəti görüş istədi,
qadınlar
hədiyyə adıyla, rüşvət".

* * *

Qabaqlar,
nə vaxtsa,
belə deyirlər,
böyük vəzifəni tutan bir nəfər
nərddə uduzubdu bir müğənniyə,
ondan "xalq artisti" udub o qoçaq.
Sonra sinəsinə o, döyə-döyə
deyib mən ustadam,
deyib "Mən və xalq!"
Belə qiymətlənib sənət, sənətkar.
Onun da millətə xidməti buydu,
yıxıldı,
göz açıq, baş yuxuluydu.
Şair, qiymətini sən eldə axtar.

– Nə qədər dəyişib vaxt ondan bəri,
bu da rayon yeri,
hələ kənd yeri, –
deyib öz-özünə təsirlənirdi,
İlhamın başına yer hərlənirdi.
– Gör dünya axırda necə dar oldu,
nə qədər ağırdı yolları ömrün.
Yazmır ki,
Ədalət günahkar oldu,
günah özündədi…
nə deyim, Ağgün.

Bəlkə tələsikdi bu qərar, İlham,
bir az mürəkkəbdi qadınlar, İlham.
Qadın olan yerdə –
gizli sədd olur,
gərək hiss edəsən bu haqq-hesabı.
Qadın olan yerdə –
məhəbbət olur,
məhəbbət olanda xoşdur əzabı.
Ağırdı qadını ittiham etmək,
ya daim günahı qadında görmək.
Qadın əzabkeşdi,
iztirabkeşdi,
o qəmin yanında bizimki heçdi.
Özü dərk eləmir bəzən özünü,
ürəksizə deyir ürək sözünü.
Qadın iztirabsız yaşaya bilməz,
taleyi dolaşıq,
özü müqəddəs!

Qədim Amozonka qızları varmış,
vəhşi at belində
ov ovlayarmış.

Kişi paltarında girib səngərə,
düşmən öldürməmiş getməzmiş ərə.
Evdə qocalarmış
qarıyarmış o,
bəzən qisas üçün ağlayarmış o.
Nə bilim,
ən ulu bizim nənələr,
qanunlar,
qaydalar
və ənənələr, –
qadında sədaqət, vəfa, etibar.
Bir az zor sevirmiş deyirlər onlar.
Əzaba dözürlər sevda yolunda,
yalnız sədaqətə boyun əyirlər.
Qadının
bədəni təhqir olanda,
qadın ürəyinə
xoşdu deyirlər.
Əzəl qanunudur bəlkə həyatın,
dünyanın sirri də bundadır, əlbət.
Belə danışırdı mənə bir qadın,
nə Ağgün eşidib,
nə də Ədalət.

"Sən ki, tanıyırsan məni, ay İlham,
nə deyim, mən sənin doğma bacınam.
Sənə ərkim çatır,
ürəyim qızır,
sən allah, incimə, demə nə yazır.
Bəzən hisslərimə əsir oluram,
özüm özüm üçün bir sirr oluram.
Neyləyim,
qəribə xasiyyətim var,
amma dözməliyəm, heysiyyətim var".

Qəlbindən bir şübhə keçdi, doğrusu,
cavandı,
tutuldu İlham heç nədən.
– Bəlkə Ədaləti görmək arzusu,
şəhərə qaytarır onu təzədən?
Mən başdan-ayağa mərhəmət idim,
Ağgün mərhəmətdən,
insafdan uzaq.
O vaxt bir görüşə mən həsrət idim,
İndi
"...doğma bacın!"
təzadlara bax!
"Səndən nə gizlədim,
İlham, ay İlham,
əvvəl öyrəndiyim çıxıb yadımdan.
Elə bil hər şeyi yadırğamışam,
o vaxt mən deyildim,
"əla " oxuyan?!"

– "O vaxt mən deyildim?..."
Sən idin, ancaq,
şeir köçürmüşdüm dəftərə o vaxt.
Niyə haqsız olur bunca təbiət,
niyə ürəyinə o dəyir sənin?
Kimsə camalını görməyə həsrət,
kimsə
görüşünə gəlməyir sənin...
Yox, yox, mən qıymaram,
Ağgün əyilsin,
ya onun adına bir söz deyilsin.

Ya da irad tutsun o qıza bir kəs,
Ağgünə
qara gün heç kim istəməz.
Beləcə, geriyə qayıtdı İlham,
beləcə,
dəyişdi onun qərarı.
Sənin ürəyinə mən minnətdaram,
o ürək çəkəcək
bu ağrıları.

## III

Gəldi aspirantlar,
görüşdü İlham,
yenə yataqxana, yenə o otaq.
– Ağgün məktub yazıb,
qayıtmalıyam,
yarımçıq qoyubdu təhsili o vaxt.

Sonra göz gəzdirdi o sola, sağa,
bir az gülümsədi.
– Lap işə düşdük, –
axşam vidalaşdıq, səhər görüşdük.
Bir nəfər dedi ki,
ay İlham qağa,
təki biz həmişə bu işə düşək,
axşam vidalaşaq,
səhər görüşək.
– Qayıdır,
kənddə də tutmayıb qərar,
kimdi onu görən o yolda-izdə.
"Əxlaqsız" adıyla çıxartmışdılar,
ən yaxşı qız idi fakültəmizdə.

Bəzən nə qızarır,
nə utanırlar,
gərək itirməsin insafı nadan.
Əsl həqiqəti elə danırlar,
düzə yox,
yalana inanır insan.

## IV

Amma kafedrada başqaydı söhbət,
bitmişdi müdirin "sual-cavabı".
Xüsusi gəlmişdi o gün Ədalət,
Cədvələ düşürdü
saathesabı.

Dedilər o gedib –
İlham, – haçandı,
özüylə gedibdi fikri, əzabı.
Nəşriyyat müdiri lazım olandı,
Cədvələ düşürdü
saathesabı.

Eyham vururdular: – düzünü desək,
bizim alimlərin azdı kitabı.
Ədalət susurdu gülümsəyərək,
Cədvələ düşürdü
saathesabı.

Bir az professor təriflənirdi, –
atası,
adətdi nüfuza hörmət.
Kənardan təmkinlə kimsə deyirdi, –
elmi iş götürüb yazsın Ədalət.

(Ədalət naminə deyim ki, hərçənd,
çox da can atmırdı buna Ədalət.
Amma kafedrada təkid etdilər,
guya dərs deməsə,
nəsə itirər).
Var idi bir nəfər, İlhamı dandı,
Ədalət utandı,
ürəyi yandı:
– Yox elə deməyin, dərindi İlham,
biz bir oxumuşuq, mən tanıyıram.
…Tərcümə göndərdim,
babat bir əsər,
dedim ki, qazansın barı bir qədər.
Üstümə qaytardı müqaviləni,
düz başa düşmədi, görünür məni.
Rayona gedibdi elə o axşam,
məni eşitmədi,
qalmadı İlham.

Bir an kafedrada dəyişdi söhbət,
müdirin başqaydı sual-cavabı.
Xüsusi gəlmişdi o gün Ədalət,
cədvələ düşürdü
saathesabı.

**V**

İlham parçı doldurub
gülləri sulayırdı,
başını bulayırdı.
– Eh, ay İlham,
ay İlham.

Dibçəkləri aparıb
                    verməmişəm bir kəsə.
Su içib,
        gün görməsə
                    quruyardı yarpağı.
Daşa dönüb torpağı,
                    beləcə sığal istər
                    insan da
                                çiçək kimi.

Tutuldu bulud kimi,
                    döyündü ürək kimi.
Güllərin gövdəsində
                    ilişib qaldı gözü.
"Dibçəkdə bitən palıd"* –
kəlama bax,
                    sözə bax.
Palıd böyüyəcəkdi,
        dibçək də partlayacaq.

– Hamletə tapşırılsa
taleyi məmləkətin, –
rədd eləyər o yəqin,
məncə,
        apara bilməz.
cəmiyyətdə ləngiyər
bu qədər düşünən kəs.
………………………..

---

* V.Hötenin Şekspirin Hamlet obrazı barədə fikri (*müəllif*).

Ağgün yazıb gələcək,
Ədalət də biləcək.
Ailəsi,
        həyatı,
bütün müqəddaratı
pozula bilər yəqin, –
macərası təzədən
başlasa Ədalətin.

Ürəyi o qızdadı,
bu qismət, bu da yazı.
Kəbini başqasıyla
                kəsilib…
Nə mənası.
Sevmirsə hərə bir cür
həyatda bədbəxt olur,
taleyin qəsdi budur.
Səndən xəbər alsalar
insan həyatı nədir? –
Taleyin əleyhinə
de ki,
        mübarizədir.

İlham parçı doldurub
gülləri sulayırdı,
                başını bulayırdı.
Ah, nələr düşünürdü,
                nələr arzulayırdı.

## VI

Bir qəmə dəyməz imiş
bu dünyanın əzabı,
çalış,
        darılma,
İlham,
fəlsəfi bax həyata.
Bax, sənə dərs verdilər
yenə saathesabı,
"Estetika-etika"
deyilən kafedrada.
Bir az sən sıxılırdın,
bir az sən çəkinirdin.
Onlar susanda - susur,
dindirəndə dinirdin.
Müəllim var -
ateist,
tarixi materialist,
Etika,
estetika,
fəlsəfə,
Hegel və Kant!
Kafedra lap təzədi,
müəllimlər lap cavan.

Kafedra müdirinin
nə mülayim səsi var,
Gözəl hafizəsi var,
Sokratdan misal çəkir,
Hər sözündə bir aləm:

"Bir şeyi bilirəm ki,
mən
heç bir şey bilmirəm".
Danışır Platonun
ideal dövlətindən;
sənətkara,
                    sənətə
Periklin hörmətindən.

– İlham, yaxın gəl, oğlum,
Bu, onun adətiydi.
"Oğlum", "Qızım" deyərdi,
adi nəzakətiydi.
– Sizin Ədəbiyyatda, –
kafedrada,
nə isə, –
        sənin saatlarını
veribdilər kiməsə.
Mən təklif elədim ki…
Arada
        susdu bir an.

– Gərək ədəbiyyatçı
desin estetikadan.
Baumqarten yazır ki,
şair olsun o, gərək.
Dərslik yazaq,
                    bir dönüş,
get indi cədvələ düş.

Bir kitab verdi müdir,
avtoqraf yazdı: "Aslan".

–"Poetika!" –
nəhayət, –
pıçıldadı astadan.
Aristotel,
fəlsəfə,
özünün tərcüməsi,
ilk mətbəə nüsxəsi.

Dilindən necə çıxdı
bilmədin –
"Minnətdaram!"
Yol boyu düşünürdün,
fikirləşirdin, İlham.
Estetika,
etika,
qəlbində dünya sevinc,
əlində
"Poetika".

**VII**

İlham dəyişirdi kitabxanada,
zəkalar qəlbinə işıq saçırdı.
Tarix atlı idi,
İlham piyada,
fəlsəfə adlanan qapı açırdı.

Fikrinin səmtini yellər yayırdı,
təzə görünürdü gözünə aləm.
Arada Sokratı xatırlayırdı, -
"Bir şey bilirəm ki,
heç şey bilmirəm".

– Bizsə deyirik ki, yoxdu tayımız,
bilik dəryasıyıq…
                kimsə xam düşür.
Aləmə sığışmır hay-harayımız,
Elə ki, bir ələ bir məqam düşür.
Hanı təvazökar,
                müdrik babalar,
bizim sümükdən də o ilik keçir.
Niyə sadə olur dahi adamlar,
adinin könlündən dahilik keçir?!

Dil açıb dinirdi tarix elə bil,
qədim Afinaya heyrət edirdi.
– "Katarsis" –
bu təkcə göz yaşı deyil, –
bəzi fikirləri o rədd edirdi.

İlham deyirdi ki,
                fəlsəfə budur,
bir məna yaşayır hər çalarında.
– "Faciə" söhbəti
                düz təhlil olmur,
bir çox ədəbiyyat kitablarında.

Qədim Hindistanı, qədim Romanı,
oxuyur,
        öyrənir,
                qeyd eləyirdi.
– Bəs Şərqin estetik taleyi hanı?!
o qürur hissilə sonra deyirdi:
– Nizami,
        Füzuli estetikası,

Nəvai,
Nəsimi fəlsəfəsi var.
Hələ Xaqaninin fikir dünyası,
ya İbn Sinanın bir əvəzi var?!

Sonra da yozurdu:
"Bu məntiq nədir,
nədir Platonu salan qorxuya?
bu dünya mağara şəklindədir,
biz üzüdivara durmuşuq guya?!
Bu dünya – dünyanın əsli deyildir,
guya kölgəsidir?!
Qəribə şeydir..."

İlham, nələr deyir bu duyğu bizə,
raketlər tuşlanıb yer kürəmizə.
"Dünyanın kölgəsi"
dağılsa əgər,
dünyanın əslini göstərəcəklər.
Platon dövrünə qayıdacaqlar,
onda Platonu oyadacaqlar,
ona deyəcəklər:
qalx, filosof, dur,
yəqin sən dediyin o dünya budur?!
İlham Platona həm heyran idi,
həm də mat qalmışdı,
peşiman idi.
– Dahilik,
xəbislik bir ürəkdədir,
nə var Demokritdən, yığıb məhv edir.
Puç edir,
bir izi qalmasın deyə,
sonra xatirəsi qalmasın deyə.

Mənim könül dostum, bir azca dayan,
sən də pərişansan,
mən də pərişan.
Salyeri Motsarta zəhər veribdi,
amma Bethovenə müdrik məsləhət,"
Bir qəlbə iki hiss necə giribdi,
necə dostluq edib hörmət,
xəyanət?!.
Vurğunu dandılar hələ bir zaman,
"Vaqif" –
şerimizin ən şah əsəri.
Hardasa məni də var indi danan,
çoxdu ələkçinin qıl verənləri.
Gör necə misallar yaradıbdı xalq,
Yatanı
eyhamla oyadıbdı xalq.

Bir bəndim qalacaq məndən yadigar,
bəlkə o bəndi də pozacaqdılar.
Düşmənim güləcək əlində qələm,
tale ikimizə bir sabah verir.
Mən öz düşmənimə həsəd çəkirəm, –
görünür,
ona da zaman haqq verir.

Amma tərifləri zaman çox pozub,
bədgüman olmasın xain özündən.
Mənim sözlərimi
tərsinə yozub,
əslinə baxmasın astar üzündən.

Hardasa, ürəkdə dərin iz qalır,
Kiminsə uğursuz,
qəliz dilində, –
elmi təfəkkürlər təsirsiz qalır
elmi dərəcələr müqabilində.

## VIII

Tək gedib girmədi sinifə İlham,
müdir təqdim etdi:
– Yerimə mənim,
sizə dərs deyəcək İlham müəllim.
Təzə bitiribdi,
elmi adı var.
bizim kafedranın etimadı var,
sizin borcunuzdu hörmət, ehtiram.

Müdir deyib getdi sözünü,
ancaq,
İlham qibtə ilə baxdı dalınca.
Fikirə getdi ki,
nə qəribədir,
o mənə özünün dərsini verir.
Həssas tələbələr duydular bunu,
yaxşılıq hissinin nə olduğunu.
Azdımı, çoxdumu yaxşı adamlar,
bilmirəm,
hardasa yaşayır onlar.
Bir də görürsən ki, yetişir dada,
səni tanısa da, tanımasa da.
Yaxşı adamları daim qoruyun,
yaxşı adamlara halaldı hörmət.

Yaxşı adamlara keşikçi qoyun,
dağılar,
            çürüyər yoxsa cəmiyyət.
Pislər
            yaxşı bilir nədir haqları,
hər sözü üfürüb söz eləyirlər.
Pislər yaxşıları pis eləyirlər,
o zaman qoruyun siz yaxşıları.

Yaxşılar yüz olsa,
                        azdı, bu, mütləq,
pislər iki olsa qalib gələcək.
Hardasa namərddi, o, hardasa lal,
yaxşını vurmaqda,
                        hazırdı dərhal.
Səfərdə, işdə də olma arxayın,
yüz yaxşı söz desən,
                        pozar bir xain.

Yaxşının pislərlə tutmaz söhbəti,
bu düzlüyü sevər,
                        o xəyanəti.
Mənfilər,
            müsbətlər dünyasıdır bu,
bəlkə də dünyanın mənasıdır bu?!

Hər təzə torpaqda şoran havası,
Hər duyan ürəkdə ağrı, acı var.
Pislərin pislərə qahmar çıxması,
yaxşının yaxşıya
                        ehtiyacı var.

Bir-bir yaxşıları gətirdi yada,
İlham sual verdi dərsin sonunda:

– Kimin sualı var?
Ucaldı əllər,
bir nəfər,
beş nəfər,
gör neçə nəfər.

Bir an xatırladı ötən illəri,
qəlbində yatanlar qalxdı ayağa,
(Unutmur beyinin hüceyrələri,
bir səbəb gərəkdir
yada salmağa).
Bir vaxt professor sual verərdi,
– Kimin sualı var? –
o da deyərdi.
İlham yada salıb yandı-yaxıldı,
ayağı üstəydi, fikrən yıxıldı.
Bir sinif suala döndü bir anda,
tək qalan özüydü – sual və nida?!

Sözlər ki, yığılıb ürəyə dolur,
yad əllər dolaşır döş qəfəsiylə.
Söz ki, deyilmədi –
ildırım olur,
sinəni yandırır od nəfəsiylə.

Harda ki, deməyib sözünü insan,
qanı qatılaşıb, neçə rəng olub.
Ürəyi –
söz kimi düz nişan alan,
nə nizə görmüşəm, nə tüfəng olub.

Amma insan da var, gönü qalındı,
fikri xəyanətdi, niyyəti qərəz.

Onun ayağı yox,
başı yalındı,
əlbəttə, söz ona təsir eləməz.
Bir həkim deyirdi: itlər hürürlər,
Ürək ağrısından uzaqdı onlar.
Nə deyim ay həkim,
it hürə bilər,
amma itxasiyyət adamlar da var.

Dəydi xatirimə o gün bir nəfər,
ürəyim alışıb yandı bu oda.
Nadanla
üzbəüz danışmaq qədər,
çətin iş göstərin mənə dünyada.

* * *

Zəng olub söhbəti kəsdi bu zaman,
o gün bir təsadüf, ya bir zərurət
elə gətirdi ki,
gəldi Ədalət, –
onun da dərsiydi ədəbiyyatdan, –
Orda eşitdi ki,
getməyib İlham,
endi pillələri zəng olan kimi.
Ürəyi yerində olmadı aram,
əzəldən o safdı bir insan kimi.

## Epik-dramatik poema. XIX əsr

Ədalət qapıda gözləyir onu,

İlham sinifdədi.
Vaxt çatıb artıq,
bu da iztirabın, oxucum, sonu,
onlar görüşəcək, biz ayrılırıq.

Onların öz sözü, öz söhbəti var,
bilirəm,
mənsiz də dil tapacaqlar.
Amma bu əsərin daha bu gündən,
sahibi sən oldun, müəllifi mən.
Ağgünü,
İlhamı,
Ədaləti sev,
mən sevdim onları neçə il qabaq.
Ayırma mənfidir, müsbətdir deyə,
məni də onlardan ayırma heç vaxt.

***Qafqaz da‹larının u‡a zirvələrindən birinə çıxmışdım... ...U‡a zirvədən üzü aşa‹ı baxırdım. Qoltu‹umda şair dostum Nəriman Həsənzadənin "Zümrüd quşu" kitabı. Şersevər oxu‡ularımız tərəfindən kitabları rə‹bətlə qarşılanan, haqqında arzu etdijimizdən az jazılan, jaradı‡ılı‹ı az ‰jrənilən istedadlı bir şairin jeni u‹uruna sevinə-sevinə da‹lara …əlmişdim. Hər şej u‡alıqdan jaxşı …‰rünür. Nəriman dünənə bu …ünün jüksəklijindən baxır.***

***İndi artıq Puşkin d‰vrünün "bürkülü havası" Puşkinə münasibəti …izlədə bilməz. İndi məlumdur ki:***

> ***...Qafqaz səfəri***
> ***neçə təmiz qəlbə səjahət imiş.***

***Zamanın u‹ursuz səfərə …‰ndərdiji şair jəqin ki, d‰vrün ‰zünü aldatdı‹ına qəhqəhə çəkib …ülə‡əkdi. Və elə ilk ünsijjətdən hiss edə‡əkdi ki, "Buradakı ülfətin səlahijjəti Türkmənçaj sülhündən etibarlıdır"...***

***...Şair †abir Novruz ‡iddi zəhmətin məhsulu olan həmin əsərə jazdı‹ı səmimi …iriş s‰zündə dejir: "...Zümrüd quşu" xalqımızın taleji haqqında, Azərbaj‡an torpa‹ı haqqında dastandır".***

***..Puşkinin Qafqaza, qafqazlılara münasibətinin təsvirində N.Həsənzadənin şair-vətnədaş qajəsi çox ajdın …‰rünür. Burada onun poezijasının jeni rən…ləri üzə çıxır...***

***..."Zümrüd quşu" poemasında Nəriman Həsənzadə adi bir sejrçi səjjah kimi dejil, çox halda Puşkinin Qafqaz d‰vrünün şahidi kimi danışır. O, tarixi hadisələrə müasir …‰zlə baxsa da, o d‰vrün adamlarını zamanın reljefindən qoparmır. Onları ‰z mühitində dindirir. Mühitə münasibətdə isə şairin müasir m‰vqeji ajdınlaşır. Puşkin də, Bakıxanov da. Arazın o tajından adlamış Fazil xan və di…ər tarixi şəxslər və ədəbi qəhrəmanlar da sanki hamımızın …‰rüb s‰hbət elədiji, dərdləşdiji insanlardır...***

**Məmməd ARAZ.**

*"Puşkin prinadlejit Kavkazu..."**
V.Potto

# Zümrüd

# Quşu

* “Puşkin Qafqaza mənsubdu” (*V.Potto)*.

*Tarix bizim olubdu*
*tarix yazan*
*özgələr.*
*Tarixə düşməyibdi*
*bizim tarixi kədər,*
*bizim tarixi hünər.*



# Mixaylovsk



Puşkinin Mixaylovskdakı iş otağı.
Qravüra
rəssam R.Yaxninanındır

# *P R O L O Q*

Açılsın göylərin qaşı-qabağı,
qoy mənim sinəmdə çalxansın dəniz.
Ey ana dediyim vətən torpağı,
ey ata diyarı,
                    ana qucağı,
qızdırsın ruhumu od nəfəsiniz.
Xaqani, Nizami, Füzuli babam!
Siz tutun əlimdən –
                                haraylayıram.
İndi, sizdən sonra qələm götürmək,
şairlik sözünü dilə gətirmək
bilirəm çətindi,
                    əsil hünərdi.
Çətindi sənətin şöhrəti, şərti.
Lakin dilə gəlib əlimdə qələm,
mən sizi sonsuz da qoya bilmərəm.
Bir nəğmə, bir dastan başlamışam mən,
Söhbəti uzaqdan başlamışam mən,
Elə bil nə vaxtdı səfər üstəyəm,
atım yəhərlənib, yəhər üstəyəm.

Gedirəm…
yollarda qar-tufan mənim,
can yerin, candakı həyəcan mənim.
Qabaqda yuxusuz gecələrim var,
Harda gecələdim, orda yerim var.
Fikirli görünsəm inciməsinlər,
mənim kimliyimi mənə desinlər.
Elə mətləblər var – deməliyəm mən,
deməsəm nəçiyəm,
kiməm,
nəyəm mən?!
Bir az vaxt ayırıb qulaq assanız,
Kəlamım şirindi, darıxmazsınız…

## KARVAN

*“...mühafizə zabiti... dedi ki, İranın saray şairini müşayiət edir və mənim xahişimə görə məni Fazil Xana təqdim etdi”.*

A.Puşkin

*Mən ki, görməmişdim bu yolu-izi,*
*Qafqaz dağlarında, bir xoş saatda*
*tale görüşdürdü hər ikimizi.**

A.Puşkin



**Mixaylovsk.**
Rəssam R.Yaxnina



Oneginin Triqorskidəki görüş yeri.
Qravüra
rəssam T.Sergeyevanındır

*Coşqun azadlığı qanunlar əzib, böylə sıkar,*
*vəhşi bir qövmü höküm böylə yakar, böylə yıkar.*
*Dərdli Qafqaz da bu gün böylə coşur hiddətlə,*
*onu yad qüvvələr əzdikcə ağır dəhşətlə.***

"Qafqaz". A.Puşkin

Təzəcə qalxmışdı dəli bir külək,
buludu göylərdən təmizləyirdi.
Puşkin, ürəyində başqa bir istək,
atını fikirli məhmizləyirdi.

Bu yollar… bu yerlər bir zövq-səfa,
qarlıydı dağların bir üzü hələ.
May ayı olsa da, sərt idi hava,
sazaq dalayırdı üz-gözü hələ.

Şahin şığıyırdı, qartal uçurdu,
cığırlar içində təzə gül-çiçək.
Uzaqda bir ceyran hürküb qaçırdı,
göy ota qonmuşdu bir ağ kəpənək.

* Tərcümə müəllifindir (*red.*).
** Son dörd misra senzura tərəfindən ixtisar edilmişdi.
(Tərcümə M.Müşfiqindir - *red.*).

Yenə dilindəydi şirin kəlamı,
yenə ürəyində od qalanırdı.
Özü yəhər üstə, fəqət ilhamı
beşik dərələrdə yırğalanırdı.

Çay necə ağarır…
xalis gümüşdü,
ya qalay çəkilib üstə suların?!
Hardansa adları yadına düşdü
Senat meydanında qətl olanların.

Cəzası nə idi, bilirdi şair,
kim deyir bu adi umu-küsüydü.
Qafqaz ordusuna gəlirdi şair,
Puşkin, - Paskeviçin "könüllüsüydü".

Qoy əssin dağların sərin küləyi,
torpağın xoş ətri onun bəsiydi.
Vətən, vətən deyən şair ürəyi
vətənin – ən böyük ərazisiydi.

Ona demişdilər vəhşidi Qafqaz,
gülldən, xəncərdən gözlə özünü.
Yox, qəlbə gözəllik bəxş edir Qafqaz,
Sevməmək olarmı onun hüsnünü?!
Orda nə mərifət, nə bir qanacaq, –
ona demişdilər bir yaxşı düşün.
Bir kənddən keçəndə gördü o, ancaq
yüz qapı açılır
bir qonaq üçün.

Dağlı sinəsində isti bir ürək,
qəlb açır səsində dolaşan avaz.

Yanana su verər, acana çörək,
Yeməsən,
          içməsən,
                    küsəndi Qafqaz.

Riyadan, məkrdən, böhtandan uzaq,
təbiət ruhunu əzizləyirdi.
Arabir dərindən nəfəs alaraq
Atını fikirli məhmizləyirdi.

* * *

Dağ yolu darıydı, karvan gəlirdi,
o hara gedirdi, hardan gəlirdi?!
Zabiti səsləyir:
– Bəri bax, bəri,
o kimdi, nəçidi, haraya gedir?
– Fazil Xan Şeydadır,
                    saray şairi,
cənab şahzadəni müşayiət edir.
Gedir qəlbində sülh,
dilində Allah,
sarayda şöhrəti, adı bəllidi.
İran şahzadəsi Tiflisdə sabah
qraf  Paskeviçlə görüşməlidi.
Puşkinin xəbərdən yoxdu xəbəri,
kim ölüb, kim qalıb bilmir o, hələ,
sonra soruşacaq bir-bir o hələ,
sonra eşidəcək o, bu səfəri.

Nə qraf, nə görüş, nə şahzadədi?!
sıxdı söz yığını bir an şairi.

Bir şeydə cəmləşdi fikri, diqqəti, –
zabit şair dedi,
                    İran şairi.

Bir təbəssüm gəzdi üzdə, dodaqda,
duydu sinəsində bu odu, közü.
– Xoş bir təsadüfdü, – dedi, – bu dağda
İran şairiylə görüşmək özü.
Ürəyim nəyisə duyub, hiss edib,
Sədinin səsi var bəlkə səsində?
Ən böyük qismətdi bəzən təsadüf
bizim ömrümüzün salnaməsində.
Zabit,
zəhmət çəkib düşsün qoy yerə,
de ki, rus şairi Puşkin…
– Deyərəm.

Saray şairinin başında papaq,
lakin,
barmağında nə daş-qaş, nə zər.
Sərtdi baxışları bir qədər, ancaq
gözünün nuruna ürək isinər.

Gah atlıya baxır, gah da zabitə,
“Bu yol adamının diləyi nədir?”
Hələ biganədir o, bu söhbətə,
sualı-cavabı ürəyindədir.

– O, şair Puşkindi,
                    əziz, möhtərəm…
– Şair?
Cənab zabit, rica edirəm,
deyin, zəhmət çəkib bir yerə düşsün,
bizim bu görüşə siz olun şahid.

Belə bir təsadüf,
ya belə bir gün
necə də az olur ömürdə… zabit.
Zabit gülümsəyir:
– Sözün doğrusu,
şair Puşkinin də budur arzusu.
Xahiş elədi ki, siz düşəsiniz,
Allah rast salıbdı,
görüşəsiniz.
Qafqaz dağlarında
belə… nagahan,
bu xoş təsadüfdü, cənab, doğrudan.

* * *

Qafqaz!
Yermolovun süngüsü ilə
fəryadı, naləsi yazıldı onun.
Puşkin ilhamının gur səsi ilə
sonradan nəğməsi yazıldı onun.
O, vali oldu,
bu, valeh oldu, –
məğlub bir ölkənin əsiri oldu.
Bu – bir Rusiyanın iki səsiydi,
Qafqazın – Yermolov günləriydi bu,
Qafqazın – bu, Puşkin mərhələsiydi.
Yermolov – Rusiyanın ucqar yerində
gəlib qərar tutdu başı havalı.
Puşkinin "Seçilmiş əsərləri"ndə
yazılıb onun da tərcümey-halı.

"Yarı tacir, yarı həzrət,
yarı müdrik, yarı nadan,

yarı alçaq, amma inan,
tam olacaq o, nəhayət".*

Şairlər görüşdü...
susdu dağ-dərə,
Hər kəs öz qəlbində danışdı, dindi.
Zabit bir də baxdı iki şairə –
sükutu tərcümə edə bilmədi.

Düşündü bir az da yaxın gələrək,
seyr etdi bir ülfət məqsədi ilə.
Puşkin elə bildi Şeyda deyil tək,
Görüşür həm Hafiz,
həm Sədi ilə.

P u ş k i n

İran şairinə hörmət, ehtiram,
Fars dili dünyada başqa bir ovsun.
Mən öz taleyimə çox minnətdaram,
bilməzdim,
belə bir təsadüf olsun.
Ustad Firdovsinin vətəni İran,
orda çiçəklənən şeir, sənətdi.
Hafizlər, Sədilər... neçə yaradan,
Ziyarətə layiq bir məmləkətdi.

F a z i l  X a n

Sözünüz, şeriniz gəlib İrana,
gəlin özünüz də... bu, dəvətimdi.
Burda görməyimsə sizi, inanın,
mənim görüşüm yox, ziyarətimdi.

* Tərcümə müəllifindir (*red.*)

Mixaylovsk.
Ofort
rəssam
V.Zvontsovanındır







Sankt-Peterburqda duel yeri

* * *

**Rəsmlər A.S.Puşkin adına**
"Svyataqorsk kilsə-muzeyi" bukletindən
götürülmüşdür.
**"Puşkin dağı", 1984**

* * *

Danışdı bir qəlbin hərarətilə,
gözündən bir durna dəstəsi keçdi.
Fazil qucaqladı Şərq adətilə,
ürəyin ürəyə istisi keçdi.
Dağlar alqışladı bu ilk söhbəti,
ah, dağlar nə məğrur, nə vüqarlıdı.
Burda –
bu ülfətin səlahiyyəti,
Türkmənçay sülhündən etibarlıdı.

Fikri uzaq getdi,
bu dəm çox uzaq,
Zabitin beynində rəylər müxtəlif.
Meydan oxumuşdu hamıya bir vaxt,
meydandan kənarda qalan
bu hərif!
Zabit sürünmüşdü hər üzü üstə,
bizim Xudafərin[1] körpüsü üstə.

Gözündə indi də oxunur qürur,
eh, cəhənnəm olsun, o, hər kim olub!
Puşkin – Rusiyanın qüruru budur,
bir ad bir torpağa emblem olub.

Öpür saçlarını dağlar küləyi,
ilham sinəsində bir bulaq kimi.
Bir şair beyninin fikir şimşəyi,
Yüz qəlbə nur saçır çılçıraq kimi.

---

1 Araz çayının üstündə körpüdür *(müəllif)*.

Bəli, eşitmişdi Fazil bir zaman,
bu ilham sahibi kimdi, bilirdi.
Puşkin –
Rusiyanın qəlbindən qopan
elə səsiydi ki, eşidilirdi.
Buzları əridir sözün nəfəsi,
sözlə yandırılır ürəkdə ocaq.
Senat meydanında üsyanın səsi
Təbrizə, Tehrana çatmışdı bir vaxt.

O vaxt alışmışdı hissi, duyğusu,
həqiqət dilinin ilk söhbətiydi.
Bəlkə Rusiyaya gəlmək arzusu
Şairin çoxdankı bir həsrətiydi?

O görüş,
          o söhbət,
                    o yol,
                              o karvan
sonra söhbətlərdə yetişdi bizə.
Əbədiyyət oldu təsadüf olan,
yazdıq ədəbiyyat tariximizə.

Lakin ayrı saldı şairi illər,
taleyin qəribə qisməti oldu.
Fazil Xan haqqında ən böyük əsər
Puşkinin yolüstü söhbəti oldu.

Duydum böyük qəlbin ülviyyətini,
sanki əl elədi mənə yaylıqla.
Oxudum "Ərzrum səyahəti"ni
Fazil Xan adından
                    minnətdarlıqla.

F a z i l X a n

Heyif, görüşümüz ötəri oldu,
nə yerin, nə göyün xəbəri oldu.
Bir də…
əziz Puşkin, Təbrizdənəm mən,
qədim Azərbaycan məmləkətindən.
Nəqqaşlar, rəssamlar vətəni Təbriz,
o da sənət kimi pakdı, təmizdi.
Təbriz bazarımız,
                    Göy məscidimiz
ən qədim memarlıq abidəmizdi.
Şanlı tariximiz, öz adımız var,
Şair hüzurunda mən deyəm gərək.
Bizim də uçmağa qanadımız var,
səmamız yoxdu ki, cövlan eyləyək.
Əsir bəxtimizə payız küləyi,
dövranı başqadı çərxi-fələyin.
Sözün sultanlığı,
                                bakirəliyi
Şeyx Nizamiylə qurtardı yəqin…

Puşkinin fikrində açıldı səhər,
Danışdı səsində, sözündə maraq.

P u ş k i n

Qətran Təbrizidən mənə deyiblər,
Fransız dilində
                    bir xeyli qabaq.
Misralar obrazlar silsiləsidi,
vəzndə, ahəngdə gözəldi sözlər.

Təbrizin o vaxtkı zəlzələsidi,
Qalıbdı şerində bu vaxta qədər.
Sizin dilinizdə deyirlər hələ,
fransız dilinin zərifliyi var.
Bir də eşitmişəm,
                    sizin dil ilə
bütün  Yaxın Şərqi dolaşmaq olar.
Təbrizin
        deyirlər suyu, havası,
üfüqü görünür yaz səmasında.
Vergili vəsf edib daşqın Arazı
məşhur "Eneida" poemasında.

### F a z i l  X a n

Zabit, siz deyin ki,
                Fazil Xan deyir,
var olsun dühası bu qiymət üçün.
Bir gün Qətranları yetirən diyar
onu yad edəcək bu diqqət üçün.

Şirin kəlamları gəzəcək dil-dil,
susan ürəkləri salacaq səsə.
Dünyada bir hünər yaşayan deyil,
şair qələmiylə vəsf edilməsə.

Zabit, hey vuruşub qış ilə bahar,
dünyaya gah çisək, gah şaxta düşüb.
Nə vaxt doğulubsa, əsil sənətkar,
Hər xalqın şöhrəti o vaxta düşüb.

* * *

Fazil Xan bir ünvan alır axırda,
ürəyi təzədən döyünür bu dəm.
Yazır sağdan sola,
                    o, xırda-xırda,
ərəb əlifbası üyünür bu dəm.

Ürəyi doluydu…
                    susdu nə isə,
anlar necə keçdi, işə baxın bir.
"Mütləq gələcəyəm görüşünüzə,
Urmu sovqatıyla… əlvida, şair".

Puşkin cavab verdi:
                    "Əlvida, Fazil!"
O qaldı öz şair dünyası ilə.
Əlvida! – söylədi dağlar elə bil,
qayaların əksi-sədası ilə.

Baxdı arxasınca gedən karvanın,
baxdı arxasınca düzün-dünyanın.
Yanırdı hardasa zəif bir ocaq,
dağlar neçə yerdən yolu əyirdi.
Gün batır, Tiflisə nə vaxt çatacaq?
Atını qaranlıq yedəkləyirdi.

## *ZÜMRÜD QUŞU*

*Puşkinin yolda dostu Qriboyedovun tabutu ilə qarşılaşması və Abbasqulu Ağa Bakıxanov ilə tanışlığı.*

*"...bizim ən yaxşı adamlarımız xəbərsiz-ətərsiz aramızdan yoxa çıxırlar".*

A.Puşkin

*"...bizim Abbasqulu".*

A.Qriboyedov

İnana bilmədi qulaqlarına,
bir də xəbər aldı:
– Necə... nə dedin?!
Bir də – tabutudur, – dedilər – ona
səfir Aleksandr Qriboyedin.

Dünya gözlərində qəribələşdi,
səma ikiləşdi, yer ikiləşdi.
Soyudu bədəni necə pis oldu,
vətəndaş sənətkar vətənsiz oldu.
Gördü ki, əzəldən bu dünya şərdi,
öldürən bəşərdi, ölən bəşərdi.

P u ş k i n

Necə qarşıladı gör məni dağlar,
yolum gör haradan haraya düşdü.

“Ağıldan bəla”nı yazan sənətkar
özü də ağıldan bəlaya düşdü.

Elə bil dünyanın bəd ili olub,
Hər duyan ürəkdə möhnət görürəm.
İndi zəkalılar şübhəli olub,
yalnız
            rütbəliyə hörmət görürəm.
Rusiya yurdunun böyük oğludur,
gör necə qarışdı
                        şöhrəti yasa.
Mən bir vaxt demişdim: o, ağıllıdır,
bədbəxtlik gözləyir onu hardasa.

Bir vaxt, İran ilə müharibədə,
onu çatdırdılar şana, şöhrətə.
Gözəl şair idi,
                        məşhur diplomat,
eh, onu güldürüb ağlatdı həyat.

* * *

Çatıb qaşlarını baxdı zənd ilə,
bu yol – karvan yolu, tabut yoluymuş.
Şair Fazil xanın,
                        Şahzadə ilə
Tiflis səfərinin mənası buymuş?!
Danışmaq istədi, susdu bir anlıq,
sonra təəssüflə yol çəkdi gözü.

## P u ş k i n

O vaxt baxışında bir nigaranlıq,
bir az da təhlükə duydum mən düzü.
Keçirdi ömrünü bu yolda, izdə…
Bir güllə necə də hədəfə dəyib.
Bəzən sayılmırıq sağlığımızda,
tərif qəbrimizə deyilir, heyif!

Bəslədi qoynunda onu bu torpaq,
qar düşdü o yola, o izə bəzən.
Sevinən bir qəlbi qəlbən oxşamaq
çıxır yadımızdan nə isə, bəzən.

Budur taleyimiz,
son mənzilimiz,
tabutda gör necə əziz oluruq.
Acı söz deməyə həvəskarıq biz,
vaxtında – xoş sözə xəsis oluruq…

* * *

Qafqaz!
Ürəyinin sözü şairin,
kim doyar turacın qərib səsindən.
Hələ xəbərsizdi özü şairin,
səkkiz il sonrakı faciəsindən.
Hələ bir işi var,
yazmaq-yaratmaq,
o hələ yol gedir dağ kəndləriylə.
Qafqaz ağlayacaq şairə bir vaxt,
Səbuhi şerinin şah bəndləriylə.

İz var – quma düşür,
səhrada qalır,
keçir neçə yoldan yolları ömrün.
Kimi – ilhamıyla dünyada qalır,
kimi – o ilhama daş atdığıyçün.

Fikirli durmuşdu yedəyində at,
Hava tutulurdu, şər qarışırdı.
Sanki qoca dünya – bu qoca cəllad
qüruba çatdıqca fağırlaşırdı.

Daha qızdırmırdı günün nəfəsi,
dərin dərələrdə mavi bir axşam.
Qartal qanadıtək dağın kölgəsi
kəndlərin üstünü örtmüşdü tamam.

"Salam… əziz Puşkin…" –
bu nagahan səs
ayıltdı şairi dərin xəyaldan.
Qanrılıb gördü ki, durub üzbəüz
mayor mundirində dağlı bir cavan.

Baxır həyəcanlı, ürəyi səsdə,
qəmi – gözlərinin qarasındadı.
Atın qantarğası – yəhərin üstə,
qamçı – çəkməsinin boğazındadı.

P u ş k i n

Mayor, təsadüfdü bəlkə bu axşam,
üşüdüm dağların buz nəfəsiylə.
Bir az sizdən qabaq qarşılaşmışam
bir qələm dostumun cənazəsiylə.

Bilmirəm nə sirrdi təbiətdə bu,
tez gedir istedad sahiblərimiz.
Səfir Aleksandr Qriboyedov, –
yəqin tanımamış olmazsınız siz?

Bəli… mürəkkəbdi həyat doğrudan,
biri az yaşayır,
                    yanırıq ona.
Biri də xatirə danışır ondan, –
deyir yaxşı, ya pis… öz insafına.

Bir almaz parlayıb söndü elə bil,
bir an dumanlandı o mavi gözlər.

## M a y o r

Biz çörək kəsmişik
          on il… düz on il,
xeyir-şər görmüşük…
                    şair, xeyir-şər.

İstədi desin ki, o, hədəfiydi
neçə xəbis qəlbin –
                    istədi desin. –
"Türkmənçay sülhü"nün müəllifiydi,
mən o traktatın tərcüməçisi.
Ürəyi doluydu söhbət açmağa,
nitqi tutulmuşdu elə bil ancaq.
Burda tərcümeyi-hal danışmağa
nə həvəs varıydı, nə imkan, nə vaxt.

## M a y o r

Xəbər yayılmışdı çoxdan Tiflisə,
sizi gözləyirdik orda hamımız.
Birdən ürəyimə damdı nə isə,
Gəlib qarşıladım,
tək qalmayasız.
Gedək, Aleksandr Sergeyiç, gedək,
ləngisək yollarda itib-batarıq.
Bir az ağır olur – tabutdu o yük,
bərk sürsək atları, gedib çatarıq.

* * *

Bir ehtiram duydu hər kəlamında,
Puşkin cavab verdi: gedək, buyurun.
O qiymət də verdi öz aləmində
nəzakət hissinə bu gənc mayorun.

Elə bil dağıldı qəlbindəki qəm,
baxdı qara gözə bir rəğbət ilə.
Adını soruşdu astaca bu dəm,
– Abbasqulu, – dedi o, hörmət ilə.
Atları sürdülər,
dağı aşdılar,
yolda bir atlıyla qarşılaşdılar.
Gümüş qantarğanı çəkib bu ara,
hərbi salam verdi atlı mayora.
Sonra bildirdi ki, siz bivaxtsınız,
onlar Tiflisdədi…
çox uzaqsınız.

Bu yaxın kəndlərin birində qalaq,
sabah, ala-toran qalxıb atlanaq.

Mayor fikirliydi, pərişanıydı,
dostun taleyindən nigaranıydı.
Qonaq olmasaydı
o, “yox”, – deyərdi,
gecə sübhə qədər at səyirdərdi.
Çatardı Tiflisə hamıdan qabaq,
– Tanış ol… Puşkindi bu əziz qonaq.

Bizim Şah İsmayıl Xətai kimi...
Şah yox,
Rusiyada şerin şahıdı.
Səma ürəyi var, ulduz aləmi,
yolüstü döndük ki, Tiflis uzaqdı.

Qoca düşündü ki, nə maraqlıdı,
“Abbasqulu Ağa bəlkə haqlıdı?
Rusun saldatı var, bir də süngüsü
rusun şairi də?..
bilməzdim düzü.
Qafqaz adamıdı üzdən elə bil,
yox, amma Qafqaza o bələd deyil”.

Təsəlli verirdi Qoca özünə,
üzündə təbəssüm, baxdı üzünə.
Puşkin də gördü ki, o fikirlidir,
söz demək istəyir, dilini bilmir.

* * *

Bir həyətə at sürdülər,
yüz həyətə səs düşdü, səs.
Çağırdılar: ay filankəs!
Eşitdilər, yüyürdülər,
üzəngidən yapışdılar,
görüşdülər.
Lüləyindən su tökdülər,
yuyundular,
çəkmələri soyundular.
Adladılar baxa-baxa,
ön otaqdan yan otağa.
Yeridilər gəbə üstə,
xalı üstə.
Yeridilər
çəmənlərin gülü üstə.
Baxdı Puşkin,
o qorxdu ki,
kəpənəklər uçuşarlar,
əliklər var gəbə üstə, –
hürküşərlər, qaçışarlar.
Çiçəklər var gəbə üstə,
əzilərlər, büzüşərlər.
Hər ilməsi, –
muğamatın
oxunmamış
zənguləsi!
Neçə rəng var bir gəbədə, –
yüz musiqi,
yüz ahəng var bir gəbədə.

Kim deyir ki,
bir otağa dünya sığmaz, –
bir gəbəyə köçürülüb
bütün Qafqaz.

Aman allah!
Bu rəng nədir… işıq nədir!
Təbiətə – bu təbiət,
gözəlliyə – bu gözəllik
                    əlavədir.
Bu sənəti, sənətkarı
Xəbər aldı böyük şair.
Ayağının başmağıyla,
          dodağının yaşmağıyla
bir qadını göstərdilər,
          donub qaldı böyük şair.

Ona demişdilər vəhşidi Qafqaz,
güllədən,
          xançaldan gözlə özünü.
Yox, qəlbə
          gözəllik bəxş edir Qafqaz;
sular əks eləyir onun hüsnünü.
Qafqaz!
          Rusiyanın "isti Sibiri",
kim ona ad verib, kim bələd imiş?!
O indi gördü ki,
Qafqaz səfəri
          neçə təmiz qəlbə səyahət imiş.
Mayor sənətindən dedi qonağın,
yüz qəlbə nur saçdı bir qəlb atəşi.
Zəif işığında durdu çırağın,
Puşkin – Rusiyanın şeir günəşi.
Bir az alnı geniş,
          boyu gödərək,
                    gözündə
əylənib bir kədər durur.
Uzadıb xəttini çənəsinədək,
qalın dodağıyla bərabər durur.

## P u ş k i n

Bu adi gəbədir ən böyük əsər,
yaradan – sadə bir qadın əlidi.
Mənim ünvanıma deyilən sözlər
onun şərəfinə
deyilməlidi.
Puşkinin gözündə
güldü bir bahar,
dedi:
qəribədi dağlı hissiniz.
Qonaq olduğumdan xəbəriniz var,
əsir olduğumdan xəbərsizsiniz.
Sənətin sirri də bu hikmətdədi,
budur ürəyin də duası bəlkə?
Sənətə əbədi itaətdədi
insanın nəzakət qaydası bəlkə?

Gəbənin rəngləri dinə bilərdi,
qadının bir kəlmə sözü yox idi.
Ürək yoğrulmuşdu bu duyğulardan.
O, Zümrüd quşuydu qolsuz, qanadsız.
Üz-üzə durmuşdu iki sənətkar,
Biri – öz adıyla,
o biri – adsız.

Şair heyran qalıb, qadın lal durur,
Həyadan titrəyir yaradan əllər.
Beləcə dursunmu? –
İsməti qoymur.
Getsinmi? –
qonağın xətrinə dəyər.

Yox, qonaq həssasdı, o qəlbi duyur,
baxır ev sahibi nabələd kimi.
Gəbəsi yüz dildə nəğmə oxuyur,
özu sükut edir təbiət kimi.

## P u ş k i n

Layiq olacaqmı sənin adına? –
bircə kitabım var, budur hədiyyəm.
Yazır iki kəlmə: "ustad qadına", –
hansı kitabıydı deyə bilmərəm.
Xalı da – Qafqazın bir güzgüsüydü,
qadın ürəyinin şeriyyətiydi.
Puşkinin yazdığı ürək sözüydü,
bəlkə də şairin zəmanətiydi?

Nələri, nələri, daha nələri,
ana babasını xatırlayırdı.
Qədim adətləri,  ənənələri,
kəndli dünyasını xatırlayırdı.
Dururdu gözündə Arina qarı,
onun tikmələri, toxumaları,
saplardan hördüyü canlı nəğmələr…
"Nə onun əl işi, nə bu gəbələr
hələ bir sərgiyə qoyulmayıbdı
bunlar oxunmayıb, duyulmayıbdı…"

Uçur uzaqlara şairin fikri,
görəsən qəribə təsadüf nədir?
Mayor danışır ki,
                    gəbədən biri
qraf Paskeviçin mənzilindədir.
Xalıyla bəzənib bütün bir divar,
naxışlar dilində mədhiyyə olub.
Bir mahal adından aparıbdılar,
Qrafa ad günü hədiyyə olub.

## Q o c a

Abbasqulu ağa öz balamızdı,
Onun hər gəlişi bayramımızdı.
Güzarı düşəndə bizə hər dəfə,
qonum-qonşular da gələr, görüşər.
Adətdi, qonağın özü bir evə,
Səsi-sədası da yüz evə düşər.
Sən də… əziz qonaq, yadında saxla,
qonaq qədəm bassa, il bolluq olur.
Biz tanış oluruq əvvəl qonaqla,
sonra bu tanışlıq qohumluq olur.

Deyirdi səsində, sözündə maraq,
Puşkin çay içirdi, qoca deyirdi.
Döşəkçə üstündə “bardaş” quraraq,
qonağa hörmətlə gülümsəyirdi.
Şairin qəlbində başqaydı həvəs,
lakin sinəsini üşüdürdü buz:

– Qoca… bu qadının ad günündə bəs
Qraf nə göndərdi?..
                    Niyə susdunuz?!
Qocanın qaşında, kirpiyində dən,
Fikrinin diliylə nəsə deyirdi.
Mahud pencəyinin qoltuq cibindən
qəlyanın çubuğu gözə dəyirdi.
Onun oturuşu elə bil bu dəm,
Əsrlə, zamanla haqq-hesab idi.
Belə alicənab, belə möhtərəm
susmaq – yüz suala bir cavab idi.

Gəldi beyqəfildən ürəyi dilə,
ağzı ovsunluydu, sinəsi dolu.
– Qrafın hədiyyə alması elə
Bizə mükafatdı bu saat, oğlum.
Bizim taleyimiz, heysiyyətimiz…

Daha ağartmadı o qəlbitəmiz.
Qoca necə desin, necə, bilmədi,
qoca qonaqlardan keçə bilmədi.
Demək istəyirdi:
                    “Kənddə talandıq,
tale rəhm elədi, yenə dolandıq.
Qrafın hörməti qalsın özünə,
burda kül üfürür elin gözünə.
Adət-ənənəmiz qoyulub lağa,
dilimiz , dinimiz qoyulub lağa”.

Rüşvət öyrədibdi hər gələn bizə,
"hədiyyə" adıyla verək Tiflisə…
Dondu dodağında bir isti nəfəs,
"Qonaqlar yorğundu, heç yaxşı düşməz".

Qonaqlar yatdılar,
                    yerlər yanbayan,
onlar tək qapı yox, ürək açdılar.
Bir gəbə nəzəri çəkdi o başdan,
yəhərin tərkinə bağlamışdılar.

O gəbə qadının bir töhfəsiydi,
barmaqlar onu da naxışlamışdı.
Bir yurdun gözəllik xəritəsiydi,
Puşkinə yadigar bağışlamışdı.

Siz şahid oldunuz, əlvida, dağlar,
bir Zümrüd quşu var, burda qanadsız.
Dayandı üz-üzə iki sənətkar,
biri öz adıyla,
                    o biri adsız.

## *ŞAHZADƏ*

### *İran Şahzadəsi Xosrov Mirzənin şair Fazil Xan ilə Nizaminin qəbrini ziyarət etməsi və Peterburq səfəri*

*Vaxt çatıb,*
*biz yenə bir məhəbbətlə,*
*Ünsiyyət bağlayaq, dost olaq gərək.*
*Olub-keçənləri mehri-ülfətlə*
*indi unutmağa çalışaq gərək.**

Sədi

*(İran şahının çara göndərdiyi məktubdan)*

F a z i l  X a n

Budur Şeyxin məzarı,
mən dediyim o torpaq,
Burda biz, Valahəzrət,
bir az ayaq saxlayaq.
İbn Məhəmməd İlyas
İbn Yusif Nizami!
Gör necə də pozulub
məzarının nizamı!
Salam, Şeyx!
Salam, ustad!
Behişt olsun o dünyan.
Ziyarətə gəlmişik
biz İran torpağından,
Firdovsi diyarından.

---

* Tərcümə: müəllifindir (*red.*)

### S ə s

"Köhnə söz ustası, o tuslu şair,
söz gəlinlərini bəzədi bir-bir.
...Nizami bu sözə düzərkən gövhər,
qələmdən silindi qələm görənlər..."

### Ş a h z a d ə

Qəbirdən səs gəlir… Fazil, elə bil
Torpağın dili var, daşın nəfəsi.

### F a z i l   X a n

Şahzadə, danışan Nizami deyil,
sizin qəlbinizdi…
                    qəlbin öz səsi.
Böyük şairlərin yanında hər vaxt,
insan öz qəlbini dinləyir ancaq.
Bu məzar,
          Şahzadə, qalın kitabdı,
torpağa düşəli bu yeri bəzər.

Dünyada axtarıb Gəncədə tapdı
dirilik suyunu –
                    böyük İsgəndər.
Qılınc yox, bu qələm dadına çatdı,
öləndən sonra da onu yaşatdı.
Bir vaxt yer üzünü dolaşdı səsi,
indi beş arşınlıq yeri var… yatır.
Yer üstə yaşayır söz xəzinəsi,
yer altda gör necə xəznədar yatır!

Şahzadə…
          doğrusu dəyişdim bu gün,
fikir ver məzardan gələn o səsə.
Söz – millət adından danışmaq üçün
şairə verilir… qalan heç kəsə.

* * *

Nədir o şırıltı, nədir o sahil,
orda yer yarılıb bir dərə düşüb.
Axır Gəncə çayı…
                    orda elə bil,
Xəmsədən bir misra çöllərə düşüb.

Çıx Gəncə çölünə, ya Şıx düzünə,
bir ada – əbədi xatirə düşüb.
Göy göl güzgü tutub göyün üzünə,
elə bil o boyda göy – yerə düşüb.

Burda sükut yaşar, o tərəfdə səs,
kola bax – düzlərə tək bərə düşüb.
Buludlar qoynunda görünür Kəpəz, –
şairə – gör harda məqbərə düşüb.

* * *

Şahzadə diqqətlə baxdı Fazilə,
düşən başdaşını süzdü, dinmədi.
Fazil xan
          düzəltmək məramı ilə
tərpətmək istədi, daş tərpənmədi.

F a z i l  X a n

Ağırdı, şahzadə…
                    olmur götürmək,
torpağı da ofsun, daşı da ofsun.
Dirinin dünyada sahibi gərək,
gərək… ölünün də yiyəsi olsun.

Pozdu öz ömrünü o, yaza-yaza
söz ilə yarıldı polad Bisütun.
Toza bax… başdaşı üstündə toza, –
fikrim toza batdı burda büsbütün.

* * *

Karvanı saxlayıb namaz qıldılar,
Tanrı dərgahından razı qaldılar.
Arada "Bismillah",
                    "Əlhəmdülillah",
– Tiflisə  çatırıq, Allaha pənah. –
Fazil nigarandı Xosrov Mirzədən,
– Şahzadə bu qədər dalğındı, nədən?

X o s r o v  M i r z ə

Fazil, dərk olunmur dünya doğrudan,
Səfir də bu yolla gəldi bir zaman.
Karvanda Türkmənçay razılaşması,
sonra Peterburqda çarın imzası.
Tiflisdə Səfirin mülkü-dövləti...
Özü yaşamadı bu səadəti.

Nina – on beş yaşda ayparçasıymış,
şairlər düz deyir:
baxt da yazıymış.

F a z i l X a n

Şahzadə, sizin də azdı yaşınız,
ağıl yaşda deyil,
başdadı yalnız.

X o s r o v M i r z ə

İndi də karvanda "Şah Almaz" gedir,
Tehrandan – Pitera gizli yas gedir.
Səfir, Paskeviçin yazan əliydi,
əlbəttə, o yanıb-tökülməliydi.
Yaxın qohumuydü arvad tərəfdən,
Səfir şair idi... başqaydı ruhən.

"Tarixi sənəddi bu gündən belə,
Səfirin yazdığı bu müqavilə".
Mənə dedilər ki, Paskeviç özü,
Şahın sarayında deyib bu sözü.
Yaqub Markaryanın nəydi niyyəti? –
Şahın xəznədarı qaçdı xəlvəti.
Səfir qaytaraydı xaini gərək,
özünün başında çaxdı bu şimşək.
Xəzinənin sirri – əslinə baxsan,
ağırdı xəzinə oğurlamaqdan.

Özü öz hökmünü yazdı elə bil,
tutsaydım, asardım mən o qəddarı.
Qarpal da qaçıbdı –
qədimdə Fazil,
böyük İskəndərin xəzinədarı.
Tarix lənətləyir məncə, onları.

F a z i l X a n

Şahzadə, müdrikdi hər kəlamınız,
haqdı bu yolunuz, bu məramınız.

X o s r o v M i r z ə

Çubuqla döydülər Allahyar xanı,
o qan istəyirdi, töküldü qanı.
Mənim Şah babamın yaxın qohumu,
aldı cəzasını...
qohumluq bumu?
Hələ Mirzə Məsih nə günə düşdü,
Müctəhid – ölkədən sürgünə düşdü.
Gərək biz çatdıraq Çar Nikolaya,
bizi bağışlaya,
bağışlamaya...

* * *

Bir qocanın gəlişini
görmədilər,
ona salam vermədilər.

Q o c a

Yol üstündə karvan gördüm,
karvanda bir nişan gördüm,
dedim yəqin qayıdıbdı
rus səfiri.
Xeyli çəkdi amma onun
bu səfəri.
Qoca baxdı vəliəhdə,
Fazil xana,
baxışdılar –
oxşamırdı nə bu ona,
nə o buna.
Gətirdiyi çiçəkləri
qoca səpdi qəbir üstə,
ləpir saldı ləpir üstə.

* * *

Fazil xan baxırdı bir diqqət ilə,
Şahzadə durmuşdu xeyli səbirsiz.

Q o c a

Oğul… hardansınız,
kimsiniz belə?
Nə mən xəbər aldım, nə siz dediniz?

F a z i l  X a n

Əmi… Peterburqa səfərimiz var,
Tehrandan gəlirik bir niyyət ilə.

* * *

Qoca salam verdi, salam aldılar
Şahzadəyə layiq bir hörmət ilə.

Q o c a

Qoy yeri gəlmişkən bir söz deyim mən,
sözdən inciməyin siz ancaq, oğul.
Hələ bir səfirdən, bir şahzadədən
xeyir görməyibdi bu torpaq, oğul,
başqa niyyətlədi yəqin bu səfər?
Eh bir də… tökülən dolmayacaq ki.
Gərək xətrinizə dəyməsin… əgər
soruşsam, dava-zad olmayacaq ki?
Özüm şahidiyəm qanlı illərin,
üz-üzə dayandı burda qoşunlar.
Qacar ordusuyla gələn fillərin
ayağı altında qaldı bu məzar.
Sonra da yeridi çar orduları,
gədalar dağıtdı bu şah məzarı.
Bizim üstümüzdən əsdi bu yellər,
nə qədər dərd yığar bu ürək, oğul.
Qəbri
gəncəlilər götürə bilər,
istəsə, lap burdan köçürə bilər,
Gəncəni haraya köçürək, oğul?
Xəmsəsi millətə şan-şöhrət olub,
Məzarı gör necə xəcalət olub.

* * *

Dərib nəfəsini deyirdi kişi,
susdurmaq olmazdı,
qoca "nəhs" idi.
Qoca bu torpağın təəssübkeşi,
qoca bu məzarın keşikçisiydi.

Q o c a

Gəldi rus səfiri buraya bir vaxt,
cavan adam idi… siz yaşda, belə.
Dedim yenə gələn səfir olacaq,
gəldim ki, görüşüm bu karvan ilə.
Mən o vaxt gördüm ki,
o, Şeyxi sevir,
bir məqam axtardım söz demək üçün.
Burda məmurlara pul verdi səfir,
bu uçuq məzarı götürmək üçün.
Dedilər şairdi… gözəl təbi var,
bir gürcü qızıyla evlənib gəlir.
Gördüm mən özüm də:
gözəl qəlbi var,
Qafqaz adamına isnişə bilir.

* * *

Susdular…
arada nə səmir, nə səs,
necə desinlər ki, səfirə əvəz –
karvanda qanhaqqı – Şah almaz gedir,
karvanda dağlardan ağır yas gedir.

Tarix dilə gəldi, burda qulaq as,
deyir: kimdən kimə o, yadigardı.
Gedir Peterburqa ən böyük almaz,
üstündə üç şahın imzası vardı.

Ş a h z a d ə

Qoca bilsəydi ki, səfir nagahan
Tehranda qətl olub… sən mənə inan, –
o, bizi burdaca daşa basardı,
bizim qəbrimizi özü qazardı.
Bir şeyə heyranam amma doğrusu,
qocanın sözünə-söhbətinə bax.
Fazil, Azərbaycan kəndlisidi bu,
qəlbində səfirə rəğbətinə bax.
Ölümdən qorxum yox bir zərrə belə,
Yox, ölüm o qədər qorxulu deyil.
İnan ki, səfirin anası ilə
görüşmək…
ölümdən ağırdı, Fazil…

F a z i l  X a n

Məncə… əl qaldırmaz Rusiya bizə,
böyük millətlərin qəlbi dar deyil.
Səfirin qətlinə gəldikdə isə,
İran… bilirsiniz… günahkar deyil.
Amma qəribədi düzü, bu aləm,
o, Şeyxin qəbrini düzəldin demiş.
İşə bax…
bu uçuq məzarla bahəm, –
onun öz məzarı düzəlməliymiş.

Ş a h z a d ə

Nə qədər olsa da, daşdı bu almaz,
səfiri Rusiya məncə, unutmaz.

F a z i l  X a n

Şahzadə,
deyirlər tilsimdi almaz.
Onu gəzdirənə xata toxunmaz.
Deyirlər, torpağın qiyməti budur,
almazı yoxdursa,
torpaq yoxsuldur.
Nadir Şah almazı itirdi İran,
Rusiya bir şair oğlunu, inan.
Almaz da nadirdi, şair də nadir.
Biri yerdən çıxıb…
biri dəfn olur.
Bu dünya əzəldən elə belədi.
Dünyada əzəldən belə səhv olur.

* * *

Nədir qəbir üstə bu söz – bu söhbət?
Yerlərdən, göylərdən çəkilir işıq.
Şahzadə düşünür qəlbində ülfət.

Ş a h z a d ə

Fazil, biz deyəsən ofsunlanmışıq.
Gah məzar danışır,
gah qoca, gah biz.
Yoxsa, başa çatıb bu səfərimiz?

* * *

Fazil anladı ki, lap çoxdu sözü,
tələsmək lazımdı… vaxt az, yol uzaq.
Qocaya əl verdi Şahzadə özü,
öpdü o əlləri Fazil Xan ancaq.

Qoca fikir verdi:
                    Fazil gödərək,
Şahzadə qalxıbdı
                    təzə çinar tək.
Qara qaşları var, iri gözləri
burda o gözlərin yoxdu bənzəri.
Lakin pərişandı xəyalı, huşu,
uçan başdaşına
                    baş əyib Fazil.
Qoca belə yozdu: bunun duruşu,
Onun da baxışı… özünün deyil.

Q o c a

Oğul, qayıdanbaş siz unutmayın,
mənim xahişimi ucuz tutmayın.
Səfirə deyin ki, durur o məzar,
qoca da Gəncədə gözləyir onu.
Siz deyin,
          desəniz, özü tanıyar,
gələndə, qoy burdan salsın yolunu.
Deyin ki, bir qoca gözləyir onu…

* * *

Səfərləri
əvvəl-axır
Tiflisdəydi.
Xosrov Mirzə
şahın əziz
nəvəsiydi.
Tiflisdə
nə deyirdisə,
şahın gizli
tövbəsiydi.
Paskeviçə
hədiyyələr,–
bu da şəxsi
töhfəsiydi.
Bu yolüstü
üzürxahlıq,–
səfirə
qanəvəziydi.

* * *

Moskvaya çatan kimi,
həmin səhər üzr istəyib
baş əydilər,
bir qapıda
xəcalətlə.
Bədbəxt qadın donub qaldı
bir heyrətlə.
Acısını, ağrısını
indi duydu bu həyatın.
Bir az əvvəl xoşbəxt ikən,
bir az sonra bədbəxt qadın.

Dünən səfir anasıykən,
bu gün tabut yiyəsiydi,
bu gün qara geyəsiydi,
bu gün ağı deyəsiydi.
Nitqi batdı beyqəfildən,
dodağından qan axdı, qan.
Belə sükut görməmişdi
nə Şahzadə,
nə Fazil Xan.

Ş a h z a d ə

Divan tutdu tale sizə,
gəlmişik ki, şərik olaq
biz ən ağır qəminizə.
Bir ölkənin elçisi biz,
dili bizik,
ölü ikən diri odur,
diri ikən ölü bizik
oğlunuzun əvəzinə.
Atın bizi
aslanların, pələnglərin
qəfəsinə.

* * *

Şahzadənin xahişinə
hay verərdi bir məmləkət.
Bədbəxt qadın susdu fəqət,
ürəyini isitmədi sözü yadın.
Bəlkə də son sükutuydu
bu, əbədi bir fəryadın.

F a z i l X a n

Ağlamışıq,
göz yaşını
bu yollarda itirmişik.
Gözümüzü qurutmuşuq,
gətirmişik.
Girov gələn
Şahzadədi,
Qərarınız… xanım… nədi…

* * *

Fazil elə düşündü ki,
qadın indi bağıracaq,
imdadına çağıracaq
Rusiyanı.
Saç yolacaq,
üz cıracaq,
ağlayacaq,
hıçqıracaq.
Asacaqlar lap bu gecə.
Rusiyada öləcəklər
Rusiyadan xəbərsizcə.
Nə İranda biləcəklər,
nə Təbrizdə, nə Tehranda
biləcəklər.
Lakin onlar
mat qaldılar.
Nə Rusiya bir söz dedi,
nə anası.

Qədim İran şahlarının
şah almazı
bəzəyəcək indi qızıl
taxtı-tacı.
Daha çarın
səfirə nə ehtiyacı…
Baxışdılar Şahzadəylə,
vaxt az idi, qısa idi.
Qucaqlaşıb ağlayardı
ikisi də
bir az məqam olsa idi.
Bədbəxt qadın
bu baxışı gördü ancaq.
Aman, allah!
Xatırladı dözülməz bir
ağrı ilə:
o da belə baxışmışdı
son məqamda
səfir gedən oğlu ilə.
Onun qəmli gözlərini
xatırladı:
"Ürək getmir, getmir, ana,
o cəhalət yuvasına…"–
sözlərini xatırladı.
"Get, – dedi, – Get.
Bəs vəzifən, səfir adın…" –
Bir az şöhrət istəyirmiş
yəqin o vaxt
bədbəxt qadın.
Məğrur tutdu qamətini,
fəqət yenə duman aldı,
çisək örtdü surətini.

O, batindən uçulurdu,
                                        tökülürdü,
kərpic-kərpic sökülürdü.
Qurudular ayaq üstə
səhər-səhər, –
                    o üç nəfər,
uçuq evin sütununa
                                        bənzədilər.
Ürəkləri bürüdü çən.
Gəncədə yol gözləyirdi
Qoca hələ, –
o, sifariş göndərmişdi
                                        Şahzadədən.

# E L Ç İ

*Peterburq. İran şahının göndərdiyi şəxsi məktub və Şahzadə Xosrov Mirzənin Rusiya imperatoru ilə görüşü*

*Vaxt çatıb,*
*biz yenə bir məhəbbətlə,*
*ünsiyyət bağlayaq, dost olaq gərək.*
*Olub-keçənləri mehri-ülfətlə*
*indi unutmağa çalışaq gərək.*
Sədi

Xosrov Mirzə cavanıydı,
aşıb-daşırdı.
Nikolayın qəbuluna
hazırlaşırdı.
O sarayın bu saraya
şah elçisiydi,
gətirdiyi "Şah Almaz" da
qanəvəziydi.
Şahzadənin hər addımı
ölçülməliydi,
xoş məramla dediyi söz
xoş gəlməliydi.
Təbrizin də, Tehranın da
tapşırığıydı.
Ölənin də, qalanın da
tapşırığıydı.
Şirazinin sözlərini
əzbərləyirdi.
Söz ağzında üşüyürdü,
o, tərləyirdi.

---

* İran şahının çara göndərdiyi məktubdan (tərcümə müəllifindir (*red.*).

Məsuliyyət özü də bir
qabiliyyətdi,
mən dediyim məsuliyyət –
səmimiyyətdi.
O da bəlkə süddən gəlir,
sümükdən gəlir? –
Haqdan gələn nə gördümsə,
ürəkdən gəlir.
Ağıl-kamal sahibiydi –
Allah vergisi,
O Tehranı xatırlatdı,
bir də Təbrizi.
"Şah dedi ki,
üzümüzün
xəcalət təri,
ancaq üzr istəməklə
yuyula bilər..."

Şahzadənin üzündəydi
Çarın nəzəri,
Başqaları
tamaşaya
tökülmüşdülər.
Şahın şəxsi məktubunu
şahanə verdi,

Şahdan Çara nə gətirdi,
daha nə verdi?
Onu tarix kitabları
sadalayıbdı.
Tarix deyir: Şah talanıb,
Çar talayıbdı.
Türkmənçayın xərclərinə
bərabər olub,
tarix deyir: Fətəli Şah
birtəhər olub.
Qəzəbini gizlətməyib
Abbas Mirzədən.
"İrəvanı, Naxçıvanı
itirdi nədən?
Paskeviçin qoşunları
doldu Təbrizə?
Səfir onda yaxın idi,
dost idi bizə?.."

İmperator məmnunuydu
indi bir qədər, –
Peterburqa Şahzadəni
göndərmişdilər.
Sevilirdi o şəhərə
gəldiyi gündən,

Çar razıydı, Şahənşahın
bu seçimindən.
Bir xanım da ağ əlində
büllur bir eynək,
sağ gözünə, sol gözünə
tutub baxırdı.
O gözlərin sellərinə
düşüb axırdı,
Allah, Allah Xosrov Mirzə
gözə gələcək.
Şahzadənin sözlərinə
məhəl qoyan yox,
o gözləri görən çoxdu,
baxıb doyan yox.

Xanımların təbəssümü
çiçəklənirdi,
Şahzadə də danışdıqca
fərəhlənirdi.
Faciənin alt qatını
varaqlayırdı,
Səfirin son saatını
varaqlayırdı.
Dünən yaddan çıxanları
yada salırdı,
o, sarayı suya çəkir,
oda salırdı.

Tükənmirdi Şahzadənin
                    sözü-söhbəti,
Çar aradan götürmüşdü
                    bu ədavəti.
Yaşıl lentli brilyant da
                    bağışladı Çar,
Peterburqdan Şahzadəyə
                    qalsın yadigar.
Şah qoşunu, Çar qoşunu
                    üz-üzəydilər.
Şah da, Çar da gecikərdi,
                    tələssəydilər.
Bir top dinsə, çətin olur
                    ağzını yummaq.
Dünənə dön,
          Bu günü gör,
                    Sabaha düz bax.

## *MƏHƏBBƏT*

*Ərzrum dağında azərbaycanlı əsgərlərlə Puşkinin söhbəti, şairin səfərdən yarımçıq qayıtması*

*Ərzrumun gədiyinə varanda,*
*onda gördüm birər-birər qar gəlir.*
*Dedim, oğul, gəl qayıdaq bu yoldan,*
*Xan oğludu, gördüm ona ar gəlir.*
"Əsli və Kərəm" dastanından

*Ə pomnö çudnoe mqnovenie.*[1]
A.S.Puşkin

Bir çadıra yığışmışdı
od baxışlar,
Qara qaşlar,
qara bığlar.
Puşkin dedi, ay uşaqlar,
bir hekayət deyin mənə,
ya bir dastan,
sizin Qafqaz həyatından.
Poruçikin coşdu qanı,
dedi, şair, mən danışım
sən dediyin o dastanı.

* * *

---

[1] Mən o ülvi anı xatırlayıram – A.S.Puşkin.

…Qar dizindən,
qəm gözündən
gəldi Kərəm,
dədə Kərəm.
Əsli deyib harayladı
o, yol boyu.
Ərzrumda Əsli dedi
bütün aləm.
Bir gözəlin
adıydı bu.
Qızıl üzük barmağında,
gümüş kəmər belindəydi.
Xan Kərəmin səfil adı
Xan Əslinin dilindəydi.
Saçlarının cığaları
sırğasıydı – tərpənirdi,
Kərəm görüb dərdlənirdi,
keşiş görüb deyinirdi,
keşiş qara geyinirdi.
Qaçırdırdı el-el qızı,
çərlədirdi gözəl qızı.
Yalvarırdı tanıyanlar,
eşidənlər… ona qərəz, –
versin qızı.
O vermirdi, o nataraz!
Xan oğluydu əvvəl Kərəm,
sonra əsil divanəydi.
Dünyada bir Əsli vardı,
qalan nə var, biganəydi.
Hər görüşü bir ayrılıq,
hər sevinci bir qəm idi.
Kərəm, dədə Kərəm idi…

Əsli deyir Kərəm bir də,
qaya uçur bu haraya.
Sən demə, qar qayasıymış
uçan qaya.
Ərzruma yağan o qar,
İki arıq çiyin üstə
tutur qərar.
Əvvəl keşiş, indi də qış.
Kərəm onda deyirlər ki,
bu dağlara qarğayıbmış.
Deyibmiş ki, nə yaz gəlsin,
nə gün doğsun görüm sənə.
Nə çiçəyin, gülün bitsin,
neyləmişdi Kərəm sənə?!
Əsli deyib qar altında
dayandıqca,
deyirlər ki, qar əriyib -
Əsli deyib o yandıqca.
Qara saçla qara batan,
ağ saç ilə çıxıb sonra
qar altından.
Eh, tanınmaz olub Kərəm,
nə o özü, nə o səsi.
Əsli görüb tanımayıb
"Əsli!" deyib gələn kəsi.
Qara keşiş,
həkim imiş,
bir zay həkim.
Kərəm deyir bir dişim var,
bərk ağrıyır, çək, ay həkim.
Keşiş çəkir,
Kərəm deyir ufuldayıb:
– Ağrıyan diş qaldı, həkim,
ayrısını çəkdin, hayıf…

Əsli birdən tanıyır ki,
bu, Kərəmdi,
Kərəm indi yarı sevinc,
yarı qəmdi.
Gəlib tapıb onu bu gün.
Dişlərini çəkdirirmiş
Xan Əsliyə baxmaq üçün.

Qışqırır ki, dayan, ata!
sən neylədin, aman, ata!
Otuz iki dişini də
çəkdin, ata!
Ürəyimi sökdün, ata.
Dayan, dayan, görüm ata!
bu Kərəmdi, Kərəm… ata!

* * *

Puşkini bərk tutdu Kərəm söhbəti,
qıvrım saçlarında əli dolaşdı.
Şair "Əsli", – dedi,
"Kərəm", – söylədi,
bizim dilimizdə dili dolaşdı.

## P u ş k i n

Hər kəsin qəlbində bir qəm var demək,
kim deyir ürəkdə duman, sis olmur.
Harda məhəbbət var – Kərəm var demək,
Kərəm də – dünyada Əslisiz olmur.

Məhəbbət insana təzə ad verir,
sevənlər həmişə iki adlıdı.
Sevənlər həmişə istedadlıdı,
yalnız sevməyənlər
bizə dərd verir.
Eşqin ağrısı var, sevənə verin,
dözər ağrısına… xoş olar ona.
Eşqin acısı var, sevənə verin,
içər şərbət kimi… nuş olar ona.
Məhəbbət – rəngidir yazın, baharın,
yanan ürəklərə sərin su olub.
Dünyada ən böyük sənətkarların
məhəbbət birinci mövzusu olub.

* * *

Puşkin danışırdı, sözü çox idi,
qəlbi isidirdi nəfəsi yazın.
Şairin sirrini bilən yox idi, –
eşqilə  yanırdı o da bir qızın.

Kəlamı duzluydu, söhbəti qısa,
özü dünyagörmüş bir loğman kimi.
Elçi getməliydi bir də o qıza,
Şair, Ərzrumdan qayıdan kimi.

Moskva gözəli Qonçarovadan,
bir az incik idi, bir az nigaran.
Pərişan olmuşdu şair dünyası,
açıb kimə desin narazılığnı?
Qızı verməmişdi qızın anası,
pozmuşdu dünyanın tarazlığını.

Hələ "Soçinitel"*
ad qoymuşdular,
sevən ürəyinə od qoymuşdular.

P u ş k i n

Poruçik, təşəkkür bu söhbət üçün,
bütün sevənlərin birdi adəti.

P o r u ç i k

Yəqin Aleksandr Sergeyeviçin
ürəyindən oldu Kərəm söhbəti.
Əyilib mayora dedi astadan,
poruçik ayağa qalxdı sonradan.
Bir çinar ucaldı elə bil bu dəm,
Ərzrum dağında bitdi o yerdən.
O surət,
o kürək,
o boy,
o görkəm
Puşkinə dağ kimi göründü birdən.

P u ş k i n

Məncə,
göz önündə durmaq şərt deyil,
gərək bir an olsun göz görmək üçün.

---

* Deyilənə görə o dövrdə Rusiyada şairə – söz uyduran kimi baxır və qız vermirdilər (*müəllif.*).

Gözəlsən, poruçik… sən də elə bil
dünyaya gəlibsən sevilmək üçün.
Sən girmə döyüşə… qulaq as mənə,
uyuşmur bu tüfəng, bu üz, bu xəncər.
Bilirəm, əzrayıl sənə toxunmaz,
səngərdə bu hüsnün hayıfdı, itər.
Bu da məhəbbətdi…
                    toplar dinəndə
dil bilir, söz qanır məgər o güllə?
Sənə dəyməsə də, sənin sinəndə
Kərəmə, Əsliyə dəyər o güllə.

P o r u ç i k

Onda, əziz şair, “Kərəmi” üstə,
mən bir hava çalım, siz qulaq asın.
Qəlbi var,
          ruhu var,
                    dili var sazın,
danışsın ürəyin bu qəmi üstə.

* * *

Saz dindi o qollar, o əllər üstə,
çaldı – Ərzrumdan duman, çən ötdü.
Poruçik gülürdü sədəflər üstə,
Kərəm ağlayırdı Əslidən ötrü.

P u ş k i n

Kimin ürəyində bir duyğu varsa,
deməz ürək səsi ötəri səsdi.
Məhəbbət dünyada yetim qalarsa,
Bir qəlbin ağrısı bir əsrə bəsdi.

* * *

Cavan poruçikin yol çəkdi gözü,
Puşkinin üstünə gətirdi sözü:

P o r u ç i k

Şair, eşitdik ki, tələsirsiniz,
yəqin, bu yollarda lap bezirsiniz?

P u ş k i n

Qafqazlı cavanlar, hünərvərsiniz,
sizin gülüşlərdi Qafqaz nəğməsi.
həriniz ayrıca bir əsərsiniz, -
bu epopeyanın doğma hissəsi.
Sizin – mən gördüyüm şücaətiniz,
sizin mərdliyiniz, ya adətiniz
hələ rus şerində vəsf edilməyib,
bilməyən eşidib, bilən "bilməyib".
Yox, məni Paskeviç başa düşmədi,
qayıt, Rusiyaya lazımsan dedi.
Yarımçıq qaytardı bu səfərimdən,
onun qoltuğunda necə qalım mən?

Başqa bir zabit də bir az ərkyana,
yerdən sual verdi tələsik ona:
– Şair, qənim olsun sizin cəddiniz,
amma əyninizi dəyişmədiniz?
Gələndən: at üstə,
                    şlyapa başda,
yapıncı çiynində,
                    bu dağda-daşda.
Zabitə, saldata oxşamadınız,
yox, yox... bəs eləyir şair adınız.

P u ş k i n

Niyə?
Əvəzimə saldatlar geyir,
mənə "Xristian keşişi" deyir.
O gün bir yaralı türk çağırırdı,
səngərdə qalmışdı, gördüm ağırdı.

Elə bilibdi ki, həkiməm, nəyəm,
məni göndəriblər, kömək eləyəm.
Sizin könüllülər sıxılırdılar,
bilmədim, onların dilmancı varmı?
Türklər yanırdılar-yaxılırdılar,
"Qardaş da qardaşa əl qaldırarmı?"

Əsir türk Paşası başqa söz dedi,
mənə tanrısından ömür istədi.
Əvvəl kimliyimlə maraqlanırdı,
sonra kitab kimi varaqlanırdı:
"Şairlə hər görüş – bir səadətdi,
amma səadətə özü həsrətdi.

Əsl dərvişdilər – yersiz, vətənsiz.
Bəs onda biz kimik?
Bədbəxt bəndəniz?
Rütbədən ötəri...
ya bir ad üçün,
dəridən-qabıqdan çıxırıq hər gün.
Ən böyük hakimlə eynidi şair,
hamı, görən kimi ona baş əyir”.
Qaldı Haqqı Paşa mənim yadımda,
fikri azadıydı,
əsir olsa da...

Puşkin prouçiki sevdi ürəkdən,
şair bilmədi ki, ona nə desin.
Şeir həsr elədi - sözü ipəkdən,
yarpağa bükdü ki, özünə versin.
“Döyüş şöhrətinin əsiri olma,
sən ey cavan oğlan, yanma bu ruhla.
qanlı döyüşlərə gedib atılma,
“Qarabağ”* dediyin qaraguruhla.

Ölüm yaxalamaz bilirəm, səni,
demə, bu qismətdi, mən nə bilirəm.
Əzrail görəcək gözəlliyini,
aman verəcəkdi sənə bilirəm.
Amma mən qorxuram, – bir şeydi qorxum,
döyüşlər zamanı itə arada;
sənin gözəlliyin, ya məğrurluğun,
itə mən gördüyüm abır-həya da”.*

---

* “Qarabağ” polku nəzərdə tutulur (*müəllif*).
* Tərcümə müəllifindir (*red.*).

* * *

Abbasqulu bəyi kimsə səslədi,
bir qadın gəlirdi, yerişində sirr.
Poruçik dedi ki, yəqin Əslidi,
Kərəmin səsini eşidib gəlir.

Qadının üzündə payız çisəyi,
gözünün yanları qırışıq idi.
Çiyninə düşmüşdü qara örpəyi, –
saçı da – fikritək qarışıq idi.
Lakin vüqarını o heç əymədi,
Dayandı bu ismət mücəssəməsi.
– Abbasqulu Ağa…
                    bircə söz dedi,
əlüstü tanıdı mayor o səsi.

A b b a s q u l u   A ğ a

Belə, xeyir ola… siz buralara?..
Qadın cavab verdi təmkinli, məğrur:

Q a d ı n

Qocanın meydini gəldim aparım,
Paskeviç bir kəsi yaxına qoymur.
Belə baxmayaydı o, bizə gərək,
bizdə də ürək var, ürəkdə hiss var.
Kənddən götürülsün cənazə gərək,
yerdən çıxmamışıq,
                    adətimiz var.

* * *

Hər şey aydın oldu mayora artıq,
qoca cəbhələrdə olübmüş… yazıq.
Amma o, hər sözdən birtəhər oldu,
sıxdı bir tərəfdən – namus, ar onu,
o biri tərəfdən –
paqonlar onu,
ağ üzü dəyişib boz mərmər oldu.
Soyudu buz kimi o üz, o alın,
bir an elə bildi göydən qar tökür.
Xüsusi əmriylə Feldmarşalın
neçə çin alıbdı, neçə təşəkkür.
İstəyir xətrini o zati-ali,
bir süfrə başında çörək yeyibdi.
Abbasqulu bəyə
Qrafın dili
daima "hə" deyib, "yox" deməyibdi.
Elə bil kiçildi, daraldı aləm,
bir başqa don geydi gözündə cəbhə.
Qadın bir tərəfdə dayandı bu dəm,
o biri tərəfdə –
Qraf, vəzifə.
Bir xalqın dilmancı, tərcüməçisi
qadının önündə susdu bir anlıq.
Gəldi qulağına qocanın səsi,
yenə o gülər üz, o mehribanlıq.
"Abbasqulu Ağa öz balamızdı,
onun hər gəlişi bayramımızdı.
Sən də… əziz qonaq, yadında saxla,
qonaq qədəm bassa, il bolluq olur.
Biz tanış oluruq əvvəl qonaqla,
sonra bu tanışlıq, qohumluq olur…"

## Q a d ı n

Ona çatdırın ki, hələ bir kəsin
Heç vaxt getməmişəm ayağına mən.
Məni başa düşmür…
                    başa düşməsin,
gəlmişəm qocamın sorağına mən.

O kənd gəlişimi bilsəydi əgər,
tökülüb qoymazdı…
                    ağırdı bu yol.
Məni bu çöllərə – bu qara xəbər
özümdən xəbərsiz gətirib, oğul!
Gəlmişəm qocamın düşüb izinə,
bizim dərdimizə o, bələd deyil.
Ölən igidlərin xatirəsinə
ona çatdırın ki,
              bu, hörmət deyil…

Dolaşdı üzündə bir xəfif kədər,
gizlicə üşüdü qəlbi bu ara.
Bəli – ad veriblər, rütbə veriblər,
hüquq verməyiblər fəqət mayora.
Meyidi istəsə gedib Qrafdan,
indi "hə" deyərmi Ali Komandan?
Türkün tərəfinə keçibsə qoca,
xahiş eləmək də müşkül olacaq.
Amma Zümrüd quşu təkid eləyir,
qocanın meyidi mənimdir, – deyir.
Onun nəzərində haqlıydı qoca,
çünki türk oğlunun oğluydu qoca.

Gözündən oxundu verdiyi qərar,
alışdı, tutuşdu, odlandı mayor.
Çiynindən aşağı basdı paqonlar,
çiynindən yüksəkdə dayandı mayor.

A b b a s q u l u  A ğ a

Xahiş edəcəyəm, anam, mən özüm…
Qraf Paskeviçə
mənim bu sözüm…
Gərək…

P u ş k i n

– Zümrüd quşu! –
Qadın tanıdı,
yadından çıxsa da Puşkinin adı.
Şair olduğunu bilirdi ancaq,
bir də bilirdi ki, şair qəribdi.
Puşkin – eşidəndə – ölübdü qoca,
Qraf da
xahişi rədd eləyibdi,
çıxartdı başından şlyapasını,
dağlarda qocanın tutdu yasını.
Abbasqulu Ağa əydi başını,
görmədi qadının o, göz yaşını.
Asta deyindi ki, bu necə işdi?
dünya necə döndü, necə dəyişdi?
Nə vaxt apardılar, xəbər bilmədik?
necə gəldi-getdi əsgər… bilmədik?

* * *

Qadın da susurdu dözüb bu dağa,
susurdu qəlbinin dərdi-səriylə.
Ərli günlərində gələn qonağa
baxırdı, dul qadın nəzərləriylə.
Yox, daha bu günlər
o günlər deyil,
bunları deməyə dil istəyirdi.
O, hələ bilmirdi meyit – ər deyil,
Qrafa od verib, kül istəyirdi.

Qadının birinci zərifliyi – ər!
Zəriflik itirir ər itirənlər.
Qadının birinci taleyidi ər,
bəxtini itirir ər itirənlər.
Qadının qadınlıq ləyaqəti – ər!
Qadınlıq itirir ər itirənlər.
Soyuyur ev-eşik, buz olur yataq,
qadın yetim qalır uşaqdan qabaq.
Dul qalmaq – yetimlik nişanəsiymiş
ər – qadın ömrünün kaşanəsiymiş.

* * *

Çadıra gəldilər,
çadır-çadırdı,
çadır – budaq üstə payıza qalan
nəhəng bir yuvanı xatırladırdı.
Əsgər əlləriydi onu yaradan.
Qüllələr itirdi göyün qatında,
dibi – axşam idi,
zirvəsi – səhər.

Çadır ucalırdı qaya altında,
bu da bir "zirvəydi" gizlətmişdilər.
Nə duman tuturdu, onu nə də çən,
Güney tərəfiydi çadır bu yerin.
Paskeviç gördü ki,
                    Puşkindi gələn,
özü qabağına çıxdı şairin.
Görüb mayoru da, baxdı zənd ilə,
qadında cəmləşdi fikri, diqqəti.
Çadıra apardı nəzakət ilə,
amma başqa səmtə çəkdi söhbəti.

P a s k e v i ç

Cəbhədən uzaqda dolaşın barı,
cənab Aleksandr Sergeyeviç, siz.
Gedir sıramızdan rus oğulları,
ən yaxşı, sıravi zabitlərimiz.
Sizə rəhmim gəlir...
                    cəbhə-cəbhədir...
bizə gərəksiniz –
                    cəmiyyət, vətən…
Qədim türk qılıncı – bu, hədiyyədir,
amma… gedəsiniz gərək cəbhədən.

Şair açıq dedi öz niyyətini,
tabutun yerini xəbər aldı o.
Bir qadın qəlbinin əziyyətini
Qrafa sadəcə başa saldı o.

Burda ikiləşdi Rusiya bir an,
üz-üzə dayandı hökm, fəzilət.
Qraf – rus çarının dedi adından,
Puşkin – rus xalqının adından, fəqət.

## P a s k e v i ç

Şair, inanmayın siz dağlılara,
doğma cilidində yad olur onlar.
Dinləri eynidir…
düşəndə dara,
səngərdən səngərə atılır onlar.
Qoca Türkiyəyə qaçmaq istəyib,
səngərdən qalxanda o üsyan deyib.
Bir saldat vurubdu onu arxadan,
gərək… sürgün olsun evi auldan!
Qaçaqlar qaçırdıb həmən meyidi,
nə konvoy[1] görübdü...
nə mən... meyidi.

Çarın siyasəti hakim dilində,
Qrafın önündə şair çaşırdı.
Ərzrum dağının qarlı belində
cavanlar döyüşə hazırlaşırdı.
Onların qəlbində – dostluq, sədaqət,
soyuq baxışlardan bulanmırdılar.
Bunların qəlbində – şübhə, xəyanət,
Ölümə gedənə inanmırdılar.
Evdən at belində çıxan oğullar,
boynu vəznəlilər, bığıburmalar
evə dönürdülər tabut içində,
şimşəklər sönürdü bulud içində.

[1] Konvoy – gözətçilər (*red.*)

## P u ş k i n

Çox sürdüm atımı dərədə, düzdə,
Qafqaz – qız hüsnüdür məncə, həyatın.
O ölən qocaynan ad gününüzdə
xalı göndəribdi sizə bu qadın.
Neyləsin davada əri ölübdü,
siz qubar qoydunuz bu qubar üstə.
Qafqaz – bu əllərlə köçürülübdü
saçaqlı, qotazlı xalılar üstə.

Qəlbi yuvasıdır sözün, sənətin,
onun da hissi var, o da bəşərdi.
Sahibi olsaydı bu cür xilqətin,
adı tanınardı, dahiləşərdi.
“Kərəm” dastanını dedilər bu gün,
gördüm, bu torpaqda məhəbbət nədir.
Ərzruma gəlib bir tabut üçün
Müsəlman qadını –
bu, möcüzədir.
Kərəm Xan Əslinin,
qadın – ərinin
gəzir sorağında dünyası yaslı.
Qafqazın bu iki şah əsərinin
əfsanə hansıdır,
həqiqət hansı?!
Basdırmaq istəyir öz adətində,
Qrafın əlində bu heç nə deyil.
Adət – bir millətin məişətində
yüz il yaşayırsa,
o köhnə deyil.

Dünyada o millət millət olur ki,
gözünə düz baxır hər həqiqətin.
Dünyada o millət bədbəxt olur ki,
gülür adətinə başqa millətin.

* * *

"Talesiz qadınlar..."
dedi üç kərə:
əsdi ürəyində payız küləyi.
Senat meydanından birbaş Sibirə
aylarla yol getdi rus gözəlləri.
Qadınlar ərlərin tutdu əlindən,
göydə günəş oldu, yerdə iz oldu.
Ərlər – Rusiyanın taleyi ikən,
qadınlar dul qaldı, –
talesiz oldu.

## P u ş k i n

Mən çörək kəsmişəm o evdə, hökmən,
Qocanın dəfninə getməliyəm mən.

* * *

Qadın öz-özünə fikirləşirdi,
Puşkin yanındaydı məğrur, mötəbər.
Dil ayrı, din ayrı,
qəlb birləşirdi,
qəlbin ağrısını qəlb duya bilər!
Məhəbbət bəslədi ürək bu ada,
əzizlər yerinə qoyuldu şair.

Cənazə çiynində,
mayor yanında –
xalıya beləcə həkk oldu şair.

Xalının Tiflisə çatdı xəbəri,
deyirlər, bir atlı gəldi o evə,
deyirlər, peşiman qayıtdı geri,
Qraf məğlub oldu ikinci dəfə.

Adsız sənətkarın adlı əsəri,
rəngiydi çəmənin,
gülün,
çiçəyin.
Puşkin – sevinciydi, qoca – kədəri,
iki qütbü idi bu bir ürəyin.

O ürək birləşdi o əllər ilə,
qocanı torpağa dəfn eləmədi:
xalıya köçürdü ilmələr ilə,
şairin çiynində qaldı əbədi.

Qocanın qəbrini çəkmişdi şair,
torpağı torpağa bükmüşdü şair.
"Vəhşi nəvələrə –
yazdı sənətkar: –
vəhşi babalardan kiçik yadigar".

## *GÜLLƏ*

*Bakıxanovun Puşkinin ölüm xəbərini eşidib*
*Tiflisə yola düşməsi*

*"Eh, indi o günlər uzaqdır, uzaq,*
*o zaman tanıdın sən məni, Qafqaz!*
*Müqəddəs qoynuna sığındım o vaxt,*
*o əziz günləri unutmaq olmaz.*
*Vuruldum hüsnünə*
*o vaxt ürəkdən,*
*məni təmtəraqla qarşıladın sən".**

A.Puşkin

Yol boyu hüzünlü fikirləşirdi,
bir cığır kəsirdi yolu yarıda.
Qabaqda bir izə
iz birləşirdi,
İldırım vurmuşdu bir çinarı da.

Hardasa nə vaxtdan ocaq yanırdı,
bulud əyilmişdi qarağat üstə.
Gedirdi, getdikcə yol uzanırdı,
Fikri piyadaydı, özü at üstə.

Yaxşı bələd idi bu yola-izə,
Harda pıçıltı var, harda hənirti.
Güzarı düşmürdü çoxdan Tiflisə,
kənddə, ehtiyatda şöhrətlənirdi.

Qədim kitablardan, təzkirələrdən
xəbərlər verirdi təzə, maraqlı.

---

* Tərcümə müəllifindir (*red.*).

Şeirlər yazırdı oturub hərdən,
Ürəyi insana, həyata bağlı.

Fikirlər beynini narahat edir,
bəzən buz üstünə od ələnirdi.
Gedib rəiyyətlə zarafat edir,
qayıdıb evində kədərlənirdi.

Ürəkdən su içir əqidə, məslək,
onun mənzilinə yol kəsə gəlir.
Bəzən baş qaldırıb sinədə ürək,
Ağılla,
          şüurla
                    üz-üzə gəlir.

Gedirdi, öyrənsin nəydi bu xəbər,
duyan bir ürəyin günahı nəydi.
Puşkini dueldə öldürmüşdülər, –
zamanın ən ağır faciəsiydi.

## B a k ı x a n o v

Mənalar yağırdı mavi gözündən,
deyib-danışmağa sözü çox idi.
O, qələm götürüb yazdığı gündən
duelə çıxmışdı, görən yox idi.

İnsanın həyatı müvəqqətidi,
amma bu dünyada söz əbədidi.
Bəzən
          tunc heykəli zaman uçurur,
sözdən tökülürsə, o heykəl durur.

Yanır bir bədəndə ürək min oda,
öyüd, nəsihəti eşitmir ürək.
Şöhrət olan yerdə namərd pusquda
ya bir böhtan durur,
ya güllə…
mütləq.

Şair bir millətin fikri, ağlıdı
baş kimi çiyində dursun o gərək.
Şair – məmləkətin ağsaqqalıdı,
şair məmləkətin oğludu, demək.

Dünyada başqadı dünyası onun,
fikrin sorağında o, yalqız qalır.
Şairdi dilmancı hissin, duyğunun,
bəzən o hiss kimi izahsız qalır.

Bir qəlbin bir elə gətirdiyini
yüz qələm sahibi gətirməmişdi.
Rusiya – gülləylə itirdiyini
toplar döyüşündə itirməmişdi.
Sənətə nə hakim, nə sərhəd olur,
bir qəlbin səsini yüz qəlb yayanda.
Millət – vətənində nabələd olur,
öz böyük oğlunu
tanımayanda.

Dondu nəfəsində odlu nəğmələr,
yüz sinə dağladı şair möhnəti.
Ondan məzar qaldı –
öz boyu qədər,
bir də – Rusiyanın şeir şöhrəti.

* * *

Beləcə gedirdi,
gözündə fikir,
dost yasa batmışdı, düşmən gülürdü.
Hələ Lermontovun yazdığı şeir
isti otaqlarda köçürülürdü.

Sönən bir ürəklə yanan bir ürək
od-alov səpirdi ağıza, dilə.
Şeir qışqırırdı qisas deyərək,
şeri köçürənlər susurdu hələ.

Susurdu məddahlar, natiqfasonlar,
rütbə sahibləri susurdu hələ.
Təriflər deyirdi şairə onlar,
Vətənin, millətin, xalqın diliylə.

Baş tutdu kiminsə məkri, hiyləsi,
bədbəxt bir xəbərə büründü səhər.
Senat meydanında ölməyən kəsi,
bir başqa meydanda qətl elədilər.

Üzünə dəydikcə dağların yeli,
sinə dəftərini varaqlayırdı.
Neçə gecəydi ki, Mirzə Fətəli
Tiflisdə şairə yas saxlayırdı.

Kim isə çağırdı onu deyəsən,
Puşkinin səsini eşitdi bu dəm.

## P u ş k i n

Cənab Bakıxanov,
sən düz deyirsən,
mən öz ilhamımla ölməyəcəyəm.
Bizimdir yer üstə böyük gələcək,
sözümü, sirrimi o duyacaqdı.
Məni kalmıklardan tunquslaradək,
hər kəs öz dilində oxuyacaqdı.

Bayaq bir söz dedin… yanırıq oda,
öyüd-nəsihəti eşitmir ürək.
Şöhrət olan yerdə namərd pusquda
ya bir böhtan durur,
ya güllə…
mütləq.

Dünyada bir axşam, bir də səhər var,
yaşadım ömrümün ilk səhərini.
Dünyada həmişə
salyerilər var,
qoruyun istedad sahiblərini.

Eşitdim bayaqkı sözünü də, bil,
sevdim mən Qafqazı,
yandım bu oda.
Qafqaz, düz deyirsən, qaya, daş deyil,
Qafqaz beşik oldu ilhamıma da.

Mən gördüm,
Bayrona qismət olmadı,
kəsdi Afinada yolunu qəza.
Gəlmək istəyirdi o söz ustadı
əvvəlcə İrana, sonra Qafqaza.

Sən də Rusiyanı gəzdin, dolaşdın,
sənin də qəmin var, gözün deyirdi.
Anamın dilindən düşmürdü adın,
elə hər məclisdə tərifləyirdi.

Elə bil sən əsər qəhrəmanıydın,
eh, nələr yazırdı bacım… eh, nələr.
Mənə əziz idi o məktub inan,
mənim Tatyanamın məktubu qədər.

Vuruldum qəlbinə həddən ziyada,
amma tutuldum da bir niyyətindən.
Eşitdim,
Xarici Komissiyada
qulluq axtarmısan, ora getmə sən.

Zahirən xoş idi Peterburq sənə,
yaxşı ki, qayıtdın doğma diyara.
Mən nifrət elədim dövlət işinə,
eh, vəzifə hara, şairlik hara!

Şair azad yazıb-yaratmalıdı,
şair ilhamını oyatmalıdı.
Şair çərçivələr küncünə sığmaz,
o böyümək üçün boy atmalıdı.

Çar məni "unutmadı"
kəndə çatdı sədası.
Bir gün də –
karetası!
Məni qəbul elədi,
bir az məşğul elədi,
bir az da "qul" elədi.

“Bundan sonra nə yazsan,
mənə yollayacaqsan.
Senzorun mənəm daha...”
Düşündüm nə qəm, daha?
Nikolay Pavloviçin[1]
xüsusi “qayğısıydı”,
özü oxuyasıydı,
məni qoruyasıydı.
Kimdən? –
əlbəttə, məndən.
Daha kim nə deyəcək
əlahəzrətə məndən?
Gəlsə, ilham pərisi,
icazə almalıydım,
ya cəza almalıydım.
Ovidiyin həyatı![2]
Avqustun[3] “zarafatı”.
Məni üzdən tanıyan
içdən görmək istədi,
mənə gülmək istədi.
Əsər verdim nahayət,
oxusun əlahəzrət.
Geri qaytardı fəqət.
Get, özün oxu, dedi,
bu da bir oyun idi?
Bəli, “Boris Qodunov”, –
oxudum birnəfəsə.

---

[1] Nikolay Pavloviç Romanov – Çar Rusiyasının imperatoru (*red.*).
[2] Publiy Ovidiy Nazon – Qədim Roma şairi. Dunay sahillərinə sürgün edilmiş, orada da ölmüşdür. b.e. 17. (*red.*).
[3] Oktavian Avqust – Qədim Roma imperatoru (*red.*).

“Ay da Puşkin,
          sukin sın...” –
özüm ayıldım səsə,
uçurdum gizlicə mən.
“İlahi, nə gözəldi,
mən yazmışam?
Necə?..
Mən?!.”
Buydu mənim həyatım,
gör, nəyi xatırladım?
“...Xristianin kimi öl,
rəhm eləsin qoy Allah.
Evindən, ailəndən
nigaran getmə ancaq
Mən özüm...”
                    yəni özü
onları saxlayacaq.
Jukovski[1] gətirdi
bu xəbəri son anda, –
canımı tapşıranda...

O dünya saxtadı, bu dünya səssiz,
uzaqdı xəbərçi, satqın səsindən.
Nəhayət qurtardım:
                    murdar, natəmiz,
yaltaq ziyalılar əhatəsindən.

Bir vaxt Odessada düzü, nagahan,
sinəmə sığmayan bir dilək üçün, –
qaçmaq istəyirdim mən Rusiyadan,
Rusiya haqqında söz demək üçün.

---

[1] A.S.Puşkinin dostu, şair Jukovski (*red.*).

İnsanlar içində tək qalıb insan,
soyuyub ürəyin mehri, ülfəti.
Nə bir soruşan var, nə maraqlanan,
eh, bir də soruşsun, nədir qiyməti.

* * *

Gümüş qaşındaydı əli yəhərin,
qamçı – çəkməsində gözə dəyirdi.
Dünyası yadından çıxmışdı yəqin,
atını fikirli məhmizləyirdi.

Lakin nə danışır, nə də dinirdi,
xəbərsiz gedirdi öz naləsindən.
Çiyni – yəhər üstə silkələnirdi,
fikrinin aramsız zəlzələsindən.

Deyirdi dünyadan gedən getdisə,
daha nə mərhəmət, daha nə qanun.
Deyirdi,
Rusiya bir xəstə isə,
Puşkindi ən dərin yarası onun.

Bu böyük itkiyə hayıfsınırdı,
şairi sevmişdi dost, qardaş kimi.
Büllur şüşə kimi qəlbi sınırdı, -
dəyirdi qəlbinə fikri - daş kimi.

## B a k ı x a n o v

Ölkə bürünəcək hələ bu yasa,
Puşkin verməmişdi hələ bu torpaq.
Napalyon Rusyada məğlub oldusa,
Dantes qalib gəldi bu yerdə ancaq.

Taleyin əhdi də, eşqi də belə,
dərk edə bilmədim hələ bu sirri.
İki şair getdi əli qələmli,
Peterburqda biri,
                    Tehranda biri.

## P u ş k i n

Gör hara çatmışıq… qoy mən seyr edim,
sən də kəhərinin başını qaytar.
Bir  vaxt, tabutunu Qriboyedin
Həmən bu yol ilə aparırdılar.

Soyudu buz kimi inan, o zaman
ürəyimdə ilham, əlimdə qələm.
Elə qarışdı ki, başım o vaxtdan,
eh, yarımçıq qaldı şeir silsiləm.

Qafqaz!
          Rustaveli sevdiyi vətən,
hələ şeyx Nizami… böyük sənətkar!
Mənə Aşıq Abbas hekayətindən
sirr idi dediyin bəzi misralar.

Sevdim o torpağın nağıllarını,
yollar qorxuluydu,
dağlar dumanlı.
Sevdim Azərbaycan oğullarını,
həm hünərliydilər, həm istiqanlı.
O enlikürəklər,
                    o qarabığlar,
başqa bir dünyaydı, başqa bir aləm.
"Şer-1", "Şer-2" yazdım o vaxtlar,
sizin sözünüzdü, mən işlətmişəm.

Sevməyən olubmu Qafqazı de, bir,
hər qədim qayanın tarixi, adı!
"Hafizdən" adıyla yazdığım şeir,
sizin poruçikə çatdı, çatmadı?

Onun gözlərində bir ayrı qəm var,
o qəm-kədər deyil, dərd deyil əsla.
Cavan ürəyində "Əsli-Kərəm" var,
o vaxt, Ərzrumda çalmışdı sazla…

Yaman fikirlisən… ayıl sən bir an,
Döndər qantarğanı, çaya düşür at.
Başını qaldırıb gördü doğrudan,
sağa at aparar,
                    sola xəyalat.
Səsi gör necə də yaxından gəlir,
bu səfər necə də başqa səfərdi.
Dünyada tək qalıb, –
                              o, elə bilir,
yolda elə bilir iki nəfərdi.

* * *

O bir qamçı çəkdi qəfildən ata,
elə bil odlandı o əl, o ayaq.
Puşkin yenə dindi:
– Daha əlvida!
Kürün körpüsünə çatdın, ayrılaq.
Yatıram, istidi yerin nəfəsi,
yuxuma arabir iblis gəlsə də.
Babam Hannibalın malikanəsi,
Svyataqorskidə, – qədim kilsədə.
Nəzirə yazmışdım Qurana bir vaxt,
Peyğəmbər kəlamı bir kainatdı.
Anamın ayağı altında yatmaq, –
mən burda gördüm ki, – necə rahatdı.

Mən döndüm… birazdan düşəcək axşam,
          sən də ləngimə ki, daha sazaqdı.
Svyataqorska qayıtmalıyam,
          sən çatdın… Kilsənin yolu uzaqdı.

Qaldı yer üzündə həyat, kəhkəşan,
ürəyim eşq ilə alışdı, yandı.
Bir xalı pay düşdü mənə dünyadan,
o da… Zümrüd quşu bağışlayandı.
Bu qismət, hər kəsin məncə, bəsidi,
indi həmişəlik təklənmişəm mən.
Yer soyuq olsa da, məzar istidi,
burda o xalıya bükülmüşəm mən.

Sən bu sözlərimi demə görüşsən,
demə, Zümrüd quşu bilməsin, dayan.
Dünyada birinin nəzərində mən
əbədi sağ qalım… demə heç zaman.

* * *

Səs birdən kəsildi, eşidilmədi,
tamam soyumuşdu istisi günün.
Keçdi Bakıxanov çayı bu dəmdə,
şair o tayında qaldı körpünün.
Baxdı çay boyunca, başqaydı həyat,
çıxmışdı Gürcüstan torpaqlarına.
Səs-küyə qərq oldu bir an kainat,
yer-göy hücum çəkdi qulaqlarına.

Soyudu alnında iki damla tər,
gəzdi ciblərini bir yaylıq üçün.
Buludlar son dəfə əl elədilər,
Dünyada əbədi ayrılıq üçün.

O, gördü fikrində haray-həşirdi,
bu od canındaymış qisməti kimi.
Rusiya bir idi,
                    ikiləşirdi –
gündüzün gecəyə nisbəti kimi.

# *HARAY*

## *Hacı Məmməd üsyanı,*
## *qızların atlanması və Bələdçinin hekayəti*

*"Mən toya hazırlaşırdım..."*
Hacı Məmmədin məhkəmədə verdiyi ifadə

*"Qoy ana torpaqda dəfn olunan qəhrəmanları…*
*xatırlarkən bizim vətəndaşlarımızın*
*ruhu səcdəyə gəlsin…"*
C. Hannibal

*"Ey ana yurdumun qızı, gəlini!"*
S.Vurğun

*Mən öz şanlı keçmişimi varaqladım,*
*Hacı çıxdı qabağıma, qucaqladım.*
*Bir palıdın kökü odur, gövdəsi mən!*
*Yer altında Hacı durub –*
*Yer üstündə – nəfəsi mən!*
Müəllif

Qara zurna qaralmışdı,
nəfəsində haray-həşir.
Qədim dağlar fikirləşir,
əsən yellər
bu harayı hey yayırdı,
qapı-qapı, ocaq-ocaq
paylayırdı.
Bakıxanov eşitmişdi,
soruşmuşdu,
demişdilər: Ağa, sirdi.
Günlər keçir,
zurna yenə dillənirdi.

## B ə l ə d ç i

Gətirib üsyançı Hacı Məmmədi,
biz burda basdırdıq eldən xəlvəti.
El bilsə,
sel olub tökülüşərdi,
təzədən araya qırğın düşərdi.
Məmməd demişdi ki, doğma diyarım,
qalsam – səngərimdi,
ölsəm – məzarım.

## R ə v a y ə t

Süngülərin qabağında
gedən Hacı Məmməd idi,
yol – Qubadan xəlvət idi,
el-obadan xəlvət idi.
Tək düşmüşdü
Xeyir
Şərin qabağına.
Rəiyyətin qabağından
süngülərin qabağına.
O döyüşdən – bu döyüşə,
üsyançıdan – məhbusluğa,
qələbədən – məyusluğa.
Nə belində gümüş kəmər,
nə əynində qara çuxa.
Zirvələrdən,
yoxuşlardan enirdi o.
At belində
keçdiyi dağ yollarını
pay-piyada dönürdü o.

## Qəbirdən səs

Mahalları keçə-keçə,
Qırxbulağa gəldik gecə.
Yola düşdük
bu dağların ətəyindən,
komalardan –
əsil arı pətəyindən.
Oğulları,
igidləri yada saldıq,
qapı-qapı adam saldıq.
Soymuşdular
el-obanın nəyi varsa:
kimin qoyunu varsa,
kimin bir inəyi varsa,
qatılmışdı filan bəyin
sürüsünə.
Canıyanan yox idi, yox,
bir kəndlinin ölüsünə,
dirisinə.
Bir yandan da
komendantın adamları.
Axşam-səhər,
istədilər göndərsinlər
uca boyu,
dağ kürəyi olanları.
Varşavaya, qürbət elə,
üsyanları yatırmağa,
adımızı batırmağa,
millət ilə vuruşmağa,
ölüb orda
yad torpağa qarışmağa.

Biz getmədik,
getdik ancaq,
Soyuq, quru vicdanlara
yanğın salaq.
Vədələşdik, biz el ilə,
oba ilə.
Silahlandıq: dəhrə ilə,
oraq ilə, yaba ilə…

R ə v a y ə t

Yığılmışdı
köhnə-köşkül geyinənlər.
Öz bəxtindən gileylənib
deyinənlər.
Çarıqlılar, çomaqlılar,
əyni-başı yamaqlılar.
O axşam yay axşamıydı,
o gecə yay gecəsiydi.
Dad varıydı,
tam varıydı
onun halal çörəyində.
Toy söhbəti dilindəydi,
üsyan fikri ürəyində.
Mahalları –
toy üsyana çağırırdı,
üsyan toya çağırırdı.
Qara zurna bağırırdı.
Qız səadət dünyasında,
ata fikir əlindəydi.
Mahal – təhqir əlindəydi.
Bir cadugər demişdi ki,
yol görünür gedər-gəlməz.

Qulağında səslənirdi
hələ bu səs.
Gəzinirdi Hacı Məmməd
sağa-sola boylanaraq,
əldə təsbeh, başda papaq.

## Q ə b i r d ə n s ə s

Üsyan düşdü qız balamın
toy gününə
söhbətimiz gəlib çatdı
qış günündən
yay gününə.
Məktub aldıq biz İmamdan,[1] –
göndərmişdi Dağıstandan.
Yazırdı ki,
bir yolu var azadlığın:
silah, üsyan.
Nə kağıza, nə rəylərə
bel bağlayın.
İnansanız – bəribaşdan
baxtınıza yas saxlayın.
Nə Şamilin özü gəldi,
nə dəstəsi,
nə bir kəsi.
Biz tərpəndik,
biz yeridik,
biz yüz idik, biz min idik.
Biz sulardan, biz sellərdən
yeyin idik.

---

[1] Şeyx Şamili "İmam" deyə çağırırdılar (*red.*).

Onda bildim – silah nədir,
üsyan nədir,
ya silahlı insan nədir.
Səngər – boyum uzunluqda
bir diyarmış.
Səngər – küllü ixtiyarmış.
Yada saldım
müdriklərin söhbətini.
Onda bildim
azadlığın qiymətini.
Mən yaşadım yer üzündə
bu yerin öz oğlu kimi.
Yaşamadım öz evimdə
oğru kimi.
Daim ölüm arzulardım
Mən Allahdan.
O yaşatdı, zülüm verdi.
Mən yaşamaq arzuladım
sonra ondan,
ölüm verdi.
Dünya necə gözəl imiş,
əlvan imiş.
Bu dünyaya lənət demək,
Günah imiş, böhtan imiş…

R ə v a y ə t

Düşünürdü Hacı Məmməd,
dişlərini sıxa-sıxa.
Enişləri enə-enə,
yoxuşları çıxa-çıxa.
Acıqlıydı,
əsəbiydi,
lap dəliydi.

Deyirdi ki,
taleyimin sonu budur,
amma  hələ əvvəliydi.
Nə süngülər dillənirdi,
nə təbiət.
Heç bilmirdi, –
hansı  səmtə yeriyirdi
Hacı Məmməd.
Öz oduna gah donurdu,
gah yanırdı.
Yeriyəndə – dağ-daş durur,
dayananda –
yer başına fırlanırdı.
Hacı – qara yapıncıda
bulud olar,
torpaq üstə gurlayardı,
döyüşərdi.
Şimşək onun xəncərində
parlayardı,
yer üzündən göy üzünə
şox düşərdi.
Qayalara baş söykəyib,
uzanardı.
Quzeylərdə üşüyəndə,
Güneylərdə qızınardı.
Döyüşərdi Hacı Məmməd.
Döyüşəndə tanınmazdı,
dəyişərdi Hacı Məmməd.

### Q ə b i r d ə n  s ə s

Gecəydi, zil qaranlıq,
az qalırdı səhərə.

Məktub yazdıq şəhərə:
“Şəhərdən çıxarsanız
qaramalı bir yerə,
toplayıb, yığarsınız.
Bunu razılıq bilib
doluşarıq şəhərə”.

Ayağa qalxdı ellər,
biz deyəni dedilər.
Əvvəl neçə yüz idik,
sonra neçə min olduq,
Şəhərə zamin olduq.
Dərələr bizim oldu,
dağlar, düzlər də bizim.
Qanayan dizlər bizim,
gülən üzlər də bizim.
Boyunu uca gördüm
mən qısa boyluların.
Boyu da uzanırmış
vuruşan oğulların.

B ə l ə d ç i

Xəncər gəzdi kəmərində,
kəmər hanı?
Bel boş idi, yüz axtarsın,
Xəncər hanı?
Əzrayılı harayladı,
dincəlmədi.
“Öldür məni, xilas olum!” –
səs gəlmədi.
Dünən bəylər dəstəsinə
üsyan deyən,

tək özünə üsyan dedi,
bu dərd idi.
Bu döyüşdə qalib gələn,
məğlub olan iki tərəf,
ikisi də Məmməd idi.
Qaşlarını çatıb getdi
o, birtəhər.
Baxdı batan günəşin də
solmasına.
O, ölsəydi, düşməninə
qalib gələr,
əzab çəkdi, –
qalıb məğlub olmasına.

## Qəbirdən səs

Demişdim,
divandan xəbərsiz məni,
yolda qaçdı, - deyib vurun siz məni.
Əllərə düşməyim…
O binəsiblər,
məni vurmaq üçün pul istədilər.
Dedim xəncərim var gedin, götürün,
Gəbəm, yəhərim var,
gedin götürün.
Tüfəngim,
yapıncım,
kəmərim,
atım
dedim sizinkidi yasa batmayın.
Amma bir oğlum var, mənə qatmayın,
mən onu üsyana yaxın qoymadım.

Bir oğlum, bir qızım… mənsiz yetimdi,
sənə tapşırıram, əmanətimdi.
Abbasqulu Ağa… hələ sözüm var,
yandıran, ağrıdan gör nədir məni.
Bizə düşmən çıxdı Bakıxanovlar,
bu qəsd qəbirdə də göynədir məni.
Rəiyyət soyuldu, talandı tamam,
sənə and içsələr, yalandı tamam.
Səni soraqlaşıb bildim sonradan,
dedilər, Tiflisdə gözdustağısan.
Səndən çəkiniblər bizdən ötəri,
gizlində saxladım mən bu xəbəri.

B a k ı x a n o v

Mən indi dərk etdim bir həqiqəti,
nəcabət, ləyaqət…
bunlar sirr deyil.
Kasıbla varlının tutmaz söhbəti,
millət bir olsa da, maraq bir deyil.
Zirvə qar istəyir yay, yaz, payız, qış.
Yol var ayaq-ayaq, iz-iz oxunur.
Özüm danışmışdım düzü, bir zaman,
Məmmədə –
Spartak üsyanlarından,
sonra Puqaçovdan…
maraqlanırdı,
mən düyün açdıqca, o, bağlanırdı.

R ə v a y ə t

Elə ki, vurdular Hacı Məmmədi,
dostları basdırdı onu xəlvəti.

Elə ki oğluyla çək-çevir oldu,
onun da ölümü başqa sirr oldu.
Elə ki, yayıldı təzə bir xəbər,
nişanlı oğlan da ölüb, – dedilər,
el gördü hökmünü Hacı qızının.
Oturdu kişitək atın belində,
geydi paltarını nişanlısının,
yaşmaq ağzındaydı, tüfəng əlində.
Bir qız ki,
        çıxmazdı evdən eşiyə,
sonralar at sürdü çölə, meşəyə.
Yaşadı ağrısı, həsrəti canda,
ondakı bir qadın inadı imiş.
Məhəbbət – qisasla həmrəy olanda,
gərdəkdən səngərə bir addım imiş.

## B ə l ə d ç i

Gedək…
qaş qaralır, hava tutulur,
bu yanda yol-iz də seyrəkdir, Ağa.
Qəbri, Əlipaşa ağanın budur,
ona da baş çəkmək gərəkdir, Ağa.
Amma… (Bələdçinin titrədi səsi),
elə həmin gecə,
                        üsyan gecəsi
tutdurmaq istəyib Hacı Məmmədi,
söyüb, təhqir edib o, rəiyyəti.
Yasavul göndərib neçə oymağa,
rəiyyət tökülüb, aman verməyib.
Özünün başını kəsiblər, Ağa,
qohumun olsa da…
                        düz iş görməyib.

* * *

Elə bil üşütdü boran, qar onu,
üşütdü, dondurdu qəlbini tufan.
Elə bil tutdular, asdılar onu
içində qurulmuş dar ağacından.

Nə ayaq tərpəndi,
nə baş, nə ürək,
sinəsində əsən sərt külək idi.
İndi bu qəbirdən o qəbrə getmək,
hörməti təhqirə dəyişmək idi.

Getmədi.
Tərpəndi at yedəyində,
dünya hər nəzərdə bir rəngə düşdü.
İki qəbir qaldı dağ ətəyində,
torpağa bir naxış, bir ləkə düşdü.
Bələdçi boylandı, baxışı sirli,
atlılar keçirdi kəndin yolundan.
Bir…
iki…
beş…
yeddi…
saydı fikirli,
aşdı ikisi də dağın yalından.

B ə l ə d ç i

Oğlan paltarında qızlardı, Ağa,
Hacının qızıydı birinci – məğrur.
Əsil möcüzədi –
qalxıb ayağa
bu qədər atlı qız… inanmaq olmur.

* * *

Dindi qara zurna… yenə həmin səs,
küAləklər danışdı sirli-sehirli.
Baxıb bələdçiyə dinməz-söyləməz,
o, ayaq saxladı xeyli fikirli.

B a k ı x a n o v

Həmin toy səsidi… eşitmişəm mən,
çalınır arabir… sirr olub ancaq.
Səs dağın dalından gəlir deyəsən,
dağ hara, toy hara,
bəlkə qayıdaq?

B ə l ə d ç i

Hacının qızıdı, başında dəstə,
"Əlipaşa" deyib dolaşır hər gün.
Qız gəlib Ağanın məzarı üstə,
yenə toy çaldırır intiqam üçün.
Səni görən kimi çoxu çaşırdı,
mən də gizlətdim ki… birdən mən desəm…

* * *

Ağanın fikiri aydınlaşırdı,
dağlara qaranlıq çökürdü bu dəm.
Cığırı enirdi at yedəyində,
elə bil çiynində dağ qaldırırdı.
Hacının qızısa dağ ətəyində
qəlbində min qəzəb toy çaldırırdı.

Q ı z ı n   n ə ğ m ə s i

Çəkin saçlarımdan dara siz məni,
atasız, qardaşsız, sevgisiz məni.
Aparsın çöllərə bu yol-iz məni,
mənə ev nə lazım, eşik nə lazım.

Səngərim qazılsın qaya qaşında,
qızam… cavab verim ər savaşında.
Mən layla çalmadım beşik başında,
ağı söyləyənə beşik nə lazım.

Bir ata itirdim aslan ürəkli,
bir qardaş itirdim enli kürəkli,
Bir cavan itirdim şirin diləkli,
aşiqsiz dünyada məşuq nə lazım…

* * *

Qayıtmaq istədi Ağa əlüstü,
Bələdçi saxlayıb keçdi qabağa.

B ə l ə d ç i

Qız elə bilər ki, bu axşamüstü
qəbri ziyarətə gəlibsən, Ağa.
Qeyrət sahibidi o ev, o ocaq,
indi qız qalıbdı nişanə kimi.
O, qəbrin üstündə toy çaldıracaq
özü qisasını alana kimi.

Sözünün üstündə bərk dayanıbdı,
qaytara bilməyib bu yoldan heç kəs.
Deyirlər qız bir az havalanıbdı,
                    mən ki inanmıram…
Bu ola bilməz.

* * *

Ağa doluxsundu… doldu gözləri,
üzündə təbəssüm oyandı lakin.
Bələdçi düşündü: bayaqdan bəri,
danışıb incitdim qəlbini yəqin.
Unutdum əslini, nəcabətini,
necə ovsunladı gör ürəyimi.
Gərək açmayaydım qız söhbətini,
gərək gizlədəydim, axıra kimi.
Kədərli görmüşdüm arabir, ancaq,
belə görməmişdim mən o gözləri.
Ölüncə, yadımdan heç çıxmayacaq,
gör kimdi kövrələn,
                                kimdən ötəri…

B a k ı x a n o v

Bələdçi, başqadı,
                    sən deyən deyil,
mənim ürəyimdə bu hiss, həyəcan.
Gözümün yaşı da başqadı, inan,
mənim keçirdiyim sən duyan deyil.
Qəlbimdə, ruhumda qızın surəti,
susmağım bəlkə də heyrət səsidi.

Qızın ürəyində – oğul qeyrəti,
bir elin ləyaqət abidəsidi.

Ayağı minillik başmaqdan çıxıb,
üzəngi görübsə – üsyandı, inan,
Çadradan,
        gərdəkdən,
                yaşmaqdan çıxıb
qız tüfəng götürüb… bu da bir üsyan!
Onun şöhrətidi bu səs, bu haray,
özü şahid olsun – bu ana torpaq.
Başına örtdüyü ipək kəlağayı –
açılsa – bayraqdı,
                örtülsə – yaşmaq.

* * *

Bələdçi dinmədi, daha nə desin,
hər ürək bir dünya, bir möcüzəymiş.
Ağanın üzündə yaşla
                        təbəssüm,
indi başa düşdü Bələdçi, nəymiş.

* * *

Getdilər.
O gündən aylar ötmüşdü,
Ağanın güzarı Tiflisə düşdü.
Dönəndə bir kənddən saldı yolunu,
qadın qarşıladı həyətdə onu.
Həmən Zümrüd quşu… o ürək, o dil,
odun kösövüydü arıq əlləri.

Bir az sınıxmışdı qadın elə bil,
gözündə bir ömrün qəmi, kədəri.
Hüsnündə bir azca gecikib bahar,
gör nələr yaradıb o əllər ilə.
Oğlan paltarında Qubalı qızlar, –
xalıya düşmüşdü ilmələr ilə.
Ağa soruşdu ki, nə hikmətdi bu?
Qadın cavab verdi:
– Hikməti yoxdu.
Mənə danışıblar Hacı qızından,
mənim ürəyimdən tikan çıxıbdı.
Onu ayırıblar nişanlısından,
sarla döyüşlərdə tərlan çıxıbdı.
Səni də axtarıb başında dəstə,
atamın Ağaya sözü var deyib.
Qız toy çaldırıbdı bir qəbir üstə,
Bəlkə səs eşidib gələsən…

## B a k ı x a n o v

Heyif!
Bu fikir gəlmişdi o vaxt ağlıma,
Mən düşüb gedirdim onun izinə,
nə deyim Bələdçi zalım oğluna.

Elə büküldü ki, sağlam bir bədən,
külək bir çinarı yıxdı elə bil.
Palıd kötüyütək yandı içindən,
tüstüsü gözündən çıxdı elə bil.

B a k ı x a n o v

Qızlar qeyrət olub, ağıl olublar,
dağda qar əriyir, seli başlayır.
Qızlar qız doğulub oğul olublar,
Hər xalqın ağ günü belə başlayır…

* * *

Gəzirdi şöhrəti ellər içində,
oğul istəyirdi el Hacı kimi.
Ağa dünya boyda səngər içində,
qalmışdı qəlbinin harayı ilə
üsyandan kənarda – üsyançı kimi.

## *TORPAĞIN YAŞIDI*

*Bakıxanovun "Gülüstani-İrəm" kitabını yazması*
*və qəbiristanda Danəndə adlı qocanı dinləməsi*

*"...Mən günahkar bəndə Qüdsi-təxəllüsü ilə məşhur bakılı Abbasqulu Mirzə Məmmədxan Saninin oğlu, yol göstərmək məqsədi ilə, işin çətinliyindən xəbərdar olduğum halda, müxtəlif dövrlərdə... baş verən hadisələri toplayaraq bir kitab yazmağa başladım... mövcud əsərləri, nəql və rəvayət olunan xəbərləri tutuşdurdum".*

A.Bakıxanov

*"Ölkədə mənim tanış olduğum alimlər arasında... öz ləyaqətinə və biliyinə görə ən görkəmlisi Abbasqulu Xan idi..."*

F.Bodenştedt

*"Keçmişdən odu götürmək lazımdır, külü yox".*

Jan Jores

Bir qoca yaşayırdı
yer üzündə tənha, tək.
Hafizəsi əvəzsiz,
Ağbaş, arıq,
ortaboy,
sağ əlində əsası.
O, dünyanın özündə
bir dünyaydı, qısası.
"Danəndə" deyirdilər,
hər sözü müdrik, qəti.

Nəzərində bir idi
həyatı, axirəti.
Qoca gördü dolaşır
qəbristanı bir nəfər.
Əlində qələm tutub,
dizinin üstə dəftər.
Bakıxanov özüydü,
tanıdı qoca onu.
Şax duruşu, yerişi,
uca boyu, buxunu…
– Xeyir ola, ay Ağa?
– Salam, Danəndə, salam
qədim başdaşlarını
arayıb-axtarıram.
Məxəzlərin verdiyi
məlumatı, xəbəri
gəlib tutuşdururam.
görüm varmı səməri…
Uçan başdaşlarının
hərəsində bir iz var.
Əski əlifbalarda
əski tariximiz var.

Varaqladı dəftəri,
dayandı bir anlığa.
Fikrinin işığında
yol getdi o, tarixə, –
ən qatı qaranlığa.

## B a k ı x a n o v

Dünyada hər zamanın
öz sualı, tələbi.
Heredot,
Strabon,
Plutarx,
Katib Cələbi.
Nüfuzlu tarixçilər,
təfəkkür sahibləri.
Neçə qədim müəllif,
neçə çərxi-fələyin
müəllifsiz əsəri.
Nə yazıblar tarixə?
Harda Bakı sözü var?
Harda Atropatena,
Albaniya,
Midiya,
Urmiya yazıbdılar?
Neçə adda, ünvanda
düşmüşük kitablara.
Bizim eradan qabaq,
bizim eradan sonra.

Nağıllar, rəvayətlər
tərif edir Qafqazı.
Pərilər ölkəsiymiş,
deyir, –
divlər yuvası.
Abşeron –
yarımada.
Şirlərin məskəniymiş
o, yanar odlar ilə
dənizin arasında.

Başqa tarixi xəbər:
batıbdı Şəhri-Yunan,
adı qalıb şəhərin.
Səlyan yolunun üstə,
sağ yanında Xəzərin.
Burda tarix yaranıb,
ənənələr olubdu,
burda nələr olubdu.

* * *

Əli yazan qələmdə,
ürəyi varaq üstə.
Təzədən doğulurdu
bu doğma torpaq üstə, –
Azərbaycan xalqının
oğlu – bir xoştəbiət.
Bir tarixi şəxsiyyət.
Azərbaycan dediyi
bu tarixin atası.
Tarix kitabımızın
ilk tarixi sədası.

Qoca yaxşı bilirdi.
nəydi o ağıl, o baş.
Yaşda – kötücəsiydi,
başda – özünə həmyaş.

B a k ı x a n o v

Tarix elə şahdı,
nə zülmü var, nə hökmü.
Lakin baş əyməkdədi
bəşər ona qul kimi.

Tarix elə natiqdi,
nitq eləməz bir kərə.
Sələflərin sözünü
yetirər xələflərə.
Tarix elə məktəbdi,
orda müəllim olmaq,
ilk əlifba oxuyan
şagirdə bənzər ancaq.
Zəmanənin işindən
baş açmayıb iş görmək, –
yolsuz, izsiz bir çölə
səfər etməkdi demək.
Oxuyuram, baxıram…
qəlbim heç rahat deyil.
Xəbərdarlıq deməkdi
hər xalqa öz tarixi,
təkcə məlumat deyil.

* * *

Danəndə fikrə getdi,
baxdı daşa, torpağa.
– Mən də tarixəm, Ağa,
torpaq da tarix, Ağa.
Babamın
babasının
söhbəti var, məndədi.
Min ilin söz-söhbəti
bax, bu taxtanın altda, –
bu quru sinəmdədi.

Gündə bir söz, bir xəbər,
eşitməsək, kar olluq.
Danışmasaq, lal olluq,
Ağa, günahkar olluq.

## Danəndənin birinci hekayəti

Bu səssiz qəbristan, bu daş qəbirlər,
həyatın bu fani, bu boş guşəsi
gurlar yuvasıymış,
bir də bəbirlər,
burdaymış dünyanın ən sıx meşəsi.
Burda meyvələrin başqaymış tamı,
burda çiçəklərin ətri şah imiş.
Səyyahlar sevərmiş bu ehtişamı,
Hər kəsin ilk sözü
maşallah imiş.
Burda ot bitərmiş, – xəstəyə məlhəm,
ilin hər fəslində o, təzə-tərmiş.
Heyva – doyuzdurar,
nar – əridərmiş,
hava bir aləmmiş, su da bir aləm.
Turacın, bülbülün şərqisi olmuş
ürəyi oxşayan burda hər səhər.
Dünyanın gözəllik sərgisi olmuş
bu qəbristan yeri…
bu daş qəbirlər.

B a k ı x a n o v

Bəs sonra, Danəndə, taleyi yerin?
Əsil tarix imiş sən dediklərin.
Köhnə kitablarda, təzkirələrdə,
buna rast gəlmədim mən ki, bir yerdə.

D a n ə n d ə n i n
i k i n c i h e k a y ə t i

Bir gün
qoşun yeridir
bir yadelli hökmdar.
Deyir ki, mənim olsun
gərək burda hər nə var:
quşun səsindən tutmuş
çayın səsinə kimi,
torpaq – xəzinə kimi.
Silahlanıb camaat,
o gün qalxır ayağa,
qan tökülür o bağa.
Baxıb görür hökmdar, –
qırılır əsgərləri.
Amma heç yerlilərin
qırılmır bir nəfəri.
Məğlub olur…
Nə sirdi?
Bu nə haray-həşirdi.
Xəbər gətirirlər ki,
bütün yerli camaat,

su çiləyir, ot qoyur
            yarasına o saat.
Nizə, qılınc yarası
Qaysaqlanır, sağalır.
Burda eşitdiyinə
hökmdar heyran qalır.
Əmr verir orduya:
yüz min keşikçi qoyur
hər yerdə ota, suya.
Bacarmır o, bu yerin
dərəsiylə, dağıyla.
Qəzəbindən torpağı
tapdayır ayağıyla.
Gecələr ərşə çıxır
gözünün yuxusu da.
hökmdarla vuruşur:
ot da, çiçək də, su da.
Meşələri kəsirlər,
doğrayırlar o ki, var.
Quruyur dəli çaylar,
soğulur buz bulaqlar.
Ən uzaq ölkələrə
daşınır bal meyvələr.
Əlimiz bal dadıyır,
ağzımız ancaq zəhər.
Ölülər – yaşamağı,
dirilər – öldürməyi
öyrədir bəlkə bizə?
Bu sükutun dediyi
nədir hafizəmizə?!

## Düşmən tarixində yazı

Mədain torpağında
bayraq qaldırdı Babək,
İslamı qırdı Babək.
Kafir, hiyləgər, məlun,
anası – şərab içən,
atası – qeyri-məlum.
Özü yağı, hərami,
halal saydı haramı.
Oğul – öz anasıyla
evlənə bilər, – dedi:
– Ata – doğma qızıyla.
Üzü buz, ürəyi daş,
oğru, başkəsən, əyyaş.
Pozğunların pənahı,
iyirmi il o dandı
böyük, ulu Allahı.

## Daşda yazı

Tarix bizim olubdu,
tarix yazan özgələr.
Tarixə düşməyibdi
bizim tarixi kədər,
bizim tarixi hünər.
İgid anasıyam mən,
torpağam düz min ildi.
Yerin sədasıyam mən,
oyağam düz min ildi.

Qılınc qurşadı oğlum,
bayraq tutdu əlində.
Azadlıq! – şüarıydı
bizim öz ləhcəmizdə,
onun şirin dilində.
Zəlzələ başlayardı
nərə çəksəydi Babək.
At çapsaydı göydə yox,
yerdə çaxardı şimşək.
Ürəyi ipək idi,
nəfəsi çiçək idi,
baxışı məlhəm idi,
tək gülüşü – qəm idi.
Həm doğma oğlum olub,
həm igid sərkərdəmiz.
Mən onun anasıydım,
fədaisiydim də,
şəksiz!

* * *

Tarix idi danışan,
ya qadın idi, torpaq?!
Qoca nə qədər yaxın,
qoca nə qədər uzaq!
Bakıxanov susurdu,
soyuq gülümsəyirdi.
Dodağı tərpənirdi,
öz-özünə deyirdi.

## Dəmirdə yazı

Gah qalxan,
gah qılınc,
gah da ox oldum,
o qədər vuruşdum,
axır yox oldum.
Susmadım,
düşməndən qisas alınca,
torpağı qorudum,
torpaq olunca.

## Sümükdə yazı

Neçə ölkə ayaqladım
yer üzündə.
Çadır qurub axşamladım
yad ellərin gah çölündə,
gah düzündə.
Hər sümüyüm bir torpaqda,
qərar tutub indi mənim.
Nə qəbrim var,
nə başdaşım,
nə vətənim.

## Divarda yazı

Bizim kəhər atların
gümüş qaşlı yəhəri, –
həm səngərmiş,
həm tabut,
igidlərdən ötəri.

Düşmən gəldi o ki var,
birləşib həlak oldu
burda xalqlar,
tayfalar:
Amazon,
avar,
alan,
zülqədər,
binəvəyan,
masaket,
ləzgi,
bolqar,
kumık,
xələc,
kürd,
tatar…

B a k ı x a n o v

Nəhayət, Gülüstan müqaviləsi,
ağırmış insanın qəsdi, qərəzi.
Yer altda sümüklər, –
başlar, ayaqlar,
nizələr, qalxanlar, dəmir papaqlar,
talelər, səngərlər, hərbi geyimlər…
Antik dövrlərdən bu günə qədər
Bu qanlar, qırğınlar içində fəqət,
nüfuz sahibləri yetirdi torpaq:
təbibi – mənəvi,
Şeyx Nizami.
Aləmdə onun da başqa aləmi.

Məhsəti yaşadı, yazdı, yaratdı,
qadın bu torpaqda şöhrətə çatdı.
Xaqani, Füzuli, Seyid Zülfüqar,
Hacı Zeynalabdın… neçə sənətkar.

### Danəndənin üçüncü hekayəti

Bir şəkil çəkəydilər:
qəbristan,
        altı meşə,
        meşənin altda şəhər.
Özü öz taleyinə
heyran qalaydı bəşər.

Bir söhbət də eşitmişdim
                babalardan.
Yadigardı bu ellərdən,
                obalardan.
Deyirdilər,
        yerin altı bir şəhərmiş.
Orda da ay gecələrmiş,
        gül bitərmiş,
        su axarmış,
        qar yağarmış,
        gün doğarmış.
Aynabəndli evlərin də
            sayı çoxmuş,
yer üzündə tayı yoxmuş.

At sürərmiş,
ox atarmış gəlinləri.
Yüz min atlı qoruyarmış
o şəhəri...
Qonaq gəlsə,
qabağına qız çıxarmış
şərbət ilə.
Elçi gəlsə,
Ağsaqqallar qarşılarmış
hörmət ilə.
Düşmən gəlsə,
atlanarmış yüz min nəfər.
Göydən iynə ələnərmiş, –
od nizələr.
Zaman keçib,
torpaq olub,
meşə olub,
indi köhnə qəbristandı.
Sabah gəlib görəcəklər –
gülüstandı…

Qoca danışırdı,
danışasıydı,
dünyanın işindən özü halıydı.
Qoca da torpağa qarışasıydı,
Torpaq əbədiydi,
yaşamalıydı.

## B a k ı x a n o v

Tarix kitabıymış sən demə bu yer,
hər qatı yazılıb nizəylə, odla.
Torpaq insan kimi danışa bilər,
danışdıra bilsək, biz ehtiyatla.
Sevirik torpağı biz ana kimi,
yaşımız çatsa da, səksənə, yüzə.
Sağ ikən – torpağın bizik sahibi,
sonra – o sahibdi sümüyümüzə.
Torpaqda hər xalqın yadigar izi,
öz xətti, öz adı, öz ünvanı var.
Xalqın torpaq kimi – salnaməçisi,
torpağın xalq kimi yaradanı var.

## *ŞAİRİN TALEYİ*

*Bakıxanovun Peterburqda Fazil Xan Şeydaya rast gəlməsi, Şərqə səfəri*

*Deyirlər: min ildən bir qoca dünya,*
*gətirir vücuda vəfalı adəm.*
*Yəqin biri gəlib biz doğulmadan,*
*biri gələr –*
*bizi udanda dərd, qəm.*
Xaqani

Dünya oyanırdı bahadır kimi,
sahil səssiz idi, meh xeyli sərin.
Göyün ağ buludu ağ çadır kimi
üstə açılmışdı qədim şəhərin.

Peterburq qəribə bir aləm idi,
solğun bənizliydi burdakı səhər.
Yer quru olsa da, hava nəm idi,
sürüşkən olmuşdu daş döşəmələr.

Bəlkə də bir donmuş nəğmə kimiydi
heykəllər düzümü açıq havada.
Pyotr at belində düşüncəliydi,
bəli,
çar atlıydı, şəhər piyada.

Yenə əvvəlkitək gəlirdi səhər,
yenə alışırdı qızıl dan yeri.
Daha "şair" deyib göstərmirdilər,
Puşkinsiz qalmışdı Puşkin şəhəri.

Eşqi böyük idi, mənzili qısa,
necə də yarımçıq söndü o ürək.
Şair vətənində təqib olursa,
o xalqın başında xata var demək.

Şairsiz bir ölkə, ya bir məmləkət
ocağı soyumuş bir ev kimidi.
Coğrafi iqlim var dünyada, fəqət,
şair də dünyanın söz iqlimidi.

Abbasqulu Ağa gedirdi belə,
qəlbini sıxırdı,
                    didirdi zaman.
Gedirdi Peterburq küçələriylə,
bir kəsin xəbəri yox idi ondan.

O, burda ən əziz qonaq olubdu,
Puşkinin anası… o ev, o səhər.
İndi zaman keçib, torpaq olubdu
ona süfrə açıb çay süzən əllər.

Şairin mötəbər dostları ilə
gəzmişdi qol-qola, çiyin-çiyinə.
Onun boy-buxunu bir yana, hələ
valeh olmuşdular müdrikliyinə.

O zaman Peterburq salonlarını
Puşkinlə yanaşı bəzəmişdilər.
Ağanın qotazlı paqonlarını
qartal caynağına bənzətmişdilər.

Gör necə dəyişdi illər dünyada,
bilmədi illərin siyasətini.
Fikri durulurdu, saldıqca yada
şairin Ərzrum səyahətini.

Şirin bir yuxuymuş demək yaşamaq,
illərin ömürü azmış dünyada.
Puşkinin bacısı Olqadan bir vaxt
məktub gətirmişdi… yuxuymuş o da.

Qədim həqiqətdi bəlkə nağıllar,
insan don geydirib sevincə, qəmə.
Bəzən həqiqətmiş, demə, yuxular,
bəzən həqiqətlər yuxuymuş,
demə…

Səfər üstündəydi, o gedəsiydi,
dünyaya gəlmişdi öz dünyasıyla.
Şərqi gəzmək idi fikri, niyyəti
Məkkəni ziyarət ehtirasıyla.

## B a k ı x a n o v

Bağdadın, Dəməşqin varmı əvəzi,
hələ o ehramlar,
o abidələr.
Qədim İstanbulu görmək həvəsi
yaşayır qəlbimdə bu vaxta qədər.

Başqadır iqlimlər, günün ziyası,
bəzən düşünürəm gedib xəyala.
Şərqin təfəkkürü,
fikri, zəkası,
nur saçır bəşərin keçdiyi yola.

* * *

Gəldi məhəbbətlə o, Şərqdən qabaq
Puşkinin evinin ziyarətinə.
Baş əydi şairə hörmət olaraq,
bəli, sadiq qaldı Şərq adətinə.

Qəlbini qəlbinə bağışlamışdı,
torpağa hopmuşdu yağan buludla.
O, şair Puşkini alqışlamışdı,
Puşkinsiz bir evə
baxdı sükutla.
– Cənab Bakıxanov…
Çağırdı bir səs,
çiyninin üstündən boylandı geri.
Təkcə dayanmışdı dinməz-söyləməz,
Fazil xan, İranın saray şairi.

Ağa xatırladı neçə il qabaq,
"Türkmənçay sülhü"nü, həmin o yeri.
Orda görüşmüşdü ilk dəfə ancaq,
Ona əl vermişdi saray şairi.
Qəlbində bir dünya söhbəti vardı,
buzlar əriyirdi od nəfəsindən.
Sözünün çəkisi ağır olardı,
bəlkə də şairin öz çəkisindən.

Onun qulağını kəsmişdi şahlar,
yazdığı həcvlar vicdan səsiydi.
Sonra rəhm eləmiş guya saraylar, –
ona ölüm hökmü kəsiləsiydi.
Necə?
inansınmı, özüdür elə,
sanki dəyişməyib o vaxtdan Fazil.

Arazın o Tayı bu Tayı ilə
üz-üzə dayandı burda elə bil.
Bir an gah susdular, gah baxışdılar,
hər kəs öz qəlbinin həyəcanıyla.
Bir xalqı ikiyə ayırmışdı çar,
Puşkin birləşdirdi öz ünvanıyla.

Araz bulanırdı,
                    başqaydı torpaq,
çağlayan Nevanın tanış səsiydi.
Dil bir, məişət bir,
                    adət bir… ancaq
hərəsi bir ölkə təbəəsiydi.

F a z i l   X a n

Ağa, heç düşünsəm, ağlıma gəlməz,
nə xoş təsadüfdü… salam, əssalam!!
Sən də mənim tanrım, gözəgörünməz,
mən sənə dualar oxumalıyam.
Qaçdım mən İrandan bu ölkənizə,
Xeyli var gəlmişəm…
                    başqaydı dərdim.
Cənab Bakıxanov, mən burda sizə,
bir də mən… Puşkinə pənah gətirdim.

Biz bir vaxt görüşdük…
Mən onu duydum,
o bir məmləkətin qaynar səsiydi.
Ona söz vermişdim: qayıdasıydım,
o da söz vermişdi: gözləyəsiydi.
Orda bir qəm imiş, burda da bir qəm,
qəmlər də dünyada rəqib olurmuş.

Mən öz taleyimdən şübhələnmişəm, -
şairlər – hər yanda təqib olurmuş.
Dəqiqi – bir sərxoş qurbanı oldu,
Firdovsi – tərk etdi doğma elatı.
Xaqani – məhbəsdə saraldı-soldu,
bu da şair Puşkin… bunun həyatı.

* * *

Fazil düşündü ki,
                    bu cəmiyyətdə
onu nişan alan xain əlidi.
Puşkin öldürülən bir məmləkətdə, –
şairlik – nə qədər təhlükəlidi.

Qəlbində, ruhunda gizli təəssüf,
öz səsi özünün hayanı oldu.
Bəlkə də bu görüş, ya bu təsadüf,
taleyin gizlənpaç oyunu oldu?

F a z i l X a n

Cənab Bakıxanov…
                                fikirlisiniz,
mən də düşünürəm bayaqdan bəri.
İndi Rusiyada kimsəm sizsiniz,
saraysız qalıbdı saray şairi.
Nə qalmaq mümkündü,
                                daha nə getmək,
qarışıb axaydım Araza, Kürə.
Vətənim var ikən vətənsiz ölmək
nə ağıla sığır, nə təsəvvürə.

## B a k ı x a n o v

Fazil, dərd salmayın ürəyinizə,
dünyadı… taledi…
                    nə deyim… qərəz.
Puşkin şeir yazıb, dost deyib sizə,
yox, bunu Rusiya unuda bilməz.

Söz qalır qəlbində yenə hər kəsin,
söz də dustaq olur insanlar kimi.
Səfər üstündədir,
                              necə söyləsin? –
baxır Fazil Xana sirri var kimi.

Arada ehtiram,
                    ürəkdə hörmət.
gizləmək ağırdı, demək də çətin.
Ezamiyyət verib Ağaya dövlət,
xüsusi əmriylə əlahəzrətin.

Bu gün çıxmalıdı, belədi qərar,
bir az da ləngisə, başa çatır ay.
Tehranda qəbula hazırlaşırlar,
yəqin polkovniki gözləyir saray.

"Türkmənçay sülhü"nün səhifəsində
hər bənd yadındadı,
                              hər söz tanışdı.
Həkk olub İranın hafizəsində, –
elə tarixdi ki, unutmamışdı.

B a k ı x a n o v

Qol qoydum bir xalqın ayrılığına,
gözüm indən belə yol çəkəcəkdi.
Dünyada mən həsəd çəkirəm ona, –
o kəs ki,
birliyə qol çəkəcəkdi.

* * *

Gedir bu fikirlə yanında Fazil,
desinmi, bir kəlmə söz kifayətdi.
Tərəddüd – bu dəmdə zəiflik deyil,
bəlkə də mənəvi bir keyfiyyətdi.

Kəsir qabağını əsən külək də,
fikirdə nə axşam, nə səhər olur.
Ağıl da düz deyir, bu dəm ürək də,
gücdə ikisi də bərabər olur.

B a k ı x a n o v

Deyim… mən sözümü qoy açıq deyim,
bayaqdan bir duyğu əzir qəlbimi.
Sizin gəlməyiniz, mənim getməyim,
bir vaxta düşübdü Fazil, tərs kimi.
Şərqə səfərim var, səyahətim var,
bəlkə də bir xeyli qalasıyam mən.
Sonra da Məkkəyə ziyarətim var,
əvvəlcə, Tehranda olasıyam mən:

qonaq sifətilə…
                    nə bilim,belə…
Aydındır sarayın fikri, niyyəti.
Bunu bilirəm ki, Rusiya ilə
yaxınlıq istəyir İran dövləti.
Gərək məktub yazım elə bu axşam,
yazım bildirim ki,
mən başqa bir vaxt…

F a z i l  X a n

Cənab Bakıxanov… qəti qıymaram,
siz  Məkkə dediniz… gedin, siz Allah.

* * *

Gərək ləngidəydi Fazil xan onu,
gərək saxlalaydı bu yoldan onu.
Bir az inciyəydi, bir az küsəydi.
Nə bilsin
          taleyin oyunu nəydi?!

Nə bilsin, Məkkədə onu bir səhər,
aparıb torpağa dəfn edəcəklər.
Vəbadan öləcək qulağı səsdə,
bir adam yasını saxlamayacaq,
ya bir dəsmal alıb ağlamayacaq,
cənab polkovnikin məzarı üstə.
Qalacaq uzaqda qərib bir məzar,
onu Rusiyada unudacaqlar.

Ağa taleyindən xəbərsiz gedir,
Ağa, ürəyində başqa hiss gedir.
Bir ömrün hüsnünü bürüyür duman,
bəs hanı sədası o səsin, ünün?
Bir oğlu itəcək mənim yurdumun,
bir qəbri artacaq Məkkə çölünün.

B a k ı x a n o v

Fazil, məktub yazım gərək bu axşam,
yazım bildirim ki,
mən başqa bir vaxt…

F a z i l X a n

Yox, yox… inanın ki, qəti qıymaram,
siz Məkkə dediniz… gedin siz Allah!
Gedin… imamları ziyarət edin,
Allahın evidi… Ağa, siz gedin…

* * *

O gün yola saldı Fazil Xan onu,
amma ürəyinə dərd elədi ki,
Gedib ötürmədi Nevadan onu,
O gün Bakıxanov vəd elədi ki,
mütləq qayıdacaq, görüşəcəklər,
hələ qucaqlaşıb-öpüşəcəklər.

Bakıya, Qubaya dəvət edəcək,
ona öz evində hörmət edəcək.
Qayıtdı, fikrində başqa bir aləm,
təzədən küsəndi öz taleyinə.
Başını qaldırıb gördü ki, bu dəm,
Puşkinin evinə gəlibdi yenə.

## *KNYAZ QIZI*

*Nina Çavçavadzenin Zümrüd quşunun yanına*
*xahişə gəlməsi.*
*Zümrüd quşunun öz taleyi*

*"Şəbi-hicran yanar canım…"*
Füzuli

*Kimin ürəyində bir duyğu varsa,*
*deməz ürək səsi ötəri səsdi.*
*Məhəbbət dünyada yetim qalarsa,*
*bir könül ağrısı*
*bir əsrə bəsdi.*
N.Həsənzadə

Gah endi, gah qalxdı dağ yollarında,
kəndə çathaçatda dayandı karvan.
İki nəfər keçdi yas paltarında,
qədim bir məhlənin darvazasından.

Soyudu elə bil isti ocaqlar,
üfüq qaşlarını sıx çatdı cahan.
Kimiydi, nəçiydi
gələn qonaqlar?!
Nə bilən var idi, nə bir soruşan.

Gəldilər fikirli, qəmli, qüssəli,
sirliydi, sözlüydü mənası bunun.
Nina Çavçavadze – gürcü gözəli,
öpdü əllərini Zümrüd quşunun.

Bu, gözəl qadının salamdan qabaq
sənətkar qadına ilk töhfəsiydi.
Sanki ev yiyəsi –
bu dəmdə qonaq, –
Qonaq da bu dəmdə –
ev yiyəsiydi.

Bu ona, o buna minnətdar oldu,
var ol, el adəti - ey ana torpaq!
Baxdı Zümrüd quşu qonağa bir də, –
qəlbində yer verdi evindən qabaq.

Qraf Paskeviçin iş otağında
bir xalı görmüşdü şeriyyət ilə.
O, Zümrüd quşunun səs-sorağında
o vaxtdan gəzirdi bir niyyət ilə.

O vaxtdan dilində bu söz, bu söhbət,
görmək istəyirdi nur çöhrəsini.
Bir qadın qəlbində olan məhəbbət,
yüz qəlbə saçarmış öz şöləsini.

Bədbəxt taleyindən danışdı qonaq,
bir sinə qəfəsə dünya dar oldu.
Onun ürəyində,
qəlbində allah,
dilində cəmiyyət günahkar oldu.

### N i n a  Ç a v ç a v a d z e

Əzizdir əzabı bu xiffətimin,
eşqi təmiz idi göz yaşı kimi.
O öldü… mən ölən məhəbbətimin
qaldım yer üzündə başdaşı kimi.

Dünyada hər qəlbin öz məhəbbəti,
daima yol çəkir gözü muradın.
Eşq də sərvətdi – könül sərvəti,
sevmək – mənasıdı bütün həyatın.

O, mənim qəlbimdə
hisslər, duyğular,
arzular, xəyallar… nələr oyatdı.
Mən yol gözləyirdim – bağlandı yollar,
mən ər gözləyirdim – tabut qayıtdı.

Qədrini bilmədi onun ölkəsi,
şair ürəyini oxşamadılar.
Həyatı, insanı sevən bir kəsi,
bilmirəm torpağa necə qatdılar?

Necə qayıtdılar, necə yatdılar?
Necə bu xəbəri gəlib dedilər?
Necə çaşmadılar, ölüb, – dedilər…
Eh, şair taleyi qarışıq oldu,
onun hər addımı demə hünərmiş.
O öldü – torpağa yaraşıq oldu,
demə… qəbirlə də yer bəzənərmiş.
Çəkdi öz kamına bu niyyət üçün,
bəzəndi, yer məndən qismətli imiş.
Şairin tabutu – cəmiyyət üçün,
şairin özündən qiymətli imiş.

Bəs mənim taqsırım deyin, nəydi, nə?
o mənə nə verdi sevgimə əvəz?!
Bütün bir dünyanı vəd etdi mənə,
niyə… yas paltarı geyindirdi bəs?!

Qaldı qulağımda səsi-sədası,
o necə sənətkar, o necə ərmiş.
Böyük bir ölkənin ağlı, zəkası
kiçik bir tabuta sığa bilərmiş.
Açdı, geniş açdı yer qucağını,
necə söndürdülər yanan bir odu.
Əbədi şöhrəti – Rus torpağının,
ömürlük nisgili – mənimki oldu.

* * *

Qonaq danışırdı, dinləyirdi o,
bir qəlbin tükənməz qəm-qubarını.
Tehran, Bakıxanov, Qriboyedov…
çatdı Zümrüd quşu sıx qaşlarını.

### N i n a Ç a v ç a v a d z e

Hamiləydim o zaman,
bu sinəmdə bir ürək.
Biz Təbrizdə ikiydik,
Tehranda bizsiz o, tək.
Sizdən üzr istəyirəm
ki, mən
açıq deyirəm.
Leysan tökdü dalınca,
göz yaşıymış dünyanın.
Selə yudu izini
Məni həssas duyanın.

Gözlədim bu gün gələr,
sabah gələr… gəlmədi,
xəbər-ətər gəlmədi.
Bir gün adam gəldi ki,
məktubu var səfirin.
Dedim: mənə göstərin,
dandılar ah, nə isə.
Guya səfir yazıb ki,
mən qayıdım Tiflisə.
Özü də tez gələcək,
Qafqazda dincələcək.
Gördüm ki, hamı susur,
mən düşmüşəm qürbətə.
Hökumətlə qurtarıb
mənlə başlamışdılar
diplomatik söhbətə.
Almışdılar əlimdən
əzəl səadətimi.
Məndən gizlədirdilər
mənim fəlakətimi.
Sirdaş oldum mən ona,
qadın oldum mən ona.
Ana ola bilmədim
mən onun övladına…

* * *

Nina Çavçavadze susan deyildi,
ağbirçək anaydı duyan o dərdi.
Kədəri danışmaq asan deyildi,
təzədən yaşayır insan o dərdi.

## Nina Çavçavadze

Gəldim ki, şəklini toxuyasınız,
bir kəs gəlişimi bilməsin, ana.
Bu şəkli oxşayır özünə yalnız,
ona həyat verin, ölməsin, ana.
Tehranda itirdim, Qafqazda tapım,
qayıtsın getdiyi uzaq yolları.
Özüylə ömr etmək mümkün olmadı,
şəkliylə yaşayım evimdə barı.

* * *

Bir an inanmadı qulaqlarına,
şəklinə dikilib qaldı gözləri.
Bir vaxt çay süzmüşdü qonaqlarına,
burdan başlamışdı neçə səfəri.
Yoluna bir xurcun tədarük görüb,
özü su səpmişdi hələ dalınca.
Baxmışdı yollara qaş qaralınca.
Bir vaxt eşitmişdi: ailə qurub,
bir knyaz qızıdı,
təzə bir çiçək.
Boyu-qaməti var bir fidan kimi,
demişdi, Tehrandan qayıdan kimi,
onu da götürüb qonaq gələcək.

Abbasqulu bəy də tərifləmişdi,
şəninə nə gözəl sözlər demişdi.
Nina nə gözəldi… yəqin qohumam.
"Gürcü gözəliydi mənim də anam,
Gözəl müğənnidi, əla səsi var,
Bir az da sinədən söz deməsi var.

Elə şən qızdı ki…
gözəl, mehriban"
Kədər yol üstəymiş demə o vaxtdan.

(Anam Zümrüd quşu, könül şəhpəri!
yığdın öz sinənə sən bu dərdləri.
Say görüm bu yolda-izdə kim olub,
qapında bir dostun yüz ləpiri var.
O hardan bilsin ki, sizdə kim olub,
nə bilsin, ay anam, nə xəbəri var.
Qonaq qarşılamaq, ya yola salmaq,
süfrələr bəzəmək…
gəlməsin asan.
O da sənətkarlıq istəyir ancaq,
O da bir sənətdi, əslinə baxsan…)

Onlar baxışdılar mehri-ülfətlə,
ürəkdə od oldu, nəfəslərdə buz.
Nina Çavçavadze ona hörmətlə
Brilyant uzatdı.
– Bu… əlborcunuz.

Kainat gözündə sönmüşdü sanki,
amma nur saçırdı əlində daş-qaş.
İri bir giləyə dönmüşdü sanki,
ovcuna düşmüşdü gözündəki yaş.

Otaqda bir sükut, arada şəkil,
Çiyninə əymişdi Nina başını.
Elə bil qadına daş-qaşı deyil,
əlborcu verirdi o, göz yaşını.
Gözəl Gürcüstanın gözəl qadını,
dul gözəl… taleyin insafı varmı?

İtirib ən nadir brilyantını,
Heç ondan brilyant almaq olarmı.

Dünyanın qisası alınıb ondan,
Qəminin bəlkə də qədəri yoxdu.
Özü bu mənzilə qədəm qoyandan
Brilyanta dönüb, xəbəri yoxdu.

Baxdı Zümrüd quşu
fikrində qiyam,
gözlərin tənbehi şiddətli oldu.
Onun alicənab baxışı bu dəm,
yüz qat brilyantdan qiymətli oldu.

Nina hiss etdi ki, xətrinə dəydi,
səhvi olmamışdı bunca heç zaman.
Başqa bir ahənglə üzr istədi,
bu dəm knyaz qızı
Zümrüd quşundan.

Gördü ki, hər şeydən söz qiymətlidi,
sıxıldı, çəkindi bir qonaq kimi.
Gördü ki, sadədir o torpaq kimi,
amma dağlar qədər əzəmətlidi.

Necə də zərifmiş ondakı ürək,
sözü, kəlamı da ürək səsiymiş.
Yanında hər sözün çəkisi gərək,
hər gözü – bir qiymət tərəzisiymiş.

Bu səssiz naləni duydu sənətkar,
o qəlbin, bu qəlbin ağrısı birdi.
Bir gülən gördünmü yüz məna axtar,
Yüz ağlayan görsən – mənası birdi.

Z ü m r ü d  q u ş u

Halaldır gəldiyin bu ev, bu ocaq,
bir qüvvə gətirib bu kəndə səni.
Gözündən tanıdım görəndə səni,
amma heç ağlıma gəlməzdi…
Heç vaxt.
Düzü, eşitmişdim mən də bir zaman,
Abbasqulu Ağa Bakıxanovdan.
Sonra Qriboyed bir dəfə dedi,
səni, söz vermişdi,
gətirəsiydi.
Gör indi… taleyin gərdişinə bax,
mən ona demişdim, demişdim o vaxt, -
şəklini xalıya toxuyam, hörəm,
sən bizə gələndə hədiyyə verəm.

* * *

Bir xalı gətirdi, durub baxdılar,
sellərə, sulara dönüb axdılar.
Nina Çavçavadze özüydü, bəli.
Qadın nə deyirdi, düzüydü, bəli.

Z ü m r ü d  q u ş u

Toxudum… dedim ki, özü qayıdar,
niyə belə oldu… niyə bu ovsun?
O ki, qayıtmadı, sən özün apar,
qoy onun adından hədiyyəm olsun.

Apar… bu sənindi… apar evinə…
bilirəm ağırdı bu hicran, bu qəm.
Bu da ki, şəklindi –
                    vermişdi mənə,
demişdi itirmə… itirməmişəm.

* * *

Bir ömrə tufanlar yürüşü oldu,
dondu nəfəsinə soyuq küləyin.
Gör harda – uğursuz görüşü oldu:
xoşbəxt şəkil ilə bədbəxt taleyin.
İndi iki oldu, əvvəl bir idi,
sevinc bir üzdəydi, kədər bir üzdə,
axşam bir üzdəydi, səhər bir üzdə,
baş aça bilmədi… dünya sirr idi.

Dünyanı dəyişmək?!
yox, mümkün deyil,
bürüdü hüsnünü qatı duman, çən.
O elə dondu ki,
            bir an elə bil, –
təbii göründü şəkli özündən.
Nə sözlər, fikirlər gəldi dilinə?!!
Nə desin… yadından çıxıbdı adı.
Ömründə ilk dəfə o öz şəklinə
həsədlə, həsrətlə
            baxdı, doymadı.

Yalvarmaq istədi Zümrüd quşuna,
ürək boşalmadı, sözü az idi.

Apare sub egida Uniunii Scriitorilor

fondat în 1881

# Contemporanul

ideea europeană

Director NICOLAE BREBAN

REVISTĂ NAȚIONALĂ de cultură, politică și știință ANUL XX · NR. 6 (687) · IUNIE 2009




poeme

## NARIMAN HASANZADE
## *Străinul*

Da,
Fortuna are o fire ciudată.
Pentru fiecare, la rândul lui,
Pregătește o neașteptată,
o nebănuită cotitură.
Pe tine ce te-așteaptă? Roze? Mărăcini?
S-a terminat cu liniștea și pacea.
Uneori nici să pui întrebări
nu ai când.
Dar poate de aceea
cărările de tină
străbatem noi, poeții,
să poți tu să întrebi.

1

Așa cum făceam și până-n război,
ne întâlneam pe înserat la joacă,
stăteam la palavre, povesteam nebunii,
ca-un pocnet pe șine — plăcerea lăsăm
spre sanitari buluc cu toții plecăm,
la stația de lângă satul Poilu,
strigând și căzând în praf de copii.
Ce vârstă aveam noi pe-atunci, curajoșii?
Vreo zece-unsprezece anișori...
În patruzeci și trei vedeai trenuri trecând.
Și noi toți după ele gura căscând...
Treceau eșaloane – încotro și de unde?
Părea că necazul departe pătrunde.
Dar când s-a ivit la noi un străin,
am simțit războiul ca un tunet venind,
atunci ne-nțelesul, teribilul rău
la toți ne-arătă cum era chipul său, —

Picioarele să ți le fi rupt,
de cum ai pornit spre noi!
De mare necaz am albit eu!..
Cenușa e albă în căminul meu!..."
Ce mult suferea!
Cum chinul, durerea ea le trăia!
Și toți împrejur tăceau mohorâți.
Iar stătea stătea singuratic, un orb fără glas,
lovit ca de-un iureș era în impas,
rănit de durere, ucis de dispreț,
sau poate de-a sa luminare târzie...
Nu îndrăznea să zică nu-s vinovat,
n-am omorât pe nimeni, n-am asasinat.
Căci nimeni nu l-ar fi apărat,
Nimeni pentru el n-ar fi jurat!
Și cum de mânie-ai putea să te-ascunzi?
El era acuzatul, iar noi judecători!

4

A dispărut. Ne-a rămas să ghicim:
cum o fi traiul lui de captiv?
Și ceva se năștea — încă nu milă,
ci o presimțire a ei.
Da, noi, de fapt, nu prea știam
ce e captivul, ce-i un dușman.
Noi nu știam să urâm prea mult timp
la anii noștri tineri de atunci.
Eh, suntem totuși niște oameni tare ciu-
dați...
Nu știu de ce și pentru ce
îl așteptam în taină pe soldat,
și-ncet-încet ne deprindeam cu el.

s-au privit față în față.
Medaliile sună una de alta, -
nu le-a primit în zadar.
Dar undeva drumul schimbară
nu se-ntâlniră dușmanii.
Și cârja de lemn cu un semn
îi număra pașii.
Mersul infirmului e anevoie;
nu-i învățat cu un picior,
el, ce-a învins râul întreg,
cu canalul n-a fost biruitor.
Se-mpiedică. Grimasa-i pe față
arată și boală și dor.
Dar o mână iute-l apucă
pe cel ce cădea ca în zbor.
Și-apoi acel ajutor ne-așteptat,
în urmă-a privit și-a înghețat,
asemeni acelei blestemate,
nedorite cârje de lemn.

7

În fundătura aceea,
venite din flăcări și fum,
arse, vagoane inamice stăteau —
lângă altul.
Judecata noastră era foarte aspră.
Le nimiceam cu-nverșunare,
îi asaltam pe dușmanii de fier,
părtași cu criminalii.
Și le devastam carcasele —
arma noastră nucleară.
Și urinau pe ele copiii

“Vətənsiz” poeması, rumın dilində

söz tapa bilmədi… knyaz qızıydı.

Dözdü ağrısına hər əziyyətin,
tutulub, üstəlik batdı bu qəmə.
Ürəyin dərdinə tablamaq çətin,
ürəyi gəzdirmək asanmış… demə.

* * *

Getdi Nina Çavçavadze,
dağılmışdı fikri, huşu.
Kədərini özü çəkdi
o bədbəxtin –
Zümrüd quşu.
Qohumları bir zabitdən
tutdu xəbər, –
o zabit ki,
bir vaxt qonaq gəlmişdilər.
Onda qoca… ev yiyəsi… o sağ idi.
Onda Abbasqulu Ağa,
şair Puşkin qonaq idi.
Eşitdi ki, ölüb şair…
min qəm yedi.
“Kimsəsizmiş…” bir söz dedi.
Bakıxanov qürbətdədi nə zamandı,
burda hamı nigarandı
“Öldü qoca nahaq yerə,
mən ölmədim…
Tapşırıldı o haqq yerə.
Qərib şair… heyif sənə.
Bəndə necə qıydı görən
Allahın o elçisinə.
Hələ bizim Abbasqulu…

gedər-gəlməz oldu yolu.
Bilən yoxdu,
xəbər-ətər, yeri-yurdu?.."
yazıq qadın ovsunlanıb
quruyurdu…

* * *

O günün səhəri oyandı erkən,
gördü ki, belə bir səhər görməyib.
Bir əli tutulub, düşüb qüvvədən,
Əsəblər, duyğular tab gətirməyib.

Daha qurulmadı xanası onun,
ağrısı, acısı canına düşdü
Alnını tər basdı Zümrüd quşunun,
qırıldı qanadı, yanına düşdü.
Ürək bir nəğməyə, əl işə həsrət,
ilmələr, arğaclar arada qaldı.
Uçmaq istəyirdi… Zümrüd quşuydu,
gördü ki, dünyadan səs-səda qaldı.

Gəzdi mahal-mahal bu səs, bu səda,
xəbər ağır gəldi yaxına, yada.
Tərlanın yuxusuz gözü səmada,
kəkliyin xınası qayada qaldı.

Hər kəlam bir əsrin mənası imiş,
hər məna bir ömrün ziyası imiş.
Bu dünya söhbətlər dünyası imiş,
ondan da bu söhbət dünyada qaldı.

## *EPİLOQ*

Ürəyimi bağladım mən
Zümrüd quşuna,
onun qadın vüqarıydı
ən uca dağlar.
Ad qoymadım əsər boyu
qəsdən mən ona, –
ondan bizə Azərbaycan
qaldı yadigar.

Neçə adsız sənətkarı
itirdi zaman,
nəfəsində, nəğməsində,
hüsnündə işıq.
O da mənim anam kimi
köçdü dünyadan,
bu məzardan o məzara
köçdü o yazıq.

Öldü Nina Çavçavadze –
öldü vəbadan,
nə ağırmış bu dünyanın
qəsdi-qərəzi.
Dul gözəlin nəğmələri
mehriban səsi
Araqvada, Kür çayında
qaldı o vaxtdan.

Hacı Məmməd üsyanları
çəkdi nə qədər,
bilmədilər – silah tutan
Hacı qızıydı.

Bu torpaqda o ilk qadın
üsyançısıydı,
Həlak oldu kişi kimi…
heç bilmədilər.

Şahzadənin müsibəti
düşdü dillərə:
öz qardaşı taxta-taca
sahib olan gün,
çıxartdırdı gözlərini
riyasət üçün,
qan qarışdı Arazdakı
daşqın sellərə.

Burda vətən deyə-deyə
öldü vətənsiz,
sənət eşqi qanadına
aldı Fazili.
Burulğandan-burulğana
saldı Fazili,
Özün buna şahid oldun,
ey qoca Tiflis!

Qafqaz mənim evim oldu,
eşiyim oldu,
Qafqaz – Puşkin ilhamının
beşiyi oldu.
Rusiyada – o ilhama
güllə atdılar,
burda – Qafqaz türkcəsində
yas tutdu dağlar.

*1976*

# Vətənsiz

Taleyimiz qəribədi
doğrudan da.
Görürsən ki,
bir mənzildə dəyişdi yol, –
elə dönmür, belə dönür
doğrudan da.
Görürsən ki,
öz bəxtinlə üz-üzəsən,
tale ya sən?!
Kim haqlıdı?
Bəlkə bu heç sual olmur.
Axı, bəzən suallara
macal olmur.
Dünya bəlkə buna görə maraqlıdı?
Bəlkə elə buna görə şairlər var?
Yazılası, oxunası yüz əsər var.
Sənin, mənim arzumuzca
dünya hökmü-fərman deyil.
Kim deyirsə bir romandı
tərcümeyi-halım mənim,
yalan deyil.

*Birinci söhbət*

Elə ki, şər qarışardı,
yığışardıq,
bizim Poylu vağzalının uşaqları.
Əl edərdik gah "yaralı" qatarlara,
gah da təzə qaravəlli danışardıq,
danışdıqca yarışardıq.
Ağsaqqallar gedərdi ki,
deyək-gülək.
Kənd yerinin bu vərdişi yadımdadı.
Yadımdadı Sadıq baba,
Dursun kişi yadımdadı.
Eh, yaşımız on bir idi,
on üçü idi...
Heç bilmirəm,
biz o vaxtın cavanıydıq.
Qırx üçün ya əvvəliydi, ya axırı,
ya qışıydı, ya baharı.
O, neçə ki, gəlməmişdi.
Müharibə uzaq idi kəndimizdən.
O, gələli elə bildik
müharibə özü keçir yoldan-izdən.
Keçir əsir cildində –
müharibə odur elə.
Müharibə bu paltarda,
bu geyimdə olur elə.
Bir pələngin "kəmərinə" oxşayırdı
kəmərinin boz toqqası.
Qulağının üstünəcən əyilmişdi
məxmər alman pilotkası.

Yepyekəydi nallı ağır çəkməsi də.
Paqonları çıxardalı,
iki sərxoş baş kimiydi
köynəyinin iki gümüş düyməsi də.
Kəndimizin içindəydi müharibə, –
gözümüzün qabağında.
Bizim evin lap yanında,
Kür çayının qırağında.

*İkinci söhbət*

Qara kağız gələn kimi bir qonşuya,
bunu ondan görürdük biz.
Pozulurdu əsəbimiz.
İt qısqırdıb,
daş atırdıq qarasınca.
Söyüb bəzən,
sinəmizi boşaldırdıq qarasınca.
Axı, o da düşmən olub.
Yəqin bizim Ziyad lələ,
Əsəd əmi
elə bunun gülləsinə qurban olub.
Deyirdi öz ləhcəsində:
bir az türkcə, bir az rusca.
Oxuyurdu sonra ağız qarmonunda
gözü dolub-boşalınca.
"Gəmi gəlir aralı,
içi dolu yaralı.
Mən bir gözəl sevmişəm,
uca dağlar maralı.
Gülüm gəl bizə, gəl bizə,
ah, gözüm qaldı yollarda..."

Bir əsirə əsir olub vurulardıq.
oxuduqca o bulanar,
susduqca biz durulardıq.
Rəqs edərdi... ayağı da danışardı,
unudardıq özümüzü.
Dilinin bir sözü vardı,
ayağının başqa sözü.
Ayaqları sevinc idi,
dili-kədər.
Oynayanda sevinərdik,
danışanda qəmlənərdik biz bir qədər.
Lap qəribə oxuyardı,
əl gəzdirib ala-bəzək müştüyünə.
Kənddə hamı deyirdi ki,
o sevinir bizə əsir düşdüyünə.
Sığal verib darayardı saçlarını.
O vaxt bizim Poylumuzda
gözə cavan dəymirdi heç,
qalmamışdı,
o boyda şaxboylumuz da.
Deyirdilər boy-buxunu, bu camalı
ona verib Allah, ona.
Deyirdilər,
bu bəxti də ona verib, ancaq ona.

*Üçüncü söhbət*

Kənddə bir gün bir ağbirçək,
gözündə yaş çiçək-çiçək,
dənə-dənə.
Qabağını kəsib onun
lənətlədi dönə-dönə.

Üzündəki təbəssümü hürkütdü o.
Susdu əsir,
köynəyini düzəldərək,
toqqasını bərkitdi o.
Ağbirçəyin kini artdı.
Sağ çiynindən düyməsini qırıb atdı.
Söydü o gün, –
əlindəki təzə "qara kağız" üçün.
Söydü ana.
Yolub dümağ saçlarını
tökdü yolun ortasına.
Əsir susub durmuşdu lal.
İki kölgə sərilmişdi torpaq üstə:
biri nida, bir sual.

### A ğ b i r ç ə k

Qara geysin lemis anan,
görüm o da sonsuz qalsın,
mələr olsun...
Ağız dadı ağı olsun, zəhər olsun.
Bəd gülləyə rast gələsən,
neçə güllə vurdun mənim balama sən.
O tüfəngi götürəndə,
barmaqların sınaydı kaş.
Sən buraya gələn yerdə
ayaqların sınaydı kaş.
Neyləmişdim?
Niyə mənim ocağımı söndürürdün?
Of, gedəndə qayıdacam, dedi, ana.
Can ay bala... anan ölsün.

Əlindəki kağız kimi ağardı o,
"qara kağız" deyə-deyə.
Gah özünü, gah əsiri
didə-didə, döyə-döyə.
Dağılışdıq sonra bir-bir,
getdi hamı.
Yol üstündə qaldı əsir, –
bir kor kimi,
bir adama möhtac kimi,
yellər döyən qurumuş bir ağac kimi.
Əsir ikən üstəlik də məlul oldu.
O səngərdə əsir düşüb,
bu səngərdə məğlub oldu.
Bir qadının əllərilə şilləlləndi,
sözlərilə güllələndi.
Heç bilmirdi nə eləsin, –
"xəbərsizəm" necə desin.
danışmağa nə bir dili vardı onun,
nə şahidi, nə dəlili vardı onun.
Bu saat kim eşidərdi sözünü, kim?
Bir məhkəmə salonuydu bizim Poylu,
o, kimsəsiz bir müttəhim.

*Dördüncü söhbət*

Əsirlərə qarışanda
gözümüzün qabağında itirərdik.
Şübhələnib köksümüzü ötürərdik.
Gəlib bizə qarışanda
görərdik ki, küsülüyük.
Tez alardı könlümüzü.
Əsir nədir, nə deməkdi, –
biz bilməzdik onda düzü.

Tanıyırdım mən o biri düşmənləri,
deyim hardan? –
bizim qədim nağıllardan.
Şəkilləri hey çıxardı amma hər gün,
qəzetlərdən qıcayardı dişlərini
faşist hər gün,
alman hər gün.
Göz kəllədə,
buynuzları iri, haça,
diş ağızda bir yarmaça.
Nəfəsləri soyuq külək,
caynaqları əyri, qanlı,
quzğunların caynağıtək.
Bu divlərlə döyüşməyə
cırtdan böyük ağılıyla,
mənim babam – Məlikməmməd nağılıyla,
Məlikməmməd – qılıncıyla gərək imiş.
Ürəkləri ürək imiş,
divlər demə köhnə faşist,
faşistlər də
demə köhnə divlər imiş.

Əsir oğlan elə sadə oğlan idi,
elə adi insan idi;
eh, yazığın özü – rumın,
amma adı alman idi.
Taxta evlər tikmişdilər,
payalara nazik məftil çəkmişdilər.
Bir az kəndin qırağında,
çayla yolun arasıydı.
Qaynaşırdı onlar orda
axşam-səhər,
lap qarışqa yuvasıydı.

Gedirdilər gəlirdilər:
paqonlusu, paqonsuzu,
eynəklisi, eynəksizi,
adlı, adsız.
Təzə bir kənd salınmışdı
elə bil ki, kəndimizin yançağında, –
bağ-bağatsız.
Qapılarda dururdular bizimkilər,
tüfəngliydi.
Amma rumın ürəkliydi.
Gedir-gəlir, salamlaşır,
kəlamlaşır,
danışırdı.
O, çəpərin o üzündə – almanlara,
bu üzündə –
gəlib bizə qarışırdı.
Geyimindən itirirdik,
alman idi.
Gülüşündən tanıyırdıq, –
rumın idi.
Gözlərinin, qaşlarının qarasına,
qollarının qara qıvrım tüklərinə
alışırdıq yavaş-yavaş.
O da bizə qaynayırdı –
qarışırdı yavaş-yavaş.

*Beşinci söhbət*

Təzə stol qayırmışdı,
bir günorta gəldi bizə.
Çay gətirdi, çörək qoydu
anam dəsmal süfrəmizə.
İçdi əsir, yedi əsir,
Sonra gördüm istəyir ki, çıxıb getsin,
ya utanır, ya tələsir, –
dedim yəqin.
Çay gətirdi yenə anam.
– İç, – dedi, – iç-lap təzəcə dəmləmişəm.
İç, iç bala, səni görüb
bilmirəm heç
niyə belə qəmlənmişəm.
(Bablardan, nənələrdən
yadigardı adətimiz, –
bir qəribə, bir qonağa hörmətimiz.
Süfrəmizdə yağlı tikə,
yaraşıqlı otağımız,
isti, yumşaq yatağımız
Qərib olsa, qonaq olsa, onunkudur.
Özümüzsə lazım gəlsə
bir yorğana sığışarıq.
Düşmən girsə qapımızdan xahiş üçün,
bağışlardıq...)

*Mənim anam*

Mən anayam,
mən bilirəm
ana-bala nə deməkdi.
Ya bir ana balasına,
ya bir bala anasına
həsrət qala, nə deməkdi.
Nə bilsinlər nə var sənin ürəyində?
Ürəklərə dağ çəkib qəm.
"Qara kağız" gələn kimi
burda hamı səndən görür,
mən görürəm.
Eh, neyləsin ata, ana.
Od üçün də qaçan olur, su üçün də.
Əlbət, yaxşı adamsan ki,
sənə izin veribdilər
dolaşasan kənd içində.
Qorxma, bala, darıxanda gəl-get bizə.
Düzü, sənə dilim gəlmir
lemis deyəm... nədəndisə.

O, anama nəzər saldı nəzakətlə,
nəfəs aldı hərarətlə.
Elə bildim işıq düşdü çöhrəsinə.
Gözlərinə nur doldu, nur.
Bir xoş sözdən,
gör ki, bəzən
adam necə xoşbəxt olur.
Mən anamın timsalında
duydum o vaxt, –
yıxılana balta vurmaq,
ya qanadı sınmış quşa
bir daş atmaq
günah imiş, böyük günah.

Əsir sonra bərk tutuldu
anamın bu tərifilə.
Boğdu birdən onu qəhər,
susdu anam.
Gördüm sonra ikisi sə köyrəlibdir.
Eh, bəlkə də bu göz yaşı
o vaxt ona gərək imiş.
Onda bildim mən ilk dəfə
əsir necə kövrək imiş.

*Altıncı söhbət*

Bir şeydən hey çəkinirdi
əsir oğlan:
qorxurdu ki qarşısına çıxar birdən
bir cəbhəçi,
ya cəbhədə yaralanan.
Döyükürdü yazıq elə,
gah soluna, gah sağına.
Çıxdı lakin bir şikəsti
tərs kimi lap qabağına.
Cəbhə yarmış bir ordunun əsgəriydi,
gözlərindən oxunurdu.
Təzə qoltuqağacıyla
gah yeriyir, gah dururdu.
Medalları hey sayırdı
addımını:
cınq-cınq, cınq-cınq....
bu bir addım, bu üç...
bu beş... bu da... ancaq,
bərk yıxıldı birdən əsgər.
Yüyürüb tez qoltuğuna girdi əsir.
Keçdi arxı o birtəhər.

Əsir elə qurumuşdu, –
o da qoltuqağacıydı elə bildim.
Kimin özü yıxılmışdı, kimin bəxti,
Heç ağlıma gəlməmişdi
o vaxt mənim.

*Yeddinci söhbət*

Doluydu bir “ehtiyat yol”,
düzülmüşdü
yanıq faşist vaqonları.
Lənətlərdik
daşa basıb biz onları.
Dərdimizi, qəmimizi
o daşlara qatardıq biz,
daşlarla bir atardıq biz.
Düşmən idi dəmirlər də,
dəmirləri əyərdik biz.
Əyə-əyə söyərdik biz,
təkərlərin gedib üstə siyərdik biz.
Sonra rahat gedərdik biz.
Təzə vaqon gələnəcən
göz olardıq, güdərdik biz.
Güdərdik ki, yenə söyək,
dəmirləri yenə əyək, yenə siyək...
İstəyirdim bir daş atım,
gördüm əli qoltuğunda,
bir vaqonun qabağında
dayanıbdı əsir oğlan,
lap pərişan.

Yanıq rumın vaqonuna
baxır-baxır
gözlərində qüssə, qübar.
Elə bil ki, qatar yola düşəcəkdi,
bu vaqonla onu yola salacaqlar.
Keçə bilmir,
aradakı dəmiryolu,
gözlərində böyüyüb bir dəniz olub.
Burda "düşmən" torpağında görüşmüşdü
orda vətən torpağında ayrılanlar.
Bu “rumınlar”, bu “almanlar”.
Vaqon əsir vaqonlara qarışmışdı,
o da – əsir almanlara.
Taleləri – talelərə,
ünvanları – ünvanlara.
İndi onlar bir-birinə
həm yad idi, həm də tanış.
Yad gör necə tanış çıxar,
tanış necə yad olarmış.
Mən danışmaq istəyirdim,
susdum ancaq.
O, bu saat istəyirdi
vaqon dinsin, dəmir dinsin.
Dilə gəlib öz dilində bir söz desin.

### *Səkkizinci söhbət*

Ötüşürdü günlər bir-bir,
qocalırdı cavan əsir.
Torpağından gen düşənlər
özündən də gen düşürmüş.
İndi bildim, nə səbəbdən
saçlarına dən düşürmüş.
Dəyişirdi onu həyat,
əsirlikdə saat-saat.
Nə bir bölük camaatın səxavəti,
nə arada
uşaqların zarafatı
saxlamırdı qabağını
belə ertə qocalmağın,
qürbət eldə, qərib yerdə qocalmağın.
Həvəsində həvəssizlik duyurdu o.
– İşə bax ha,
qocalıram deyəsən mən bu qürbətdə, –
söz düşəndə deyirdi o.
Üstündəydi əsir adı, düşmən adı.
Vətən deyib yaşadıqca
o, vətənsiz qocalırdı.

### *Doqquzuncu söhbət*

Heyran-heyran baxırdı o
Qarayazı meşəsinə.
Kür çayının o üzünə, bu üzünə.
Kür üstündə bir göy çəmən,
göy çəməndə bir tək söyüd,
tək söyüdün altda bir iz.

Uzanırdı səs-səmirsiz.
Meşə boyu, sahil boyu
heç bilmirdi
Dunayınmı sahilidi, Kürünmü, bu.
Hey gələrdi, hey baxardı.
İtirmişdi elə bil ki, o nəyisə,
vurnuxardı.
Öz elini axtarardı
Poylu adlı bir guşədə.
Axtarardı, axtarardı,
tapmazdı o, həmişə də.
Görməmişdi əvvəl əsir
hara bostan, hara bağdı.
Təbiət də dəyişmişdi dava vaxtı.
Nə ağ tutdan yemişdi o,
kənddə, nə də qara tutdan.
Nə də sulu daş armuddan.
Ərik qaxı gətirmişdim
evdən ona... o da azca.
Azalmışdı bağlarda da
gilas, püstə, xirnik, alça.
Stəkanla satılırdı
meşənin cır iydəsi də,
qurumuşdu zırnıcların gövdəsi də.
Lakin məğrur dururdular
qoca cöyüz ağacları.
Yarpağından əks edirdi elə bil ki,
o, üfüqün qürubunu,
dan yerinin sökdüyünü.
Bildirmirdi qocalartək cöyüzlər də
ürəyində çəkdiyini.
Qədim çinar ağacları – nəhəng, uzun,
mənliyiydi,
qüruruydu o da bizim Poylumuzun.

Çay daşırdı,
          su basırdı bəzən yolu,
bel götürüb tökülürdük – arvad-uşaq, –
çırpı, ya daş gətirirdik
                    qucaq-qucaq.
Hərəmiz bir arxa idik,
çay daşdımı,
               köpüklənən sular ilə
               daim əlbəyaxa idik.
Davadaydı yarıcanı adamların.
Onda "hər şey cəbhə üçün" -
               deyirdilər, yadımdadı.

## *Onuncu söhbət*

Kənddə kimsə
               xatirinə bərk dəyibmiş:
"Əsir düşdün sağ-salamt
                    yaşa xoşbəxt.
Anan namaz üstə imiş..."
Deyirdi ki,
          əsirliyim sayılırsa xoşbəxtliyim?
Əsirlikdən qurtarmağım
               nə olacaq onda mənim?
Mən Dunaysız ya Karpatsız
               yaşamaram, əsla bilin.
Nola qulaq asaydınız
               nəğməsinə "Fluyer"in.
Ya da bizim doynalara, bircə dəfə.
Çobanların oynadığı oyunlara
                         bircə dəfə.
Vətən mənim həm fərəhim, həm qubarım.

Burda ona əlim çatmır,
orda ona ixtiyarım.
Siz qəribə insansınız, -
mərhəmətlə öldürdünüz burda məni.
Nəzakətlə öldürdünüz burda məni.
Xəcalətdən düzü, bəzən
istəmirəm çıxam üzə,
Görünməyəm bir də sizə.
Öz əlimdən
gəlmişdim mən daha zara.
nifrətim var nə zamansa
qışqırdığım şüarlara,
uralara.
Mən rumınam,
öz adım var, öz millətim.
Amma faşist paltarında
mən ölümə getməliydim.
Mən fürerə "Hayl" deyib
ölməliydim.
Başım deyən tərəfə yox,
paqonlarım sürükləyən tərəflərə
getməliydim.
Tüfəng verib
yad bayrağı sev dedilər.
Mənim nifrət etdiyimə
xidmət etmək öyrətdilər.
Mən səngərdən-səngərlərə
süründümsə rumın kimi.
Əsir düşdüm alman kimi.
Əsgərliyim-əsirliyim oldu mənim,
əsirliyim-qəribliyim...

### *On birinci söhbət*

Kənddə bir qız istəyirdi,
nə könlünü aça bildi,
nə sözünü deyə bildi.
Deyirdi ki, əsirəm mən,
kim eşitsə, mənə gülər.
Bir yadelli, bir müqəssir
axı, necə sevə bilər?!
Bəs nə deyər eşitsə qız?
O deməzmi məni necə
sevə bildin
sən vətənsiz və torpaqsız?!
Vətən mənə nə deyər bəs?
O deməzmi vətənsizlər
sevə bilməz!
Amma sizə bir şey deyim, –
əsir olmaq,
şikəst olmaq deyil axı, əzizlərim.
Axı, bir də fikir verin, –
eşq bəlkə də arxasıdır
yurdsuz qalan bir əsirin.
Yəqin mənim fikirlərim
birtəhərdi.
Əsirlikdə sevmək özü
azadlığa bərabərdi.
O gözəlin hörüyü var,
qara hörük, qalın hörük.
Qərib olur yerli ikən
o, elə ki, məni görür.
Bir qəriblik kölgəsi var
sevənlərin gözlərində.

O da belə qəribləşib
öz elində, öz yerində.
Sevməyənlər nə bilsinlər
nədir bu sirr, –
iki qərib göz yaşayır
sizin kənddə,
bir nəfər də qərib əsir...

*On ikinci söhbət*

Onu burda yaşadırmış
bu məhəbbət,
qocaldırmış amma həsrət.
"Getsəm-sizdən ayrılmağım,
qalsam – doğma el-obadan
gen olmağım
düyün düşüb qalacaqdı ürəyimdə.
Hey götür-qoy eləyirəm
neçə vaxtdı ürəyimdə..."
Dandı bizdən kimdi o qız.
Əsir sonra düşdü birdən,
gözümüzün qabağında qocaldı o,
lap qəfildən.
Qarışmışdı
bir-birinə cavanlığı,
qocalığı.
Yad olmuşdu o bizə də,
özünə də.
Sürmə kimi çəkilmişdi
mavi kölgə
gözlərinin altına da, üstünə də.

Lap yaxından baxsaydılar,
cavan idi, –
o da adi cavan kimi.
Əsir dərhal qocalırdı
bir az uzaq olan kimi.
Gedəsiydi deyirdilər,
elimizdən-obamızdan.
İstəmirdik,
kəndimizin “sakiniydi” o nə vaxtdan.
Öyrəşmişdi
bir az bizim adətləri,
bir az dili.
Danışanda
bizə tanış bir səyyaha
oxşayırdı – yad ləhcəli.
Bəzən bizə təbəssümlə
deyirdi ki, bizdə də var:
"tütün" sözü, "çoban" sözü,
"meydan" sözü eyni ilə.
Danışanda gah düz deyir,
gah çaşırdı.
Doğmalaşa-doğmalaşa
yadlaşırdı.
Yaşayırdıq
üç ildən də bir az artıq.
Üç il nədir, elə bil ki,
yüz il idi yaşayırdıq.
Bir göy altda, bir yer üstə
yaxşı, ya pis.
həm dostumuz, həm də bir az
özü demiş "düşmənimiz".

*1962*

# Qaçaq Kərəm

Kərəm keçdi bu da‹lardan, o da‹lardan, ulu Tanrım!
adı …etmir ürəklərdən, dodaqlardan, ulu Tanrım!
Od istədim odu s‰nmüş o‡aqlardan, ulu Tanrım!
od içində janan sinəm d‰ndü buza, Qaçaq Kərəm.

Rəvajətlər, əfsanələr nəsil-nəsil Kərəm dejir,
Kərəmə baş əjməjənlər nəsil-nəsil Kərəm dejir.
Azərbaj‡an deməjənlər nəsil-nəsil Kərəm dejir,
ja ilahi bir ver…ijdi, ja m‰‡üzə, Qaçaq Kərəm.

Sinəsinin jaraşı‹ı beşaçılan dara‹ıjdı,
bu dünjadan bir qazan‡ı boz atıjdı, papa‹ıjdı.
†an dediji, diz ç‰kdüjü Azərbaj‡an torpa‹ıjdı,
‡an səpmişdi dən jerinə ç‰lə-düzə, Qaçaq Kərəm.

Qarajazı, Kür qıra‹ı mahir ovçu bərəsijdi,
ilk İstiqlal ça‹ırışı qaçaqların nərəsijdi,
Bizim Qazax mahalıjdı, bizim Dil‡an dərəsijdi,
qorujurdu bərələri kəsə-kəsə, Qaçaq Kərəm.

Qajalarda kəklik kimi, dərələrdə sel kimijdi,
ürəjinin nazikliji başındakı tel kimijdi.
Tozanaxlı - qasır‹alı qəfil qalxan jel kimijdi,
rəhm etməzdi, xajin …‰rsə, namərd …‰rsə Qaçaq Kə-
rəm.

Haq jolunda jola çıxan haqq-ədalət adamıjdı,
salam verib əl tutana salamı dost salamıjdı.
Namus Kərəm namusujdu, kəlam Kərəm kəlamıjdı,
nəmər kimi aparırdı hər mə‡lisə Qaçaq Kərəm.

Tülküləri bəbir kimi tutan, jıxan Kərəm idi,
Türkijədə Paşa Kərəm, İranda Xan Kərəm idi.
Qafqazda çar Nikolajdan hajıf çıxan Kərəm idi,
Rusijada k‰mək durdu k‰məksizə Qaçaq Kərəm.

Düşmənin də bu dünjada namərdi var, mərdi varmış,
dejirlər ki, İsrafilin* bir‡ə Kərəm dərdi varmış.
O İranda, bu Qazaxda - vətən, qürbət şərti varmış,
tüfən…ini tuşlamazmış tanış səsə Qaçaq Kərəm.

Keçdim Pojlu k‰rpüsündən, harajladım Kərəm dejə,
dost evində …e‡ələdim, qoç Kərəmi …‰rəm dejə.
Subajların, şəhidlərin adlarını verəm, dejəm:
tojdan-toja tələsirik, jasdan-jasa, Qaçaq Kərəm.

Qaçqın …‰rdüm, indi bildim nədir məhşər, Azərbaj‡an!
həmrəj olduq, bəşər dedik, hanı bəşər, Azərbaj‡an?!
Hər ana bir Kərəm do‹sa, kərəmləşər Azərbaj‡an,
Kərəmləri ça‹ırıram ‡ər…əmizə, Qaçaq Kərəm.

Qədim Alban kilsəsinin xaç nişanı bizimkidi,
„‰jçə…‰lü dediyimiz …‰j Sevanı bizimkidi,
Karvansara jerlərimiz, İ‡evanı bizimkidi,
Kəmərlini daşıdılar kisə-kisə, Qaçaq Kərəm.

Ajrım, Məzəm, Əskipara çəhlim jeri, jajlaq jeri,
k‰ç jerijdi, kənd jerijdi... nə qalıbdı? O‡aq jeri.
Namərdlərə məskən oldu ‡omərd jeri, qaçaq jeri,
imzasını miras qojdu jola-izə Qaçaq Kərəm.

---

* İsrafil A‹a – Qaçaq Kərəmin uşaqlıq və …ən‡lik dostu olmuş, sonralar aralarında düşmənçilik salmışlar (*Müəllif*).

Mərd o‹ullar arxasıjdı, a‹birçəklər anasıjdı,
qartal qonan qajalara sonra Kərəm qonasıjdı.
Kişi kimi həjat sürmək həjatının mənasıjdı,
nələr dejir, nələr dejir indi bizə Qaçaq Kərəm.

Bəjanatlar imzaladıq, nitq elədik, bəs dejilmi?!
Kimi …%ordük, …%ozəl-…%ozəl …ün dilədik, bəs dejilmi?!
O‡aq s%ondü, başımıza kül elədik, bəs dejilmi?!
Kül də joxdu bir‡ə torba jı‹a kimsə, Qaçaq Kərəm.

Mən Kərəmə qaçaq dedim, – İsrafilə a‹a dedim,
Kimdi …ələn üstünüzə? – "qaraba‹lı" dı‹a dedim,
Dolu kimi, ja‹ış kimi dedim, ja‹a-ja‹a dedim,
D%ondü, qara jelə d%ondü əsə-əsə Qaçaq Kərəm.

Kərəm dejir bu jerlərin indisi də, sonrası da,
Kərəm jatan beşik varsa, durur Kərəm lajlası da.
Sahillərə …üz…ü tutur Dəli Kürün ajnası da:
Kimdir indi içinizdən çıxsın üzə, Qaçaq Kərəm?!

# "Xarı bülbül"

## (Şuşada şeir axşamı)

*...Pjotrun vəsijjəti*
*hələ indi üzə çıxır, —*
*jollar ...edib İstanbula,*
*ordan da Təbrizə çıxır.*
*Şah vermişdi*
*Naxçıvanı, Qaraba‹ı,*
*rusun qəsdi Təbrizəjdi...*

“„edək İsa bula‹ına,
çıxaq Qırxqız jajla‹ına...”
Azərbaj‡an qoj and içsin
Azərbaj‡an torpa‹ına.
Su çiləsin sinəm altda
bir o‡a‹ın qor jerinə,
Tanrım, məni qojma daha
kar jerinə, kor jerinə,
rahat …edim …or jerinə.
Bəlkə Şuşa dilə …əldi,
bəlkə huşa, dinə …əldi.
Da‹ jeridi, jer jarıldı,
Şuşa …əldi,
qurumuşdu,
bəlkə bir az
…‰zümüzün jaşı …əldi.

* * *

Şuşa qədim bir millətin
Şuşasıdı,
Pənah xanın, Xan əminin
Şuşasıydı.
“Xarı bülbül”
…ül dilində oxujurmu? –
orda …ülü …ül duyurmu?!

Fəsillər çaşır Şuşada,
mən qışda bahar …%ormüşəm,
qızıl…ülün jana‹ında
qızıljanaq qar …%ormüşəm.
Qızıl qamçı şaqqıldajıb
…%ojdə şimşəklər jerinə,
kəpənəklər qanad açıb
jerdə çiçəklər jerinə.

Kəpənəjin üstə qonub –
bal arısı …ül jerinə,
kəpənəjin qanadında
…%oz …%ormüşəm xal jerinə,
düşmüşəm dünja sehrinə.
Nə m%o‡üzələr …%ormüşəm,
kimə deyim, jer üzündə
görmədiyim jer …%ormüşəm.

* * *

“Daşaltı”sı daɑrxıtmı
çadır üçün?
†ıdır düzü — ‡ıdır üçün?!
At belindən at belinə
atılan …%orən varmı,
“Ərim…əldi” tərəflərdə
jenə nəmər verən varmı?
A‹damdan bir …ələn varmı,
…edən varmı, —
Vətəndə bir vətən varmı?
Vaqif, sənin məqbərəni
zijarət ejləjən varmı?!

*…Turan adlı bir %oolkəjdi istədiji,*
*Turan adlı bir‡ə qızı qaldı onun.*
*Jad əllərdə aljazması qaldı onun,*
*“Qırxı”, “İli” tutulmadı,*
*evdə jası qaldı onun...*

...Şeir-sənət axşamıjdı,
şerə h‰rmət,
s‰zə h‰rmət axşamıjdı.
Heydər[1] özü
s‰z verirdi şairlərə,
"Sağ ol!", "Əhsən!" axşamıydı,
şairlərə qoşulmuşdu, –
şairləşən axşamıydı.
Qarın belə ja‹dı‹ını
…‰rməmişdim,
qarda belə "sel" axını
…‰rməmişdim.
Qar t‰kürdü G‰j – Yer üstə, –
varaq üstə,
dodaq üstə,
şeir üstə,
kirpik üstə,
eynək üstə...
"Çiçək",
"çiçək",
"çiçək" üstə!
Hava qarala bilmirdi,
Qarabağda ağ gecəydi.
Allah, Allah o necəydi?!
Şuşa canlı heykəl idi
qar altında,
Hərəmiz bir qartopuyduq,
qarlı alqışlar altında.
Molla Pənah şairlərin yaşıdıydı.
şuşalılar Şuşadaydı.

---

[1] Heydər Əliyev (*müəllif*).

...Dajanajdı vaxt onda kaş!
Ah, onda kaş,
Xuramanın a‹ jajlı‹ı
a‹ bajra‹a d‰nməjəjdi,
bejinlərdə çaxan şimşək,
ürəklərdə s‰nməjəjdi.
Keçəl Həmzə
kaş "Qırat"a minməjəjdi,
Qoç Koro‹lu "Dür" belində
Çənlibeldən enməjəjdi?!

* * *

Orda rusdu,
burda farsdı,
erməninin arxasıdı,
əmisidi, dajısıdı,
qanımızı t‰kəsidi, dərimizi sojasıdı.
Raketləri Şuşadadı.
Şahidləri Bakıdadı,
şəhidləri Şuşadadı.
Pjotrun vəsijjəti
hələ indi üzə çıxır, —
jollar …edib İstanbula,
ordan da Təbrizə çıxır.
Şah vermişdi
Naxçıvanı, Qaraba‹ı,
rusun qəsdi Təbrizəjdi.
İki jerə b‰lmüşdülər
bir torpa‹ı, —
bir millətin
iki o‹lu üz-üzəjdi:

biri — İran Vəliəhdi,
                    müqavilə ba‹lajırdı,
biri — Qraf Paskeviçin
                    tərəfini saxlajırdı.
Azərbaj‡an tarixinin
                              atasıjdı,
Azərbaycan narazıjdı, —
                    imza onun imzasıjdı.

* * *

Rusun, farsın fərmanıjla
Həsənzadə! –
onda “Zadə”,
onda təzə “Ov” olurduq.
İŞTARzümüzdə qürbət ‰zü,
dilimizdə vətən s‰zü,
o “vətəndən” bu “vətənə”
                              qovulurduq.
O zamandan qovha-qovdu,
                              qaçha-qaçdı,
o zamandan bir millətin
                    jarı toxdu, jarı a‡dı.
Toxlarının dili rusdu,
                              dili farsdı.
A‡larının dilindəki –
                              Xan Arazdı.
O zamandan orda sərhəd,
                              burda qoruq!
Qovulduq‡a qırılırıq,
                              qırıldıq‡a qovuluruq.
Qaçma millət!

Ölən qaldı, itən qaldı.
Neçə jerdə vətən qaldı.
Qaçma millət!
Təbriz qaldı,
Dərbənd qaldı,
Şuşa qaldı.
Biz tək qaldıq,
qalanımız qoşa qaldı.
„‰jçə qaldı, Vedi qaldı.
Qaçanların ajaq altda
mejdi qaldı.
Beşijimiz orda qaldı,
məzarımız harda qaldı?!
Qaçma millət!
millət quru jerdə qaldı.

* * *

"„edək İsa bula‹ına,
çıxaq Qırxqız jajla‹ına..."
Azərbaj‡an qoj and içsin
Azərbaj‡an torpa‹ına.
Su çiləsin sinəmdəki
bir o‡a‹ın qor jerinə,
səpin məni vətənimin
hər jerinə.
Səpin məni kül jerinə,
bitə‡əjəm
bu torpaqdan
mən "Xarı bülbül" jerinə.

*2003*

# Cavid

Şair k‰nlüm, nə var jenə k‰jrəlibsən uşaq kimi?
Alışırsan ‰z-‰zünə haqdan janan çıraq kimi.
Jelmi qalxdı, …‰jmü uçdu, sındın belə budaq kimi?
Dünja mənə zindan oldu qaranlıq bir otaq kimi.
Açın məni, oxuyun siz, Cavid yazan varaq kimi.
†avid dedim – abır-həja dusta‹ını xatırladım,
…‰zü ba‹lı bir millətin …‰z da‹ını xatırladım.
Jada saldım papa‹ını, ejnəjini, əsasını,
…‰r namərdlər kimdən aldı bu torpa‹ın qisasını.

Fikir məni ‰z jerimdən qoparırdı,
mən sərnişin, Zaman nəhən… bir sərnişin qatarıjdı.
İllər dəmir dirəklərtək düzülmüşdü jollar boju,
axan kimdi, batan kimdi? – axtarırdım sular boju.
„‰rdüm qara vaqonlarda †avid …edir,
‰z qəbrinə do‹ru belə şəhid …edir.
“Jerə enməm də, səma şairijəm!” –
dejən enib jerdə …edir.
„izlədilir o, bəşərdən, üzündə bir pərdə …edir.
Bir saldata tapşırılıb Şekspirə bərabərim,
Şərqdə Pirə bərabərim,
“Pej‹əmbər”i qojub …edir pej‹əmbərə bərabərim.
Haqq-ədalət istəjirdi, indi susub o lal …edir,
dilindən dür t‰külürdü, dilində min sual …edir.
Danışma‹a hüququ jox, bir haqqı jox,
qələmi jox, ejnəji jox, vara‹ı jox,
düşüb üstə jeriməjə torpa‹ı jox!

Azərbaj‡an! şair o‹lun jatap …edir,
ürəjində jazılmamış neçə ‡ilid kitab …edir.
Ortada haqq-hesab …edir.

Vətənində jer b‰lüşür hakimijjət adamları,
seçirdilər nijjəti bəd adamları, –
kişiləri, qadınları?
bir az avam olanları, bir az nadan olanları.
†avid nahaq avam dejil, nadan dejil,
ipək sapdan toxunsa da,
ipə-sapa jatan dejil.
“Millət” dejən tutulurdu millətinə düşman kimi,
rus dilində təhsil alan h‰rmət-izzət sahibijdi,
vətənpərvər sajılırdı, jəni izzət sahibijdi.

Orda “Bı‹”dı,[1] burda “Ejnək”[2]...
“sui-qəsddən” qorujurlar,
daş ürəklər daşa basıb “daş qəfəsdən” qoruyurlar.
Jerdə xalqdan, …‰jdə haqdan, uçan quşdan qorujurlar,
qurduqları quruluşdan qorujurlar,
bir az †avid Əfəndidən qorujurlar,
buna məhbəs qorujurlar, ona “vətən” qorujurlar.

*...Qalxın,*
*yıxılmayın üzüquylu,*
*düşmən sevinməsin, sınmayım mən də.*
*Əyilib gül qoyaq Xiyaban boyu*
*biz belə əyilək əyiləndə də...*

Bax, belə‡ə s‰ndü jurdun o‡aqları,
jəqin ‡əllad, ja ‡əlladın uşaqları
jenə jaxşı vəzifədə xumarlanır, mehribandı,
açılmajır DTK-nın qapıları nə zamandı.
Sibir qarlı, Sibir uzaq, Sibir sojuq,
xari‡ijlə dil tapırlar, millətə dil verənlə jox.

---
[1] İ.V.Stalin, [2]M.C.Bağırov nəzərdə tutulur (*red.*).

Teatrda †avid idi, jenə †avid baş qəhrəman,
teatrda onu …‰rmək: onu sevən, onu dujan
Əmirlərin, Xumarların, Knjazların* arzusujdu,
səhnədə jox, səhnəardı s‰hbətlərin m‰vzusujdu.
Bir az asta dejirdilər,
tojda-jasda dejirdilər.

†avid dəvət olunmurdu mə‡lislərə, səfərlərə,
ja ədəbi axşamlara, ja ədəbi səhərlərə.
Ona qarşı qojurdular filan-filan nəsilləri,
sərçə ilə qartal kimi, ja şam ilə tonqal kimi
…‰rünürdü bəziləri.
Qar‹a kəklik jerişini jerijirdi,
†avid baxıb ərijirdi.
Lakin məxfi sijahıda unudulmur, hallanırdı,
s‰zdən-s‰zə jamaq salan pinəçilər
…edib meşin qapılarda jallanırdı.

Azərbaj‡an †avidindi, başqaları sahib çıxır,
Moskvanın Bakıdakı iqtidarı sahib çıxır.
Sojadı "ov", sojadı "jan" sahib çıxır,
Azərbaj‡an tarixinə b‰htan atan sahib çıxır.
İstedadın fa‡iəsi nə jamandı,
istedadsız kürsülərdə, mejdanlarda qəhrəmandı,
asır-kəsir, tutur-jıxır,
o da …əlib Azərbaj‡an, burda sənə sahib çıxır.

* Dramaturqun ədəbi personajları (*red.*).

Turan adlı bir ‰lkəjdi istədiji,
Turan adlı bir‡ə qızı qaldı onun.
Jad əllərdə əljazması qaldı onun,
“Qırxı”, “İli” tutulmadı, evdə jası qaldı onun.

†orabından tanıjıblar, sümüklərin üstə qalıb,
saçlarından tanıjıblar, …əmiklərin üstə qalıb.
†orabını …ejindirib, başına şal ba‹lajıblar,
məzarını açan kəslər, təzədən jas saxlajıblar.
İndi bildim, bu ‰lkədə şair olmaq qorxuludur,
Pej‹əmbəri daşa basır, sənətkara divan tutur.
Sonra qəbri zijarət…ah!
Bun‡a sev…i, bun‡a zülüm?!. Ne‡ə rəva …‰rdün, Allah?!
Danış Həmid! o tabutda sizə sümük …‰stərənlər:
ää sizdən ne‡ə sonra üzr istədilər?
Bir dahinin talejinə ne‡ə qıjdı Zaman belə?
nə divanlar tutdu …etdi, çarxı d‰nmüş d‰vran belə?!
Bir İNSANIN …‰zlərindən juxu qaçdı onda belə,
o sirr açdı, düjün açdı, o …‰z açdı onda belə,
ünvansıza o əbədi bir ünvanı aldı belə,
“məhbusa” bir təzə Fəxri Xijabanı aldı belə.

– Mən razıjam, ruhum razı, tanrım razı, –
mən †avidəm, Hejdər, o‹lum, sən †avidin etirazı.
Sa‹ ol, o‹lum, jad torpaqda çürümədi sümüklərim,
bu da mənim son tamaşam, mənsiz keçən son əsərim.
Müəllifi sənsən, o‹lum, baş qəhrəman burda mənəm,
vətənindən ilk didər…in, ilk qovulan burda mənəm.

Mən Məhəmməd ümmətijkən …edib düşdüm uzaq jerə,
mən çarmıxa çəkilmişəm İsa kimi nahaq jerə.
İn‡imişəm jer üzündən, jer altda da joxdu jerim,
nə bunlara bənzərim var, nə onlara bir bənzərim.
Öz jurduma qajıdıram mən dünjanın o başından,
ata-ana beşijimə, behişt olsun atan-anan.
Açıb Sibir ç‰llərinin fa‡iələr qovlu‹unu,
o‹lum, ne‡ə ‡ilovladın ürəjinin alovunu?
fırtınalar qu‡a‹ında, ne‡ə d‰zdün dərjada sən?
mən d‰vranla üz-üzəjdim, sən əsrinlə üz-üzəsən.

D‰rd əl qazdı – iki dustaq, qojdular məzara səni,
jeddi miljon əl çıxartdı o məzardan sonra səni.
Öz çijinini verdi – ustad, jeddi miljon dajaq kimi,
mən bir tabut …‰rməmişdim, qaldırsınlar bajraq kimi.
Mən jas jeri …‰rməmişdim, d‰nüb olsun el bajramı,
təbrik etsin bir-birini qəbristanda …edib hamı.

Turan ba‡ım, millət ba‡ım! mə‹rur jeri torpaq üstə,
keçdim †avid küçəsindən, …edib çıxdım O‡aq üstə.
Atabəjlər dijarında …‰rdüm †avid məqbərəsi,
mən bilirəm, sən çəkdijin a‡ıların jox əvəzi.
„‰zəllijin, zərifl ijin, məhəbbətin,
jetim qaldı, sənə qurban, onda sənin.
İlk məhəbbət məktubunun əvəzinə,
izahatmı jazdırdılar kor olmuşlar onda sənə?!
✱İŞTAR rəkləri sojumadı, minnətdarlıq istədilər,
ää k‰l…ə kimi izlədilər.

Professor hejətinin “düşmənijdi” sənin atan,
adına da qısqanırdı bəziləri; nijə Turan?!
O …edəndə səni …‰zdən salan “ərlər”,
tabutunu …ətirəndə “…‰zün ajdın” — dejirdilər.

Bu millətin hər üzünü …‰rən ba‡ım,
bu millətin Turan qızı, Turan ba‡ım.
Biz k‰çürük bu dünjadan, məbəd qalır,
†avid qalır, Ə‡əminin jaratdı‹ı sənət qalır.
Bu sənətə h‰rmət qalır,
bu h‰rməti unutmajan millət qalır.

*Sentjabr, 1995*

# Bəyanat

Moskva yetmiş il aldatdı bizi,

İnandıq,
ordaydı “ellər atası”.
Dünyanın ən azad, xoşbəxt ölkəsi, –
əslində “ağalar – qullar dünyası!”.

Böyük ideallar – əslində şüar!
Yarı həbsxana, yarı da vətən.
Əslində – tuthatut, aparhaapar, –
səksən beşə kimi,
otuz yeddidən!

Haraya qalxmışdıq, nəydi “mübarək!”,
əslində uçmuşduq biz bina kimi.
Əlifbadan tutmuş
soy-kökünədək,
dəyişdik,
millətin adına kimi.

Almaz İldırımı unutmuşdular,
meydan sulayırdı beynəlmiləllər.
“Yaşıl yarpaqlar”ı* qurutmuşdular,
“Qızıl qələmlər”dən** yapışan əllər.

---

* Azərbaycan Xalq Cümhuriyyəti zamanı gənclərin ədəbi məclisi (*red.*).
** Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra proletar ədəbi məclisi (*müəllif*).

Təltif olunduqca minbir sərgidə,
əkdik də, biçdik də əl-ələ, birgə.
Yetmiş il planlar doldu ölkədə,
axırda nə gördük! – ac qalıb ölkə.

Getdi sərvətimiz birər və birər,
gah yerin üstündən, gah da altından.
Yuxarı qalxdıqca boyun əydilər
boyunu sınmışlar,
                    xalqın adından.

Pambıqçı bəstilər, usta pirilər –
Filan zəmanənin qəhrəmanları.
Millətin gözünə kül üfürdülər,
ac qalıb doyurdu millət, onları.

Kisəylə paylandı qızıl medallar,
səadət axtardıq alqış səsində.
Birinci katibin nitqi o ki var,
mədh oldu mətbuat səhifəsində.

Guya ki, tarixə səs salırdılar
döyüb sinəsinə vətən deyənlər.
Əlin qabarından zövq alırdılar
alının tərini tərifləyənlər.

Siyasi şərhçilər meydan suladı,
Çənəsi yağlıydı, dodağı püstə.
Səfərə çıxmamış bayquş uladı
hardasa, bir karvan yolunun üstə.

Layka göyə qalxdı – əlüstü şeir,
qurultay açıldı, aşıb-daşdı söz.
“Böyük rus xalqına” mənzum namələr! –
Füzulidən sonra ucuzlaşdı söz.

Belə qazandılar şanı-şöhrəti,
belə öyrətdilər sonra bizi də.
İnqilab beşiyi,
            qul təbiəti! –
rusu da mat qaldı, xaricisi də.

* * *

Ad icad eləyib fəxr elədilər,
pambığa  “ağ qızıl” - yalan dedilər.
Neftə “qara qızıl” - bu da bir yalan,
çoxaldı ölkədə qızıl ad alan.

Qızıl ulduzlara bürünürdülər,
amma ayaqlarda sürünürdülər.
Bu da şan-şöhrətin faciəsiydi,
xəstə cəmiyyətin faciəsiydi.

Kürsüyə qalxanda “atışırdılar”,
kürsüdən düşəndə yatışırdılar, -
rəsmi iclaslarda bu, ənənəydi.
Mən də əl çalmışam yarıyuxulu.
Məqsədi, məramı nə bilim nəydi,
Fəhləsi “dəliydi”, naziri xoflu.

Yadımda hardasa milyon əl qalıb,
qana işləyirdi elə bil ovsun.
Aldanan neyləsin, məətəl qalıb,
aldadan utanıb xəcalət olsun.
Qəliz cümlələri üyüdürdülər,
çıxışlar eyniydi, nitqlər uzun.
Gedib kommunizmə çatmışdı ellər,
"işıqlıydı lampaları kolxozun"..

Məmməd[1] bu misranı əzbər deyərdi,
baxıb üzümüzə gülümsəyərdi.
Söhrab[2] bir tərəfdən,
                    mən bir tərəfdən
arada Nikita Sergeyeviçdən
lətifələr deyib rahat olardıq,
çörək növbəsinə gedib durardıq.
Onda Ali[3] kürsün tələbəsiydik.
hərəmiz ayrıca ev yiyəsiydik.

Getdi "dadı-tamı" o zamanların,
bir az dəyişiblər çuxalarını.
Əvvəlki ulduzlu qəhrəmanların
ulduzsuz görürəm yaxalarını.

---

[1] Şair M.Araz.

[2] Şair S.Tahir.

[3] Moskva, Ali Ədəbiyyat kursları (*red.*).

***

Kiminsə "doktorluq" müdafiəsi,
xəlvəti keçmişdi, eşitmişdi xalq.
Gədəbəy tərəfdən rüşvətəvəzi
torpaq bağışladı
Birinci[1] o vaxt.

Dinmədik...
onsuz da qanımızdadı,
özünü aldatmaq, susmaq adəti.
Yenə öz başında gəlib çatdadı
bədbəxt müsəlmanın bu "siyasəti".

Beləcə başlandı ilk faciəmiz,
sonra qarış-qarış, sonra hektarla.
Başqa Birincimiz,[2]
başqa "fəxrimiz", –
verdi Kəmərlidən[3] yalvar-yaxarla.

Buydu böyüklərdə vəfa, qanacaq,
"kiçiklər" nümunə götürməliydi.
Siyasi Büronun üzvündən qabaq
yerdən, zəmanəti xalq verməliydi.

---

[1] Azərbaycan KP MK-nın birinci katibi (*red.*).

[2] Azərbaycan KP MK-nın birinci katibi (*red.*).

[3] Qazax bölgəsində kənd adı (*red.*).

Hər kəs mərəzini yoxlasın gərək,
mədə həll eləməz, torpaq namusdu.
Ağıllı başları qoruya bilək,
ağılla deyilən söz arxamızdı.

Amma cəsarətli bir sözə görə
oğullar  gördüm ki, əzaba düşdü.
İtaət göstərən dəyyusa görə,
adları kitabdan kitaba düşdü.

Bir əl saxlatdırdı neçə əsəri,
siyasi səhv gəzdi niyyəti zəlil.
Fikrin odu söndü, sözün kəsəri,
Nə Sabir yetişdi, nə Mirzə Cəlil.

Dedilər Nəriman millətpərəstdi,
guya bu, millətə, vətənə qəsddi.
Dedilər başqadır indiki tələb,
Millət, Nərimanı qoymayın sevir...
"Qəh-qəh, gülməlisən xaniman xarab!" –
yerin behişt olsun qəbirdə, Sabir.

Qoy burda Məsumə Ağazadədən,[1]
iki kəlmə deyim, sevinsin vətən.
Yox, yox, unudulmaz o kitabxana,
bizi unutmayıb özü də yəqin.
Cavada – bacıydı, Cavidə – ana,
qızı yaşındaydı amma Cavidin.

---

[1] Bakı Mərkəzi Kitabxanasında şöbə müdiri (*red.*)

Borsunlu Daşqını, Yusif Vəziri,
gizlində gətirib, oxutdu bizi.
Olduq kitabxana, kitab əsiri, –
oxuda-oxuda ayıltdı bizi.

Biz öz gözümüzdə bir az ucaldıq,
əymək istəyənlər bizi, əyildi.
Birinci diplomu biz ondan aldıq,
"Aşkarlıq" o zaman aşkar deyildi.

Sən buna şahidsən, zavallı torpaq,
açıq danışanı izləyirdilər.
"Kimin sualı var!" – yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər.

Nə qədər təəssüf eləməliydik,
nə qədər peşiman olacaq bəşər.
Gedənin dalınca pis deməliydik,
gələnin üzünə tərif... nə qədər!

Bürokrat, şarlatan - iblis kimidir,
yoxsuldur, rəzildir onun dünyası.
Ən yaxın mənzili – qoltuq cibidir,
ən uzaq qohumu – doğma anası.

Siz ey az maaşa hər ay qol çəkən,
sonra borclu çıxan həmyerlilərim.
Qoyun tənzif kimi yaranız üstən,
bir az məlhəm olsun mənim əsərim.

* * *

Qovdular, sürdülər bizim millәti,
bir yanı Kür oldu, bir yanı Araz.
Sürdü SSRİ  Ali Soveti, –
Stalin, Mikoyan məkriydi əsas!

Köçdü bizimkilər, yox, – köçürtdülər,
xalqın vüqarını zaman əyirdi.
"Geri qayıtmasın daha bir nəfər!" –
Silva Kaputikyan[1] hədələyirdi,
Bir söz min ürəyi zədələyirdi.

Dedi Moskvada plenum günü,
Yuri Surovsevin[2] sədrliyilə.
Ovcunun dalıyla sildi gözünü
orda yaş yox idi bir damcı belə.

Qadın hikkəsiydi, namərd şəriydi
dediyi sözlərin rəngi, çaları.
Elə bil sinifi düşmənləriydi
bizim – Azərbaycan yazıçıları.

Müdriklər seçiblər ağı qaradan,
süddən sələm olmaz, torpaqdan əvəz.
Şair ara vurub çıxmaz aradan,
şair ədavəti təbliğ eləməz!

---

[1] Erməni yazıçısı (*red.*).
[2] SSRİ Yazıçılar İttifaqının katiblərindən biri (*red.*).

İclasda uzalı qalmışdı əlim,
sədr söz vermədi,
                        yandıq bu oda:
Getdi ürəyindən Xudu müəllim,[1]
Fərman Kərimzadə, Hafiz Baxış da.[2]

Mənə dərs deməyin beynəlmiləldən,
gördüyüm ayrıdı, deyilən ayrı.
Bir canda yaşadıq biz ki, ey vətən,
nə can ayrı oldu, nə vətən ayrı.

Xalqlar yurdlarından köçürülürlər,
xalqlar qıl körpüdən keçirilirlər.
İtir torpaqların müqəddəsliyi,
kim nə cür istəyir, yazır dərsliyi.

Mənim nəzərimdə pozur həyatı,
xalqları qırğına çağırır "Ocaq"[3] –
Zori – SSRİ xalq deputatı! –
yüksək kürsülərdən o danışacaq.
Xalqları qırğına çağırır "Ocaq".

* * *

Neçə sənətkara böhtan yazıblar,
boyun əyməyənə "boyun" asıblar.
Cavidə, Müşfiqə ad qoyubdular,
hökmü üzlərinə oxuyubdular.

---

[1] Görkəmli Azərbaycan alimi (*red.*).
[2] Tanınmış Azərbaycan yazıçısı və şairi (*red.*).
[3] Z.Balayanın kitabının adı (*red.*).

Ölüm şərbətini içirdibdilər,
sonradan yubiley keçirdibdilər.
Əvvəl öldürüblər bir qəhrəmanı,
sonra da adına küçə qoyublar.
Odda yandırıblar Azərbaycanı,
gündüzün adını gecə qoyublar.

* * *

Sən bu zərifliyi, mehribanlığı,
"insanlar" içindən bu insanlığı,
alicənablığı, mehri, ülfəti,
bu hissi, duyğunu, bu nəzakəti
necə saxlayıbsan, anam, ay Turan!
Yenə təzələndi yaram, ay Turan!
Cavidin həm oğlu, həm qızı oldun,
bəlkə bir millətin namusu oldun.
Hacının qızıyla[1] görüşdüm, fəqət
atası sarıdan o narazıydı.
Hacının büstünü gördük, nəhayət,
yaşayan Hacıydı, ölən qızıydı.
Atası sarıdan o narazıydı!

* * *

Avey baba, Heydər baba!
Vurğun, Şəhriyar hardadı?!
Koroğlu qalxıb at üstə,
axtarın, əğyar hardadı?!

---

[1] Hacı Zenalabdın Tağıyevin qızı Sara xanım (*red.*).

Soyumuza biz and içək,
tikanlı yollardan keçək.
Hardadı anam ağbirçək,
atam ixtiyar, hardadı?!

Soyumasın ocaq özü,
Fikrin odu, sözün közü.
Qiymətlidi ustad sözü, —
gəlsin Bəxtiyar,[1] hardadı?!

* * *

Qovdular, sürdülər bizim milləti,
bir yanı Kür oldu, bir yanı Araz.
Mən dana bilmərəm bir həqiqəti, —
Stalin, Mikoyan məkriydi əsas!

Sonra bayquş kimi uladı kilsə,
bir qara yel əsdi, qar gəldi sonra.
Azərbaycanlıyam, —
deyən hər kəsə
"Böyük Ermənistan" dar gəldi sonra.

Gəldi köhnə yurddan təzə dərdimiz,
tale axtaranın həyatı qaldı.
Əkib şumladılar yeri tərtəmiz,
bu dəfə nə üstü, nə altı qaldı.

Millətdən millətə söz qandırdılar,
beşikdə, məzarda od yandırdılar.
Bulağın gözünü bulandırdılar,
gördük su üstünü, su altı qaldı.

---

[1] Şair B.Vahabzadə (*red.*).

Dilə bal bələyib biz bal qoxuduq,
xalqlar dostluğuna xalça toxuduq.
“Azad ölkəm!” deyə nəğmə oxuduq,
dildə oxunmamış bayatı qaldı.

Fəlakət törətdi insan Tanrısız,
şanılar, pətəklər qaldı arısız.
Nə Ağrı dağına qalxdıq ağrısız,
Nə Göyçə gölünün öz adı qaldı.

Gör kimlər törətdi bu qiyaməti,
gözü kor olanlar baxdı, görmədi.
Torpaqdan torpağa xalqın həsrəti,
əsrdən əsrə fəryadı qaldı.

* * *

Yığıldı, yığıldı döndü bir dağa,
ocaq hənirtiyə, yol izə döndü.
Millət baş meydanda qalxdı ayağa,
dəniz sahilində dənizə döndü.

Bu da Salnamənin bir səhifəsi,
başqa səhifəsi Xalq Cəbhəsiydi.
Millət — baş meydanda möhürəvəzi,
torpaq — suverenlik vərəqəsiydi.

Tənqid! — aşağıdan yuxarıyadək,
Sabir[1] bu günləri görə biləydi.
Qadağan olunmuş söz yoxdur demək,
“qadağan saatı” vətəndə nəydi?!

[1] Mirzə Ələkbər Sabir (*red.*).

* * *

Kişilər salmışdı, pozdu dığalar
Qazaxdan Dilcana gedən yolları.
Ay qalın meşələr, sərin bulaqlar,
qürbətə bənzəyir vətən yolları.

Fikirdən ayılmır İncə dərəsi, —
buydu namərdlərin qəsdi-qərəzi.
Pozulub yolların bəndi-bərəsi, —
təzədən yüz axtar itən yolları.

Ehtiyatlı olun, igid oğullar,
bir az qorxuludu indi bu yollar,
"Şahin-şonqar sürbənizi dağıdar",
nə çoxdu gizlənib güdən yolları.

Mənim yadımdadı — ata-babadan,
karvansara olub bizim İcevan,
Dərdi dözülməzdi, yarası çiban, —
oyatma qıvrılıb yatan yolları.

* * *

Qatil! Zəhərləmə abı-həyatı,
            bələyim Qarabağ beşiyindədi.
"Nərmə nazik bayatıdır, bayatı" —
bir xalq
            bir bayatı keşiyindədi.

Hələ qan qaradı, bayraqlar qara,
ürəyim üşüyür yad nəfəsinə.
Qərənfil səpilib asfalt yollara,
Torpaq xınalanıb saç əvəzinə.

Düşmən gülləsinə yaralandılar:
yaşamaq eşqiylə qırılanlarım.
Tanklar yeriyəndə sıralandılar,
tanka zəncir kimi sarılanlarım.

O tanklar gətirdi qara bayrağı,
nalələr od oldu, laylalar həzin.
Mənim millətimi
                        Novruzqabağı
qara geydirəni qara geyinsin!

Bükülüb gənclərin yumruğu kinlə,
mənə başsağlığı verməsin heç kəs.
Mənim böyük xalqım susar təmkinlə,
səngərdə ölənə heyifsilənməz!

Qalxın,
            yıxılmayın üzüquyulu,
düşmən sevinməsin, sınmayım mən də.
Əyilib gül qoyaq Xiyaban boyu
biz belə əyilək əyiləndə də.

# Şəhid atası Şərif qağaya Məktub

*Babasından nəvəsinə,*
*düşdü vətən həvəsinə.*
*Rus, erməni gülləsinə*
*sinə gərdi Sanılılar,*
*Şəhid verdi Sanılılar.*

Çaylı kəndi, meşə yolu,
təhlükədi sağı, solu.
Dərdin alım, ay eloğlu,
sənin dərdin ağır oldu,
yerlər-göylər fağır oldu.

Tabut gəldi... Sədərəkdən,
nalə qopdu min ürəkdən.
Təzə qalxmışdı yürdəkdən,
Elşadıydı son beşiyin,
yasa batdı ev-eşiyin.

Şərif qağa, dözə bilsən,
döz bu dərdə, sən əsilsən.
Sən ağlama desəm də mən,
özüm gedib ağlayırdım,
ölənə yas saxlayırdım.

O, Haşkərim Sanılıdan,
o soydan bizə bir nişan.
Güllələrə getdi qurban, –
şair getdi dildə vətən,
Şəhid çıxdı o nəsildən.

Kənd bir evə tökülmüşdü,
çəpərlərin sökülmüşdü,
təzə çəpər çəkilmişdi
yas yerinə gələnlərdən,
deyirdilər ölənlərdən.

Cənazəni döndərdilər,
qaldırdılar, endirdilər.
Dinməyəni dindirdilər,
Tabut sükut içindəydi,
sükut tabut içindəydi.

Bir az ayaq saxladılar,
el ağzıyla ağladılar.
Qızıl xonça bağladılar,
elin-günün adətiydi,
taleyin də qismətiydi.

Şapka geyən, papaq geyən,
sual verən, ağı deyən,
erməniyi, rusu söyən
bütün bir kənd yığışmışdı,
bir həyətə sığışmışdı.

Sanılıdan Sabir bəyi,
Nağılıdan Mahir bəyi,
Carçılı Cavanşir bəyi
gördüm, gözlərdə kin gördüm,
bir ağrılı təmkin gördüm.

Şəhid verən üç ağsaqqal,
dayanmışdı məğrur və lal.
Bu mərəkə, bu "cah-cəlal"
tanışıydı hər birinə,
təsəlliydi bir-birinə.

Bulud kimi dolmuşdular,
çəmən kimi solmuşdular,
dərddən qohum olmuşdular,

yad olmuşdu qohumları,
qızdırırdı dərd onları.

— Ağrıyırdım mən bir şeyə, —
oğlun getmişdi cəbhəyə.
Mənimki evdəydi deyə
baxammırdım heç üzünə.
İndi sən də gəl özünə.

Başqa şəhid atasına,
sən deyirdin yana-yana.
Qulaq asdım pıçıltına,
Şərif qağa, hıçqırırdın,
pıçıltıyla qışqırırdın.

O gün Novruz axşamıydı,
el-obanın bayramıydı,
deyib-gülmək məqamıydı,
yer yuxudan oyanmışdı,
Yumurtalar boyanmışdı.

Küsülülər barışırdı,
süfrələr də qarışırdı,
göydə ulduz sayrışırdı,
yerdə tonqal çatırdılar,
Aya lopa atırdılar.

Şərif qağa, mən də pisəm,
toydan-yasdan xəbərsizəm.
Arada bir gəlib-getsəm,
Çaylıdan da gen düşmərəm,
Poyludan da gen düşmərəm.

Zabit, bir az yol uzaqdı,
sür maşını bəlkə çatdıq.
Nazim, oğlum, xeyli vaxtdı
baş çəkmirik qəbristana,
nənən yatır, dəyək ona.

Yad ha deyil Çaylı kəndi,
Çaylı - köhnə Kəsəməndi.
Toy gözləyib yasa gəldi
uzaq-yaxın tanışların,
qurumuşdu göz yaşların.

Bu qəribə bir yas idi,
burda hamı həssas idi.
Bu, əslində qisas idi,
ləyaqəti, heysiyyəti
yandırırdı bir milləti.

Kimdən, nədən deyirdilər,
bədahətən deyirdilər.
"Birlik", "Vətən" deyirdilər
ağıl, şüur oyanırdı,
uşaqlar da boylanırdı.

Bu oyanış dəhşət idi,
o tərəfi - sərhəd idi,
bu tərəfi — bu kənd idi,
gözü qıpıq olmuşdular,
könlü qırıq olmuşdular.

Yol o yanda kəsilirdi,
iz o yanda üzülürdü,
adam baxıb əzilirdi.

kənd davanın içindəymiş,
bu qovğanın içindəymiş.

Mən dedikcə acı-acı,
Hayıfsındı Salya bacı.
Vahid qağa söydü xaçı,
Vazgenin də kilsəsini,
boğmaq olmaz el səsini.

Ağstafa, Qazax birdi,
yaxın birdi, uzaq birdi,
qol ayrısa, qucaq birdi,
laylasına yatanlarıq,
harayına çatanlarıq!

Dost görəndə bayram olub,
ürəkdə arzu-kam olub.
Yediyimiz haram olub,
bir qəribi ac görəndə.
Ya çörəksiz sac görəndə.

İnanmışdıq erməniyə,
çağırırdıq "kirvə" deyə.
Süfrəmizdə yeyə-yeyə,
süfrəmizə xayın oldu,
özündən arxayın oldu.

Üzdə biri çəkməçiydi,
zurnaçıydı, əməkçiydi,
bir-birinə köməkçiydi,
xəfiyyəymiş ermənilər,
allah, nəymiş ermənilər?!

Türk görəndə qorxub əsər,
qulaq kəsər, burun kəsər,
göz çıxardar, boyun üzər.
Vəhşilərdən dönmədilər,
bəlkə də bu ermənilər?!

Biz itirdik İrəvanı,
karvansaray İcevanı.
Yaylağımız Dilicanı,
Şuşadadı ermənilər,
nəşədədi ermənilər.

Gədəbəydən qopartdılar,
Kəmərridən apardılar,
bizdən vətən apardılar,
orda vətən yaratdılar,
yaramızı qanatdılar.

Əsir qalıb Əskipara,
dilim qısa, üzüm qara.
Həsrətik o bulaqlara,
əkinimiz qaldı çöldə,
biçinimiz qaldı əldə.

Tanıyırdım Qarateli,
erməninin sınsın beli.
Baş tutmadı fitnə-feli,
qız özünü həlak etdi,
pak gəlmişdi, pak da getdi.

Sən mərd dayan, Şərif qağa!
Yığ gücünü qalx ayağa.
Şəhid verdin bu torpağa,

dayaq olsun torpaq sənə,
səbir versin Allah sənə.

Atəş! — dedi igid əsgər,
yaylım açdı döyüşçülər, —
Avtomatlı yeddi nəfər.
Qoy şəhidlər xiyabanı,
hifz eləsin o cavanı.

Gəlib-gedən dönüb baxsın,
yoldan ötən dönüb baxsın,
bütün vətən dönüb baxsın,
Xiyaban, tək məzar deyil,
bu ölən arzular deyil.

Şöhrət oldu Elşad bala,
Qazax boyda bir mahala.
"İgid ölər, adı qalar..."
El deyəni pozan olmaz,
eldən yaxşı yozan olmaz.

Məni boğan qəhər deyil, —
Elşad daha əsgər deyil,
Elşad adi bəşər deyil,
Elşad adlı qəhrəmandı,
Çaylı kəndi — bir ünvandı.

Azərbaycan günlərindən,
bir səhnəni çəkirəm mən.
Gəl əzizim, tut əlimdən,
Sən bir kəndin timsalında,
yaşat onu xəyalında.

Osman[1] qağa yatır burda,
xatırlayaq otur, burda.
Vidadi[2] burdadır, burda,
o tərəfdə Hüseyn[3] qağa,
Vaqif[4] düşdü Qarabağa.

Qurtarmadı el bu yasdan,
Cıdır düzü qanlı dastan.
Şuşa böyük məzarıstan,
heykəl orda baş daşıdı,
gör gavur harda yaşadı?!

O güllələr açılırdı,
alnımdan tər açılırdı.
Bir bəd səhər açılırdı,
"Aran köçü" burulurdu,
köç Sibirə sürülürdü.

Sanılıydı fəryad edən,
Bir səsiylə min dad edən,
Siyasətə qurban gedən,
siyasətdən uzaq idi,
və... siyasi dustaq idi.

Şairə qəsd, millətə qəsd! —
bir şərəfsiz, şöhrətpərəst,
vəzifədən ötrü bu məst,
bu nadanlar dəstəsindən
nələr çəkdin, yazıq vətən!

---

[1] Osman Sarıvəlli.
[2] Molla Vəli Vidadi.
[3] Hüseyn Arif.
[4] Molla Pənah Vaqif.

Babasından nəvəsinə,
düşdü vətən həvəsinə.
Rus, erməni gülləsinə
sinə gərdi Sanılılar,
Şəhid verdi Sanılılar.

Şərif qağa, dərd çoxalıb,
üstümüzü düşmən alıb.
İndi vətən darda qalıb,
gərək biz də silah tutaq,
loxma kimi dərdi udaq.

Yazdığımı götür oxu,
cavanların getdi çoxu.
Bu torpağın acı, toxu
bir-birinə dayaq olsun,
insan qazdan oyaq olsun.

Əldən verdik Kəlbəcəri,
erməni doldu içəri.
Bir kombatı-mərd əsgəri
arxasından vurub namərd,
başın sağ olsun, Əlövsət.

İndi bircə yol görürəm,
məzlumları qul görürəm.
Gəlinləri dul görürəm,
qızlar qalxır, cavan azdı,
milləti artıran azdı.

Dastanlardan Oğuz xanın,
Moğollardan Çingiz xanın,
Atillanın, Alparslanın
ruhlarına biz and içək,
İcevandan qoşa keçək.

Şərif qağa, yaram sızlar,
qoy susmasın telli sazlar.
Cəbhədədi bizim qızlar,
dava namus davasıdı,
bu, el-ulus davasıdı.

*Bakı, aprel 1993*

# Qadın

*(Qızım Xatirəyə)*

I

– Şirindil, bir həftə keçir o gündən,
yumadın yenə də o köynəyi sən?
– Nurəddin, doğrusu, vaxtım olmadı.
– Yox, mənim görünür, baxtım olmadı.
Yaxşı, mən cəhənnəm, o uşağa bax.
Şirindil dinmədi, tutuldu ancaq.
Nurəddin qapını çırpdı üstünə,
evdən qaşqabaqlı çıxdı o yenə.

II

Gah sahilə çıxdı, gah bağa gəldi,
bilməyib çoxuna toxundu bəzən.
Çoxuyla da qabaq-qabağa gəldi,
hamıdan seçildi, hamıyla gəzən.
İstirahət günü o hara getdi?
Geymədi əyninə paltosunu da.
Özü də bilmədən bazara getdi,.
soruşdu soğanın kilosunu da.
Yenə soyumadı kini, qəzəbi,
dedi "lap çaşdırdı bu yollar məni".
Taksi sürücüsü söydü əsəbi:
"Evdə yetim qoyma, balam var mənim!"
Getdi səki ilə qəlbində qübar,
bənizi ağardı, qanı qaraldı.
Gəlib "Nizami"yə* növbədən kənar
Ərəb kinosuna bilet də aldı.

---

* "Nizami" kinoteatrı (*red.*)

Gəzindi saata tez-tez baxaraq,
Fikrindən nə keçdi, dada yetmədi.
Kinoya bir azca qalırdı, ancaq
Aldığı bileti cırdı, getmədi.
Fikirdən-fikirə düşdüyü kimi,
Səkidən-səkiyə keçdi Nurəddin.
Yolda bir limonad içdi Nurəddin,
Təzə pul köhnənin üçlüyü kimi
Qaldı susatana, almadı, getdi,
Susatan da səsə salmadı, getdi.

III

Mindi trolleybusa,
gedib Bayıla çıxdı.
Mindi ayrı maşına,
başqa bir yola çıxdı.
Yolunu da itirdi,
izini də itirdi.
Camaatın içində
özünü də itirdi.
Üç yaşlı qız balası
evdə onu gözlədi.
Qapı hər döyüləndə
"Ata!" deyə səslədi.
Bu səs ona da çatdı,
durdu dinməz-söyləməz.
"Qayıt, qayıt, atacan!"
Lap yaxından gəldi səs.
"Ata, biz yelləncəyə
gedəsiyik, hardasan?
İstirahət günü də
işdəsənmi, atacan?"

- Get, qızım, ananla get.
- Anam baxmır üzümə.
Mən "ata" çağırıram,
acıqlanır üstümə.
Gəl, ata, anam mənim
heç üzümdən öpməyir.
Anam saldı əlindən
qırıldı nəlbəkimiz.
Ata, yenə anamı
gəl, güldürək ikimiz.
Turpu təmizləyirdi,
anam əlini kəsdi.
Anam atdı bıçağı,
anam titrədi, əsdi,
anam əlini kəsdi.
Ata, telefonumuz
zəng elədi biaram.
Dəstəyi götürmədi,
danışmadı heç anam.
Mən yüyürdüm, saxladı,
sən idinmi, ay ata?
Anam məni qoymadı
danışam telefonda.
Gəl, ata,
        sən gəlməmiş,
                çörək yeməyəcəyəm.
- Yox, qızım, yox, gözləmə.
Daha gəlməyəcəyəm!
- Onda qızın olmaram,
körpə quzun olmaram,
sənin balan olmaram,
sənin anan olmaram!
Mən küsdüm səndən, ata!

- Küsmə, sənə qurbanam!
Qoy bütün dünya küssün,
tək sən küsmə, sən balam,
küsmə, sənə qurbanam!

## IV

Ayıldı, alnından gördü tər axır,
gördü ki, üçüncü mərtəbədədir.
Fikirli-fikirli bir evə qalxır,
bu qapı kimindir, bu nömrə nədir?
Gəldi dostugilə, tanışıgilə,
yeridi qüssəli, yeridi nasaz.
Barı söhbət ilə, danışıq ilə
bir az ürəyini boşaltsın, bir az.
Baxdı gah qapıya, gah pilləkana,
dostuyla nə qədər görüşmüşdür o.
Hələ bir dəfə də zarafatyana
ağacdan tutaraq sürümüşdür o.
Getmişlər kinoya, teatra da,
(ah, niyə çatılır indi o qaşlar?!)
Bəzən öz evində, bəzən də burda
neçə təzə ili qarşılamışlar.
Elşada, Elşadın arvadına da
istədi hər şeyi desin o, açıq.
Desin pis olsa da, yaxşı olsa da,
"daha Şirindillə ayrılmalıyıq.
Desin ki, tutmayır xasiyyətimiz,
dolana bilmərik bundan sonra biz.
Məğrurdu-qılıqsız, soyuq, bir bədən,
nə qohumcanlıdı, nə söz eşidən..."

V

Zəngi basdı Nurəddin,
peşiman oldu fəqət.
Eşidən olmasaydı,
düşüb gedərdi əlbət.
Necə desin görəsən,
necə açsın bu sözü?
İnciyər Lalə bacı,
inciyər Elşad özü.
Ürəyində gizlimi
saxlasın o, bu "dərdi?"
Dostları süfrəsinə
dəvət edə bilərdi,
Xeyir söz, ya şad xəbər
gətirə bilərdi o,
Ancaq aça bilməzdi
dosta da bu "dərdi" o!
"Desələr xeyirdimi?"
nə uydurum onda bəs?
Yox, Lalə bacı deməz,
yox, heç Elşad da deməz!
Əsil dostun evinə
getsən, sevinər ancaq;
Dost deməz: niyə gəldin,
xoş gəldin, deyər ancaq.

VI

Bu dəm açıldı qapı
Lalə bacı göründü.
Nurəddinin gözündə
ev dumana büründü.
Əvvəl seçə bilmədi,
necə seçə biləydi?

Hələ Lələ bacında
gözünə qoşa dəydi
– Gör kim gəlib, ay Elşad!
gəl-gəl, Nurəddin qardaş!
O, gəldi ağır-ağır,
o, gəldi yavaş-yavaş.
Qapı örtüldü daha,
görüşdülər Elşadla.
Oturdular üzbəüz,
çay düzdü Lalə bacı.
Elşad dindi gülərək:
– Nə yaxşı ürəyin var,..
Nuru, bizi bu axşam
nişana çağırıblar,
sənsiz gedən deyiləm.
– Mənim işim var, gedin, -
çayını içə-içə
cavab verdi Nurəddin.
Danışdı baş bulayıb,
danışdı üzündə qəm;
"İş yerində ölən var,
yaxşı düşməz getməsəm".
Sonra Lalə bacını
Elşadı yola saldı,
özü uzun küçədə
fikirləriylə qaldı.
"Getməsəm yaxşı düşməz,
yas yeri var... siz gedin"
mənim yalanıma bax.
Hm... Nurəddin, Nurəddin...
Yaxşı gəlindi Lalə,
bacım olsun dünyada.

Süfrə açır, çay süzür,
can da deyir Elşada.
Bəli, xoşbəxtdir Elşad,
nə qəm bilir, nə kədər.
Çox, çox şey asılıdır
arvaddan, düz deyiblər.

Nurəddin çox düşündü,
çox şeyi saldı yada.
Hiss etmədən "yox!" deyə
qışqırdı da arada.
Keçənlər ona baxdı,
O, baxmadı bir kəsə.
Üç siqaret yandırıb
sümürdü birnəfəsə.
Sol qulağı tar səsi,
kaman səsi eşitdi.
Sağ qulağı qız səsi,
oğlan səsi eşitdi.
Qarmon çalan, oxuyan,
sağlıq deyən çox oldu.
Oynadılar, getdilər,
sonra hər şey yox oldu.
Nişanını, toyunu
yada saldı Nurəddin.
Düşündü ki, Şirindil
xoşxasiyyət qız idi.
Əzəl necə mehriban,
necə günahsız idi.
Özü harda olsa da
Nurəddinin dilində
olardı adı onun.

Tək Şirindil olardı
ağzının dadı onun.
Yanında gəzməyəndə
dilində gəzdirərdi,
könlündə gəzdirərdi!
İşdə onun adı var,
bir sözündən keçilməz.
Ancaq evə gələndə
uşaq qədər sayılmaz
uşaq qədər seçilməz.
İşdən yorğun qayıdar,
özü durub çay süzər.
Söz deməz Şirindilə
fəqət, qəlbində küsər.
- Şirin, bu macəramız
əzəl məhəbbət oldu.
Sonra hər şey bu evdə
özünəxidmət oldu...
- Nurəddin, oxumuşam,
mənim də təhsilim var,
deyirsən işləməyim?
- Yox, yox, işlə nə olar.
Lakin mən ailədə
get-gedə unuduldum.
Bəzədiyin bu evə
elə bil yamaq oldum.
Divara gülüş qondu,
mənim gözlərimə qəm;
Mən, Şirin, bilirsənmi,
ailə istəyirəm.
Danmıram, istəyirəm:
ərəm, başım yuyulsun,

stolumun üstündə
çayım da hazır olsun,
çörəyim də qoyulsun.
Qonağımı yola sal,
ana ol, uşağa bax.
Ər kimi istə məni,
bəli, ər kimi ancaq!

Pis yerə yozma, Şirin,
de, buna haqqım varmı?
Axı, arvadlı kişi
mənimtək yaşayarmı?!
Xəstəxana, elmi iş,
nə bilim, mən daha nə.
Məndən də gec gəlirsən
bəzən hələ evinə.
Yazılmışdır kitabda
hüququmuz bərabər;
Bəs ailə, Şirindil,
bəs qəlb? Bəs arvad? Bəs ər!

Gedir yenə Nurəddin,
içində haray gedir.
Gedir halı pərişan,
evliykən "subay" gedir.
Qanı necə qaradı,
qəlbi necə döyünür.
Bir para filmlərin,
bəzi rəfiqələrin,
qarasınca deyinir.

## VII

Yanır əlvan işıqlar,
Bakı nura qərq olur,
Axşamın düşməsi də
Nurəddinə dərd olur.
Yanır əlvan işıqlar,
üzlər nura boyanır.
Ona elə gəlir ki,
gündüz işıqlar yanır.
Oğlanlar, qızlar keçir,
deyəni, güləni var.
Görüşə gedəni var,
görüşdən gələni var.
Biri taksidə gedir,
o biri avtobusda,
(hamının gedən yeri,
gələn yeri olsun, ah!)
Göyərçinlər dəstəsi
yuvada mürgüləyir.
Akademik teatra
İzdiham axıb gedir.
Füzuli fikirdədir.
sağ əli çənəsində
Sədaqəti vəsf edir
o, yenə nəğməsində.
Füzuli də düşünür,
Nurəddin də düşünür.
Sazaq qalxır deyəsən,
Nuru bir az üşünür.
Biri Məcnun diliylə
Leylidən deyir, deyir,
O biri öz dilində
Şirindən gileylənir!

Şairin tanış səsi
nələr deyir, gör nələr;
"Gileylənmə Şirindən,
Leyli səndən inciyər.
Gileylənmə Şirindən
Başqa bir Şirini, bil;
Fərhad sevdi bir zaman,
heç kəsdən gizli deyil.
Min dağ yardı o igid
bir eşqin həvəsinə.
Əsrlər cavab verdi
bir külüngün səsinə.
Gileylənmə Şirindən,
gənc həkimdir o mələk,
Təzə “Şirin” dastanı
yazılsın indi gərək!"
Bunu özümü deyir,
Füzulimi? Bilməyir!
Yanır kinoreklamlar
rənglər yaşıl, ağ sarı.
Elə bil sübh açılır.
Ah, Bakı axşamları!
Bağlarının ətrini
külək şəhərə yayır,
səhər axşama yayır,
axşam səhərə yayır.
Yüz axşamın hüsnü var
bir hüsnündə bil barı.
Ah, Bakı axşamları!
O, bu sükut içində
düşünürdü bayaqdan;
Bir səs haray çəkirdi:
"Qayıt, qayıt, atacan!"

## VIII

Nurəddin oturdu köks ötürərək,
Oturdu bəzəkli bir skamyada.
Danışdı gah ağıl, gah da ki ürək,
danışdı gah subay, gah cavan ata:

N u r ə d d i n

Tutalım, ayrıldım elə bu axşam.
Tutalım, o çıxıb, mən boşamışam.
Bəs sonra? Şirindil ərə gedəcək,
Hər yetən dalımca töhmət edəcək.
Atalıq yanında qalacaq qızım,
"Ana" çağırdığım balaca qızım,
Mən də ayda-ildə onu birtəhər
gedib görəcəyəm...
görünsə əgər.

A t a

Birdən görünmədi? Getməzsən məgər?

N u r ə d d i n

Getmərəm, nə olar, o da böyüyər.
Bir azdan Nənəş də yekə qız olar,
O da atalıykən atasız olar.

A t a

Ürəyin dözərmi?

N u r ə d d i n

Dözər, hm, dözər...

A t a

Yazıq, bu ağrılar ruhunu əzər!

N u r ə d d i n

Niyə? Evlənərəm gedib arada.
Öz oğlum, öz qızım olar sonra da.
Çoxdu darülfünun bitirən qızlar,
çoxu subay qalıb... gedib alaram.

A t a

Axı, sən atasan, sənin balan var?!

N u r ə d d i n

Mən sonra Nənəşi başa salaram.

A t a

Onun anasını dul qoyan gündən
O, səndən əbədi üz döndərəcək.

N u r ə d d i n

Gedib öpəcəyəm onun üzündən
Sonra birdəfəlik...

A t a

Səbr elə görək,
Nurəddin, anadır axı, Şirindil,
onun ana kimi sən qədrini bil.

N u r ə d d i n

O hər nə olsa da, axı, mən ərəm,
ər kimi ona söz deyə bilmərəm?!

Ş a i r

Səbr elə, səbr elə, mühəndis oğlan,
Bağda, skamyada tək oturmusan.
Əl-ayaq çəkilib, gedib adamlar.
Dur get, fikirləşmə, sənin evin var.
Saat on ikidir, oyaqdır Nənəş,
Bəsdir, get bir az da evdə fikirləş.
Bir də fikrə qalsa, çoxdu fikrimiz,
müxtəlif illərdə doğulsaq da biz.
Bir də "ərəm" deyib evindən az qaç,
Nizami deyir ki, "ər ol, qapı aç".
Şirindil oturub intizardadı,
Nənəş də soruşur, atam hardadı?
Üşüdün deyəsən, yuxadır əynin,
boylanma heç yana, di dur, Nurəddin.
Bağdakı o fikrin qoy bağda qalsın.
Nənəş qollarını boynuna salsın.

IX

Nurəddin qayıtdı
yatırdı qızı,
yatırdı qızın da gəlin anası
Gördü ki, çaynikdə buza dönüb çay,
xörək də soyuyub masanın üstdə.
Açıq pəncərədən nur səpirdi Ay
çarpayıda yatan qızının üstə.
Əyilib yavaşca öpdü üzündən,
Burnunun ucundan öpdü sonra da.
Xeyli ayrılmadı gözü gözündən,
baxdı lalə rəngli yanaqlara da.
Yorğanı təzədən üstünə çəkdi
örtdü, kürəyinə soyuq dəyməsin.

Bir ata ürəyi görün, nə çəkdi,
qoy bunu duymayan, heç də duymasın!
O qara saçlara sığal çəkərək
öpdü ağ lentin də düyün yerindən.
Nənəşi üç dəfə iylədi gültək
sonra da bir nəfəs aldı dərindən.
Şirindil görmədi bunları lakin
ancaq bilirdi ki, sevir Nurəddin, –
sevir məhəbbətlə qız balasını.
Bahar balasını, yaz balasını.

Əriyib getmişdi gecənin çoxu,
Gözünə hələ də getmirdi yuxu.
Gedib ehmallıca yandırdı qazı,
Çayını qızdırıb içdi narazı.
Götürüb alboma baxdı narazı,
Bulandı narazı, axdı narazı.
Açdı, varaqladı: çoxdu şəkillər!

"Yaxşı ki, diliniz yoxdu, şəkillər!
Yoxsa min suala tutardim sizi,..
bəlkə də cırardım, atardım sizi!
Yox, cıra bilməzdim, gəlməzdi əlim,
yenə də qəlbimlə toqquşur dilim.
Sanki bir bədəndə iki nəfərəm,
yox, sizi heç vədə cıra bilmərəm!..."

Şəkillər, danışın, şəkillər, dinin,
əziz dostusunuz siz Nurəddinin.
"Şirindil, üzümə gülümsəyirsən,
tutub əllərimdən gedək deyirsən;
bunu Lalə çəkib, bunu da Elşad,
hə, bu da bağdakı o qoca arvad!
Şəkli şəklimizlə yanaşı düşüb,
Görəsən sağdımı... illər ötüşüb...
gedib süpürəndə o yolu-izi,
görəsən yadına salırmı bizi?
Eh, onun özünün işi-gücü var.
qoy durum, yatıbdı indi qonşular.
Şirindil də yatır..."
                    Nurəddin durur.
Açır saatını, bir az da qurur.
Gedib ütüləyir öz köynəyini,
sarı, dama-dama üst köynəyini.
Əlini yandırır, çatır qaşını.
Köynək düz dayanmır, acığı tutur.
Mənalı tərpədir hərdən başını,
"evdəki peşəm də demək ki, budur..."
Fəqət istehzayla deyir bu sözü,
deyəsən özünə mat qalıb özü.
"Qəribə zamandı, qəribə ərəm,
O, yatır, mən köynək ütüləyirəm..."

Nurəddin dedikcə alışdı, yandı,
Buludlar sıxlaşdı qaşqabağında.
Deyinə-deyinə gəlib uzandı
O körpə qızının sol yançağında.

X

Nərimanneft mədəninə
gəldi səhər,
yorğun idi qara gözlər.
Açdı külək plaşının ətəyini.
Sığalladı elə bil ki, ürəyini.
Salamladı o günəşi və səhəri,
qoca, cavan fəhlələri.
Salam aldı.
Buruqlara nəzər saldı,
nişanlayıb nəsə yazdı,
Mancanağın səsinə də qulaq asdı.
Həkim kimi duydu yeri,
sonra taxta budkasına döndü geri.
Plaşını, pencəyini soyundu tez,
ayaqüstü yuyundu tez.
Baxdı qarşı divardakı güzgüyə də,
baxdı heyrət edə-edə
Gözlərinə inanmadı.
gah güzgünü,
gah gözünü
sildi Nuru.
Hirslənmədi, güldü Nuru,
köynəyinin yaxalığı
yanıb, baxdı,
öz-özünə donub baxdı.

"Adicə bir ütünü də
                    çəkmək gərək..."
deyib geydi pencəyini,
                    dodaqaltı deyinərək.
Sıxılma, dost,
köynək yansa, almaq olar,
                    ürək yansa, dönər gülə.
Hara isə, kimsə isə
                    zəng elədi gülə-gülə...

XI

Sabir*

İşdən tez qayıtdı o s[illegible]m Nuru,
gəlib köynəyini dəyişdi dərhal.
Deyəsən ilk dəfə sındı qüruru,
fəqət gözlərinə qondu min sual.
Çatdı qaşlarını narazılıqla:

M.Ə.Sabirin tələbəsi

"Bircə yol könlümü alıb qılıqla
deyə ki, Nurəddin, kömək et mənə,

Balaxanılı Suat Nəzərova

köməyi olaram, susaram yenə.
Nə olar, lap elə çay da qoyaram,
gecəyarı durub paltar yuyaram,
köynək ütülərəm... görən də olmaz,
özü də heç məndən narazı qalmaz..."

Düşünür, sualı-cavabı min-min,
sonra saatına baxır Nurəddin.
Bu dəfə, bu dəfə gör hara gəlir,
birbaş evdən çıxıb bazara gəlir.
Bazarı gəzdikcə həyəcanlanır,
görüb qiymətləri hirsindən yanır.

* Əsər ilk dəfə "Heybədə gəzən şeir" adı ilə çap olunmuşdur (*red.*).

"Qansız alverçilər gəzir müştəri,
zalım on qəpiyə satır kəvəri.
Limonun hərəsi bir manat olub,
ləpənin kilosu qiyamat olub.
Kartof yaxşı idi əvvəl bir qədər,
onu da qaldırdı gədəbəylilər..."

Evdə Şirindildən danmadı bunu,
ancaq köynəyini yandırdığını
gəlin özü bildi,
                    güldü ürəkdən.
- Beləmi ütülər, a Nuru, adam?
- Neyləyim, arvadlı subayam da, mən!
Görünür, ilk dəfə bacarmamışam.
- Nuru, istəyirsən öyrədim?
- Sağ ol!
Bircə bu qalmışdı.
- Qoy olsun bu da.
A Nuru, daha az qaraqabaq ol.
Kişi kömək olsun gərək arvada.
- Bugünkü ailə ər-arvad deyil?
Onların həyatı bir həyat deyil?
- Nuru, bu suallar nəyə gərəkdi?

- Şirindil, bu evdə axı mən ərəm?
- Bəs mən də anayam, dinə bilmərəm?!
Yoxsa, "qıza lazımdır əgər,
ev işi,
          paltar tikişi,
Köhnə yumaq,
          yun daramaq..."
Eləmi?
Teatra getmişdik, qəsdən
paltomu tutmadın, qürrələndin sən.

Neçə məclislərdə mənsiz olmusan,
nə olub, Nurəddin, mən pis olmuşam?!
Durub oturursan: "axı, mən ərəm!"
Sən həm də atasan, bunu bilirəm.
Hələ mühəndissən, xətrin, hörmətin,
adın qəzetdə də çıxıb, Nurəddin.
Elə bil az imiş Balaş, Əmirxan,
elə bil onların sən də, tayısan?!
- Yox, mən nə Əmirxan, nə də Balaşam,
nə elə tərsəm mən, nə də əyyaşam.
Görürsən sevirəm öz ailəmi,
Sevirəm mən ancaq Nurəddin kimi.
Mən sənə demirəm: işini burax,
Deyirəm: məni də unutma ancaq.

Şirindil, bu evdə, axı, mən ərəm,
- Elə mən də sənə bunu deyirəm.
Sənin nəzərində qadın qadındı
sabahkı qadınsa öz övladındı.
Nurəddin, xatırla Dədə Qorqudu,
yadıma düşəndə məni qorxudur,-
o qadın, o ana, o ürəyidaş.
Amma qadınlıqdı əsil vətəndaş.
Onu öz içindən çəkdilər şişə,
yedi balasının kabab ətini.
Nurəddin, sən burda axtar həmişə
qadının qadınlıq ləyaqətini.
Bir addım atmamış fikirləş öncə,
gör harda ya qorxaq, ya naşı durur.
Ailə-məişət söhbəti, məncə,
vətən söhbətilə yanaşı durur.
Qılıq da gərəkdi kişiyə, ancaq,
birinci növbədə – dar gündə dayaq.

Nurəddin, bəs bizim müasirimiz, -
tərif elədiyin Ancela Devis?!
Qadındı, onun da yəqin əri var,
onun qadın kimi fikirləri var.
Mənə bu gözlə bax... budur halalıq,
nə ondan əskiyəm, nə ondan artıq...

Tutuldu, Nurəddin daha dinmədi,
nə deyim, bəlkə də dinə bilmədi.
Fikirli gözləri gəlinə baxdı,
çoxdan qucmadığı belinə baxdı.
Baxdı o sarışın, ipək saçlara,
zil qara gözlərə, nazik qaşlara.
Baxdı yatağına... yer onsuz idi.
Otaq soyumuşdu, döşək buz idi.
Seyr etdi gəlinin bəstə boyunu,
deyəsən, gəlin də hiss etdi bunu.
Sonra Nurəddinə baxdı qıyğacı,
qəlbin təbəssümü üzündə gəzdi.
Süfrəni düzəltdi zərif əliylə,
Şirindil danışdı şirin diliylə:
- Nurəddin, di çay iç, çörək ye görək.
Görürsən nə yaxşı dəmlənibdi, bax.
Nurəddin o çaya baxmadı ancaq,
qara gözlərində göz gəzdirərək,
Şirindilə baxdı, Şirinim, dedi,
(arada bir qismət çörək də yedi)
- Şirin, ürəyimə yatdı bu çörək,
yatdı bilirsənmi, nə üçün, deyim, -
çünki sən gətirdin onu gülərək,
sənin əlin dəydi ona, əzizim.
Özüm də süzərdim, nə var ki, buna.
Ancaq qınamasın qoy məni heç kim.

Şirindi sən süzən bu çayım inan,
şirindi, sən verən çörəyim mənim.
Bununçün deyirəm: axı, mən ərəm
yozma başqa cürə bunu heç vədə.
Mənə qulluğundan şövqə gəlirəm,
Gözə göründükcə mən ailədə.
Şirinim, bu mənim xasiyyətimdi,
Məncə, ailəmə sədaqətimdi!
Bir məktub gətirdi  paçtolyon uşaq.
Gəlin Nurəddinə verdi məktubu.
O da hörmət ilə açıb oxudu:
"Hörmətli Şirindil, bəlkə də tamam
Sizin yadınızdan çoxdan çıxmışam,
Ancaq bu dünyada neçə ki varam
Sizi bir an belə mən unutmaram.
Neçə daş tapdınız sağ böyrəyimdən,
Məni siz oldunuz, siz, xilas edən.
İndi nə ağrım var, nə narahatam,
Yenə öz işimdə... belə, babatam.
Çəkdi adınızı radio o gün,
söz tapa bilmədim təşəkkür üçün.
Şəkliniz önünə gəldi gözümün.
Maşında oturub qulaq asmışam,
sizə məktubu da onda yazmışam.
Əgər vaxt tapsanız, yığışın gəlin
bizim kəndimizdə bir az dincəlin.
Sizə mən doyunca qulluq eləyim,
Gəlin.
Səhhətabad.
Şofer Mütəllim."
- Çox şirin yazıbdı, bu cavan oğlan.
Deyir ki, ay həkim, yığışın gəlin
bizim kəndimizdə bir az dincəlin.

Sürücü, özü Səhhətabaddan.
- Hə, hə yadımdadı... çox yatdı yazıq,
ancaq yaxşı getdi, tamam sağaltdıq.
- Bilirəm, böyükdü xalqa xidmətin,
lakin mən ər kimi unudulmuşam.
Şirindil qızardı.
- Yaxşı, Nurəddin,
İşə gecikirsən.
- Səkkizdi?
- Tamam.
Bəli, tamam olur.
- Evdə ol, Şirin,
gedək görüşünə "Yeddi gözəl"in.
Elşad da, Lalə də bizə gələcək.

Düşür pillələrlə o, əvvəlkitək,
Yenə işə gedir dinməz-söyləməz,
məktub sağ əlində düşünür gəlin.
Ay, "Yedi gözəl"ə bilet alan kəs,
evdə qədrini bil sən bir gözəlin.
Məktub sağ əlində düşünür gəlin.

*1962*

*...Sənin kəlamlarından*
*dərs aldıq, oxuduq biz.*
*Məktəbdən qovulsan da,*
*sən oldun məktəbimiz...*

I

Sabir incidi getdi,
getdi papaq əlində.
Getdi dərd sinəsində,
getdi vətən dilində.
Getdi, onun dalınca
kinli bir qaş çatıldı
və bir dodaq büzüldü.
Güldü sonra o dodaq,
fəqət qəzəblə güldü,
"Hm, müəllim, siyasət..."
bu oldu müfəttişin
son hökmü, son qərarı.
Balaxanı məktəbi,
azəri balaları...

Sabir incidi getdi, –
bəxtindən inciyənlər
onun dalınca düşdü.
Getdi papaq əlində, –
papaqlılar Sabirin
ardınca yüyürüşdü.
Getdi dərd sinəsində, –
dərdlilər yola çıxıb
Sabir deyə bağırdı.
Getdi vətən dilində, –
vətənini sevənlər,
şairini çağırdı,
Sabirini çağırdı.

O haraya gedirdi,
　　　　haraya tələsirdi?
O haraya gedirdi,
　　　　haraya tələsirdi.

Arıq bədən, bəstə boy
　　　　yanırdı od içində,
Gedirdi su üçün də,
　　　　gedirdi od üçün də.
Gedirdi, fikirləri
　　　　şairi təkləmişdi.
Bir millətin dərdini,
qəmini o, bir arıq
　　　　bədənə yükləmişdi.

Bir yolu keçmək üçün
　　　　yüz yerdən yol seçirdi.
Keçilməyən yolları
　　　　xəyalında keçirdi.
Kölgəsi sürünürdü
　　　　sağ yanında Sabirin.
Min yara qövr edirdi
　　　　sağ canında Sabirin.
Sabirim gah hıçqırıq,
　　　　gah gülüş eşidirdi.
Gah alqış eşidirdi,
　　　　gah söyüş eşidirdi.

Çuğul xəbər apardı,
　　　　çuğul tez qurdu işi.
Qulağı doldurulmuş
　　　　məktəblər müfəttişi,
"boynu qıraxmallılar"
　　　　tanıdılar şairi.

Təklədilər şairi,
yanıdılar şairi.
O, hər yanda seçildi,
o hər yanda göründü.
O özü görünməyən
zamanda da göründü.

Ona qadağan oldu
sinifdə şer oxumaq.
Ona qadağan oldu
oda yanıb-yaxılmaq.
Ona qadağan oldu
xalq sözü, millət sözü.
Ona qadağan oldu
millətə hörmət özü...

Ancaq izin verdilər
təriflәsin dövləti.
Unutsun birdəfəlik
"tarac olan milləti".
Görməsin göz önündə
nazir rüşvət alanda.
Dinməsin, vətən dili
vətəndən qovulanda.
Eşitməsin səsini
kəndlilər döyüləndə.
Xalqının ünvanına
yanında söyüləndə.
Məktəblər müfəttişi
məktəbdə özü qaldı.
Sabirin özü getdi,
Sabirin sözü qaldı.

II

Tələbələr yığışdı,
tələbələr gözlədi.
Dedilər səhər gələr,
hamı səhər gözlədi.
Mahmud, Bayram* gözlədi.
Dedilər axşam gələr,
hamı axşam gözlədi.
Şerini dinləyənlər
şerindən əzbər dedi.
Dillər "gəlmədi" dedi,
ürəklər "gələr" dedi.
Gözlər yola dikildi,
gələnlər yüz-yüz oldu.
Gedənlər yüz-yüz oldu.
Ancaq Sabirsiz oldu.

Sabir kimi yeriyən
yollarda yüz-yüz oldu.
Yollar doldu adamla,
ancaq Sabirsiz oldu.
Gözlədilər bir az da,
gah eşiyə çıxdılar,
gah durdular otaqda.
Sabir yatır əsəbi,
Sabir yatır yataqda.
Dəftəri qabağında,
qələmi qabağında.
Söhbət ürəyindədir,
pıçıltı dodağında.

---

* Sabirin Balaxanıda dərs dediyi tələbələri (*Müəl.*)

O da burda darıxır
anıb tələbələri.
Saatı, kar Vəlini,
bir də yetim Əjdəri.
Xatirini istəyir
o, uzun Səftərin* də
Neçə təzə şeri var
onların dəftərində.

Sevir şeri, vətəni
şersiz və vətənsiz
yaşayan o fəhlələr.
Oxumağa, yazmağa
başlayan o fəhlələr.
Əlləri qabar-qabar,
qabar qalın padoşa,
qabar gönə bənzəyir.
"Bir arığı, xəstəsi
üzdən mənə bənzəyir.
Elə bil qorxudublar,
elə bil döyülübdü.
Anası söyülübdü,
uşağı söyülübdü.
Biri də var, dilində
gəzər vətən, el sözü.
Onun söhbətini də
bəzər vətən, el sözü.
Əgər inqilab olsa,
o ilk qəhrəman olar.
Vətəni azad olsa,
onu qoruyan olar.

---

* Sabirin Balaxanıda dərs dediyi tələbələri (*Müəl.*)

Ah, vətən balaları,
ah, vətən övladları!
İnqilab edəydiniz
bu yaşamaqdan barı..."

Birdən fikri dağıldı,
birdən çatıldı qaşı.
O, götürmək istədi
qələm də ağırlaşdı,
dəftər də ağırlaşdı,
kitab da ağırlaşdı.
Məktəblər müfəttişi
yeridi kölgə kimi,
gəlib durdu qapıda.
O dartdı qələmi də,
o dartdı dəftəri də,
o dartdı kitabı da.
O qoymadı, qoymadı
qələmi götürməyə,
dəftəri götürməyə,
kitabı götürməyə.
"Sənin fikirlərini
dəftərə, ya kitaba
köçürmək olmaz" – deyə.
İndi də ki, düşünmək
qadağan olur demək...

Gözlər baxdı gözlərə:
birində qəzəb və kin,
qəhrəmanlıq və təmkin!
Məğrurluq, bir də təklik.

Birində xəbərçilik,
alçaqlıq, hiyləgərlik!
Birində tufan qopub,
odlu şimşəklər çaxır.
Birində lilli sular
lal axır, lap lal axır.
Birində kölgələr var,
o birində işıqlar!
Birində ürək sözü,
birində böhtan özü!
Biri insan gözüdür,
o biri bayquş gözü.

Sabir yumdu gözünü,
qaralandı o kölgə.
Sabir açdı gözünü,
aralandı o kölgə.
Gözlər dikildi yola,
gələnlər yüz-yüz oldu.
Gedənlər yüz-yüz oldu.
Ancaq Sabirsiz oldu.

III

Qəlbini sıxdı həsrət,
sinifə gəlmədi o.
Fəhlə tələbələrlə
görüşə bilmədi o.
Ancaq dərsdən qalmadı,
görüşlərdən qalmadı.
Həyəcanı, qəzəbi
çoxaldı, azalmadı.

Bu dəfə başdan-başa
Vətən – sinif otağı,
ellər – tələbə oldu.
Dünənki məğlubiyyət
bu gün qələbə oldu.
Dünən onu sinifdə
tələbələr gözlədi.
Bu gün vətən gözlədi,
bu gün ellər gözlədi.
Sevdilər söhbətini,
tanıdılar səsini.
Cütçü baba iş üstə
oxuyurdu Sabirin
hər təzə nəğməsini.
Çörək yığdı dilənçi,
heç xəbəri olmadı
ondan bircə kəsin də;
o, Sabirin şerini
gəzdirdi heybəsində.
Gah qapılar gəzdi o,
gah yavan çörək yedi.
Gah "Ağlar güləyən"i
oxudu, əhsən! – dedi.

Çatdı müfəttişə də
o şerin bir neçəsi.
Şillətək dəydi ona
o şerin hər hecası.
O haraya getdisə,
şeir onu izlədi.
O, Sabiri pislədi,
şeir onu pislədi.

Yatanda yuxusuna
girdi həmin şeirlər.
O səksəndi, oyandı,
elə bildi döyürlər.
Şeirlər közə döndü,
yandırdı müfəttişi.
Şeirlər buza döndü,
dondurdu müfəttişi.
Gah tərlədi müfəttiş!
gah üşüdü müfəttiş.
İşə bax, gör kiminlə
kim döyüşdü... müfəttiş!
Gur selin önündəki
saman çöpünə bax bir.
Duman böyük bir dağı
gizləməkmi istəyir?!
Günəşin işığına
bayquş baxa bilərmi?
Ya qranit qayanı
külək yıxa bilərmi?

Əldən-ələ keçərək,
dildən-dilə keçərək,
yüz yerə getdi şeir.
Sabirin pisləndiyi,
ya da tərifləndiyi
evlərə getdi şeir.
Şeir əldən çıxanda
küləklər aldı onu.
Pəncərədən tulladı,
bacadan saldı onu.
Bunu özü də bildi,
bunu yüzü də bildi.

Sabirim yenə yazdı,
şairim yenə yazdı.
Hirsləndi acığından,
danışdı yana-yana.
Dərdinin gizlisindən,
dərdinin açığından,
dedi: ağırdı yaram,
"Harda müsəlman görürəm
qorxuram".
Mənim məğrur millətim,
mənim bədbəxt millətim,
mənim əziz millətim,
görüb yaralarını
həkim olmaq istədim, –
Özüm yatağa düşdüm,
dava-dərman olmadı.
Dedim müəllim olum,
elm öyrədim millətə,
dərs oxuyan olmadı.
Şeir yazdım, ağladım,
güldü çoxu dərdimə,
könlümə dəyən oldu.
Bir imzam da odur ki,
"Ağlar güləyən" oldu.

Əcnəbilər balonda
çıxıb göyü dolaşdı.
Bizimkilər uzaqdan
maşın görəndə qaçdı.
Keçdi avropalılar
yerində dayanmadı.
Bizimkilər topların
səsinə oyanmadı.

Özgələr torpağında
düşməni, yadı döydü.
Bizimkilər, əksinə, –
evdə arvadı döydü.
Özgələrin alimi,
şairi, dühası çox.
Ancaq bizimkilərin
hacısı, mollası çox.
Elə ki, qalxdı biri,
artdı qulluq və şöhrət.
Vəzifə stolundan
axmaq göründü millət.
Özgələr bizə baxır
dünyanın yazığıtək.
Özümüz-özümüzə
baxırıq bir yağıtək.
Qırdıq, tökdük milləti
özümüz bir tərəfdən,
özgələr bir tərəfdən.
Ah, ey zavallı millət,
Ah, ey zavallı vətən!

"Of, şişdi çiyərlərim!
Ağlar bizə torpaqlar,
ağlar dərələr, daşlar.
Qeyrət, a vətəndaşlar!
Hümmət, a vətəndaşlar!"

Ürək dilə gəlmişdi,
demə, dil danışırdı.
Yüz hakim qabağında
sanki millət adından
adı şair tanınan
bir vəkil danışırdı.

IV

Mənim böyük şairim!
Mənim böyük Sabirim!
Mən qaranlıq dünyadan
qulaq asdım səsinə.
Bir yurdun fəryadına,
bir elin naləsinə.
Sən dəyişdin adını.
Sən gizlədin adını.
Sən gizlədə bilmədin
odlu istedadını.
Nəfəsindən, səsindən
ellər səni tanıdı.
Şeriyin ləhcəsindən
dillər səni tanıdı.
Sən dedin ki, yaşasın
"şəhriyari-hürriyət",
dəyişdi köhnə dünya,
dəyişdi köhnə adət.
Şəklin pəncərə üstən
sinfimizdən asıldı.
Adın məktəbimizin
qabağında yazıldı.
Şagird səni yazdığı
imlasında oxudu.
Anam "Hophopnaməni"
laylasında oxudu.

Min doqquz yüz altıda,
Arazın o tayında
Səttarxanın bayrağı
dalğalandı, Sabirim!

Arazın bu tayında
sənin şeir bayrağın
qalxdı göyə, şairim.
O, orda saraylara
hücum etdi günbəgün.
Sən burda beynə, qəlbə,
zehnə hücum elədin.
Burda şair harayı,
orda Sərdar öyüdü.
Bir elin yuvasında
iki qartal böyüdü.
Sənin kəlamlarından
dərs aldıq, oxuduq biz.
Məktəbdən qovulsan da,
sən oldun məktəbimiz.

Nekrasovu oxudum,
mən səni saldım yada.
"Kobzarın" nəğməsini
eşitdim Ukraynada, –
mən səni saldım yada.
Pötefinin dilində
eşitdim hər şərqini,
Xose Marti danışdı,
yenə eşitdim səni.
Afrika şairləri
çıxış eləyən zaman,
Yenə gördüm: Daşkənddə
kürsüdən danışırsan.
Oturub Tursunzadə
sənə qulaq asır o.
Şərqin fəlakətini,
"Asiyanın səsi"ni
sən dedikcə yazır o.

Şairim, Bakımızda,
bizim şeir günündə, –
Mən də şeir oxudum
heykəliyin önündə.
Düşünürdün Sabirim,
düşünürdün, şairim,
"Nə çox şairimiz var,
nə çox şeir yazıblar".
Eşidirdim səsini
neçə səsin içində.
Sözün də seçilirdi
neçə sözün içində.
Qulağıma deyirdi
sinəmdəki duyğular;
Sabir olmaq çətindir,
şair olmağa nə var...

*1962*

# Səfirə Məktub

*"Ja şəhid …ərək, ja intiqam almaq …ərək"*
Füzuli

*"...Keçən …ünlərin ədəbi mə‡lisləri üçün çox darıxıram..."*
Hafiz PAŞAJEV,
*21 fevral 1995. Vaşinqton.*
(Məktubdan)

Mən qədim bir məmləkətin şairijəm,
kirpijilə od …‰türən bir millətin şairijəm.
Təbriz orda, Şuşa burda, -
"D‰z ba‹rı daş olan k‰nlüm" - jaşa burda?!
Mən bir Vətən, iki torpaq şairijəm.
Xalq adından danışıram, mən axı xalq şairijəm.
Bir də millət vəkilijəm, mən bir millət sahibijəm.
Bir də bir el a‹saqqalı, bir də bu dərd sahibijəm.

Amerika qitəsində Azərbaj‡an səfarəti! –
Biz tarixə qanla jazdıq bu tarixi həqiqəti.
Salam, jeni əsrimizin sabahına:
Azərbaj‡an torpa‹ından Azərbaj‡an bajra‹ına!
O rəmzidir nəsil-nəsil şəhid olan bir millətin,
Xijabani, Pişəvəri, Məmməd Əmin.
Bu əbədi ünvanlara, bu adlara salam dejək.
Jılmazlara, †avidlərə, †avadlara salam dejək.
Aradılar, axtardılar bu jolları,
Azərbaj‡an o‹ulları.

Var başqa bir Azərbaj‡an – Azərbaj‡an içindədir,
O ‡an bu ‡an içindədir,
Hər iki ‡an bir həjə‡an içindədir.

“Ermənistan” dedijimiz bir dijardan qovulanlar,
imtijazdan qovulanlar, ixtijardan qovulanlar.
Torpaq dərdi, Vətən dərdi.
Eh, dərdimiz nə qədərdi!
Müstəntiqi seçmək olmur məhkəmədə müttəhimdən,
vətənsizi vətəndaşdan...
                    Vətən dejir, hamı Vətən.
„ünahkarıq sən də, mən də,
                    hələ o da, o biri də,
…ünahkardı Ştatların Bakıdakı səfiri də.

Biz İstiqlal savaşına qalxan zaman,
humanitar jardım üçün qalxmamışdıq, sənə qurban.
Bir Azadlıq Mejdanına sı‹ışmışdı bütün şəhər,
iki dəniz çalxanırdı: biri Bakı, biri Xəzər.
Müstəqillik, suverenlik istəjirdik,
Şah o‹lu Şah İsmajıltək biz ərənlik istəjirdik.
Mənəm dejən o‹ullardan onda “mənlik” istəjirdik.
Bir də qisas istəjirdik əsirlərin əvəzinə,
pis nəfəslər toxunmuşdu qızların …ül nəfəsinə.
Biz də xalqlar sırasında ja jetişək bir xalq olaq,
Ja əzilək nəsil-nəsil, ajaq altda tapdaq olaq.

Daxmalardan ejvanlara k‰çmüşdülər hələ dünən,
ejvanlardan çadırlara k‰çdü sonra el jenidən.
Bu – namusa, bu qejrətə, bu şərəfə sı‹a bilməz,
Bir el elə sı‹a bilər, bir ev evə sı‹a bilməz.
Tojxanalar jasa d‰ndü,
Kəlbə‡ərin “İstisu”ju buza d‰ndü.
Şamil Əs…ər, sənin tarix muzejini daşıdılar,
Qubadlının …ünejini, quzejini daşıdılar.
†əbrajılın kəhrizinə zəhər qatdı xain əli,
Zən…ilanda jon‡a jandı, ot saraldı el k‰çəli.

Füzulinin üzümünü jı‹dırdılar bizim qadın əsirlərə,
Qisas qaldı qijamətə, əsrlərə!
Qızıl palıd bir‡ə nüsxə, Laçındajdı... o …ədələr
baltalajıb, mişarlajıb kəpəjini ələdilər.
Hələ A‹dam... ‰zü bojda bir ‰lkəjdi,
təhlükənin qaba‹ında zəhmli bir təhlükəjdi.
Bajquş qondu budaqlara, ba‹lar indi viranədir,
A‹zın – "Sona bülbüllər"in juvasıjdı,
uçdu, Qədir!

Xo‡alıda həjət jandı, ba‡a jandı,
uşaq jandı, qo‡a jandı,
sa‡ üstündə ç‰rək jandı, sa‡ qarışıq o‡aq jandı.
Jerdə oda düşən quşlar, uçan kimi …‰jə, jandı,
bir a‹birçək jandım dejə-dejə jandı.
Xatın burda jalan oldu,
inanmajın desələr ki, Xo‡alıdan qalan oldu.
Ermənininin neçə illik məramıjdı,
Xo‡alının sojqırımı Şamaxının davamıjdı.
Ermənistan çəkdi bundan jaxasını,
Moskvaja s‰jkəmişdi arxasını.

Rus tankları qovur hələ, qırır hələ çeçenləri,
bir məsləkə sə‡də qılıb, bir haqqa and içənləri.
Dəmir jolu, quru jolu, hava jolu, dəniz jolu,
kəsilibdi sa‹ı-solu.
„izlədib ‰z ajıbını,
"B‰jük qardaş" bizdən alır çeçenlərin hajıfını.
Çadır sojuq, hava bulud, millət a‡dı, bazar baha.
Dərman baha, təbib baha, daş bahadı, məzar baha.
„‰rkəmini dəjişibdi indi şəhər, –
k‰hnə …ejən zijalıdı, təzə …ejən alverçilər.

Uşaqları şirnikdirir bəzi qoçaq:
maşınların şüşəsini silirlər ki, pul jı‹a‡aq.
Zamanın bu ləkəsini sellər-sular juja bilməz,
bunu dollar havasına ojnajanlar duja bilməz.

* * *

Mir †əlalın bir xatirə …e‡əsijdi,
Heç bilmirəm onda ajın neçəsijdi...
Neçə …izli …‰z jaşıjdı o …e‡əjə dəvət olan,
İSTARrəjini boşaldırdı "…‰zdən xəlvət" …‰zü dolan.
Vaşinqton səfirinin atasıjdı! –
bu səs, Hafiz, Azərbaj‡an torpa‹ının sədasıjdı.

Bosnijada qonaq oldum xejli qabaq,
burdan dəvət olunmuşdum mən də o vaxt.
Onda dünja şairləri səs-səsəjdi, əl-ələjdi.
Bu da ‰mrün jollarında ‰mrə zinət, mərhələjdi.
Sarajevo bir müsəlman şəhərijdi, m‰‡üzəjdi.
Ekranlarda …‰rdüm jenə, tanklar ilə üz-üzəjdi.

De, hardadı jerin-jurdun, Mahmud Dərviş?!
Harda …edib juva qurdun, Mahmud Dərviş?!
Fələstinin ‡arçısıjdın, mən dujurdum o tufanı,
Ərəbistan səhrasının qum qarışıq burul‹anı.
Tufan olur, vulkan olur kürsülərdə şeri, Mahmud! –
şairlərə veriləndə nazirlərin jeri, Mahmud.
Bu dünjanın Qaraba‹ı, Bosnijası, Fələstini,
adı "qonşu" d‰vlətlərin başa düşüb bu qəsdini.

Danış orda, var səsinlə, unutma bu ərzi-halı,
Ruhu səndə qərar tutub ədib atan Mir †əlalın.

Danış, Hafiz, hələ burda anan Püstə,
hər …ün sənə qulaq asır ürəjində, namaz üstə.
Vaşinqton hara – bura... jerlər-…‰jlər,
Kolumbun od …əmisindən bəlkə də lap “Şatl”a qədər.
Bizə düşmən etmişdilər “dostlarımız” Ştatları,
Hindulardan …əlmədilər, qohum çıxır ə‡dadları...

Mən bilirəm, sən qalxdı‹ın o kürsülər bir sən…ərdi,
qoj …‰rsünlər orda səfir, burda millət səfərbərdi.
Ərazimiz toxunulmaz, başdaşları toxunulmaz,
…‰zü jolda qalanların …‰z jaşları toxunulmaz.
Şəhidlərin o‹ulları sabah qalxıb soruşa‡aq,-
hanı itən o qəbirlər, hanı Vətən, hanı torpaq?!
Himnimizin bir‡ə sətri janılarsa, ba‹ışlanmaz,
əs…ər andı sən…ərlərdə danılarsa, ba‹ışlanmaz.
Jüz il sonra do‹ma atan, do‹ma anan ba‹ışlamaz,
iş‹al olan bir torpaqda ba‹ışlanan ba‹ışlanmaz.
D‰jüldük‡ə bərkijibdi Azərbaj‡an dəmir kimi,
səfirlərin sırasında seçil, Hafiz, səfir kimi.
Adın …əlsin müjdə verən bir səs kimi, soraq kimi,
sən bajra‹ın keşijində, mən də şerin –
bajraq kimi.

*Bakı, 5 mart, 1995*

# Həsrət

*...Üçkünc yazdı məktubu,*
*dördkünc yazdı məktubu.*
*Davanın qanunu bu,*
*vəfası bu, əhdi bu...*

Dağ kəndi,
qırx beşin doqquz may günü,
şad xəbər yayıldı elə-obaya.
Qoca Bəhram kişi gəzib sürünü,
bir əmlik bağladı o gün qapıya.

Dedi, ay camaat, deyin mübarək,
niyyət eləmişdim: gələndə gərək,
ayağı altında kəsəm, balamın,
qurbanlıq payıdı Həsən balamın.
Gözlədim, gözümün saraldı kökü,
dava çox uzandı ölüm, qan-qada.
Tək mən gözləmədim, axı, bir də ki,
hamının qalmışdı gözü o yolda.

Gəlsin bir doyunca baxım üzünə,
şükür, çoxu gedib, lap azı qalıb.
Düz beş il bu qulaq "ata" sözünə,
dil "oğul" sözünə tamarzı qalıb.

* * *

Gedib yer bellədi,
baş çəkdi suya,
quşlara dən səpdi, sevindi bu dəm.
Çəkilib kənardan baxdı toğluya,
fikrindən nə keçdi... deyə bilmərəm.

Qələbə gününü həsrət içində
hər gün gözləmişdi: yay, yaz, payız, qış.
Dünyaya boylandı həyət içində,
ilk dəfə gördü ki, boyu qısaymış.

Ona elə gəldi, qalxsaydı bir az,
yüz qüvvət duyardı o, sinəsində.
Çinar bərabəri baxsaydı bir az... –
Həsəni görərdi yer kürəsində.

Beş il gözləmişdi, çəkdi bir il də,
Həsəndən nə xəbər, nə ətər oldu.
Bir az ağırlaşdı əlində bel də,
yatıb-durmağı da birtəhər oldu.

Yüyürdü bir maşın gələndə kəndə,
soruşdu, kimiydi? – oğul-uşaqdan.
Əliçamadanlı əsgər görəndə
Həsənə oxşatdı bir az uzaqdan.

Hər kim qayıtdısa, gedib görüşdü,
Həsəni soruşdu axır sözündə.
Arada bir başqa fikirə düşdü,
yox...
amma sınmadı elin gözündə.

Əli uyuşmadı çəmənə, suya,
aydınca oxundu gözündəki qəm.
Arabir xəlvəti baxdı toğluya,
fikrindən nə keçdi, deyə bilmərəm.

Ürək-dirək verdi dostlar, qohumlar.
gəldilər yanına hər həftə, hər gün.
Hamı ürək verdi,
                    oğul vermədi,
yenə sağ olsunlar təsəlli üçün.

* * *

Dözdüsə Bəhram kişi,
bərk sıxıldı gecələr.
Danışdı öz-özünə,
bəzən səhərə qədər.

Yüz səmtə yozdu ürək,
yüz səmtə çəkdi fikir.
"Niyə gəlib çıxmasın,
niyə belə gecikir?!

Bəlkə filan döyüşdə?!
ya filan düşərgədə!
Bəlkə bombardmanda,
Taqanroqda... bəlkə də?.."

Soyuq küləklər oldu
ruhuna belə əsən.
"Bəlkələr"ə büründü
yorğan yerinə bəzən.

Həsən adı çəkilsə,
oraya tez gəlirdi.
Üzdə qəhərlənirdi,
xəlvətdə kövrəlirdi.

Hər ürəyin dünyada
sevinci var, yası var.
Dünya – neçə dünyadı? –
ayrıca dünyası var.

Bəzən ürəyə dəyir,
sadəcə xətrə dəyən.
Gülməyi bacararmı,
ağlamağı bilməyən?!

Qoy deyim, yeri gəlib
bir qəribə cəhət var:
hansı gözdə yaş gördüm,
o qəlbdə mərhəmət var.

Qorx o kəsdən ki, dostum,
nə qəmlənir, nə gülür.
Ürəyə yad olan şey,
üzdə yamaq görünür.

* * *

Kənddə bir qız bəyənmişdi
Həsən üçün Bəhram kişi.
Təriflərdi söz düşəndə.
Amma bir söz qandırmazdı
işdə-gücdə görüşəndə.
Ya susardı,
salam verib yan keçərdi
o, ya da ki.
Böyük-kiçik,
        ata-bala hörmətiydi
                        aradakı.
Hərdən gəlin-qayınata
hissiyatı,
        gözlərində dəyişərdi
                        bu həyatı.
Ömür sürmək istəyirdi
                        bu dünyada.

Günlər görmək istəyirdi
bu dünyada.
Bir az yaşı azalırdı,
bir az günlər qısalırdı,
Addımını dəyişirdi
qoca bir az.
İstəyirdi yeriməyə,
uça bir az...

Ayağının ölçüsünü,
barmağının ölçüsünü
öyrənmişdi sonra qızın,
lap xəlvəti.
Heç bilmədən yaşadırdı
qız qocanı, –
bu müqəddəs təbiəti.
Gedib hərdən
mağazaya göz qoyardı:
"Nə üzük var,
nə bir yaxşı ayaqqabı.
Allah qoysa,
gəlsin Həsən,
çürüdək bu haqq-hesabı.
Toy paltarı nə burda var,
nə rayonda.
Şəhərlərə-zada gedək
gərək onda.
Yox, almaram..."
Heç bilməyir nə istəyir,
bəyənmirdi qoca Bəhram.

* * *

O üçkünc məktubları
        üst-üstə yığdı bir gün.
Komissarın özünə
        gedib göstərmək üçün.

Getdi başqa şövq ilə,
        uça-uça elə bil.
Həsəni gətirməyə
        getdi qoca elə bil.
Qalxdı dan qaranlığı,
        göydə ulduz parladı.
Gəzdi qapı-bacanı,
        əmliyi tumarladı.
"Uğurun xeyir olsun,
        hardasan, Həsən balam".
Xeyir-dua dilədi
        özünə qoca Bəhram.

Kənd xəbər tutsaydı ki,
        rayona gedir qoca;
analar yola çıxıb
        su səpərdi dalınca.

Uşaqlar tökülərdi,
        yanınca gedərdilər.
Qohum, qonşu, dost, tanış
        dalınca gedərdilər.

Xəlvət çıxdı,
        xəbərsiz.
Nəydi onu aparan?!
Hamı ondan nigaran,
        o, Həsəndən nigaran.

Daşa dəydi ümidi,
artdı qəm, aşdı qübar.
"İtkin" xəbəri verdi
ona hərbi komissar.

Sinəsinə basdılar
qəfildən odu-közü.
Qayıdacaq, demişdi
bir vaxt komissar özü.

Demişdi: qoy vuruşsun
gedib qəhrəman kimi.
Həsəni məndən istə,
dava qurtaran kimi.

İndi niyə sözünə
xilaf çıxır komissar?
"Belə danışmamışdıq
bir vaxt axı... komissar..."

Tutuldu qoca Bəhram,
tutuldu komissar da.
Saat "iki zəngini"
vururdu yan divarda.

"Həsən də itərmi heç, –
açıqalın, gülərüz.
bəstəboy, enlikürək,
şirindil, xurmayıgöz...

Bəlkə əsir düşübdü,
xəlvət çıxıb aradan?...
Oğul demərəm ona,
bağrım çatlar o zaman.

Yox, Həsən elə deyil,
necə?
    Mənim tərbiyəm?!
Yox, oğul mənimdisə...
Həsən kimdi, mən kiməm?..."

Qoca bilmədi fəqət,
        Həsən atıldı oda.
Getdi Berlinə kimi,
        dağ kəndindən –
                piyada.

Üçkünc yazdı məktubu,
        dördkünc yazdı məktubu.
Davanın qanunu bu,
        vəfası bu, əhdi bu.

Şəkil gəlirdi hərdən,
        qoca baxıb çaşırdı.
Şinel, papaq, avtomat
        Həsənə yaraşırdı.

Gəldi sonuncu məktub
        keçən ilin yazında.
uzaq səhra poçtundan,
        qırx dördün ortasında.

Əvvəllər gümrah idi,
        kişi xeyli qocaldı.
Aylar döndü illərə,
        başqa bir əmlik aldı.

Gözlədi gecə-gündüz,
Həsən gələr... gəlmədi.
"İtkin" – düşdü dillərə,
başqa xəbər gəlmədi.

Bəzən Həsən dedilər,
bəzən "itkin" bir ada.
"İtkinin atasıdır"
dedilər qocaya da.

Unutmadı el-oba,
elə-obaya əhsən...
Gəldi hərbi komissar,
baş çəkdi özü şəxsən.

"Axtarırlar Həsəni..." –
qoca birtəhər oldu.
Komissarın bu sözü
dilində əzbər oldu.

İtirirdi arada
əvvəlki yerişini.
Bir ümid yaşadırdı
qoca Bəhram kişini.

## Müasirim haqqında poema. XXI əsrə Giriş

Bomboş idi cibləri,
eh, cibdə nə olacaq.

Həsənin şəkilini
gəzdirirdi o ancaq.

Elə bil öz yanında
gəzdirirdi oğlunu.
Qorxurdu, –
evdə qoysa
itirə bilər onu.

"Gərək özüm gedəydim,
düşəydim yola mən də.
Nə yaşı varıydı ki,
o, davaya gedəndə.

Varıydımı görəsən
yatanda durğuzanı,
acanda ye, deyəni?
Komissar göndərmədi,
nahaq saxladı məni.

Yazırdın – gələcəyəm,
gözlə, ata, davadan.
Mən gözlədim, ay Həsən,
sən gəlmədin, hardasan?!

Sən orda vuruşurdun,
burda da kolxoz işi.
Geridə qalmayıbdı
bir kəsdən Bəhram kişi.

Suya, çölə, tarlaya,

iş canımın cövhəri.
Amma məni bərk əyir
bir bu "itkin" xəbəri..."

* * *

Kənddə hamı görürdü ki,
qoca sınır.
Hər sözünün axırında
Həsən deyib hayıfsınır.

Şəkilini göstərir ki,
tük yox idi heç üzündə.
Uşağıydı – şinel geyib
böyük oldu bircə gündə.

Qız bir dəfə, elə-belə,
onu yolda tutdu dilə:
"Bəhram baba, nə var, nə yox?
Xəbər-ətər?"
– Dərdin alım, axtarırlar,
payızacan özü gələr...

Qoca elə sevinmişdi
o gün inan,
gedib üzük soruşmuşdu
yenə qonşu dükançıdan.
Darıxmışdı, təntimişdi,
qoca o gün,

Həsən üçün.

* * *

Səssiz keçdi fəsillər,
hər yeni il axşamı.
Toya dəvət etdilər
bir gün qoca Bəhramı.

Ağır oldu bu xəbər
"itkin" xəbəri qədər.
Gedib kimə nə desin,
kimdən küssün, bilmədi.
Necə getsin o toya,
necə dözsün, bilmədi.

Sən dünyanın işinə,
taleyin qəsdinə bax.
İsitmədi canını,
buza döndü od-ocaq.

Göndərdi o əmliyi,
boynuna lent bağladı.
Orda, toyda çal-çağır,
burda bir qəlb ağladı.

* * *

Yatırdı Bəhram kişi,
ağrıları canında.
Şəkil sol tərəfində,
dükançı sağ yanında.

Danışırdı arabir
Həsənin şəkiliylə.
Belə... səssiz-səmirsiz, –
sükütun öz diliylə.

Ata-bala duyurdu
bir-birini elə bil.
Üz-üzə baxışırdı
bir daş heykəl,
bir şəkil.

"Bir qalx, sağal ay baba,
gedək toya-nişana.
Çoxlu nişan üzüyü
gətirmişəm dükana."

Min bir daş-qaş adı çək,
ya qohum, ya dost adı.
Təkcə "Həsən" sözünün
qoca marağındadı.

Fərqi yoxdu, yanında
yüz dəfə söhbət olsun.
"Həsən" de, bircə dəfə,
qocaya hörmət olsun.

Pul qoymuşdu ayrıca
Həsən üçün – muştuluq.
Kim gəlsəydi üstünə,
verəsiydi o pulu.

Bir uşaq yüyürəndə,
ya biri çağıranda, –
"Həsəndən xəbər gəlib" –
düşünürdü o anda.

Poçtalyon olan evin
keçirdi ki, yanından, –
sonra xəbər-zad olar,
çıxar-elər yadından.

Möcüzə olasıydı,
olmurdu... gözləyirdi.
O, gələcək deyirdi,
gəlmirdi... gözləyirdi.

Hərbi komissarlığa
təzə gəlmişdi xəbər.
Hələ Bəhram kişiyə
xəbəri
demirdilər...

*1974*

# Nizami

*...Atabəy dövləti bir ailədə,*
*Zəlimxan kəndində tutubdu qərar.*
*Qardaşın - Arslandan,*
*bacın - Afaqdan,*
*sən də - Nizamidən bizə yadigar...*

*Hər uca rütbədən*
*Alimin rütbəsi daha ucadır.*
Nizami Gəncəvi

*...Azərbaycançılıq ideologiya,*
*Azərbaycanşünaslıq elmdir.*
Nizami Cəfərov

*Şair Nizamimiz yaşayır, oğlum,*
*yaşasın tənqidçi Nizamimiz də.*
Nəriman Həsənzadə

...Nizami,*
millət də bəzən tək qalır,
onu da tək görüb hərifləyirlər.
Unu ələyirlər, bir kəpək qalır,
unu yox,
kəpəyi tərifləyirlər.

Vətənə arxadı igid oğullar,
bir ata zəhmi var oğul səsində.
Mənim ilhamımı dandı çuğullar,
ögeylər, doğmalar zəmanəsində.

---

* Bu əsərin maraqlı yaranma tarixi var. Gənc dostum Nizami Cəfərovun 40 yaşı tamam olurdu. Məni dəvət etmişdi. Bir şeirlə getmək istədim. İlk gəncliyindən ürəyimdə ayrıca yeri, bənzərsiz gülüşləri olan bu insanın həyatı çox da nikbin keçməyib. Mərhum atası doğma torpaqlarından zorla deportasiya edilənlərdən olub...

Mən, 1949-cu ildə Ağstafanın Hasansu kənd (keçmiş Kirovka) orta məktəbində oxuyurdum. Bibim oğlu (biz tərəflərdə "mamoğlu" deyirik) Yolçiyev Məmmədəli Ermənistandan köçürülən ailələrdən birinə öz ailəsində yer verdi, ona ev ayırdı. Ümumiyyətlə, əsər bizim günlərdən bəhs edir (*müəllif*).

Yerdə təklədilər,
mən "göyə" çıxdım, –
məni "yıxanları" yıxa bilmədim.
Ucaldım, kürsüdən kürsüyə çıxdım,
heç sətir altından çıxa bilmədim...

* * *

İki cəngavərin düşdüm izinə,
mən düzünə getdim, yollar tərsinə.
Qələmli əl gördüm, yaraqlı sinə,
mən iki dastanı[1] bir vaxtda yazdım.

Tarix alqışladı şair oğlunu,
geydim zirehini, taxdım oxunu.
Sənin, Azərbaycan, döyüş ruhunu
nallara köçürüb torpaqda yazdım.

Xəncəri bülöyə, daşa çəkdilər,
sürməni gözə yox, qaşa çəkdilər.
Süfrələr başında başa çəkdilər,
yerim qabaqdaydı, qabaqda yazdım.

Qol çək Müstəqillik Aktına, şair,
zaman güzgü tutdu baxtına, şair.
Şax çıxdım şairlik taxtına, şair.
adımı üçrəngli bayraqda yazdım.

Gözümdən oxundu bəlkə ümidim,
səni seçdiyimi sənə demədim.
Əlimdən gələni əsirgəmədim,
sinəmdən gələni varaqda yazdım.

[1] "Nuru Paşa" və "Nizami" əsərləri nəzərdə tutulur (*red.*).

* * *

Mamoğlu yatmırdı baş ağrısından,
dilinə dəyməyən sözü "eh!" idi.
Millət sürülmüşdü yurd-yuvasından,
cavab istəyənlər cavabdeh idi.

Bir az da söyürdü o, haqtərəfi,
- haqqı tapdayırlar, axı, nə haqla?!
Bizim Ağstafa, Qazax tərəfi,
Gəncə tərəfi də
dolmuşdu xalqla.

Gördüm ki, millətin yoxdu arxası,
səsinə qəm çöküb, gözünə hiddət.
Yanında uşağı, bar-barxanası,
millət qapısında qalmışdı millət!

Hamı doğma idi, hamı yad idi,
dözmür dağ adamı aran yerinə.
Raykomda "İnsanlıq" təbliğatıydı,
insan qoyulmurdu insan yerinə.

Mamoğlu çox şeyi düz anlayırdı,
deyirdi nəydi bəs millətin suçu?!
Siyasi Büronu yamanlayırdı,
bizə dil verirdi guya "dilucu".

Ermənixasiyyət biri çaşırdı,
qarşıya çıxmışdıq çörəklə, suyla.
Erməni dilində xosunlaşırdı,
İrəvandan gələn bir qonşusuyla.

Neyləyim, dilimdə dondu sualım,
mənası başqaydı bu köçhaköçün.
Pis adam –
o saat tanınır, oğlum,
yaxşıya –
il gərək tanımaq üçün.

Sapand daşı kimi bir söz tulladı,
arada şumladı, əkdi Mamoğlu.
Bir araq dalınca uşaq yolladı,
nəyi var,
süfrəyə tökdü Mamoğlu.

Ailə içində "gəlmə" ailə,
kişiylə nərd vurdu qaş qaralınca.
Bir otaq ayırdı dil-ağız ilə,
o evdə qaldılar bir ev alınca.

Qaynadı-qarışdı evlər-eşiklər,
əkdilər-biçdilər, qaldılar orda.
Təzə yurd saldılar köhnə kişilər,
təzə
qəbristan da saldılar orda.

Nizami, əminlə bu söhbət oldu,
Zəlimxan kəndində çay süzdü anan.
Ev evə qovuşdu,
el qürbət oldu, -
köhnə el-obanı xatırlayana.

- Gərək uşaqları aparım özüm,
gəzib-dolaşsınlar Vedibasarı.
Dolu tüfəngiydi əmində dözüm,
sel kimi yuyurdu bu daş hasarı.

Apara bilmədi "aparım" deyən,
dərəniz düz oldu, düzünüz dərə.
Kirvəlik görmədi "kirvə" söyləyən,
kişilik
ar gəldi bu kişilərə.

Millətin üstünə bərk düşmüşdülər,
evə buraxmışdıq biz Əhriməni.
Təbrizdən, Vedidən tökülmüşdülər,
ordan fars qovmuşdu,
burdan erməni.

Bu biri "demokrat",
o biri "köçkün",
bizim bir millətin iki adıydı.
Vedili Vediyə dönəcək bir gün,
təbrizli Təbrizə qayıtmalıydı.

Gözümdə o Sahil, bu Sahil ağlar! -
məni soraqlayın Araz, Kür boyu.
Dostundan ayrılan -
yeddi il ağlar,
vətəndən ayrılan -
bir ömür boyu.

Xalq azad olmadı dərd-sərindən,
vətənsiz,
vətəndə xalqı danırdı.
Yerində olmayan, durub yerindən
xalqa - “xalq” deyəndə,
xalq utanırdı.

Demə, Moskvaymış işləri quran,
dinib-danışanın yanırdı içi.
Erməni - şovinist, fars - aravuran,
biz də Kirovkada[1] –
beynəlmiləlçi.

Tehran "dost" sözünü şübhəli deyir,
nə mənə dost olur, nə sənə qardaş.
Fars qalxıb minbərə,
ya Əli! - deyir,
minbərdən düşəndə,
Vazgenə - qardaş.

Farsın türkə görə baxtı üzdədi,
qurşaqdan yapışır Rüstəm-Zal kimi.
Hafizin, Sədinin adı üstədi,
keyfiyyət nişanlı
saxta mal kimi.

Başı əmmaməli,
ağzı dualı,
İslama layiqmi İslam yayanlar?
Hardadı İskəndər Makedonyalı
təzədən diz çöksün Dara hökmdar.

[1] Ağstafada kənd adı olub (*red.*).

* * *

Haram süfrələrdə yeyib doyanlar
aşağı-yuxarı boylanırdılar.
Kirovun büstünü kəndə qoyanlar,
Nərimanov deyəndə,
xoflanırdılar.

O il açılmışdı bir yalanımız,
amma vəziyyətdən çıxmalıydılar.
Tamam dolmamışdı yun planımız,
yunu camaatdan yığmalıydılar.

O illər beş ilə keçilməliydi,
"hey başa salırdı" başbilənimiz.
Siyasi Büroya seçilməliydi,
xalqı soymaq ilə seçilənimiz.

Biz də fəxr eləyib əl çalmalıydıq,
tərbiyə bu idi, əxlaq beləydi.
Mal-qoyun yerinə qoyulmalıydıq,
bizimki olsa da, bu xalq beləydi.

Adam göndərmişdi yun idarəsi,
döşəyin içini boşaltdı anam.
Bir kasıb qadının buydu "töhfəsi",
bu da partiyaya hörmət, ehtiram.

Qatdadı döşəyin boş üzlüyünü,
əlinə keçəni yığırmış anam.
Apardı gəlninin cehizliyini,
yun yox,
tük qırxırdı Düdəmə Bayram.

O axşam sıxıldı, üzü gülmədi,
dəmir məngənəymiş əli həyatın.
Mənim də üzümə baxa bilmədi,
guya günahkardı biçarə qadın.

Dan üzü, Poyluda erkən durardım,
bilməzdim, nə zaman ötdü bu həftə.
Gedib Hasansuda dərs oxuyardım,
qiyməti, anamdan alardım evdə.

Yaşadım, əllərim göyə uzalı,
bilmədim, taleyin oyunu nəydi?
Mənim doğulduğum
Poylu vağzalı,
Kürün qırağında bir qəsəbəydi.

Gah sola əyilir, gah sağa yollar,
canlı xəritədi göz qabağında.
Pompeylə vuruşdu qədim poylular,
min il bundan qabaq
Kür qırağında.

Gözüm yox heç kəsin ev-eşiyində,
gördüyüm o yerlər olubdu mənim.
“Vağzal” bələyində,
“Kür” beşiyində
təkərlər laylamı çalıbdı mənim.

Cırtdana qoşulub davaya getdim,
mələklər üzünü sürtdü üzümə.
Bənövşə ətrinə yuxuya getdim,
yovşanlar
ətrini örtdü üstümə.

Yapışdı əlimdən bir ulu qüvvət,
sənlə olmayanda, sənsizdi dünya.
Əl-ələ verməsən,
                    itər cəmiyyət,
kürə şəkillidi, qəlizdi dünya.

* * *

Əsrin ortasında sənin millətin
Qazax çöllərinə sürülməliydi,
pambıq cərgəsi tək seyrəlməliydi,
ya kal meyvə kimi tökülməliydi,
sapları çürüyüb sökülməliydi...

Buydu Moskvanın Qafqaz töhfəsi,
buydu Yerevanın iblis hiyləsi,
içi, içalatı, ödü, ciyəri.
Var ol,
        Azərbaycan,
                    Odlar ölkəsi.

Demirəm, tələsik get, qılınc götür,
paqonun ya məxmər, ya zərli olsun.
Əmin dediyinə sən iman gətir,
qələmin qılıncdan kəsərli olsun.

Atabəy dövləti bir ailədə,
Zəlimxan kəndində tutubdu qərar.
Qardaşın - Arslandan,
                    bacın - Afaqdan,
sən də - Nizamidən bizə yadigar.

* * *

Mamoğlu dağıtdı qəmi, kədəri,
dedi, zarafatım qoy yadda qalsın:
- Qulu qardaşımı sürübdülər ki, -
bizim  Zəlimxandan gəlib qız alsın.

- Niyə, qız Vedidə tapılmadımı?
- Burdan aparaydın gərək adamı,
özün istəsəydin "yox" deyərdilər,
işi ermənilər tez əyərdilər!

Gözəllə dolsa da bütün bir ölkə,
gözəllik taledi,
yazıdı bəlkə?
Savad da qənirsiz kənd gözəliydi,
O, Kür qırağının ən gözəliydi...

Bu da qəm içində zarafat idi,
hər nəslin taleyi bir həyat idi.
Gərək o həyatı sürəsən, oğlum,
gərək öz gözünlə görəsən, oğlum.
Həyatı məntiqlə yaşamaq olmur,
bir taya yığırsan,
bir qucaq olmur.

Mamoğlu arada üzr istədi,
köhnə biliyini gətirdi yada:
- Rafael deyib ki, çəkmək istədim,
bir gözəl tapmadım İtaliyada!

Bilmədim, heç hardan gəldi ağlına,
Haqqın səsinəmi o qulaq asdı?!

Bir sual versəydim mən Mamoğluna,
Bəlkə Rafaeli heç tanımazdı.

Yəqin bir söz qalıb onun yadında,
təzə söz oldumu, deyir Mamoğlu.
Gözəllik axtarır qızda, qadında, -
qələm götürəndən şair Mamoğlu.

Fikir aparmışdı Qulu kişini,
- Hardan misal çəkdi belə, qıvlasız?
Mamoğlu bilirmiş yəqin işini:
- Bizim Zəlimxandan tapıldı o qız!

Sonra da bir şeir dedi Mamoğlu,
ay "Hafiz" Mamoğlu,
                    "Sədi" Mamoğlu,
şair doğulmuşdun sən də anadan,
Vaqifim,
        Vurğunum sən oldun mənim.
Götürüb gətirdin yataqxanadan,
ev verdin,
            evində oxutdun məni.
Dayımın yeganə oğludur, - dedin,
mənə dayım qədər doğmadır,
                              - dedin.
Bizim nəslimizin ilk şairiydin,
nə gözəl oxudun, nə yaxşı dedin:
"Bizim kənddə biri var,
              onun adı Yengibar.
Bir arvaddı, bir özü,
              yenə də doymur gözü.
Gecə-gündüz qazanar,
              əl vurmur ki, azalar.

Dediklərim hər nə var, -
doğrudumu, Yengibar?"

Tənqid eləyirdi o, hər yazanda,
arvad da ərinin tənqidçisiydi.
Gözü bibimdəydi şeir yazanda,
sözü yox,
xoş üzü onun bəsiydi.
Bir də "Qoca Coşqun" -
təxəllüsüydü,
özgəsi deyildi, elə özüydü.

* * *

Zəlimxan kəndinə adı qoyulan,
bəlkə də çoxunun çıxıb yadından.
İyirminci ildə,
belində naqan,
qoruyub dağlarda xalq cəbhəsini.
Qaçaqlar vurubdu,
yıxılıb atdan,
kəndə gətiriblər cənazəsini.

ÇK[1]-nın adından yaylım atəşi!
Gəlib NKVD[2] səslə-soraqla.
Nə qadın qalıbdı, kənddə nə kişi,
tuthatut başlayıb,
yoxlahayoxla.

1 Sovetlərin ilk ilərində - Fövqəladə Komissarlıq, dövlətin güc dəstəyi (*red.*).

2 Daxili İşlər Xalq Komissarlığı, dövlətin güc dəstəyi (*red.*).

Anam deyirdi ki, o "dehlim"[1] olub,
anam demirdi ki, amma kim olub.

Qıza salam verib, salam almayıb,
bir yol saçlarını sığallamayıb.

Beləcə, qız baxtı gətirməyibdi,
Allah əyməyəni
                    tale əyibdi.
Anam Zəlimxana gedərdi hərdən,
fikrin çöllərində itərdi hərdən.

Qəbri soruşardı kəndin içində,
bir ömür yaşardı bir gün içində.

* * *

Məhəbbət bir simdə yüz hava çalır,
oxuyan ağlayır,
                    çalan ağlayır.
Allah, mən görürdüm, anam ağlayır,
anam ağlayanda, dünyam ağlayır.

İnsan yer üzündə bir möcüzəymiş,
bir deyən olmadı möcüzə nəymiş?!

Dedilər, bədəni –
                    ruhdu yaşadan,
ruhsuz nə həyat var, nə də bir insan.

---

[1] Deyikli (*red.*)

Ruh - hissdi, –
duyğudu,
mənəviyyatdı,
İnsana - ruh doğma, bədəni yaddı.

Ruhu ağlayırmış, bilmirdim, oğlum,
mənə kim deyəydi bunu, kim, oğlum?!

* * *

**B**izim içdiyimiz Kürün suyuydu,
yaşadıq oğullu, qızlı, nəvəli.
mən çimib çıxanda -
əsrin sonuydu,
sən Kürdə çiməndə -
əsrin əvvəli.

İsrafil Ağadan, Qaçaq Kərəmdən
analar çox dedi beşiyimizə.
Qoçaqlıq
fənnindən bizə dərs deyən
Kişilik elmini öyrətdi bizə.

Biz yerdən qaynadıq, axdıq, Nizami,
bu dünya çox şeyi sahmana saldı.
Bəlkə bir beşikdən qalxdıq, Nizami,
bəlkə, laylamızı
bir ana çaldı?!

Mənim Nabat anam – el anasıydı,
sənin Savad anan, – o da əvəzsiz.
Min evli Kəsəmən yurd-yuvasıydı, –
Poyluya biz köçdük,
Zəlimxana siz.

* * *

Kəsəmən qızları nə gözəldilər,
Nabatdan, Savaddan bir də gələydi.
Mən də ana deyib üstə qaçaydım,
belə qol-qanaddan bir də gələydi.

İlk eşqim, ilk sözüm, ilk şah əsərim,
Ana laylasıdı – ey ulu Rəbbim!
Nabatım, Savadım, "Rast"ım, "Şüştər"im,
ana muğamatdan bir də gələydi.

Gedənlər qayıdıb gələydi yenə,
oğul anasını görəydi yenə,
yaşayaydı yenə, öləydi yenə,
gedəydi həyatdan, bir də gələydi.

Biz ana yanında yaşadıq, oğlum,
yaşda yox, ürəkdə yaşıdıq, oğlum.
Biz ki, bu dastanı başladıq, oğlum,
nə ola, ovqatdan bir də gələydi.

Ürəyimə damıb bilmirəm nədən,
bir gün deyəcəklər: kaş Nizamidən,
kaş Nəriman kimi nəğmələr ötən
bu iki övladdan bir də gələydi.

* * *

Nizami deyir ki,
danmağa dəyməz, –
dünya gözəlləri kənddəydi, qərəz.
- Günün şüasını qırıq güzgüdən,
Qızların gözünə salardıq hərdən.
Kürün o tayına sapand atardıq,
Qaraca Çobanı xatırladardıq.

İti, ya pişiyi daşnan vurardıq,
kim vurdu? - deyəndə,
dinməz durardıq.
Tiyəni bülöyə, daşa çəkərdik,
amma relslər üstə itilədərdik.

Elə ki, qış gəldi, qurutdu xəngəl!
Arslan[1] "bicok"[2] idi, mən bir az əfəl.
Yeyib sinisini təmizləyərdi,
mən "bəsdi" deyəndə,
o, "ver" deyərdi.

Adımı divarda, daşda yazmışam,
çinarda
hamıdan başda yazmışam.
Mənə "çınarboylum" deyərdi anam,
boyu çatmazdı ki, öpsün üzümdən.
Özüm əyilərdim, xumarlanardım,
anam, ucadaydı hər dəfə məndən.

---

[1] Nizaminin qardaşı (*red.*)
[2] Burada "çevik" mənasında (*red.*)

- Mənim də çox əzdi daş ayağımı,
mən gizli tuturdum, sən car eylədin.
Mənim Poyludakı uşaqlığımı
elə bil sən orda təkrar eylədin.

Məndə – mən böyüdüm,
amma
səndə – sən,
uşaq – yerişindən, quş – dimdiyindən.
Gülü – güldən seçir bal arıları,
orda da gül eyni, gül ətri ayrı.

Eyni görünsə də qar dənələri,
hərəsi ayrıca bir rəsm əsəri!

Əkiz doğulsa da insan anadan,
biri güləyəndi, biri ağlayan.

Nə qədər doğulmuş, nə qədər ölmüş,
nə eyni göz yaşı, nə eyni gülüş!

* * *

Atan atayurddan qaçqın olanda,
cibində qalıbmış köhnə ərizə.
Nə Heydər Əliyev varıydı onda,
nə sən seçilmişdin Milli Məclisə.

Eşidən oldumu onun səsini,
kiçik bir yazı da əsərdi, oğlum?
Bu günü görsəydi,
ərizəsini
o sənin üstünə yazardı, oğlum.

Qılınc qurşamışdı bütün Haystan,
qan içən qansızın son məramıydı.
Ellər sürülürdü yurd-yuvasından,
"ellər atası"nın sərəncamıydı.

O dedi, danışdı sənin yerinə,
qayna, bu ruhlara qarış, Nizami.
Qalxanda deputat kürsülərinə,
onun adından da danış, Nizami.

Yanına gələndə dostun-tanışın,
qanın qaynayırsa, o qandan keçib.
Bir də gülüşünə - bu yaz yağışı,
əmin deyirdi ki, atandan keçib.

O boy, o buxun da səndədir elə,
divar kürəyi də hörülü durur.
Nəslin bir xalı da keçir nəsilə,
ömrün dərkolunmaz qanunu budur.

Vətən düzəldirdi Çar erməniyə,
birinci Pyotrun təlimatıydı.
Dövlətin verdiyi orden, hədiyyə,
hamısı çağrılmış bir bayatıydı.

Sənə and içibdi canından keçən,
eşidər o səni,
                    çağırsan, oğlum.
Beşikdən məzara Haqqa and içən,
məzar ataların oğlusan, oğlum.

* * *

Bizim "Ədəbiyyat və İncəsənət",[1]
bizim o yoldaşlıq, o səmimiyyət,
ordakı böyüyə-kiçiyə hörmət,
Nizami, indi də düşür yadıma,
Sən də unutmursan,
heç əskiy olma.

Şahanə buraxdıq o şah əsəri,
biz də bizə layiq söz demək üçün.
Qaytara biləydim kaş o illəri,
təzədən bir yerdə işləmək üçün.

Hayıf, uşaqları bir-bir itirdik,
jurnalist itirdik, şair itirdik.
Kamilə, Vidadi, Davud, ya Qafar,
necə tez getdilər, hayıf oldular.

Fikir uzaqlara apardı məni,
qışı da, yazı da xatırlayıram.
Sənin düzəltdiyin
qəliz cümləni,
artıq abzası da xatırlayıram.

---

[1] Yazıçılar İttifaqı və Mədəniyyət Nazirliyinin birgə ədəbi orqanının adı beləydi (*red.*).

Ürəyim yanırdı Əşrəf yetimə,
deyirdi, almadı raykom "işimi"[1].
Dövlət başçısının portretinə,
dövlət pul vermədi,
                o, ölən kimi.

Üç gün gecikmişdi,
                üççə gün cəmi,
eşidən olmadı mənim zəngimi.
Deməк,
        "Öldü kral,
                yaşasın kral!"-
Bu da Avropadan, Qərbdən bir misal.
Biz onda ayıldıq,
                yatdıq təzədən,
onda, borclu qaldı Əşrəfə vətən.

* * *

Qəzeti Büroya çıxartmışdılar,
yuxarı-aşağı vəzifəlilər.
Mənim də başımı ağartmışdılar –
onda əzazillər,
                indi əlillər!

Qəzeti pisləyib irişirdilər,
mənim ayağıma ilişirdilər.
Biri şumlayırdı,
                məni əkirdi,
Mərkəz[2] qəzetindən misal çəkirdi.

---

[1] Əsər mənasında (*red.*).
[2] Moskva qəzetlərinə işarədir (*red.*).

Biri tərifləyib şairliyimi,
Büroda vururdu qəzetçi kimi.
Biri də rəhbəri tərifləyirdi,
yadımda qalmayıb o nə deyirdi.

Birillik iş günüm...
əslində nəydi?
Üçillik bir tarix müzakirəydi.
Mənə dəxli olan, dəxli olmayan,
ortada üçillik səhv ilə nöqsan.
Büro – aşağının təlimatıydı,
bəlkə də
qurd-quzu əhvalatıydı?!
Nizami, fironluq eləyirdilər,
üstümə toz-torpaq ələyirdilər.
Büroda kimiydi məni "söyənlər"? -
"Getmərəm" deyəndə,
"Yox, get", - deyənlər.
Mənim nəzərimdə görkəmli xadim...
Bayırda yatmışdım, orda ayıldım.
Senatda Sezarı qətlə yetirən,
orda da varıydı, -
altdan ötürən.
Bir arxam varıydı: tək Ulu Öndər, –
O əsil ədalət tərəfdarıydı,
ondan aşağıda: bəy rəftarıydı.
Demişdi: - Get işlə, özünü göstər.
Qəzet ictimai bir təşkilatdı,
çətinliyin olsa... qorxma, həyatdı.
Sən indi katibsən,* qalsın qoy o da,
burda da gəl işlə, İttifaqda da.**

---

* Partiya təşkilat katibi (*red.*).

** Azərbaycan Yazıçılar İttifaqı (*red.*).

Bayraq andı kimi sözü qətiydi,
bəli, Birincinin zəmanətiydi.
O görüş, o söhbət yadıma düşdü,
ilahi bir ülfət yadıma düşdü.
Böyüklər yanında böyüyür insan,
kiçiklər yanında yoxa çıxırsan.

Qalxıb pencəyini düzəltdi bir az,
sonra qalstukda gəzdi əlləri.
Ən ağır anlarda təmkinli, həssas, -
mən belə görmüşdüm Ulu Öndəri.
"Qəzet yaxşı çıxır... oxuyuram mən...".
Şimşək çaxdığını gördüm qəfildən.
Çoxunun gözləri bərələ qaldı,
yerində hərəsi – bir kölə qaldı.

* * *

**B**ir az yer tərpəndi,
zəlzələ keçdi,
günümüz Ayazla[1]
"əl-ələ" keçdi,
bir bəbir atlandı,
bir dələ keçdi.
Mən belə atıldım, o elə keçdi,
mən elə bilirdim bu bəla keçdi.
Hayıf Cavidlərə və Cavadlara, –
zəkalar qul oldu bisavadlara,
taxtdan kölə düşdü
və kölə keçdi.

---

[1] Şair Ayaz Vəfalı. "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor müavini işləyirdi (*red.*).

Dost-tanış yanında sıxılma, şair,
odlara atdılar,
mən ki, yanmadım.
Dövran sənətkarla yola getməyir,
Füzuli deyəndə, mən inanmadım.

* * *

...**B**ir gün Sədrin otağında[1]
yığışmışdılar,
nə danım ki, çətin idi
qəzetdə işim.
Onda sənin tərəfini
saxladı Anar[2],
yalnız onda eşidildi
mənim xahişim.

Soruşdular dünyagörmüş
bir ixtiyardan,
o dedi ki,
yaxşılıqla
ekizdi hünər.
Sözə söykənc olmayanda,
yıxılır insan,
onda mən də yıxılırdım
sənlə bərabər.

---

[1] Yazıçılır İttifaqı nəzərdə tutulur (*red.*)
[2] Yazıçı Anar (*red.*)

Ədəbiyyat adamıydın,
sən gəlməliydin,
sənə qapı açmaq idi
bizim borcumuz.
"Ədəbiyyat qəzeti"ndə
yüksəlməliydin,
sən onda bir Ulduz idin,
indi bir Ulduz.

Gələn kimdi? –
mən dedim ki,
tənqidçi gəlib.
Soruşurdu sənə görə
məni əyənlər.
Gördülər ki,
işi sevən
bir işçi gəlib,
"İttifaqda bir qazaxlı
artdı" - deyənlər.

Onda Güney həsrətilə
qəzet buraxdıq,
gəzib latın əlifbası
tapdıq birtəhər.
Biz "kirilin" əvəzinə
"əski"də çıxdıq,
bir qəzet də türk dilində!
Sevindi türklər!

O Tay bizə bir səadət
bağışlamışdı, -
nümayəndə heyətiydi
Təbrizdən gələn.

İstanbul da məktub yazıb,
alqışlamışdı,
Gözlərimdə böyümüşdü,
bir az da Vətən.

Əl işdəydi, qulağımız
səsdə-soraqda,
özümüzdən ağır yükün
altına keçdik.
Biz "kiril"i dəyişdirdik,
gör, hansı vaxtda?
Keçdik,
"əski" əlifbaya,
"latın"a keçdik.

Ərdəbilə,
ya Təbrizə
gedən yolumuz
sazımızda qan ağlayıb
hey pərdə-pərdə.
Bəlkə də ilk səfirimiz,
ilk konsulumuz
"Ədəbiyyat qəzeti"ydi
keçən əsrdə?!

Onda "təzə" Nizamnamə
yazdılar, oğlum,
xidmətimin əvəzində
"günahkar" oldum.
Onda qərar beləydi ki,
mən getməliydim...
İndi şirin xatirədi
bu dediklərim.

"Unutmuşam", desəm də mən,
həqiqət budur,
unudulur,
unutmağı
adət edənlər.
Baş nazirin vəzifəsi?
Ya Baş redaktor? -
İkincini seçərdim mən,
"seç", desəydilər.

* * *

Məni öz dilimdə duyan, anlayan,
bir Ezop dili də öyrətdi mənə.
"İki dildə" yazdım şeri sonradan,
Oxucu o vaxtdan bələddi mənə.

Uzun gecələrdə qalmışdım oyaq,
məni budaq kimi hey əyirdilər.
"Kimin sualı var?"[1]
yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər...

Anlar şübhəliydi, günlər qorxulu,
üz-üzə durmuşdu xeyir ilə şər.
Cavidin qızıyla Cavadın oğlu[2]
mənim dediyimi təsdiq eləyər.

---

[1] Şairin yazdığı poemanın adıdır (*red.*).

[2] Hüseyn Cavidin qızı və Əhməd Cavadın oğlu. Əsərin ilk variantı yazılanda onlar sağ idilər (*red.*).

Latın əlifbası bizə "ləkəydi",
başa başağrısı, daşı yekəydi.
Almaz İldırımlar,
Əhməd Cavadlar,
Cavid Əfəndilər bir təhlükəydi.

Biz üç əlifbada, bir dildə yazdıq,
"əski"də,
"latın"da,
"kiril"də yazdıq.
Bu nəsli o nəslə qarşı qoydular,
ayırıb qəsd ilə qarşı qoydular.

Getdi gözümüzün ağı-qarası,
üç şəklə düşmüşdü bir dildə vətən.
Sağdan sola tərəf yazdığımızı,
soldan sağa tərəf yazdıq yenidən.

Beləcə ayrıldıq,
yox, ayrılmadıq,
Araz sərhəd oldu, əlifba sərhəd.
Birindən keçəndə, birində batdıq,
boğulduq nəhayət, axdıq nəhayət.
Guya, əlifbamız qabaq olmayıb,
guya, bu torpaqda bu xalq olmayıb.
Guya bu, mədəni dil qurumuydu,
əlifba "sövdası" soyqırımıydı.

Məhəl qoymadılar göz yaşımıza,
düşündük, daşındıq hər çalar üstə.
"Əski"ni -
köçürdük başdaşımıza,
"kiril"i -
qırmızı parçalar üstə.

Əskidən latına dəyişdi həyat,
keçilməz yolları keçdik nəhayət.
"Əski"də - Füzuli,
"latın"da - Cavad,
"kirildə" Vurğunu yetirdi millət.

Bunu təriflədik, onu pislədik,
muğamat “yad oldu” hətta tar üçün.
Vətəni verəndə -
məhbəs istədik,
əsl vətənpərvər oğullar üçün.

Bəxtiyar[1] söz açdı "Latın dili"ndən,
Hanı ana dilin, ey ana vətən?!
Gördü ki, şairi millət unudub,
Vətənsiz sayılır vətən şairi.
Dandılar,
üzünü dünənə tutub,
sözünü bu günə deyən şairi.
Əklillər apardıq biz əllər üstə,
düzdük,
gör nə qədər heykəllər üstə.
Rusun, erməninin abidəsiydi,
"xalqın" minnətdarlıq ifadəsiydi!
Qara haşiyələr üstünə bəzən
yazdıq ki, "Əbədi qəlbimizdəsən!".

Yazanda inandıq, yoxuydu danan,
indi də pozanda bizik inanan.
Ağırdı əlbəttə, inamsız olmaq,
Nə ölmək mümkündü, nə də yaşamaq.

---

[1] Şair B.Vahabzadə nəzərdə tutulur (*red.*).

Böyük millətlərin qorxusu çoxdu,
Kiçik millətlərin yuxusu yoxdu.
Əlindən alır ki,
                    mənimdi vətən!
Vətənsiz eləyir vətənli ikən.
Namusun, qeyrətin, ismətin gedir,
bunların dalınca getmədin, gedir.

Latın əlifbası müzakirəydi,
mən də Parlamentdə səs verdim ona.
Millət bir salonda ikitirəydi,
iki rəy sığmırdı o bir salona.

Ancaq qəlbimizdə nə Allah, nə din,
nə Həzrət Əlinin,
                    nə Peyğəmbərin
nurlu kəlamından güc ala bildik,
nə də yuxulardan ayıla bildik.

* * *

Şairə inandıq, şeir deyəndə,
artistə inandıq, o baş əyəndə,
alimə inandıq, kəşf eləyəndə,
hakimə inandıq, məhv eləyəndə.

Dalda əl çalanlar qabağa çıxdı,
başımız məst idi,
                    başçımız ayıq.
Füzuli dərdindən yaylağa çıxdı,
biz elə bildik ki, dağ başındayıq.

Müğənni səhnədə muğam oxuyur,
o da qışqırmasa, əl çalan olmur.
Artistlər əl öpür... nə qədər, oğlum?!..
artistin əlini öpərlər, oğlum.

İçimizdə Cavidlərin üsyanı,
xiffətimiz özümüzdən yekəydi.
Təriflədik iki dildə yazanı,
anası bir, ana dili ikiydi.

Xalq artisti iki dildə oxudu,
başqa xalqın ehtiyacı yoxuydu.
Onda pula bunca həris deyildik,
onda pula -
"əl çirki"di, deyirdik.

Dondurulmuş ət yeyirdik onda biz,
indikindən sağlamıydı mədəmiz.

İndi İran hədələyir bəşəri,
ermənininin yanında rus əsgəri.

Onda qadın alverləri yoxuydu,
asardılar,
anrı-bəri yoxuydu.

Qızlara "Cip" bağışlayır kişilər,
kişiliyi - görün, nədə görürlər?!

Məhəbbəti satın alır pul verən,
məhəbbətə can verənin əlindən.

Nizamimiz dedi: ər ol, qapı aç,
demədi ki, üzünü aç o qızın?!

Harınların
qarnı toxdu, gözü ac,
millət indi qoy özünü tanısın!

Məhəbbətdi ruhumuzun mayası,
odu sönmür nə əllidə, nə yüzdə.
Qızların da örpəyidi – həyası,
O “örpəyi”
götürməyin o üzdən.

Məmurların xəlvətdə: ya rus qızı,
ya erməni harsınıydı “tanrısı”.

Dovşana – "qaç!",
tazıya – "tut!"-
deyirlər,
infarkt “əkir”,
xərçəng “biçir” o "ərlər".

Kim ki, deyir filankəsi yola ver,-
yedəyini,
demək başqa ələ ver!

Çətin olur onda bir az, yaşamaq,
inanmırsan? -
özün yaşa, özün bax.

* * *

Onda kitabları oxuyurdular,
bir az deyinirdi onda iqtidar.
Daim narazıydı, daim şübhəli,
biz yazan əliydik, o pozan əli.

Elə ki, bir məddah ortaya düşür,
elə bil başıma bir qaya düşür.

O gün yas yerində, bir müdrik insan,
mənə deyirdi ki, çıxartma yaddan.
Şahin hökmdara xidmət eləyir,
odur ki, həmişə təzə ət yeyir.
Bülbülün səsidi bizi mat qoyan,
yemi çəyirtgədi, ya da soğulcan.

Ürəyə xal düşür, saça dən düşür,
Nəzərdə tutduğun nəzərdən düşür.
Məddahlar yetişir, təmizləyən yox,
təmiz adamlar var,
təmiz deyən yox.

Sən yeri düşəndə, eşitdir, oğlum,
həya qalmayıbdı, dəhşətdir, oğlum.

Gözəl bir şeiri misal çəkəndə,
Homeri, Volteri misal çəkəndə,
Cavidi, Sabiri, Yunus İmrəni
eşitdir,
qoy məddah eşitsin səni.

Məddah əzazildi,
üzə ağ olar,
havanı imsilər biri təpinsə.
Məddah bir ev tiksə, ev mafrağ olar,
onu da yel yıxar,
üstündən əssə.

Yaşaya bilmədik qəsdsiz-qərəzsiz,
nə deyim, beləydi əsrin havası.
Bir məddah görmədim mən
vəzifəsiz,
məmur da görmədim, məddah olmasın.

Qulun,
dəyişsə də min bir adəti,
O quldu, dəyişmir qul təbiəti.

Tofiq Hacıyevdən soruş, istəsən,
sənə dərs deyibdi,
sıxılma, desən.
Sənin ustadındı, get, özun axtar,
Ustadla tələbə söhbəti tutar.
Müdrikdi, əvvəlcə gülümsəyəcək,
müdrik adamlardan misal çəkəcək.
Sözün sonrasını soruşma, nədir,
əvvəli
arifə bir işarədir.

* * *

Dünən bir görüşdə qalxdı bir alim,
mənə üz tutdu ki,
- Mənim şairim,
niyə tənqidçilər yaşaya bilmir,
şairlər yaşayır yüz illər boyu?!
Gördüm, qəm yükünü daşıya bilmir,
- Nizami şairdi bu əsər boyu.
Dedim ki, bəlkə də o möcüzədir,
tənqid elədikcə,
tərif eşidir.

Amma qələminin bir üzü də var, -
dəymə millətinə,
tufan qoparar.
Dəymə tarixinə,
tarixi bilir,
O da şair kimi sevir, sevilir.
Ona qəsd eləmək qəsdinə durma,
o qəsd də görübdü, - üstünü vurma.
Milləti çaşanda, görüb o qəsdi,
yurdundan qaçanda, görüb o qəsdi.

Atası bilirdi o hardan qaçır,
haraya qaçacaq? - bilmirdi hələ.
Kim qapı bağlayıb, bilirdi naçar,
Kim qapı açacaq? -
bilmirdi hələ.

Əjdaha varıydı dağ arasında,
biri Bığ[1],
o biri - bir Əyriburun[2].
Qırmızı Kreml mağarasında
qəsdinə durmuşdu
o zaman,
onun.

Hələ Nizaminin izi yoxuydu,
taleyi varıydı,
özü yoxuydu.
Ulular qalmadı Ulu Göyçədə,
arzular, istəklər yox oldu, Tanrım!
Nizami, bir dəfə qədim Gəncədə,
bir də
Zəlimxanda doğuldu, Tanrım!

Dünyaya qayıtdı, dünyadan gedən,
yerin altı vətən, üstü də vətən.

Mənim bir oxucum, ya müsahibim,
Nizami, bəlkə də gülümsəyəcək,
mənə deməsə də sənə deyəcək,-
necə?
Şeyx Nizami və gənc bir alim?!
Şairin rəngləri bir az tünd olub,
gör kimi unudub, kimə bənd olub?

---

[1] "Bığ" - Stalin iri, qalın bığ saxlayırdı (*red.*).
[2] "Əyriburun" - Mikoyan iri, əyri burnu ilə seçilirdi (*red.*).

Şeyxlə,
Nizami deməyin kimdi?
Mənim yol yoldaşım, müsafirimdi.
Yerdə qərar tutub üç can, bir ürək,
ikisi məndədi,
mən - mənzildə tək.

* * *

Şeyxim, zirvələrin zirvəsi sənsən,
Şeyxim,
Peyğəmbərdən sonra gələnsən.

Dilində İskəndər, haqqın taleyi,
o, dünya fatehi,
sən söz fatehi!
Nə qədər şair var indi dünyada,
Şeyxim,
sən atlısan, onlar piyada.

Başaq döşürürük şeir zəmindən,
bir fikir qalmayıb,
Şeyxim,
deyibsən.
Mən səni görməyi arzulasam da,
Sənsən qələmim də,
yazı masam da.
Yerini soruşsam, Şeyxim, hardasan?
Səsin gələcək ki, yanında,
baxsan.

Sənin hüzurunda mən də bir ruham,
Şeyxim,
sən oyaqsan,
mən yuxuluyam.

Dünyaya Bəhmənyar
və Tusi gəldi,
indi də onların varisi gəldi.

Mahmud Qaşqarinin türkçü qələmi,
sənin əlindədi indi, Nizami.
Mən də bir Ulduzdan, bir Aydan oldum,
bir ana südü var, o da bu xalqdı.
Türkün becərdiyi torpaqdan, oğlum,
Nəriman yetişdi,
Nizami qalxdı.

* * *

Şeyxım,
ey Nizami,
şairlər şahı,
adını çağırıb oyatdım, əlbət.
Açıldı üzümə sözün sabahı,
söz də - Haqdan gələn bir əbədiyyət!

Şeyxim,
mən gördüm ki,
ruhun oyaqdı,
isti nəfəsidi ruhlar da yurdun.

Dedim, köməyim ol, yolum uzaqdı,
Qolumdan tutan da, Şeyxim, sən oldun.

Qarışdı beynimdə hisslər, duyğular,
nəydi, mən gördüyüm bu röya,
                    Şeyxim?
Sadə analardan - dahi oğullar! -
yəqin möcüzədi bu dünya,
                    Şeyxim?!

* * *

**M**ən səni seçmişdim neçə il qabaq,
sən yeni bir nəslin
                    ilk nəğməsiydin.
Mən onda - gənc şair, bir az da qıvraq,
Sən ali məktəbin[1] tələbəsiydin.

"Kimin sualı var?"
                    - yazmışdım onda,
cavab istəyirdim, susurdu millət.
"Mənim sualım var!"
                    - qalxdın salonda,
Səsimə səs verdin, sözümə qiymət.

Deyirdim, nə üçün rəhbər işçilər
            aldığı arvada ərə gedirlər?
Qanmazın qanana hökm eləməsi,
            deyirdim, həyatın ilk faciəsi.

---

[1] İndiki Bakı Dövlət Universiteti (*red.*).

Mən nə demişdimsə,
onda yozdular,
ürəkdən yox, kağızlardan pozdular.
Dünyamın Sarası köçdü dünyadan,
Sarasız tək qaldım mən də o vaxtdan.

Kim deyir, acımız-ağrımız olmur,
çırpınır,
çalxanır cəmiyyət özü.
Məhəbbət olanda ağlımız olmur,
ağıl olanda da –
məhəbbət özü.

Məni Muşfiqlərə qatasıydılar,
sapand daşı kimi atasıydılar.
Cavidin, Cavadın getdiyi yerə,
gedib də, əbədi itdiyi yerə.

Onda Rəsulbəyov[1] təkid elədi,
məni Akademik[2] vermədi ələ.
Onda Səməd Vurğun daha yoxuydu,
Nizami Cəfərov gənciydi hələ.

* * *

Böyük ədəbiyyat qorunmalıydı,
böyük istedadlar yaranmalıydı.
Həqiqət ucadan deyilməliydi,
indi də bu dastan deyilməliydi.

---

[1] Yüksək hərbi rütbəli ictimai xadim, nüfuzlu dövlət adamı Rəsulbəyov Hüseyin Cümşüd oğlu (*müəllif*).
[2] Sənət adamlarının yaxın dostu, akademik Əliyev Həsən Əlirza oğlu (*müəllif*).

Niyə?
Rusiyada Belinskidən,
sonradan dərs aldı ona dərs deyən.
"Rus ruhu" axtardı sözdə,
sənətdə,
rüşvətə qurşanan bir məmləkətdə.
Qərbin köhnəsinə təzə deyənlər,
onda da varıydı, indiki qədər.
"Xalq" dedi, bu sözdən qorxmadı heç vaxt,
Puşkini kəşf etdi Puşkindən qabaq.

Mənim ürəyimdə hislər, duyğular,
günəşli-gündüzlü səhər istəyir.
Dağda dəyə qurub yaşamaq olar,
dağda dağı görmək, hünər istəyir.
Mənim müasirim, müasirliyim,
mənim tariximdi, –
tarixçiliyim.
Şübhəm, etirafım, ləyaqətimdi,
zamandan-zamana hekayətimdi.

...Bir çinar varıydı Kür qırağında,
nəğməsi – balaca qol-budağında.
Kölgəsi varıydı – bir-iki qarış,
düzünə xəttiydi – nazik bir qamış.
Quş qonsa, budağı qoparasıydı,
sel gəlsə, özünü aparasıydı.
Gün vursa, istidən quruyasıydı,
kimsə, bu çinarı qoruyasıydı.

Mənim tanıdığım bir qoca bağban,
Allah adamıydı, gücü də haqdan.
Qolundan tutan da bir Allah oldu,
yüz ağac əkmişdi, çinar şah oldu.

Bəd əsən yellərdən qorudu onu,
baltalı əllərdən qorudu onu.
Nəzərdən-nəfəsdən qorudu onu,
dinəndən-dinməzdən qorudu onu.
Bir ömrü xərcləyib bir ana verdi,
insandan qoruyub, insana verdi.

Göylərdən yerlərə bir hava gəldi,
çinar kölgəsinə el-oba gəldi.
Yarpaqlar əl çaldı bir meh əsəndə,
şahanə süfrələr şah kölgəsində.
Soruşma, kimiydi, kim gəldi-getdi? –
yorulub dincələn, dincəldi getdi.
Bizə çinar qoyub getdi o bağban,
onu xatırla ki,
                xatırlanasan.

Sənin də başından küləklər əsdi,
qapından, bacandan küləklər əsdi.
Göylər guruldadı üstünə qəsdən,
yerdə yarpaq kimi əsmədin, əhsən!
Çinara yazmışdın adını bir vaxt,
yenə çinarboylum,
                        çinar kimi şax!
Sənin kimliyini kim danır, oğlum?
Zaman nehrə kimi çalxanır, oğlum.
“Yağı yağ üstə çıxır,
                ayranı ayranlıq olur”.
Başqa cür olsa zaman,
                bəylik olur, xanlıq olur.
                Onda da nadanlıq olur.

* * *

Hanı Dilcan yolu?!
Ağdam kəhrizi?!
Gərək ziyalılar tirələnməsin.
Birləşsə yumruqdu, açılsa - əldi,
Bakı yüz ildi ki, beynəlmiləldi.
Bakıya kim "doldu?!"
Qaçqın
və köçkün.
Nə üçün? -
biləydi gərək nə üçün?!
İrəvan əhliydi, Qarabağ əhli,
Aranda qırıldı gəlib dağ əhli.
Odlara düşdün sən Odlar ölkəsi,
nalə dilindəydi, qiyam evində.
Ələsgərin sazı, Seyidin səsi
Bakıda səsləndi Muğam evində.

Bakıdan kim getdi?
Kimiydi onlar?
Millətə qaynayıb-qarışmayanlar,
millətin dilində danışmayanlar,
Xəlili,* Məmmədi** oxumayanlar,
biz ağız açmamış bir mız qoyanlar...
Beşiyi,
məzarı atıb gedəndən,
oğlum, yarımayıb hələ bir vətən.

---

* Şair Xəlil Rza Ulutürk (*red.*).
** Şair Məmməd Araz (*red.*).

Səni daşladılar,
kimsə dedi, vur!
Deyirlər, daşlanan daş heykəl olur.
Bəlkə heykəlini yonurmuş Zaman,
ehtiyat edirmiş daş azlığından?!

Xatirə[1] qorxubmuş,
axtarıb məni,
tapıbdı yazdığın bir məqaləni.
Quran kitabının qoyub altına:
- İlahi, bir xətər dəyməsin ona.

* * *

Qızım, həyat yoxdu döyüşdən kənar,
uduzur həyatda yeyib-yatanlar.

Dünyada bir od var, o da Günəşdi,
Nizami -
Nizami yaşında gəncdi.

Qolu hər çalınan havaya qalxmaz,
doğru deyiblər ki, sel arxa sığmaz,

Oynayar, bəlkə də üstünə düşsən,
Onda da o ruha, o qəlbə əhsən!

Gedib tək qazanar, amma tək yeməz,
üzr istədəndi, üzr istəməz.

---

[1] Şairin qızı (*red.*).

Ürəyi yumşaqdı insaf sarıdan,
həmişə seçilib tay-tuşlarından.

Gəncləri təriflər, gəlsin ilhama,
şans verər, ixtiyar verməz o amma.

Dünən Füzulidən Molla Pənaha
Allahlıq elədi, inan Allaha.

Lətifə danışmaq yarışı keçsə,
ilk yer ona düşər, qalan heç kəsə.

Astadan danışar, - dərin və qısa,
eşitməz, yanında qışqıran olsa.

İnsan anasıyla, sevdiyi qızla
qışqıra-qışqıra danışmaz, əsla.

Türkün tarixindən deyir arabir,
amma "dövlət" deyir, o "tayfa" demir.

Özündən deyənə baxar, söz deməz,
sözdə yıxılanı yıxmaq istəməz.

Ən güclü, ən qəddar çıxsa baxtına,
yüksəkdə durar ki, görünsün ona.

Oturub-durduğu kimdisə, qərəz,
təsir eləyəndi, təsirə düşməz.

* * *

Mənə elə gəlir, Nizami, oğlum,
Sən uşaq yaşından uşaq deyilsən.
Səni qoruyacaq
bu GÖZMUNCUĞUM,
özündən özünü qoruya bilsən.

Ağac bar verəndə, yüz daş atan var,
tutaq ki, hardasa,
bir şarlatan var.
Ona vaxt ayırsan, vaxta hayıfdı,
qazandığın "taca-taxta" hayıfdı.

Məni də izləyir bu kor taleyim,
amma Mamoğlunun sözü olmasın,
mənə layiq olsun gərək düşmənim, -
mənim
ayağımın tozu olmasın.

Bir karvan yoludu -
bir ömür yolu,
bəzən döyüşlər də təkbətək olur.
İNSAN öz boyundan ucadır, oğlum,
nə görmək mümkündü, nə ölçmək olur.

Bir loğman deyib ki, - dost yoxdu, dostlar,
sirr vermə, - dostun da başqa dostu var.

Məni bu hikmətdi çaşdıran öncə,
biz ki, dosta açdıq ürəyimizi.

Bəşərin ən böyük kəşfidi, məncə
dostluq dediyimiz bu ülfət hissi.

Dost kimdi?
                Nəçidi?
                İkinci bir can!
Bir ürək döyünür bu iki canda.
Dost özü gəlir ki, mənə arxalan,
dost tapmaq çətindi,
                   dost axtaranda.
Düşmən meydanında
                mən dost görmüşəm,
Mən dost da görmüşəm qanlı-bıçaqdı.
Misalmı göstərim? -
                       İsrafil-Kərəm, -
yuxusuz gözləri hələ oyaqdı.

Bəlkə, öz əslinə qayıdır bəşər?!
Hörmət belə olmaz, qəsd belə olmaz.
Necə dostdular ki? -
                     "düşmən" deyiblər,
necə düşməndi ki? -
                     "dost" belə olmaz.

Sabah qonaq qalsan Dərələyəzdə,
sabah Vedibasar desə, hardasan?
Sən dosta arxalan, sən dostu gözlə,
dost da arxalanar, sən arxalansan.

* * *

Nizami, maraqlı bir görüş oldu,
Üstümə
"bir hücum",
"bir yürüş" oldu.
Orda, o məclisdə böyük bir alim,
(indi heç bilmirəm mən necə deyim)
Guya söz verəndə,
bir səhv elədi,
mənə "xalq şairi Nəriman" - dedi.
Gördüm ki, diksindi xalq şairimiz,
Amma cavabını verənlər oldu.
O da o məclisdə
birtəhər oldu,
dəyişik düşmüşdü yəqin yerimiz?

Bəlkə də sadəyəm, ya sadəlövhəm,
ünvanım, taleyim həyatda təkdi.
Məni yaşadacaq amma bu nəğməm, -
Gələcək -bu günü eşidəcəkdi.

Mənim ürəyimin qərəzi yoxdu,
ürək də ürəyə
heyrandı bəzən.
Xalqın gözü kimi tərəzi yoxdu,
özü çəkdiyini çəkir təzədən.

Mən tale şairi, sən xalq şairi,
Allah var eləsin, hər yerdə varsan.
Qoltuqda böyüdün,
qoltuq şairi,
düş yeri, desələr, sən yıxılarsan.

* * *

Sadə şair olmaq -
ayıb deyil ki?!
təzədən ayıldım mən elə bil ki.

Adi görünməsin gərək bu sual,
kimin ürəyini bu söz deşmədi?!
Fəxri ad almadı böyük Mir Cəlal,
Fəxri Xiyabana Müşfiq düşmədi.
Ələsgər sadəcə bir aşıq oldu,
böyük məclislərə yaraşıq oldu.

Demirəm, bu həyat puçdu, Nizami,
Bu daşa dönmüşlər əsl daşdılar.
Ən uca heykəllər uçdu, Nizami,
Qalxdı o kəslər ki, "yıxılmışdılar".

Dünyanın kəfkiri[1] hərlənir, demək,
bizim ocağı da bir yandıran var.
Gör, bizə nə deyir indi o Müdrik,
deyir, bu dünyanı dolandıran var.

Yaram sağalmadı söz sarığıynan,
Sevinc özümünkü, qəm bəşəriydi.
Mən səni tapanda Kür qırağından,
köməkçim dünyanın bu kəfkiriydi.

---

[1] Nizami Cəfərovun "Dolan, kəfkirim, dolan" əsəri (*red.*).

Yerin hansı qatı, ya hansı bürcü,
sənə yol açdı ki, o yolu tapdın?!
Əsa götürmədin, söykənmək üçün,
tarixdə ən əsas[1] sualı tapdın.

* * *

**“B**öyük bir alimə vəzifə verdim,
Atatürk mərkəzi! -
get, işlə, dedim.”
Deyirlər, bu sözü Öndər deyibdi,
sonra da o, "İyi günlər!" - deyibdi.
O da Görücüydü,
insanı bəzən,
yaxşı tanıyırdı: üzdən yox, içdən.

Nizami, vəzifə - səlahiyyətdi,
bir də yuxarıdan münasibətdi.

Böyük alimlərin yanında dursan,
maşallah, indi də hələ cavansan.
Bir az da gənc idin hələ o vaxtı,
o, yaşa baxmadı,
o, başa baxdı.

Nə bilim, insanı hərdən elə bil
Göydən göstərirlər,
yerdə olsa da.
Heyif, xəbər verən çaşır arabir,
biri tez, o biri gec düşür yada.

---

[1] "Azərbaycanşünaslığın əsasları" əsəri (*red.*).

Dünya mürəkkəbdi, adamlar qəliz,
ürəyə yük olub ürək sözü də.
İstedad,
bilirəm,
şərtdi şübhəsiz,
Şərtdi, istedadı görmək özü də.

Vəzifə hərisi qalxsa kürsüyə,
əlvida deyəsən gərək hər şeyə.
Varıydı,
birini mən tanıyırdım,
deyirdim, nə olsun, deyib yanırdım.

Dövlət, dövlətçilik, dövlət işləri,
adi şeylər idi ondan ötəri.
Biri - vəzifəni dondurub gedir,
biri - vəzifəni özəlləşdirir.
Biri də, nə bilim, əvəz eləyir,
bir "kadr" tapınca, o bəs eləyir.
Adam axtarırlar adam yerinə,
adamı qoyurlar avam yerinə.
Vəzifə bölümü, məmur seçimi,
"həyat" sevdasıdı,
"ömür" seçimi.
Nahaq deməyib ki, mömin adamlar:
səhvi özgədə yox, özündə axtar.

* * *

Yuxuda gördüm ki, yola çıxırsan,
Günəşin şüası axır sel kimi.
İri bir dolçanı doldurub ordan,
mən sənin arxanca səpdim, Nizami.

Uğurlar!
Getdiyin uzaq mənzilə,
həmişə qoy nurlu çöhrəni görüm.
Dan ulduzu kimi yan innən belə
hayana baxsam da, mən
səni görüm.

* * *

Səni Antalyada mən başda
gördüm,
Türkün təfəkkürü fikrin şahıydı.
Yüz başdan keçəni bir başda
gördüm,
bu da Azərbaycan intibahıydı.

Səni alqışladı, sənə inandı
tanış olanlarla tanış çıxanlar.
Sən harda "itsən də" tapmaq
asandı, -
qıpçaqsan, gözündən tanımaq olar.

* * *

...Kıprız,
Makedoniya,
Azərbaycan
türkləri.
Antalyada açılır
dünyanın türk səhəri.

Türkoloji qurultay, –
ruhların abidəsi.
Ay-Ulduz bayraqlara
bir kəhkaşan töhfəsi.
"Fərdlər ölür dünyada,
lakin ölməz cəmiyyət".[1]
Birliyə səsləyirdi
türk soyunu bu hikmət.

Geyimlər çeşid-çeşid,
görüşlər təzə-təzə.
İstanbul əl eləyir
Bakıya və Təbrizə.
Ərzrum,
Diyarbəkr,
Bosniya,
Bolqarıstan.
Könüldə neçə duyğu,
yaddaşda neçə dastan.
Bir dildə başa düşür,
yüz ləhcədə danışan.

Sənin qurultayındı,
Cavid Əfəndi,
oyan.
"Korun" monoloqunu
yazaq daşa, divara.
İşıq payla, şairim,
zehni kor olmuşlara.

* * *

---

[1] Ziya Göyalpındır (*red.*).

"Ucundadır dilimin,
həqiqətin böyüyü.
Nə qoydular deyəyim,
nə kəsdilər dilimi".
Əlibəy,[1]
de, məqamdı,
söz ölməsin bətndə.
Nizami səndən deyir,
Sədr vəkalətində.
Tarix səni göstərir
türkün xəritəsində.
Tarixi qanla yazdı
türklər türk qitəsində.
Onun da atasının
sözü qaldı yarıda.
Vedi dolaylarında, –
zorla köçürüləndə.
Vətəndən qovulanda,
Vətənə sürüləndə.
Vedibasar, –
şahçinar.
Doğradılar kökündən.
Vətən itdi o gündən.
Nizami – pöhrəsiydi.
Vedidə itəsiydi,
Qazaxda bitəsiydi.
Taleyin töhfəsiydi.

* * *

[1] Əlibəy Hüseynzadə (*red.*).

"Çingiz xan"
dedi bir səs.
Salonda isti nəfəs.
Salonda bir "ixtişaş".
Sevindi türk arkadaş.
Elə bil Ağ dənizdən
içəri dalğa düşdü.
Adı yox,
şan-şöhrəti
dilə-dodağa düşdü.
Rəyasət heyətindən
Çingizi göstərdilər.
Göyərçin qanadıtək
uçdu havada əllər.
Nizami qalxdı,
endi,
gəldi, girdi qoluna.
Çingiz:
– Aka – deyincə
Ustad, – dedi bu ona.
İki qıpçaq bayrağı
sancıldı bir salona.
Göz-gözə bənzəyirdi,
bir az ətli,
qapalı.
O gözlərdən boylanır
türk-qıpçaq İstiqbalı.
O, Manas əsillidi,
bu biri – Dədə Qorqud.
Nə sənə güc gələn var,
nə mənə hədə-qorxu.

Yerdə atlar kişnədi,
göydə çaxnaşdı bulud.
Hardasan Manas Aka,
sən də, ey Dədə Qorqud.
Sizin oxlar, nizələr,
əsr-əsr uçdular.
Nizələr nizələrlə
oxlarla toqquşdular.
Siz daşlara yazdınız
tarixi – yəhər üstə.
Biz daşlardan köçürdük
tarixi – dəftər üstə.
Tarixi təzələdik
tarixi əsər üstə.
Dənizdən dənizlərə
üzdü türk gəmiləri.
Türkün hərb gəmiləri,
türkün yük gəmiləri.
Atillanın qoşunu
keçdi Dəclə-Fəratı.
Şumerdə, Balkanlarda
türkün müqəddəratı.
Nizaminin dilində[1]
Xaqanın Çin həyatı.
Avropada suladı
Mete –
türk atlarını.

---

[1] Nizami Gəncəvinin "İskəndərnamə" əsərinə işarə edir (*red.*)

Qədim Roma tanıdı
Şəhid türk adlarını.
Hər xalq öz tarixinə
yazdı soyadlarını.
Türkoloji qurultay -
türkün eşqi, hünəri.
Antalyada açılır
dünyanın
türk səhəri.

* * *

Nizami, "Mərkəz"dən* dost səsi gəlsin,
- bizə Nuru Paşa töhfəsi gəlsin.
Gəncədən Bakıya birbaşa gəlib,
sən də arxasınca gəl,
Paşa gəlib.
Ağ atın üstündə dördnala gəlib,
bəla gətirənə bir bəla gəlib.

Eşq olsun,
can qoydu millət eşqinə,
söz də səngər kimi yaraşır ona.
"Qurbanlıq lazımsa, hazırıq yenə,
azadlıq yolunda Azərbaycana…".

Döyüş meydanıdı dünya əzəldən,
türkün bayrağı - haqq, yəhəri - vətən.
Arran torpağının beşiyi Gəncə,
türkün evi Gəncə, eşiyi Gəncə.
Oxu, mənim xalqım, ağladıq, yetər,
oturub qəmlənmə, qalx, artıq yetər!

---
* Bakıda Atatürk Mərkəzi (*red.*)

Məni Kayseridə alqışladılar,
mən "Nuru Paşa"nı[1] dedim sinədən.
Üçrəngli bayrağı qaldırmışdılar, -
Türkün bayrağıydı bir də yellənən.

Mənim bir millətim, iki vətənim! –
İstiqlal yurdudu torpağım, daşım.
Bakilər[2] əlimi sıxırdı mənim,
türkün böyük oğlu, şair qardaşım.

Üçgül[3] əl çalırdı qabaq cərgədən,
Şair, bayraq kimi qalx, bayraqdar ol.
Məni Kayseriyə dəvət eləyən
sayın Bələdiyyə Başqanı, var ol.

* * *

Necə müqəddəsdi bu qanlı yollar,
Bir karvan yoludu,
köçdü, Nizami.
Qardaş köməyinə gələn oğullar
qardaş qırğınına düşdü, Nizami.

Yellənin Bakıda, türk bayraqları!
Siz də alnıaçıq, üzüağsınız.
Məzarlar!
Bəzəyin bu torpaqları,
qalxsanız - hərəniz bir bayraqsınız.

---

[1] Şair yeni yazdığı "Nuru Paşa" poemasını nəzərdə tutur (*red.*).
[2] Yavuz Bülənd Bakilər - Türkiyənin böyük şairi və ictimai xadimi (*müəllif*).
[3] Sevinc Üçgül - Kayseri Universitetinin kafedra müdiri, professor-doktor (*müəllif*).

* * *

Mən haqqı çağırdım sənət
yolunda,
sinəmdən boylanan arzudu, kamdı.
Nizami sağımda,
Nazim[1] solumda -
şeirimin vəznidi, on bir hecamdı.

Mənə çox görməsin bunu Yaradan,
yerdən səsləyirəm: tək Ona pənah!
Paxıl adamların qaş-qabağından
məni yox, onları qorusun Allah!

* * *

Milləti bir əsr necə qırdılar,
Evi uçuq oldu, qapısı bağlı.
Doğub törədilər, şükür, artdılar:
ata - vediliydi, oğul - qazaxlı.

Gözəl Göyçə gölü, Dədə Ələsgər,
bizim tərəflərdən köçüb nə qədər.
Qalıb, evlənənlər ev-eşik oldu,
hər yəhər qaşında bir beşik oldu.
Nə qədər başdaşı, qəbristan durur,
Qazax mahalından bir nişan durur.

---

[1] Şairin oğlu (*red.*)

Alban torpağıdı o doğma yerlər,
qədim dilimizdə "Loru" deyirlər.
Qalib ordulara qələbə çaldıq,
ordular iz saldı,
biz oba saldıq.

Şəmsəddin Eldəniz,
Xətayi qalxdı,
Arazın bu tayı, o tayı qalxdı.
İstiqbal nəğməli Kür bizim oldu,
biz Yerin olduqca,
Yer – bizim oldu.

Yazdıq adımızı daşda, qayada,
O yollar dumandı, çəndi, Nizami.
"Göyçəli" kəndi var Ağstafada,
Göyçədə "Kəsəmən" kəndi, Nizami.
Kəndin adı getdi,
kənd özü qaldı,
hər sönən ocağın bir közü qaldı.

Dəyələr quruldu dağlar döşündə,
bizim Aran köçü yaylağa çıxdı.
Pusquda duranda qonşu dığalar,
Kişilər atlandı, qabağa çıxdı.

Qalxdıq Gədəbəydən,
keçdik Gəncədən,
Bələdçi Tovuzdan, aşıq Göyçədən,
çapar Qaraçöpdən, elçi İncədən,
getdi soykökümüz Qazağa çıxdı.

Çoxu şeir yazdı, şairəm, dedi,
Nizami gah Əsli, gah Kərəm dedi.
Mən də tənqidçiyəm, gəlirəm dedi,
şükür, içimizdən bir Qağa çıxdı.

* * *

Qoruduq o bəndi-bərəni, oğlum,
bir tale izlədi hərəni, oğlum.
Tanrı dərgahına daxıl düşdülər,
Sən gəldin dünyaya,
sevindi dağlar.
Məftillər üstünə düzülmüşdülər, -
Kənddə qaranquşlar oxuyurdular.

Quşlar quş dilində "qalx" deyirdilər,
sözün Ağstafa kökünə uyğun.
Beşikdən həyata səsləyirdilər,
peyğəmbər işiydi bəlkə bu, oğlum.

Nizami, bəlkə də çıxıb yadından,
Bilmirəm, heç sənə sonra dedimmi? -
Dolaşa düşürüb sən də yuvadan,
Quşa türk dilini öyrətmədinmi?

"Atatürk mərkəzi" onda yoxuydu,
İndi dediklərim onda yuxuydu.

Türklərin türk dili qurultayına
orda,
        Türkiyədə sədr sən oldun.
Azadlıq sənin də düşdü payına,-
sən bir Nizamiydin, bir Vətən oldun.

Onda Savad anan cavan qızıydı,
kənddə o elçisiz, filansızıydı.
Nizami hardaydı, Allah bilirdi,
Nizami ordaydı, o qucaqdaydı -
                                Allah bilirdi!
Nizami müqəddəs bir ocaqdaydı,
                                Allah bilirdi.

Alim cərgəsinə qatılmamışdı,
qələm döyüşünə atılmamışdı.

Hələ olmamışdı "uç", deyən ona, –
Zəlimxan kəndindən Vaşinqtona.

Qədim türk dilinə yiyəlik etmək
belə yazmamışdı alnına fələk.

Ya Milli Məclisin gedib adından,
"Danış" deməmişdi hələ Yaradan.
Ona istedadı hədiyyə verən,
bircə şey demişdi:
                          daima öyrən.

* * *

Seçki başlayanda narahat oldum,
gedə bilməmişdim Ağstafaya.
İstədim rayona teleqram vurum,
mənim də səsimi alsınlar saya.

Dedin, dostlarımız qınayar bizi,
düz başa düşməzlər düz işimizi.
Gördüm ki,
ağılda məndən zirəksən,
sən orda gərəksən, burda gərəksən.

* * *

Şagird dostlarından
birini gördüm,
onun dəftərində
şerini gördüm.
Bir-iki bəndini
əzbər deyirdi,
"Cığır...", "Meşə yolu..."
nələr deyirdi?!

Sonra Zəlimxanda
tarixi bir gün,
rəsmini çəkirəm
mən o görüşün.

* * *

Cavanların
məclisiydi –
özləriydi.
Dedikləri –
özlərinin
sözləriydi.
Bağda gözəl
bir ziyafət
qurmuşdular.
Ziyafəti
"bağdan xəlvət"
qurmuşdular.
Əslində bir
hörmət-izzət
qurmuşdular.
Kim bilirdi
nə deyəcək,
sözü nəydi?
Nizamiylə
görüş üçün
bəhanəydi.

* * *

Biri bir az –
sarıyanız,
biri kürən.
O biri də –
zarafatcıl,
deyib-gülən.
Birinin də –
çallaşıbdı
qara saçı.

İçlərində
biri də var –
təzə Hacı.
Namazının
vaxtı keçsə,
üzü dönər.
Özündən yox,
özgəsindən
gileylənər.
Kökü də var,
arığı da,
gödəyi də,
Dili – arı
pətəyi də.
Onu sancır,
bunu sancır
arada bir.
Amma motal
pendirini
tərifləyir.
Deyir Holland
pendirinin
adı çıxıb.
Fatma qarı
gəlib burda
Fatı çıxıb.
Fatının da dadı çıxıb.
Direktordan,
gözətçidən,
xidmətçidən –
kim yadında
nə qalıbsa
deyir hərdən.

Biri zəngi
belə vurdu,
elə dedi.
Biri sinif
rəhbərindən
şillə yedi.
Bu, Rəhimlə,
o, Mahmudla
dalaşıbdı.
Üstü-başı
mürəkkəbə
bulaşıbdı.
Biri tütün
gəzdirirdi
ciblərində.
Bilmişdilər
evlərində.
Bir dostu da
asta gəlir,
usta gəlir, –
yavaş-yavaş
Nizaminin
üstə gəlir.
Kefi kökdü,
tutub onu
tut arağı.
Sağlıq deyir
İsfəndiyar,
susur hamı.

– Kimi seçdi
Ağstafa,
Kür qırağı?
Nizamini.
Mənim sinif
yoldaşımı.
Boy-buxun da
yerindədi,
danışıq da.
Böyük-böyük
adamlarla
tanışlıq da.
– Maşallah de,
İsfəndiyar,
gözün dəyər.
– Sən üzərrik
yandırarsan
keçib gedər.
– A Nizami,
mən işsizəm
çoxdan bəri.
Orda tapşır,
Bakıdadı
rəisləri.
Ceyhan xətti
burdan keçir,
bizim kənddən,
atım da var,
gedim-gəlim,
dəyim hərdən.

* * *

Bu dünyanın
toxu da var,
acı da var.
Qonşuluqda
"bir Cəmilə
bacı" da var.
O da gəlib
deputatın
xahişinə.
İstəyir ki,
təpər olsun
bir işinə.
– Bir oğlum var,
ipə-sapa
yatan deyil.
Kişinin də
ona gücü
çatan deyil.
Elə elə,
sözümüzə
baxsın uşaq.
O da bəlkə
bir deputat
oldu sabah.

* * *

Başqa dostu
Qabil qalxdı
məzələnib.
– Vallah, bu gün
qanım yaman
təzələnib.
Qabil kimdi?
Bir həsir, bir
məmmədnəsir.
Deputatla
araq vurur,
çörək kəsir.
A Nizami,
polislərdən
xilas elə.
İstəyirsən
gəl burda bir
iclas elə.
Maşınım var,
özüm kimi
geri çəkir.
Tökülübdü,
sentrovoy
əyri çəkir.
Beş-on manat
qazananda,
gəlib tutur.
"Yarı sənin,
yarı mənim..."
sözü budur.

Tapşır məni,
de, nədir ki,
cındır maşın?!
Naruşenni
eləsəm də,
baş qoşmasın.
Eşidəndə,
qoy bilsin ki,
arxası var.
Arxan yoxsa,
arxan üstə
yıxacaqlar.

* * *

İndi Fazil
sağlıq deyir:
– İnan, Qağa,
əvvəl bir az
maya qoydum
tək uşağa.
Əsgərlikdən
saxlatdırdım
mən birtəhər.
Bir naxoşluq
kağızı var,
daşdan keçər.
İndi mənə
"Hərbi məktəb"
deyib durur.
Nə qədərdi?
Verim Qağa, –
dərdim budur.

* * *

İsə qalxıb
keçənləri
yada salır.
– Yadındamı?
Nizamidən
xəbər alır.
– Direktor bir
“4” vermişdi,
“5” istədin.
Açdın-tökdün,
kitabları
eşələdin.
Nizami də
cavab verir
zarafatla,
köhnə dosta
köhnə faktla.
– Sən Müşair
müəllimdən
bir “3” aldın.
Rus dilində
danışanda,
lap korladın.
İsmi tapdın,
feli yedin,
söz baş-ayaq...
Mən nə dedim?
– Dedin gedək,
top oynayaq.
İndi köhnə
bir “Moskviç”
bir də mənəm.
Orda-burda
saxlayırlar,
sürəmmirəm.

Məndən sənəd
istəyirlər,
olmur daha.
Ordan – Bakı
QAİ-sindən
düzəlt, Qağa.
– Oğurluqdu...
Sənədi yox,
filanı yox...
Sözlərimin
yalanı yox,
yarğanı yox...
Bu söz bir az
düşündürür
deputatı...
Başqa səmtə
yozmayaq biz
zarafatı...

* * *

Gülə-gülə
dərdlərini
deyirdilər.
Dərdlərinin
fərqlərini
deyirdilər.
Rayondakı
vəziyyəti
deyirdilər.
Çəkdikləri
əziyyəti
deyirdilər.

Bir-birinin
üzlərinə
deyirdilər.
Özlərindən
özlərinə
deyirdilər.
Kənddə yaddan
çıxmışdılar.
Rayonda da
siyahıdan
çıxmışdılar.
Deputatlar
görüb yola
salmışdılar.
Tərif deyib,
gül verib,
əl çalmışdılar.
Adları da
yadlarında
qalmamışdı.
"Necəsiniz?" –
biri xəbər
almamışdı.
– Üzdən-gözdən
görürdük ki,
toxuydular.
Yanımızda
olanda da
yoxuydular.
Amma indi
düz deməyə
gəlmişdilər.

Söz əhlinə,
söz deməyə
gəlmişdilər.
Sonra "Yetim"
Firdovsini
dinlədilər.
Necə gəldi,
elə səpdi
arpasını.
Toyuq kimi,
cücə kimi
dənlədilər,
hərə bir az
doldurdu öz
torbasını.
– Deməyəndə,
deyirlər ki,
avamdılar.
Deyəndə də
deyirlər yox,
tamamdılar.
A Nizami,
üç-dörd uşaq
atasıyam.
İndi gedib
türmədəmi
yatasıyam?
Şifer uçub,
köhnəlibdi
o daş-divar.
Əlim də heç
gətirmir ki,
biləm nə var.

– Yox, "Yetimə"
üç ev düşür,
mənсə, olar.
Şiferi də
mən alaram,
bazarda var.
Türməyə də
salan olsa,
mən qoymaram.
Qorxma "Yetim",
pislər varsa,
mən də varam.

* * *

"Yetim" içdi
qədəhini
sona kimi.
"Tut" işlədi
qana kimi.
Bu əhvalat
gəlib çatdı
şair
Nərimana kimi.
Osman gəldi
gülə-gülə
ona kimi.
Ali məktəb
illərindən
üzübəri,
bir yerdədi
yeməkləri,
içməkləri.

Yazı-pozu
işlərinə
baxan odur.
Deputata
yaxınlardan
yaxın odur.
Söz deyəndə
tələsdirməz
tələssə də.
Yersiz ağız
açmayıbdı
bir kəsə də.
– Türkiyənin
Baş naziri
nitq edəcək.
Deputatlar
yerlərində
olsun gərək...

* * *

Görüşdülər,
ayrıldılar
gülə-gülə.
Bir sərnicdən
su səpdilər
evdən çölə.
– Tanrı sənə
kömək dursun.
– Sən də bizə.
Əvvəl sözü
"Yetim" dedi
sonra İsə.

* * *

Bir ana göz tikib sənin adına,
Bir dostun heyrandı istedadına.

Uğurla başladın seçdiyin yolu,
sənin sevincinə şərikik biz də.
Şair Nizamimiz yaşayır, oğlum,
yaşasın tənqidçi Nizamimiz də.

Uçdum, zirvələrə qonan mən oldum,
Şairlik oduna yanan mən oldum.
Sözdən heykəlini yonan mən oldum,
daşdan heykəlini yonana, salam.

Gördüm hörmətini eldə-obada,
könlün sığallandı doğma yuvada.
Bacın Aybənizə, anan Savada,
ordan da Afaqa, Aslana salam.

"Nizami" dastanım, "Paşa" dastanım,
qoşa qanadımdı, qoşa dastanım.
Yaşa, məndən sonra yaşa, dastanım,
desinlər dastandan – dastana salam.

*2008-2010.*
*Bakı-Ağstafa-Bakı.*

# Əsir Uşaq

*...Bunu Höte yazmayıbdı,*
*List də qulaq asmayıbdı*
*danışdığım bu söhbətə,*
*bu yanıqlı hekayətə...*

# PROLOQ ƏVƏZİ

Ürəyimin ağrısından
ikiqatam,
bəlkə bir az
gedib yatam?!
Ağırlaşıb ayaqlarım,
kipriklərim,
bir-birinə qarışıbdı alnımdakı
soyuq tərim, isti tərim.
Ürək sancır iynə kimi,
dırnaqdan düz beynə kimi.
Mən Praqa şəhərini dolaşıram,
Buhenvaldda, baraklarda qalmısan sən
aman, ürək!
Mən çexlərlə görüşürəm,
söylə harda qalmısan sən,
aman, ürək!
İstəyirəm bir az yatam
və unudam
Buhenvaldda, divarlarda
şəkli qalan,
faşistlərə əsir olan
süd nəfəsli uşaqları.

Geydikəri
nömrələnmiş köynəkləri,
                                başmaqları...
Yox, yox, yatsam,
                    yuxuma da girəcəklər,
yuxuda da mənə əzab
                                verəcəklər.
Ah, bəlkə o əsirləri – uşaqları,
                    köynəkləri, başmaqları
Moskvada, ya Bakıda unudam mən.
Aman, ürək, hara getsəm,
                    sən mənimlə gedəcəksən.

1

Almaniya, Buh meşəsi,
qürbət elin dağ meşəsi!
Bahar gələr,
çiçəklərlə yazar səni.
Payız gələr,
küləklərlə pozar səni.

Burda bir vaxt
şair Höte fikrə daldı,
təbiətdən ilham aldı,
Buh meşəsi!
Qulağında qalırmı de,
Listin səsi.
küləklərin hay-harayı,
sağ sahilin büllur çayı
dilə gəldi nəğməsində,
insan ötdü quş səsində.

Ancaq bir gün... Buh meşəsi,
qanlı ölüm düşərgəsi
düzəltdilər yamacında,
Höte gəzən qucağında.
Boran qopdu, külək əsdi,
nəğməsini quşlar kəsdi.
Oxumadı böcəklər də,
çəmənlər də, çiçəklər də
ayaqlandı axşam-səhər,
bura əsir gətirdilər.
Bu meşədə güllə səsi,
əsirlərin ah-naləsi
hey qarışdı bir-birinə,
qanlar axdı su yerinə.

Bəşər çəkdi bu zavalı,
sən "Buhenvald" adlanalı.
Buh meşəsi, yenə də sən,
gəzməlisən, görməlisən,
baxmalısan, gözəl diyar.
Səndən bircə xahişim var:
bir anlığa küləklərin
qoy əsməsin.
Quşların da uçmaq üçün
tələsməsin.
Buhenvaldın keçmişindən
bir faciə danışım mən.
Bunu Höte yazmayıbdı,
List də qulaq asmayıbdı
danışdığım bu söhbətə,
bu yanıqlı hekayətə.

2

Almaniya torpağında,
taxta başmaq ayağında
on bir yaşlı əsir uşaq,
üç gecədir hıçqıraraq
sola dönür, yata bilmir,
sağa dönür yata bilmir,
gözlərinə yuxu gəlmir.
Barak isti, hava ağır,
nəfəs alır ağır-ağır,
fağır-fağır.
Baxır arıq əsirlərə,
üstü cırıq əsirlərə.

Üzlər görür: nə tüklüdü,
biri boynubükülüdü,
biri yatır yumaq kimi,
o birisi oyaq kimi: –
gözü açıq, özü yatır.
Sayıqlayır solda biri,
taxt balaca, kürək iri.
Yerə dəyir ayaqları,
qupqurudur dodaqları.
Bir qoca var, bığlı qoca.
O da yatır, yatır ancaq
ağzı açıq... bəs o nədir?
Suxarısı əlindədir.
Yata bilmir əsir uşaq,
ürəyi var, körpə quşdur,
ağlamaqdan yorulmuşdur.
Göz yaşıyla yuyur ancaq
əl-üzünü səhərlər o...
Nəfəs alır birtəhər o,
halı yaman qarışmışdır,
nə qorxu var, nə canda can.
Qorxuya da alışmışdır
əsirliyə alışandan.

Yata bilmir əsir uşaq,
sol böyrünün ağrısından,
sağ böyrünün ağrısından.
Ufuldanır, ana deyir,
xəyalında qoğal deyir,
palto geyir, köynək geyir,
gah da mavi pencək geyir.
Əldə əlcək, başda papaq,
velosiped sürür uşaq.

Həyət geniş, küçə yaxın...
Elə bu dəm nazik budaq
arasına keçir çarxın,
yıxılsa da durur ancaq.

Bəs o nədir? Güllə səsi.,
sınır evin pəncərəsi.
Bomba dinir sonra "gur, gur!"
Sarmaşıqlı eyvan uçur.
Velosiped düşür yerə,
od vurulur pərdələrə.
Ana!-deyir, anası yox,
ata!-deyir, atası yox.
Səsi batır bağırmaqdan,
ata, ana çağırmaqdan.

Boğazına tüstü dolur,
isti olur,
soyuq olur.
Bir maşına mindirirlər,
gecə ikən göndərirlər.
Əsir olur körpə ikən,
bir yol tüfəng götürməyən.
Tərəzidə çəksən əgər,
tüfəng ondan ağır gələr.
Ölçsən əgər, nə boyu var,
tüfəng ondan uzun olar.
Çox uzundur giliz, inan,
onun orta barmağından.

Əsir ikən,
baş açmayır nədir əsir.
Niyə onun ətrafında
itlər gəzir?
Niyə ona bu faşistlər,
səhər-səhər
nömrələnmiş köhnə köynək
geydirirlər?
Nə üçündür bu su qabı?
Köhnə başmaq?
Sonra bilir, sonra bilir
əsir uşaq.

Almaniya torpağında,
taxta başmaq ayağında
on bir yaşlı əsir uşaq
ağlayaraq, hıçqıraraq
gecə olur, dözə bilmir,
gündüz olur, gəzə bilmir.

3

Arıq bir əsir,
cansız bir əsir,
rəngi ağarmış
qansız bir əsir
baxır uşağa,
köks ötürərək.

Xəstə canında
sağlam bir ürək.
Qandalı yoxdur
baldırlarının.
İflic vurubdu
ayaqlarını.
Bir az marqarin,
bir az suxarı,
bir içim də su.
Əsir uşağa
uzadır onu.
Diliylə demir,
əliylə deyir,
gözüylə yeyir.
Bu körpə polyak
yığır dizini,
boynunu əyir.
Yuxusuz gözə
yuxu gəlməyir.
Taxta nə bərkdi,
taxta daş olub.
Ağlamasa da,
üzü yaş olub.
Taxta daş olub, –
ağrıyır qolu,
qabırğaları,
dizi, topuğu
və barmaqları.
Taxta buz olub
dondurur onu.

Taxta od olub
yandırır onu.
Taxtabitilər
hər axşam-səhər
sorur qanını.
Bulandırırlar
duru qanını.
İniltisinə,
ufultusuna;
Qalxıb bir əsir
yanaşır ona.
Unudub əsir
öz ağrısını,
verir suyunu,
suxarısını.
Öyrəşib üzü-gözü...
Uşağın heç bir sözü
hələ yerə düşməyib,
heç kəs ondan keçməyib.
Baxıblar ata kimi,
seviblər bala kimi.
Tikiblər yamağını,
yuyublar ayağını.
Kəsib çörəklərindən
çörəyinə qatıblar.
Qorxanda, gecəyarı
ona yaxın yatıblar.
Sularından saxlayıb
su veriblər yananda.
İsti şey bürüyüblər
üşüyəndə, donanda...

4

Sarı, ipək saçlara,
sarı, xırda qaşlara
baxdıqca, baxır əsir.
Köks ötürüb düşünür,
uşaq bir az üşünür.
Üzündə kölgə gəzir.
Ufuldanır, uçunur.
Başqa əsir də durur.
O da gəlir yaxına,
öz dilində söz deyir,
bir azca da döz deyir.
Eşitmir körpə əsir,
arıq əlləri əsir,
arıq bədəni əsir.
Elə bil ki, üzünə,
solan mavi gözünə
kölgə düşür, gün düşür,
qaşları düyün düşür...

Yenə o ev, o eyvan,
qışqırır da ucadan.
Görür velosipedi,
minir velosipedi.
Sürür bağçaya-bağa.
Evlərindən uzağa.
Yenə o bomba səsi,
yenə o yad gülləsi.
Yıxılır üzü üstə,
sürünür dizi üstə.

Ağlayır hıçqıraraq.
Oyanır bütün barak,
hamı qalxır ayağa.
yenə əsir uşağa
biri çörək gətirir,
biri köynək gətirir.
Biri görəntək onu, –
gətirir uşaq üçün
saxladığı suyunu.
Hərə bir şeylə gəlir,
hamı gileylə gəlir.
Oyaqdı bütün barak,
keçinir fəqət uşaq.

Almaniya torpağında,
gözəlliyi dodağında
on bir yaşlı əsir uşaq,
körpə polyak
həlak olur
ac və çılpaq.

## *EPİLOQ ƏVƏZİNƏ*

Beymarda mən bir bağ gördüm,
bağ dolusu uşaq gördüm,
uşaqları xoşbəxt gördüm.
Var idi bir güləni də,
velosiped sürəni də.
Sevinirdi o bağça-bağ,
velosiped sürən uşaq.
Tüstüləndim, alışdım mən,
oda, közə qarışdım mən...

*Beymar, Bakı. 1962*

# Rəsul Həmzətova Məktub

*Oxudum mən "İran silsilənizi",*
*var olsun o qələm, o ilham, şair.*
*Amma "Azərbaj‡an silsilənizi"*
*oxumaq dilədim,*
*danmıram, şair.*

**I**

Şairə, torpa‹a h‰rmət, ehtiram,
şerim lajiq olsun qoj adınıza.
Xoşdur dedijiniz hər duzlu kəlam,
əhsən sizin də ‰z ustadınıza.

Lakin, əziz şair, başqadır s‰züm,
nə dejim, bəlkə bu, adi ri‡ətdi.
Bir qədim torpa‹ın adından sizə
bəlkə də birin‡i müra‡iətdi.

Bilirəm siz həssas, ürəji təmiz,
müdrik o‹lusunuz bir məmləkətin.
Bir də i‡timai xadimsiniz siz,
şanlı üzvüsünüz siz h‰kumətin.

Halal haqqınızdı, ad almısınız,
jaşajın sənətin bu vüqarıjla.
Qalxıb pillə-pillə u‡almısınız,
siz ‰z şerinizin misralarıjla.

B‰jükdür ürəjin eşqi, diləji,
şeir də, sənət də jerin səsidi.
Dünjada bəlkə də şair ürəji
ən k‰vrək duj‹ular salnaməsidi.

## II

Keçdiniz bir səhər bizim Arazı,
siz ilk elçijdiniz,
                    rəsmi bir qonaq.
Qo‡a Ver…ilinin “Eneida”sı
Arazdan danışıb eradan qabaq.

Nə vaxtdı sərhəddi,
                    o, qan-qar‹ışdı.
sahili …ül açıb ba‹ça-ba‹ olmur.
Araz – bir ərimiş maje qılın‡dı,
əjilib torpaqdan qaldırmaq olmur.

## III

Bir şair dostum var, eşqi bir aləm,
Təbrizdə s‰hbəti, s‰zü dejilmir.
Sərhəd dirəjidir, əlində qələm,
elə hej laxladır, çıxarda bilmir.

Əlijlə[1] janaşı ejvanımız var,
sevir bu torpa‹ı, həjatı, şair.
Bakıda bizim bir ünvanımız var,
amma talejimiz ajrıdı, şair.

Onların şerini çox oxumuşam,
…‰rün bir nə dejir bu iki misra:

---
[1] Şair Əli Tudə (*red.*)

“İki b‰lünməkdən elə qorxmuşam,
ç‰pü də ikijə b‰lmərəm daha”.[1]

O tajdan bu taja pənah …ətirən,
do‹ma anasından ajrılıb …ələn.
qızlar ana oldu, nənələşdilər,
fəqət İstiqbaldan joxdu bir xəbər.

**IV**

Oxudum mən “İran silsilənizi”,
var olsun o qələm, o ilham, şair.
Amma “Azərbaj‡an silsilənizi”
oxumaq dilədim,
danmıram, şair.

Düzü, istədim ki, siz dejəsiniz
orda Azərbaj‡an məmləkəti var.
Siz, Rəsul Həmzətov, s‰z dejəsiniz!
Hər xalqın, millətin hejsijjəti var.

Bizdən siz idiniz, bir nəfər, şair,
…‰rən bizim xalqı, qədim torpa‹ı.
Bir də uman jerdən küsərlər, şair,
sizdən …‰zləjirdik, umurduq, axı.

Orda tarixi var Azərbaj‡anın,
xalqın zəkası nur, sinəsi dastan.
Siz də jazmısınız — qo‡a Xəjjamın,
bir də Firdovsinin jurdudur İran.

---

[1] Beyt şair Söhrab Tahirindi (*müəllif*).

Əzəli h‰kmüdür bu, ‡əmijjətin,
kimə danış dejir, kimə sus, – dejir.
Əvvəldən indijə hakim millətin
z‰vqü hakim olub, —
Marks düz dejir.

Xalqın tarixini o dandı, şair,
qabıqdan çıxdıq‡a qabarlı əllər.
Min illik ləjaqət tapdandı, şair,
sübutmu …‰stərim, —
tufanlı illər!

Altıda[1] Səttarxan hərəkatı var, —
Lenin qijmət verib ‰z zəkasıjla.
Tarixin ajrı‡a hesabatı var,
Təbriz fəxr eləjib o‹lu-qızıjla.

Kəsib qapısının a‹zını düşmən,
xalq jenə jaşajıb o pislik ilə.
İjirmin‡i ildə Xijabanidən
İran qisas aldı,
a‡izlik ilə.

Vaqifin şerini bəjənmədilər,
"xər dili" —
…‰r ne‡ə b‰htan dedilər?
o "xəri" sizə də ‰türdü, şair,
farsın fars vi‡danı …‰türdü, şair.

---

* 1905-1911-‡i illər nəzərdə tutulur (*red.*).

Hardajdı sizdəki s‰zün kəsəri?
Farslar unutmuşdu sojadlarını.
İs…əndər Daranı qojdu o jerə,
farslar türkə qojur ‰z adlarını.

Siz bizim Vur‹unu "ustad" sajdınız,
Kajsınla[1] birlikdə siz arxajdınız.
Hələ Mustaj Kərim[2] — şair dostunuz,
nə qədər ürəjə siz toxundunuz?!

Jəqin "Jandırılan kitablar"ımız[3]
çıxıb jadınızdan bir anlıq orda.
Jaxın qonşusujuq qədim İranın, —
Jaxşılıq burdadı, yamanlıq orda.

Burda Firdovsini sevirik biz də,
"Şahnamə" oxuduq ‰z dilimizdə.
Sabiri dandılar İranda müdam,
ananın d‰şünü kəsdilər, şair,
o‹ulun başını kəsdilər, şair,
dünja şairləri susdular, şair!

Qırx beşdə təzədən millət jeridi,
dərs alıb mərd o‹lu Pişəvəridən.
O da BU TƏRƏFDƏ —
düz qırx jeddidə,
maşın qəzasına düşdü "qəfildən".

---

1 Kaysın Kuliyev – balkar şairi *(red.)*.
2 Mustay Kərim – başqırd şairi *(red.)*.
3 S.Vur‹unun "Jandırılan kitablar" şerinə işarədir *(red.)*.

Kiçik bir hekajət danışım sizə,
Düşməjib bu, “İran silsilənizə”.
Sojuq sən…ərlərdə fədailərdən
biri jaralanır bir neçə jerdən.
Jaralı, həkimi jaxına qojmur,
Xahiş eləjirlər, başa salırlar,
jenə “jox” — bir kəlmə ‡avab alırlar.
Jalnız Sərdar …əlsin, dejir o ‡avan.
Səttarxan jetişir:
— O‹lum!
— Ata‡an!
Dejin qadın …əlsin, a‹ırdı jaram,
o vaxt paltarımı mən sojunaram.
O‹lan …ejimində, baba, qızam mən,
jerdən qalxan kimi o‹lunuzam mən.
Sərdar “əhsən” dejib ‰pür alnından,
tarixə ş‰hrətdi o qız, o ‡avan.

Qoj heç kəs deməsin zaman unudur,
hələ imtahanı çoxdu zamanın.
Belə‡ə, qısa‡a tarixi budur,
bizim o Tajdakı Azərbaj‡anın.

Mən də kitabları varaqlamışam,
bu jerlər tanınıb namus-arıjla.
Alban torpa‹ında — ‰z ulu babam,
vuruşub Pompejin ordularıjla.

Şair, eşidilir səsiniz sizin,
dejin, hər nidanız mənə əzizdi.
Həmzətov kürsüsü var şerimizin,
bu ən hərarətli nəfəsinizdi.

„əzdiniz, …‰rdünüz uzaq dijarı,
o …ünlər tarixi …ünlərdi, şair.
“„‰j Məs‡id”,
“Urmija”,
“Təbriz bazarı”...
Hərəsi ajrı‡a əsərdi, şair,
sizin şerinizi bəzərdi, şair.

Qo‡a Şəhrijarla s‰hbətinizdən,
sizin mehrinizdən, ülfətinizdən
bir dastan jaradıb el-elə jajıb,
ürəjə od salır hər ‡ümləsijlə.
Hələ bir şeriniz çap olunmajıb
“Təbriz”,
ja “Urmija” sərl‰vhəsijlə.

**V**

Burda ehtiram var daima sizə,
əziz saxlajırıq biz də bu hissi.
Nəbi[1] jola salıb sizi Təbrizə,
‰zü …‰rməjibdi hələ Təbrizi.

Vur‹un qajıdıbdı Xudafərindən,
o janıb bu odla, bu etirazla.
O vaxt k‰ks ‰türüb o da dərindən,
şair, qəm ekizdi burda Arazla.

---

[1] Şair N.Xəzri *(red.)*

Sülejman Rüstəmin şeri, qəzəli
dejir ki, əl vurma, külümdə k‰z var.
Qürbətdən vətənə baxdı Füzuli,
vətəndən
vətənə baxır Bəxtijar.[1]

Bəzən od püskürür jerin nəfəsi,
şair narahatdı, alim ni…aran.
O Tajla bu Tajın müqajisəsi,
‰zünüz …‰rdünüz: zəmin-asiman!

Sizə də do‹madı mən‡ə, bu torpaq,
rəmzidir baharın, bir də ki, jazın.
"İran silsiləniz" tamamlana‡aq
jeni nə‹məsijlə
jalnız Arazın!

Qızınır daima ürək bu oda,
səhər – inandı‹ım bir həqiqətdi.
Mənim bu xahişim,
bu məktubum da
sizə və tarixə müra‡iətdi.

*1977*

---

[1] Şair B.Vahabzadə (*red.*)

# Qız Ürəyi

*...İlk eşqin taleyi çırpıldı daşa,*
*demə, təəssüflə qəribə işdi.*
*O, yeni girmişdi iyirmi yaşa,*
*bir il, beş ay idi gəlin gəlmişdi...*

I

Anaqız danışıb, güldü ürəkdən,
Sevinci, şadlığı başından aşdı.
"Şad xəbər, şad xəbər gözləyirəm mən", –
daha söz demədi, dili dolaşdı.

Gəldi qulağına çağanın səsi,
Qışqırıb ağlayır o, kəsik-kəsik.
Güldü Anaqızın yorğun çöhrəsi,
Qapının ağzına qaçdı tələsik.

Neyləsin, yol çəkir gözü bayaqdan,
Axşamdan çox keçib, daha gecədi.
"Görəsən oğlandı, qızdı bu şeytan,
Görəsən, Mərcanın özü necədi?"

Bir çıxan olmadı lakin qapıya,
Körpənin cır səsi gəldi uzaqdan.
Anaqız çıxıbdı yaddan olmaya,
O ki, ayaq üstə durur bayaqdan?...

İnsan heç gətirmir ağlına bəzən,
Bir anlıq olurmuş yüz illik ömür.
ürək duyduğunu hələ dil demir,
Anaqız, qoy sənə deyim indi mən:

Yonulmuş heykələ dönmüşdü gəlin,
Tamam yumulmuşdu göz qapaqları.
İlk uşaq üstündə ölən gözəlin,
Dümağ ağarmışdı al yanaqları.

İlk eşqin taleyi çırpıldı daşa,
demə, təəssüflə qəribə işdi.
O, yeni girmişdi iyirmi yaşa,
Bir il, beş ay idi gəlin gəlmişdi...

Uzalı qaldısa əli Həsrətə,
Bağlandı ilk eşqə, ilk məhəbbətə.
Yəqin son nəfəsdə, son dəqiqədə,
Qəlbində gizli bir söz dedi getdi.

Son dəfə həkimin baxdı gözünə,
Gümanı gəlmədi lakin özünə.
Hamı qulaq verdi axır sözünə,
hamıdan bir imdad istədi getdi.

Yadına saldıqca olub keçəni,
Gecə onu sıxdı, o da gecəni.
"Həsrət, mən sevirəm, unutma məni..."
Həsrəti həsrətlə səslədi getdi...

Anaqız qalmadı xəstəxanada,
O, evə yüyürdü gözləri dolmuş.
Qəlbi közə döndü, yanağı oda,
Görənlər dedi ki, qıza nə olmuş?!

Düşdü üzüquylu taxtın üstünə,
Kilimi islatdı gözünün yaşı.
O, bulud sayağı tutuldu yenə,
O gün axşamacan ağrıdı başı.

Görəsən yazsınmı bunu Həsrətə,
Yazsınmı, itirdik bacım Mərcanı.
Atasız, anasız qalıb körpə də...
Yox, onda qəm-qüssə sıxar oğlanı.

Uşağı özgəyə verən deyildi,
Od tutub alışır özü ürəkdən.
"Bacılıq olmuşuq biz neçə ildi,
Onu ömrüm boyu unutmaram mən".

O, bir bayatı da oxudu qəmlə,
Bahar buludutək gözü dolubdu.
Sonra, məktub yazdı dərdlə, ələmlə:
"Həsrət, gözün aydın qızın olubdu!..."

* * *

Lakin, gedib yetişmədi məktub Həsrətə
Bir ay keçdi, Anaqıza cavab gəlmədi.
Dözdüsə də, çox sıxıldı o, bu həsrətə,
Ürəyi də sinəsində heç dincəlmədi.

Körpəciyə göz olduqca bir ana kimi,
Vaxt oldu ki, başqa işə əli yetmədi.
Çağa yumşaq beşiyində yatana kimi,
Anaqızın gözlərinə yuxu getmədi.

O, bir dəfə oyaq qaldı bütün gecəni,
Töküb sarı samavarın çayından içdi.
Xəyalına gətirdikcə olub keçəni,
Gözlərinin qabağında görün nə keçdi:

"Yaşıl eyvan, tut ağacı, ətraf gül-çiçək,
Mərcan bacı nə qiyamət mahnı oxuyur!..
Bir parçanın üstündə də əl gəzdirərək,
Körpə maral buynuzunu təzə toxuyur...

Çay qırağı, ocaq üstə qulplu bir qazan,
Ata-baba dövləti də işə yarayır.
Mərcan bacı bir kasa da doldurub sudan,
Anaqızın saçlarını yuyub darayır..

O, indi də yemlik yığır göy biçənəkdən,
Bunun da öz aləmi var aran yerində.
Səhər-səhər süd sağaraq təpəl inəkdən,
Anaqıza pay gətirir öz əllərində..."

(Qonşu var ki, qohumundan daha yaxındı.
Sənlə ölən gününədək canhacan olur.
Qonşu da var, qəlbi xain, özü paxıldı,
heç bilmirsən o dost olur, ya düşman olur.)

Anaqızı Mərcan bacı sevir nə vaxtdan,
Cavan qızdı, qanı isti, ürəyi təmiz.
O qız süfrə üstündə də çıxmamış yaddan,
Qonşuları bu həyətdə tək görməzsiniz.

Səhər-səhər qanad çalıb ala sağsağan,
Elektirik məftilinin qonur üstünə.
Anaqız da quşcuğazı görüb bu zaman,
Söyləyir ki, xeyir olsun, ötürsən yenə?..

Mərcan bacı məktub aldı yenə Həsrətdən
O gün zərfi sevinc ilə açıb oxudu.
– Ay Anaqız, salam vardır sənə Həsrətdən,
Bu varağın ayağında gör nə yazıb o:

"Peymanımız yadımdadır, sevimli Mərcan,
Xəyalımdan çıxartmaram səni bir an da.
Qızım olsa, adını da özün qoyarsan,
Oğlum olsa, məktubumu gözlə sən onda".

Görürsənmi, nələr yazır mənə bu gədə.
Öz eşqini ürəyində necə bəsləyir.
O, qız kimi utanırdı düzü bir vədə,
İndi məndən qız istəyir, oğul istəyir...

O zamanlar Anaqız da, Mərcan özü də,
Qaqqıldaşıb şirin-şirin necə güldülər!
Dillərindən düşməyirdi "bacım" sözü də,
Onda Kürün qırağına qoşa gəldilər.

Yox, Anaqız ad qoymadı körpəcə qıza,
"Qızım" deyə, "gülüm" deyə yenə çağırdı.
Bu qızcığaz xeyli müddət adsız qaldısa,
Anaqızı ana bildi, ana çağırdı...

II

Bugün sahilini nə yuyur dəniz,
Nə tufan qoparır, nə haray salır.
Əsən meh elə bil bir layla çalır,
Günəş də batdıqca uyuyur dəniz.

Buruqda işıqlar sayrışır yenə,
Dənizin içinə nur ələnibdi.
Elə bil o gömgöy suyun içinə
Ağappaq çiçəklər səpələnibdi.

Bir gəmi dayanıb azca kənarda,
Sakit yırğalanır o da beşiktək.
Bir oğlan Xəzərdə, mavi sularda,
Nə isə axtarır fikrə gedərək.

Bəzən bizim kimi düşünür o da,
Şair olmasa da, vardır ilhamı.
Adı uşaqlıqdan Həsrət olsa da,
Onu "Bosman" deyə, çağırır hamı.

O gənc yola düşür elə bu axşam,
Deyirlər, uzaqdır onun səfəri.
Mən yenə bayaqdan fikrə dalmışam,
Həsrətin heç şeydən yoxdu xəbəri.

Taqətsiz qalmışdı Mərcan bir müddət,
Nəfəsi gah gəlir, gah da gedirdi.
Kim bilir, bəlkə də, o zaman Həsrət
Mərcandan fərəhlə söhbət edirdi.

Qəlbinin səsinə qulaq asaraq,
Mərcan son nəfəsdə "Həsrət" deyəndə.
Bəlkə, ikinci bir məktub yazaraq,
Oğul istəyirdi Həsrət yenə də...

(Bəlkələr, bəlkələr yorub insanı,
Ötəri təsəlli yarandınız siz,
Dünyada sizin də ümid əliniz,
Tutub qaldırmadı bir yıxılanı)...

Yanında Otari-gürcü balası,
Budur kayutada oturub Həsrət,
Arabir əsnəyir söhbət arası,
Görən nə deyir ki, yorulub əlbət.

– Otari, sevgilim yadıma düşdü,
Əyə, o da mənim oduma düşdü...
Kənddə bir özüdü, bir də tək mənəm,
Nə atam, nə anam, nə də qaynənəm,
Evlənib mən gəldim, tək qaldı evdə.
Deyirəm yanımda ya bircə həftə,
Ya da ikicə gün qalaydı, nola,
Üzünü görmürəm düz iki aydır.
Eh, ay dost, yanında arvadın ola,
Qolunu yavaşca boynuna dola...
Nə bilim, yıxıl yat dizinin üstdə,
O da bəsləyəcək gözünün üstə.
Gözəl bir ailə, yaxşı ev-eşik,
Sonra da bir körpə, bir də bir beşik.
Uşağın böyüyüb ata deməsi,
Oturub bir qabda çörək yeməsi.
Arvadın yanında "kişilənməyin"
Nə bilim, nə bilim daha da nəyin...
Əyə, heyif deyil evli yaşamaq?
Sən nahaq subaysan, gəl sözümə bax,
Burdan dönən kimi get evlən özün,
O qızda, bu qızda qalmasın gözün...

Dostunun üzünə baxıb bu ara,
Otari ürəkdən gülür doyunca.
Deyir: – Etibarım yoxdu qızlara,
Evlənən deyiləm ömrüm boyunca.

Onlar məhəbbətə vəfasız olur,
Sevmək əvəzinə qısqanır ürək.
Yüzdə bir, mində bir yaxşı qız olur,
Onu da axtarıb tapasan gərək.

– Otari, qardaşım, mənə qulaq as,
Yaxşı qız yoxdurmu dünyada məgər?
Hamıya pis desən heç işin aşmaz,
Qızlar da eşidib səndən inciyər.

Mən evli kişiyəm, nə var ki, mənə,
Bugündə, sabahda oğlum olacaq.
Qoy indi bir nağıl söyləyim sənə,
Bunu da yadından çıxarma ancaq.

Qədimdən bir nağıl başladı Həsrət,
Ürək boşaldıqca gözlər də doldu.
Hər sözün əvvəli əhdə sədaqət,
hər sözün axırı məhəbbət oldu.

Otari oturub qabaq-qabağa,
– Lap yerinə düşdü,– deyir – bu söhbət.
Bizim nağıllar var, başdan-ayağa,
Sizin nağıllara oxşayır, Həsrət.

Min ilə yaranır hər kiçik nağıl,
Fikri, zakasıdır o bir millətin.
Çiynində dağları qaldırır ağıl,
Gücüylə saf eşqin, saf məhəbbətin.

Xalqımız içdikcə Kürün suyundan,
Sevinci, kədəri bölündü yarı.
Ağ yala su gəldi Qaqri çayından,
Bizə arxa oldu Qafqaz dağları.

Şotanın ürəyi yandı xalqına,
Sevdiyi qəhrəman Tariyel oldu.
Koroğlu qılıncı qoymadı qına,
Onun da məskəni Çənlibel oldu.

Mənim sözlərimi eşidin, Həsrət,
Eşidib öyrəndim bunları mən də.
Dizimə güc gəlir, qoluma qüvvət,
Mən sizi danışıb gülən görəndə...

III

Anaqız bu axşam evdə darıxdı,
Bilmədi heç kimin üstünə getsin.
Uşaq da sınıxıb, yaman arıqdı,
Əlindən nə gəlir, ona nə etsin?!

Nazik dodağının qanı qaçıbdı,
Qonur gözləri də çökəyə düşüb.

Nə ayaq tutubdu, nə dil açıbdı,
İndidən o, yorğan-döşəyə düşüb.

Canı ağrısa da, hiss etmir uşaq,
Büzür dodağını, yumur gözünü.
Anaqız yerindən dik atılaraq,
Beşiyin yanına verir özünü.

Deyir: "Nə söylərəm bəs Həsrətə mən?
Ömür də olubdu keçəri bir quş...
Bəlkə, xəstələnib inək südündən,
Bəlkə, anasızlıq belə olurmuş?"

Düşündü Mərcanın haqq-sayını,
Nələr etməmişdi o Anaqıza.
Sonra da, özünün şirinçayını,
Üfürə-üfürə içirtdi qıza...

Alıb qızcığazı "ana" qoynuna,
Şirin layla çalır o, aram-aram.
Mən də qulaq verib bir anlıq ona,
Yenə dərin-dərin fikrə dalıram.

* * *

Çinar kölgəsi,
Suların səsi,
Çoban tütəyi,
Dağın ətəyi,
Bir də sən özün...
Yol çəkir gözün,
Ay Anaqız sən,
Nə düşünürsən?
Yatır körpə qız,
Yatır qayğısız.
Yuxuda gülür,
Nurlar tökülür
Onun gözündən.
Onun özündən
Yoxdu xəbəri.
Qıvrım telləri,
Qaşı, gözü də,
Bir az özü də
Qaradı, qara.
Göyçək qızlara
Vallah onu sən
heç dəyişməzsən!
Dolubdu gözün,
Qız ikən özün
Layla çalırsan.
Yada salırsan
Olub keçəni.
Amma, qız səni
İstəyir yaman.

Bir də, hər zaman
Fikir dağıdır,
Qız uşağıdır –
Şeytandır bütün.
Gözündən bir gün
Onu qoymursan,
Öpüb doymursan.
Anasan, nəsən?
Açıq söyləsən
Sən bu hikməti!
Ana şöhrəti,
Analıq adı
Qismət olmadı
Bir çoxlarına.
Ana, ay ana!
Bu adınla sən,
Nə müqəddəssən!...
Qızcığaz durur,
Yenə oturur
Dizin üstündə,
Ona bu gün də
Öz əlinlə sən
Tez süd verirsən.
Bir inək südü.
Körpə böyüdü.

Pislik də dünyanın özünə qaldı.
Səndə qonşuların gözü nə qaldı!..
Sən gah "ana" oldun, gah da qız oldun,
Sən bizim anamız, bacımız oldun.

Nəyin xatirinə etdinsə bunu,
Yandın da halına o körpə qızın.
Bu söz söylənəcək illər uzunu,
Kaş, bizim qızlar da sənə oxşasın...
– Anaqız, Anaqız, sağ ol, a bala,
Alnıaçıq görüm daima səni.
– Niyə neyləmişəm, ay Nabat xala,
Təzəmi görürsən yanında məni?
Gəlib fermadaca inək sağaram,
Evdə də uşağa özüm baxaram,
Böyük qələbə-zad çalmamışam ki,
Ya da qızıl ulduz almamışam ki?..
– A bala, hökümət eşitsə bunu,
Dediyin o qızıl, döş ulduzunu
Gəlib özü taxar yaxana, özü, –
Lap ürəkdən gəldi onun bu sözü.
Anaqız arvadı bərk qucaqladı,
Qəlbindən dağ seli coşub çağladı.
Kürün ətəyində günün bu vaxtı,
Qayalar əks etdi gülüş səsini.
Dönüb naxırçı da onlara baxdı.
O, yarıda qoydu öz nəğməsini.
– Qızım, o Mərcanın balasını sən,
Öz düşünə çəkib tək böyüdürsən.
Uşağı saxlamaq deyil ki, asan.
Hamı da bilir ki, kişi qızısan.
Hələ o gecə də qız naçaqlayıb,
Deyirlər, özü də yaman ağlayıb.
Gəlib bir deyən də olmayıb bizə,
Xəbər göndərəydin bir evimizə.

– O axşam ərindim sizə gəlməyə.
– Niyə, dərdin alem?
– Deyimmi niyə?
Düzü "canı yanmış" yormuşdu məni,
Özü də yatmadı bütün gecəni,
Yandı, odun-közün içində yandı.
Mən elə bildim ki, nəbzi dayandı.
Dedim, muradımı qoydu gözümdə.
Dözməyib ağladım mənim özüm də.
Bir də, Nabat xala, düzünü gəzsən,
Uşaq yaxşı şeymiş, bilmirdim heç mən.
Həm də qız uşağı, gülsə bircə an,
Bütün əziyyətin çıxır yadından.
Yazıq Mərcan bacım, qızı görmədi,
Öz ilk nübarını özü görmədi.
hər gedib-gəldikcə onun qəbrinə,
Qızı göstər deyir elə bil mənə.
Mən də başdaşını qucaqlayıram,
Gah sakit dururam, gah ağlayıram...

Göydəki buludlar sıxlaşdı bu dəm,
Külək də əsmədi, tutuldu səma.
Həmişə sükutu mən də sevmirəm,
Adam qəlbilə də danışır amma.

Axdı şırıltıyla nəğməli bulaq,
Çırpdı qanadını sığırçın suya.
Yenə dağa-daşa haray salaraq,
Naxır da tökülüb gəldi fermaya.

– Sağ ol, Nabat xala, di qayıdım mən,
Qızcığaz yatıbdı, ayılar birdən.
Özüm yoxlamışam "Maral" inəyi,
Yamanca böyükdü onun köməyi:
Qıza içirdirəm – təmiz südü var.
– A bala, onda bu kasanı apar.
Özüm bu qabdaca qatıq çalmışam,
Bir atlama qayır qıza bu axşam.
Aparıb-eləmə qonşuya-zada;
Camış qatığıdı onun dərmanı,
Nolar ki, evimiz ayrı olanda,
Yenə bir yada sal Nabat xalanı.
Anaqız qatığı ondan götürür,
O da beş-on addım onu ötürür.
Yenə də fermaya qayıdır, bu dəm,
Mən Nabat xalaya fikir verirəm:
Baxıb Anaqızın dalınca bir an,
Deyir: – Sən doğrudan, kişi qızısan!

**IV**

Bir axşam tərəfi qayıtdı Həsrət,
Çoxdan ayrıldığı doğma kəndinə.
Dayanıb o, baxdı bir xeyli müddət,
Özünün kiçicik aynabəndinə.

Lakin içəridə nə işıq yanır,
Nə də tüstü qalxır ocaq yerindən.
Qəlbində min yeni duyğu oyanır,
Görəsən nə keçir fikirlərindən?..

Qoyur çamadanı əlindən yerə,
Üstünü-başını düzəldir bu an.
O, göz gəzdirərək doğma yerlərə,
Sonra öz-özünə deyir astadan:

"Yəqin qonşuluqda oturub indi,
Təkliyin əlindən gəlibdi cana.
Onu qınamıram, cavan gəlindi,
Özüm də borcluyam hələ Mərcana.

İlk ev, ilk ailə, bir də ilk uşaq,
Qədrini bilməyən nə çoxdur sənin!
Görəsən dünyada nəyi qalacaq
Gündə birisiylə gün keçirənin.

İndi ya bir oğlum, ya da qızım var,
Övladdır, qoy olsun, atayam demək.
Niyə bağlanıbdı bizim qapılar,
Bu axşam vaxtında haraya gedək?

Bəs bu ev-eşiyin yiyəsi hanı?
Niyə süpürməyib qapı-bacanı?
Elə bil bu evdə Həsrət gedəli
Gəlinin hər şeydən soyuyub əli.

Niyə tut ağacı boynunu burub,
Yad adamlar kimi dinməzcə durub?
Hanı öz qıfılı, niyə qapıdan
Başqa bir qıfıldı indi asılan?

Niyə toz basıbdı pəncərələri?
Silib dirsəyilə, baxır içəri.

Gözünə inanmır, lap heyran qalıb...
Evin yerinimi dəyişik salıb?!

Bax, odur Mərcanın isti şalı da,
Odur, boz kilim də, böyük xalı da.
Qatlayıb qoyublar taxtın başına.
Hər şey başqa donda görünür ona.

Dibçəkdə yarpağı solubdu gülün,
sanki, başqa bir əl, başqa bir gəlin
Evi başqa cürə sahmana salmış!
Sarı samavar da eləcə qalmış...

Həsrət qonaq gəlir Anaqızgilə,
Əl verib görüşür səmimiyyətlə.
O yenə qapıdan boylanıb çölə,
Mərcanı soruşur ondan hörmətlə.

Anaqız nə desin sənə, a Həsrət?
Dili tutulubdu görürsən, qızın.
Qoşa ömür sürsün sevgi, məhəbbət,
Heç eşqin taleyi belə olmasın...

Körpə, Anaqızın qaçır üstünə,
Onu iki əlli götürür yerdən.
Elə bil qayalar uçur üstünə,
Anaqız hıçqırıb ağlayır birdən.

Həsrət baş açmayır bu işdən, düzü,
"Ərəmi getmişdi Anaqız özü?"
Lakin soruşmağa gəlməyir üzü,
Dolaşır ağzında bir kəlmə sözü...

– Həsrət, qız Mərcandan yadigar qalır...
Dizləri titrəyir, rəngi saralır.
Elə bil tutulur dili Həsrətin...
Sındı, yaman sındı beli Həsrətin...

– Ay aman, gör nələr eşidirəm mən.
Anaqız, Anaqız, din, ay Anaqız!
Tək qaldım ilk ovum uçdu əlimdən,
Mənim qız balam da qaldı anasız.

Yerində deyiblər: qismət ki, qismət!...
Oğlanın hələlik bu olur sözü.
Bax, burda ilk dəfə tutulur Həsrət,
Burda da ilk dəfə ağlayır özü...

Qərarı gəlmədi gecə yatmağa,
Lakin yuxudadı bütün təbiət.
O gecə sübhədək aranı dağa,
Dağı da arana daşıdı Həsrət.

Bəzən danışdı da özü-özünə,
Dilindən düşmədi Mərcanın adı.
Nə vaxt yuxu getdi onun gözünə,
Özü də heç bundan xəbər tutmadı.

Uşaq Anaqızı qucaqlayaraq,
Şirincə yatmışdı bu xoş baharda.
Deyirəm, dünyanın işinə bir bax,
Gör ana hardadı, balası harda!..

Ay da pəncərədən göz gəzdirərək,
Buluddan buluda keçib gedirdi.
Arabir qapını döyürdü külək,
Həsrət öz-özünə söhbət edirdi.

Səhər gülərüzlə açıldı yenə,
Günəş yenə doğub, göyə yüksəldi.
Həsrət pencəyini atdı çiyninə,
Təklənib düz çayın üstünə gəldi.

Öpdü üz-gözünü sübhün xoş mehi,
Min bir ətir gəldi güldən-çiçəkdən.
Bu gün təbiətdə bütün hər şeyi,
O da ilk görüşdə sevdi ürəkdən.

Qayadan bir leylək qalxdı havaya,
Uçdu çay aşağı qanad çalaraq.
Ah, o quş Həsrətdən qorxdu olmaya,
O ki, sakit durur fikrə dalaraq...

Bir çəmən çiçəyi, bir sahil daşı,
Bir yalın ətəyi, bir dağın başı,
Bir aran ördəyi, bir çaylaq quşu,
Bir də Həsrət oldu çay qırağında.

Gözlər gah meşəyə, gah çaya baxdı,
Sorma, niyə baxdı, haraya baxdı.
Gah ulduza baxdı, gah Aya baxdı,
Gizli xiffət oldu çay qırağında.

Sular tez apardı sözü, söhbəti,
Dağıldı ürəyin qəmi, möhnəti.
(Kimin ilk sevgisi, ilk məhəbbəti,
Kimə qismət oldu çay qırağında?!)

...Anaqız yüyürüb gəlir bu ara.
– Qonağın gəlibdi tez gedək deyir.
Anaqız mətləbi çox gödək deyir,
Sonra bulud enir o baxışlara...

Fikirdən, xəyaldan, ayılır Həsrət,
Nə qədər sıxmışdı ürəyini qəm!
Burda bir anlığa susur təbiət,
Mən də bir anlığa sükut edirəm...

## V

Stəkan Həsrətin qabağındadı,
Lakin soyuyan çay düşürmü yada?!
Körpə, Otarinin qucağındadı,
Uşaqla danışıb, oynayır o da.

Anaqız süfrəyə xörək gətirib,
Bu dəfə tələsik qayıtdı geri.
Matros dostlarından salam yetirib,
Yenə zarafatla dindi Otari:

– Həsrət, evimizə qayıdan zaman,
Anam əl çəkmədi yenə yaxamdan.
Nə bilim dedi ki, bu dəfə gərək,
Bir gəlin gətirəm, sənə toy edək.

Daha tək qalmağa qoymaram səni,
Arvad inandırdı axır ki, məni.
Özü də qonşuda bir qız seçibdi,
Söz deyə bilmədim, daha keçibdi...
El-oba eşidib xeyr işimizi,
Gəldim ki, toyuma aparam sizi.

Səni də çox sevir kişin doğrudan,
Dilindən düşməyib bir dəfə adın.

İnan, Mərcan bacı, sən allah, inan,
Nə olar, daha xoş günlərə çatın.

Tutuldu Anaqız, Həsrət özü də,
Qonağın sözləri tərsinə çıxdı.
Sanki körpəciyin doldu gözü də,
Qəm şahlıq taxtına çıxdı, nə çıxdı!

Başqadır şairin ürəyi, dostlar,
Çox vaxt duya bilmir hər ürək onu.
Bilin ki, toxunsa uçurub yıxar,
Bəzən zəif əsən bir külək onu.

Bəzən tufanlara qarşı duraraq,
Yarar şimşək kimi qaranlıqları.
Yüz yerə yozmayın fikrimi ancaq,
Siz də mənim kimi düşünün barı!

Körpəcik qaçırdı o yan-bu yana,
O da öz dilində nəsə deyirdi.
Hələ biganədi qəm, qüssə ona,
Əlində portağal soyub yeyirdi.

– Dostum, körpənin də öz oyunu var...–
O qüssəli görür dostunu fəqət.
Görəsən nə deyir o lal baxışlar,
Doğrudan nə qədər dəyişib Həsrət.

Bu gecə saçına dən düşüb onun,
Danışıb dinməyir nə söz, nə söhbət!
Otari üzünə baxıb dostunun
Yavaşca soruşur: – Nə olub, Həsrət?!

Anaqız nə isə, başa düşərək,
Süpürgə götürüb çıxır həyətə.
– Otari, biz dostuq, danışım gərək, –
O da qulaq verir dostu Həsrətə.

– Necə tanıyasan özün görməmiş,
Qapıbir qonşuyam Anaqızla mən.
Bir həyat sürməmiş, bir gün görməmiş
Taleyim Mərcanı alıb əlimdən.

Adsız böyüyübdü mənim qız balam,
Üstə Anaqızın haqqı-sayı var.
Mən indi adını Mərcan qoyuram,
Mərcanın ruhu da onda şad olar.

Məhəbbət! Nə deyim bu ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir...
Başqa birisinə göz yaşı verir...

Otari "onsuz da gözəl olacaq
Qayğısız körpənin həyatı" dedi.
Həsrət hiss etmədi, tutuldu, ancaq,
Sonra yanıqlı bir bayatı dedi:

"Qızıl gül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı!"

Birdən Otarinin çatıldı qaşı,
Başının döşünün üstünə əydi.
Həmişə dost dostu, yoldaş yoldaşı,
Belə istəyəydi, belə sevəydi...

Otari quruyub qaldı yerində,
Duyub düşündükcə qəmə də batdı.
Gecə Həsrətgilin öz evlərində,
Mən yatdı desəm də, o necə yatdı.

Bir saat uzanıb, bir günə döndü,
Açılmaq bilmədi sabah doğrudan.
Neçə yol böyrünün üstünə döndü.
Neçə yol üstündən sürüşdü yorğan.

Gözünün yuxusu qaçıb Həsrətin,
Gecədən keçsə də hələ oyaqdı.
İlk eşqin, ilk andın, ilk məhəbbətin
Oduna yanmaq da, bil, yaşamaqdı!

Odur, o balınca yenə baş qoyub,
İpək yorğanı da çəkib üstünə,
elə bil Mərcanın ətrini duyub,
Səfalı qoynunda məst olub yenə.

Hanı o gəlinin zərif qolları,
Başının altında yoxdur oğlanın.
Neyləsin, o gəncin vəfalı yarı...
Vəfası yox imiş qoca dünyanın.

Bu gecə Mərcanın pərişan saçı,
Həsrətin üzünə dağılmamışdı.
O qaya kəkliyi, çəmən turacı
İsti yuvasında heç olmamışdı.

Həsrətin gözünə qanmı sağılır,
Üfüqlər rəng alır bu qızartıdan.
Fikirlər başından uçub dağılır,
O, yuxuya gedir söküləndə dan.

Qızcığaz eşikdə oynayır, qaçır,
Görüb sevinir də əziz qonağı.
Anaqız bu gün də bir süfrə açır,
Açılmır Həsərtin qaşı-qabağı.

Baxıb divardakı şəklə diqqətlə,
Bu dəfə doyunca seyr edir onu.
Mərcana aldığı bir ipək donu,
Həsrət Anaqıza verir hörmətlə.

Mərcanın adını çəkib Anaqız,
– Bacımtək sevirdim mən onu, – dedi,–
Geyər böyüyəndə əyninə bu qız,
Mən geyə bilmərəm bu donu, – dedi.

Qoy o, "ana" desin neçə ki, sağam,
Mən ona baxmışam anası kimi.
Körpəni mən yenə saxlayacağam,
Doğma qardaşımın balası kimi.

Qızcığaz gülərək içəri girdi,
Yatmışdı, oyandı Həsrət elə bil.
Sandı ki, bu dəfə körpə qız deyil,
Yenə gülə-gülə Mərcan gəlirdi...

*1956*

# Körpəylə söhbət

*...Ağla, qızım, bir adət var:*
*Ana üstə ağlayallar.*
*Ağla, qızım... getdi anan!*
*Bir də ki, sən ağlamasan*
*Bəs ona kim ağlayacaq?..*

"Ay mənim körpə qızım,
Ay mənim quzu balam!
Mənim anamsan, anam,
Sənə özüm qurbanam!

Qızım, a laylay,
Quzum, a laylay
Canım, a laylay,
Gözüm, a laylay,
Özüm, a laylay..."

Göz süzüldü, yatdı uşaq,
Bərk yuxuya getdi uşaq,
Ah, bu nəfəs, bu hənirti
Bir ürəyə min od salır.
Ana  yenə laylay çalır,
Beşik yenə tərpənirdi.
Var ömrün də bu dünyada
Yağarlığı, quraqlığı.
Öz anası düşdü yada,
Bir də ki, öz uşaqlığı.
Qınamayın, yanılarsa,
O, heç kimi görməyibdi.
Yada düşən hər nə varsa
Ancaq o-bu söyləyibdi.

I

Ucqar bir kənd... körpə uşaq
Gəzir əl-əl, qucaq-qucaq.
Nə dili var, məmə desin,
Nə dişi var, çörək yesin.
Hey sorur baş barmağını,

Tökübdü qaşqabağını,
Xəbərsizdi bu dünyadan.
Körpə quzum, hanı anan?
Bu gün acmı qalmısan sən?
Quzum, hanı sol üzündən
Anan alan öpüş yeri?
Gülə-gülə di düş yeri,
Anan bir də sevinsin qoy
Yeri... yer də sevinsin qoy!
Yox, sən acsan, yeriməzsən,
Ağlayarsan, kiriməzsən.

Ağla, qızım, anan getdi,
Bir gülləyə qurban getdi.
Yıxılarkən yerə anan,
Atdı səni qucağından, –
Can atırdı... "Can" söylədi!
Hələ başa düşəmməzsən.
Duymaq üçün bu dəhşəti,
Gərək ana olasan sən.
Üzü üstə döşənərkən,
İməkləmək istədin sən.
Tez yıxıldın... elə bu an,
Var gücünü yığdı anan
İmək1ədi sənə sarı.
Çatlamışdı dodaqları,
Qan gözünə sağılmışdı,
Saç üzünə dağılmışdı.
Qorxdun onun görkəmindən,
Tanımadın ananı sən!
Vəhmələnib bərk ağladın,
Donub qaldı yazıq qadın.

Qızım, inan,
Ancaq onda öldü anan!
Dağ olmazdı bu dağ kimi,
O söndü bir ocaq kimi.

Ağla, qızım, bir adət var:
Ana üstə ağlayallar.
Ağla, qızım... getdi anan!
Bir də ki, sən ağlamasan
Bəs ona kim ağlayacaq?
Kim ona yas saxlayacaq?
Yox, sən ona ağlamırsan,
Sənə görə sağdı anan.
O, yenə də gələcəkdi.
Göz yaşını siləcəkdi.
Yenə öpüb-oynadacaq...
Kaş ki, belə olaydı, ah!..

Toplar atır, toplar vurur,
Hər əsgər bir səngər qurur.
Gecə zülmət, gecə yarı!
Gəlir düşmən orduları.
İndi girib bu meydana
Mərdlər qisas alacaqdı.
Neçə ana, neçə ana
Görən sonsuz qalacaqdı?
Qana batıb dərə-təpə
Eh, hələ çox qan olacaq.
Neçə körpə, neçə körpə
Görən yetim doğulacaq?
Neçə qızın məktubuna,
Görən cavab gəlməyəcək?
(Deyin, necə dözsün buna
Sevən ürək, duyan ürək)

Görən neçə rəqs edənin
Kəsiləcək ayaqları?
Görən neçə tar çalanın
Kəsiləcək barmaqları?
Neçə gəlin dul qalacaq?...
Bilinməyir hələ ancaq.
Saydıqlarım sənə, gülüm,
Görünməsin qoy qəribə.
Bəli, budur, qan və ölüm,
Bəli, budur müharibə!
Toplar atır, toplar vurur
Hər əsgər bir səngər qurur...
Ucqar kənddə həmin uşaq
Gəzir əl-əl, qucaq-qucaq.
Gah ağlayır, gah hıçqırır,
Gah hirslənir, gah qışqırır.
Haray salır yerə-göyə,
Toplar yayır sədasını,
İndi ancaq
                    acdır deyə
O, axtarır anasını!

**II**

Gəlin ana!
O, ilk dəfə döş verərək
                    sevinmişdi.
Balasına
        o da başqa analartək
                    dil vermişdi.
Dil çəkmədi "ana" adı,
Qol vermişdi,
        qol boynuna dolanmadı.

Dodaq verdi,
        görəmmədi gülüşünü.
Ayaq verdi,
        görəmmədi yerişini.
Qaş da verdi,
        qara qaşı görmədi o,
Saç da verdi,
        daramadı, hörmədi o.
Amma görmək istəyirdi:
        dodaqların gülüşünü,
ayaqların yerişini,
        hələ qara qaşları da.
Öz verdiyi saçları da
        özü hörmək istəyirdi.
Soyuduqca
        ähərbin odlu qəlpələri,
dil açanda "ana" dedi
        yer üzünün körpələri.
Dil açdısa körpələrtək,
o, bilmədi: nədir ana,
                ana demək!

## III

"... Sonra yetimxanada
äää  böyüdüm, yaşa doldum.
Keçdi düz on yeddi il...
        anamla yaşıd oldum.
Çatdım onun yaşına,
        amma ona çatmadım.
Laylasını eşidib
        qucağında yatmadım.

O zaman mənim kimi
gəlinmiş yəqin o da.
Bəlkə mən boyda imiş
elə onun boyu da.
Güzgüyə baxan zaman.
bəzən məni boğur qəm. –
Elə bil o güzgüdə
rəfiqəmi görürəm.
Bir də elə bilirəm
Mənə oxşayır anam.
Güzgünün qabağında
oturub ağlayıram.
O, bəlkə donunu da
bu biçimdə geyirmiş?
Bəlkə ayağımızın
ölçüsü də bir imiş?
Saçımı darayıram,
yadıma düşür anam,
Elə bil mən onun da
saçını darayıram.
"Ana! Ana!" deyirəm,
çağırıram arabir.
Mənim ana deməyim,
mənə qəribə gəlir.
Ana!.. Məndən savayı
qoy hamı ana desin.
Mən deyə bilmərəm, yox,
deyə bilmərəm, düzü.
Bilmərəm nədir ana,
nədir ana laylası.

Hər gün mənə döş verib
onun-bunun anası.
Yetimkən yüz anaya
qız olmuşam... işə bax,
Yox, ana deməmişəm
heç birinə mən ancaq.
İstəyirdim anamın
öz səsin eşidim,
Mən özgə analardan
ana səsi eşitdim.
Ya da dizinin üstə
bir yol yataydım, dedim,
Mən özgə anaların
dizində mürgülədim.
Gülüşünü görsəydim
bir yol, olmazdı dərdim.
Mən özgə analarda
ana gülüşü gördüm.
Mənim də ata evim
ana evim oradı.
"Yetim!" Niyə taleyim
mənə verdi bu adı?!

Yanımda qızlar oldu
əmi, dayı dedilər.
Mənim də bircə dayım,
əmim olsaydı əgər!..
Bəzən lap təklənirəm...
darıxıram bəlkə də?
Sanıram təkcə qalan
bir mənəm bu ölkədə.

Görəsən nədir qardaş?
Dünyada mənim də bir
qohumum olaydı kaş!
Bilmədim ki, dünyanın
o ucunda o olur,
bu biri ucunda mən;
İnanın və inanın,
onu "ata" bilərdim,
"ana" bilərdim qəlbən..."

IV

O qədər şirindi,
o qədər mehriban;
deyərsən, xoş gündə
doğulub anadan.
Üz gülər, qaş qara,
        göz qara.
Deyərsən, dərd hara,
        qəm hara, o hara!
Bəlkə bu ananın
şəklini çəkələr?
Tanasız, üzüksüz,
        qolbaqsız bir gəlin!
        Güldümü, yanağı
        çökələr
bu xalsız, filansız
        gözəlin.
Kəsdirib saçını,
        ona çox yaraşır.

Ah, bir az o, çaşdır,
çaşlıq da yaraşır.
Qısa tel, qara tel
tökülübdü üzə,
Deyərsən, qara tuş
dağılıb kağıza.
Yamyaşıl qoftanın
dümağdı düyməsi.
Anadır... qoynunda
xırda qız məməsi
Xətrinə dəyməsin,
olanı yazıram, olanı.
Rəssam dost, indi çək
sən də bu nişanda ananı.

**V**

Üç qız gördüm bağçada...
biri güldü üzümə
Yanağının çökəyi,
tez göründü gözümə.
Sol qolunun üstündə
Yatırdı qız körpəsi,
(Anası görənləri
amandı, o görməsin!)

Üç qız gördüm bağçada...
biri bərk köks ötürdü.
onun sevdiyi oğlan
bu gün əsgər gedirdi.

Bu axşam gedib onu
özü yola salacaq.
O, yenə tək qalacaq,
Ah yenə tək qalacaq!
Atom bombalarıyla
uçan təyyarələri.
Yadına salan zaman
qəmlənirdi o pəri.
Keçən hərbin odunu
görmədin sən, a bacım!
Təki heç ömrün boyu
görməyəsən, a bacım!
Baxışın nələr deyir...
yetimlik nə yamandı!
Üç il döz bu təkliyə,
barı bu eşqdən isə
yetim qalma, amandı!...

Üç qız gördüm bağçada...
üçüncüsü mehriban.
Tənəffüsə çıxıbmış
yaxındakı zavoddan.
Gəlin ana astaca
dinir gülümsəyərək:
– Yox, yox, ayrılmamışıq
biz hələ bu günədək.
(İnciməyibdi ürək)
dönməyibdi heç üz də.
Yetimxana qızıyıq
bax, bizim üçümüz də...

**VI**

Aman... nələr dedi, nələr danışdı,
Elə bil ildırım çaxdı başımda.
Gözümdə təzədən dünya qarışdı,
Həmin qanlı illər durdu qarşımda.

Gəldi qulağıma top-tüfəng səsi,
Eşitdim min körpə hıçqırığı da.
Deşdi ürəyimi düşmən gülləsi,
Deşdi bir ananın qışqırığı da.

Qarşımda qızlara fikir verirəm,
Kimlər yetim qalıb ata-anadan!
Təkcə bu gəlin yox... sandım ki, bu dəm
Bir nəsil çıxıbdı yetimxanadan!

Körpə yuxusunu almışdı... yenə,
Sağımda gənc ana laylay çalırdı.
Solumda verərək çiyin-çiyinə,
Qızlar da deyesən fikrə dalırdı.
Sağımda gənc ana laylay çalırdı.

"...Qızım, a laylay,
Quzum, a laylay,
Canım, a laylay,
Gözüm, a laylay,
Özüm, a laylay..."

Mən indicə anladım...
körpə ikən, gənc ikən,
bu ana laylasına
heç fikir verməmişdim.

Qızına laylay çalan
yüz ana görmüşdüm mən,
özünə laylay çalan
bir ana görməmişdim...

Çal, bacım... laylana qulaq asıram,
Barı sən xoşbəxt gör bu övladını.
(Yüz-yüz yetim qıza nəğmə yazıram,
Odur ki, çəkmədim sənin adını!)

Çal, bacım... tapılar səni dinləyən,
Laylan nəğmə kimi sinəmə dolsun.
Layla eşitməyən, ana deməyən
Bütün bir nəsilin laylası olsun...

*1960*

# Biz bir ildə doğulduq...

*..Ata-ana olmasa,*
*yetim sayılır insan;*
*bəs tay-tuşsuz qalanda*
*buna nə ad qoyasan?!.*

## *PROLOQ*

Oyanmışam, evimdə
 təzə açılır səhər.
“Son xəbərlər” verilir,
 qorxulu “Son xəbərlər”:
"Atom bombalarıyla
 uçurlar təyyarələr,
Uçurlar axşam-səhər.
Saxara səhrasında
 yenə atom partladan,
Əlcəzair torpağı
 od içində..."
Yox dayan!
Qulağımda səsləndi
 dost harayı, dost səsi.
Aman, a dostlar, indi
 necə eşidim sizi?!
Oyan, ay Cəmil, oyan!
 Ələkbərdi çağıran.

### B i r i n c i   s ə s

Ay Cəmil! Ay Cəmil! Ay Cəmil!
Duz-çörək kəsdik biz neçə il.
Qazmada yan-yana söykəndik,
Sandıq ki, divana söykəndik, –
Enliydi kürəyin, ay Cəmil!
Köynəyin bir azca darıydı,
Tük yaman basmışdı üzünü.
Alnında bir çapıq varıydı
Saçların örtürdü üstünü.
Sevərdik o yastı xəttini,
Sən şəkil çəkərdin elə bil.
Bizim də məktubun üstünü,
Neçə yol sən yazdın, ay Cəmil!
Səngərdən-səngərə yatırdıq,
Gecəni gündüzə qatırdıq.
Gedirdik, gedirdik, ay Cəmil!
Biz onda itirdik, ay Cəmil,
İtirdik dostu da, yarı da.
Mən qoydum o yolu yarıda
Güllələr sinəmi deşəndə,
Qırx üçdə, fevralın beşində!
Bilmədim özümü-sözümü,
Bərk çırpdım bir daşa özümü!
Daş yaman ağrıtdı dizimi!
Son dəfə köksümü ötürdüm.
Sən getdin, səni də itirdim!
Son nidam, son sözüm dilimdə,
Danışdım gözümlə, qaşımla.
Yamanca sıxmışdım əlimdə
Bir ovuc torpağı daş ilə!

Üstümdən dost keçdi, yad keçdi,
Top gəldi, tank keçdi, at keçdi...
Hamını, hamını o axşam
İtirdim mən orda, ay Cəmil!
Nə qəbrim, nə də bir nişanəm
Qaldı bu dünyada, ay Cəmil!...

İ k i n c i   s ə s

"...Qalxdım, qardaş, elə ki, sən çağırdın,
Qalxdım... ancaq yaralarım ağrıdı.
Böyrüm sancdı... nədir belə, bilmədim.
Bədənim buz, ayağım buz, əlim buz,
Özüm yorğun, gözlərim də yuxusuz!
Niyə?... sorma, mən də bilə bilmədim,
Səndən sonra yenə getdik... bir səhər
Girdik yanan şəhərlərin birinə.
İki dəfə "ura!" dedim, Ələkbər,
Bir özümün, bir də sənin yerinə!
Onda gördüm: sol qolumdan axır qan,
Ürəyimdə döyüntü var... sıxıldım.
Sağ yanımda sərilmişdi bir alman,
Mən də onun sol yanına yıxıldım.
Huşum hələ çıxmamışdı başımdan,
Bərk üşüdüm... elə bildim bu zaman
Dağ başından əsdi bizim küləklər,
Qar ələndi qayaların yalına.
Qanım axıb qarışmışdı, Ələkbər,
Yanımdakı o almanın qanına.
Eh, nə fərqi: yaxşı olsun, pis olsun,
Yağış döymüş ocaq kimi keçmişdi.
Bir də qardaş, alman olsun, rus olsun, –

Güllə bizi ucdantutma biçmişdi.
Düzü, əvvəl hücumlara keçərkən,
İstəyirdim vuruşaraq ölüm mən.
İsti-isti vuruşdum da sonacan,
Sonra bildim nədir ölüm, nədir qan!
Son nəfəsdə mən yaşamaq istədim.
Bir də səni iki dəfə səslədim!"

(Ah, Cəmil də susdu... indi danışan,
Kimdi? Kimdi görən?.. tanışdı bu səs!
Bu Rza kişidi, özüdü... aman!
Qoy görüm nə deyir bu soyuq nəfəs!)

Ü ç ü n c ü  s ə s

"Məni də eşidin... Ələkbər, Cəmil!
Heç yaddan çıxarmı o günlərimiz?
Qırx birdən qırx üçə-tamam iki il,
Elə bir bölmədə olmadıqmı biz?
Tüfəngi silməyi, yağlamağı da,
Şineli qatlayıb bağlamağı da,
Sizə öz əlimlə öyrətmədimmi?
Səngərsiz yerlərdə nişan almağı,
Maxorka eşməyi, yamaq salmağı,
Sizə öz əlimlə öyrətmədimmi?
Düşdü aralığa yaman ayrılıq,
Ah, bizim o vədlər lap artıq imiş!
Niyə bilməmişdik... Haman ayrılıq
Sən demə ömürlük ayrılıq imiş!
İlk dəfə keçəndə o qarlı düzü,
Gülmüşük sonuncu gülüşümüzü!
Mayın əvvəliydi... qurtardı dava.

Dərin nəfəs aldı bizim el-oba.
Gedənlər qayıtdı, güldü oğul-qız,
Sinəsu ordenli gələnlər oldu.
Şivən də eşitdi qulaqlarımız,
Dul qalan yetimli gəlinlər oldu.
Mən də yaralıydım, qayıdıb gəldim
Oğlumun, qızımın öpdüm üzündən.
Yüz dəfə, min dəfə şükür elədim,
Bir dəfə keçəndə Muğan düzündən.
Yenə də mən qalxıb işə gedirdim,
Tarlaya çıxırdım sökülməmiş dan.
Payızda oğluma gəlin gətirdim,
Bütün ağrılarım çıxdı canımdan.
Bu qoşa ulduzu bağrıma basdım,
Qapıdan bir quzğun qanadı asdım.

Qanlı quzğun qanadı...
Mən ondan qisas aldım.
Ziyadı yada saldım,
Yenə yaram qanadı!

Bəlkə yadınızda var:
O enlikürək idi,
Boydan gödərək idi...
Qulaq asın, uşaqlar:

O gün bir düzə gəldik,
Düşmən qalxdı ayağa,
Tutaşdıq əlbəyaxa,
Yaman üz-üzə gəldik.

Bizlə beşi döyüşdü,

Döyüşdük çataçatla.
Vurdular avtomatla.
Ziyad xəndəyə düşdü.

Atdılar... mən də atdım,
huşum çıxdı başımdan.
Bu qanlı savaşımdan,
Daha xəbər tutmadım.

Qurtardı o çataçat,
Donmuşdu üzümdə qan.
Mən ayıldım sonradan,
Can ay Ziyad! Ay Ziyad!

Görmədim üzünü bir,
Bəs nə gördüm, görün nə?
Sinəsinin üstünə
Qonub bir quzğun didir!

Şirin söhbət, şirin söz!
Gülər üzü var idi!
İri gözü var idi,
Şəvətək-qapqara göz!

O quzğun asta-asta
Didirdi gülər üzü,
Didirdi qara gözü,
Caynaqlar çənə üstə!

Ölən kimdi, qalan kim!
Tanımırdı heç kimi.
Qışqırdımsa... səsimi
Heç özüm eşitmədim!

Quzğunun bir dırnağı
Dodağına batmışdı.
Ziyad huşsuz yatmışdı.
Məsum uşaqsayağı.

Nə ad verim mən buna,
Aslan ürəkli oğul,
Aslan biləkli oğul
Yem olmuşdu quzğuna!

Gözüm dörd oldu düzü,
Qalxdım... dizim titrədi.
Elə bildim, əbədi
Döndü məndən dost üzü!

Bir də qalxıb ayağa,
Yaxınlaşdım quzğuna.
Ancaq, çatmamış ona
Bir də dəydim torpağa.

Üz-gözümü basdı tər,
Boylandım dörd tərəfə.
Üzü üstə bu dəfə
Süründüm mən birtəhər!

Qandan heç gözü doymur!
Sancır bu dəmdə yaram,
Qanadına vururam
Yox, quzğun məni saymır!

Toplar atır vurhavur,
Pulemyotlar ötüşür.
Güllə yanına düşür,
Quzğun onu da saymır!

Hiddətlə üstə düşdüm,
Təkcə faşistlərlə yox,
İnanın ki, daha çox
Mən quzğunla döyüşdüm!

O gün and içdim, o gün:
Gərək yüz faşist vuram,
Gərək yüz quzğun qıram
Ziyadın qanı üçün!

(Can ay Rza əmi, o toy axşamı
Mən qonaq gəlmişdim sizə Bakıdan.
Səndən danışırdı Muğanda hamı,
İndi də bax mənəm səndən söz açan.
Oğlunun adıyla çəkildi adım.
Mənə qardaş dedi gəlnin Firəngiz.
O gündən bu günə  ayrılmadıq biz.
Kəsdiyim çörəyi mən unutmadım;
Qızın Arifəni, oğlun Rüstəmi
Bağrıma basanda köyrəldim dünən.
Səsin hardan gəlir, ay Rza əmi,
Sənin ölümünə inanmıram mən!
Biz xoşbəxt keçirdik toy gecəsini,
Sonra ayrı düşdük, görmədim səni...)

...Sonra çox çəkmədi, qövr etdi yaram,
Həkimlər töküldü, bir şey çıxmadı.
Yamanca təntidim evdə bir axşam,
Heç şeyə, heç şeyə əcəl baxmadı...
Biz xeyli danışdıq, uşaqlar... görən
Oldumu, oldumu bizi eşidən?
Bizi yada salan görəsən varmı?
Yoxsa birdəfəlik unutdularmı?

# EPİLOQ ƏVƏZİNƏ

Yox!
  unudulmadınız!
Mərmər lövhələr üstdə
Qaldı sizin adınız!
Yox!
  unudulmadınız!
Siz getdiniz... mən sağam,
baharın ilk günündə.
Mən sizi düşünürəm
            radionun önündə.
"Son xəbərlər" verilir,
Hələ də "Son xəbərlər".
Mən sənin son nidanı
            eşidirəm Ələkbər!
Ah, dostlar, yirmi birdə
doğulduq biz hamımız.
Amma bizim anamız
İyirmi birdə sevindi,
Qırx birdəsə ağladı,
Bir ömrün yarısını
Bəlkə də yas saxladı.
Deməyə çox sözüm var:
Nə təzə köynək geydik,
nə ütülü bir şalvar.

Kəmər də bağlamadıq,
bunlar yad oldu bizə.
Amma güllə darağı
bağladıq belimizə.
Şinel  geydik, boz şinel,
yol çantası götürdük!
O günləri biz gördük!
Siz hələ bilmirsiniz:
nədir aclıq, susuzluq,
Nədir çiyni tüfəngli
Yorğunluq, yuxusuzluq.
Soyuğa düşmək nədir,
Qarda üşümək nədir.
Siz tufli geyirsiniz:
qara, sarı, qırmızı.
Qırdı daş batinkalar
bizim ayağımızı.
Siz bu gün vidalaşıb
sabah görüşürsünüz,
bugünkü dostumuzu
itirirdik sabah biz.
Siz yorğanda, döşəkdə
doyunca yatırsınız,
Biz səngərdə vaxt tapıb
çimir alırdıq yalnız.
Sağ gözümün altdakı
çapığa bax: çəp, dərin!
Seli burdan axıbdı
ən dərin dərələrin.
Düşünürəm arabir:
işə bax, qardaş, işə,
Nə üzüm üzə bənzər,
nə gülüşüm gülüşə!

Gülmüşəm... ürəyimi
gah qəm alıb, gah kədər
Gülmüşəm... gülüşümü
üzümdə görməyiblər.
Gənclər qol-qola gedir,
baxıb düşünürəm mən:
biz də qol-qola getdik,
geriyə qayıdarkən
çox seyrəldi sıramız,
ağır oldu yaramız.
Yüz-yüz getdik hücuma,
Beş-beş qayıtdıq amma!
Qoltuq ağaclarına
dirənib gedənə bax,
Sağ ayaq tək yeriyir,
hanı, hanı sol ayaq?!
Harda, sonuncu dəfə
addım atdı sol ayaq?
Harda, hansı səngərdə
itib-batdı sol ayaq?!
Sağ ayaq tufli geydi,
yükü də ağır oldu.
Sol ayaq batinkalı,
bir də dolaqlı qaldı...
Bir yol nişana gəlib,
toylara getmədiniz.
Davaya getdiniz siz.
Ölümə getdiniz siz!

“Son xəbərlər” verilir,
qorxulu “Son xəbərlər”.
Gözümdə Rza kişi,
Ziyad, Cəmil, Ələkbər!

Qulağımda top səsi,
tank səsi, güllə səsi,
Fikrimdə raketlər
və atom təyyarəsi!
Dilimdə ancaq sual:
Ziyad, ya Cəmil hanı?
Hanı mənim tay-tuşum,
hanı o nəsil, hanı?
Ata-ana olmasa,
yetim sayılır insan;
bəs tay-tuşsuz qalanda
buna nə ad qoyasan?!.

*Oktyabr-fevral,*
*1960-1961*

# Şahid ol, Günəş

## Professor Qədir Sultanova

*...Əyilib öpürəm,*
*ey ana torpaq!*
*Bağışla sən məni*
*müqəddəs həyat.*
*Yerin alt qatını axtardım, ancaq,*
*yerin üst qatını*
*itirdim, heyhat...*

Qədirin bir dağa yüz sualı var,
yerin tarixini varaqlayır o.
Ayağı altında qaldıqca daşlar,
elə bil fikrini ayaqlayır o.

Dolaşır çölləri dinməz-söyləməz,
o, öz külüngüylə, öz fırçasıyla.
Bəzən bir adamla danışmayan kəs,
danışır tapdığı daş parçasıyla.

Boylanır sevincək, baxır sevincək,
gözünə çəmənmi, gülmü dəyibdi?
Anası dağlardan – kəkotu, çiçək,
elm isə dağlardan – daş istəyibdi.

Vurur külüngünü məhəbbət ilə,
görəsən torpağın hansı qatıdı?
Dağları o, tədqiq eləyir hələ,
otlar, anasının tədqiqatıdı.

Deyir öz-özünə:
                    düzü, heyranam,
neçə il hələ mən dərs keçməliyəm.
Otları otlardan seçibdi anam,
daşları daşlardan mən seçməliyəm.

O, indi özünü öyə bilərmi?
Hələ bilik yeri
                    kitabxanadı.
"Gətir filan daşı" deyə bilərmi?
"Gətir filan otu" deyən anadı.

Elə bir zirvədə dayanıbdı ki,
hər yan ovcu kimi seçilir bir-bir.
Lakin bu zirvədə daş tapıbdı ki,
ovcunun içində seçə bilməyir.

* * *

İndi xəritəsi başqadı yerin,
o, burda dolaşır iki həftədi.
Günəş kürəyindən düşüb Qədirin,
kölgəsi səssizcə keçib sərhəddi.

Bir kəklik oxuyur dağın belində,
elə bil ki, səsi o tərəfdədi.
Külüng bu tərəfdə qalxır əlində,
külüngün kölgəsi o tərəfdədi.

Çəkici işləyib, daşa çatsa da,
bəzən yorulurdu alim qolları.
Getdiyi dağ yolu başa çatsa da,
uzanıb bitmirdi elmin yolları.

* * *

Yoruldu yollarda bu cavan alim,
təzə cığır saldı o, neçə yerdən.
Beynində suallar aparan alim,
çantada
                cavablar gətirdi hərdən.

Kitab oxuyanda, yer qazanda da,
həm elmə can verdi, o, həm də işə.
Özü uzananda, oturanda da,
fikri ayaq üstə oldu həmişə.

* * *

Qədirin əlində "Bakı" qəzeti,
oxuyur,
          gözünə inana bilmir.
Qədirin  üzündə əsrin dəhşəti,
yanır, tüstülənir...
          odlana bilmir.

O birdən sarsılır, o fikirləşir,
ucaldır əsrinə üsyan səsini.
Dünyaya sığmayan, beynə yerləşir,
çiynimiz gəzdirir yer kürəsini.

Qədir düşünür ki, gecikir bahar,
payızın soyuğu lap yaya qalır.
Şüa xəstəliyi tökür yağışlar,
sınaqlar artdıqca ömür azalır.

Vuruşur Vyetnam, Kuba adası,
ölüm silkələyir dünyanı sanki.
"Təbriz – Azərbaycan ölüm zonası!" –
yeni Xirosima və Naqasaki?!

"Qansızlar, böyükdür bu iştahınız,
bir az fikirləşin, bu lap ağ olar.
Təbriz yox,
          Bakının neftiylə yalnız,
Qərbi bircə gündə yandırmaq olar..."

* * *

O gün ürəklərdə bir tufan idi,
yaşlılar susmuşdu fikrə gedərək.
Gənclər əsəbiydi, pərişan idi,
qəbulda kəsilən tələbələrtək.

Lakin qaynayırdı Bakıda həyat,
yenə avtobuslar basabas idi.
Yalvarıb Qədirə Səkinə arvad
gözümdən uzağa getmə, deyirdi.

Axıb teleqramlar gəlirdi o gün,
bu səsi dünyaya efir yayırdı.
Bəşəri bu oddan qurtarmaq üçün
"SİTA"* yeni cavab hazırlayırdı.

* * *

Papirosun son kötüyü
damağında.
Helsinkidən, Tokiodan
məktublar var qabağında.
Pekin, Bombey, Bonn, Qahirə –
neçə ünvan.
Paris,
Təbriz!..

* Sovet İttifaqı Teleqraf Agentliyi (*red.*)

Yerin qədim laylarını vərəqləmiş
neçə elmi əsərində,
indi əsrin qorxusu var
onun alim gözlərində.
Qələm alır,
o istəyir cavab yazsın məktublara,
fikrə dalır.
Xatırlayır qırx ikinin əvvəlini,
o axşamı,
evə təzə gətirdiyi o gəlini.

Dayan, Qədir, sən bir qədər,
bir məktubun
tarixini salım yada,
vərəqlənsin xatirələr...

"Məktubun budur, bax, bu sol əlimdə,
dolu güllələr də sağ əlimdədir.
Sol əlim həyata çağırır məni,
sağ əlim ölümə...
sən işə bax bir.

Ölsəm, bağışlasın qoy ana torpaq,
bu hisslər deyirəm nə qəribədir.
Boyum uzunluqda səngərimə bax
özüm öz qəbrimi qazmışam, nədir?

İnan ki, başıma dolanıb aləm,
kiçicik şəkilin düşüb cibimdən.
Səni evdə qoyub, mənim
Salehəm,
indi səngər-səngər axtarıram mən.

Səni axtarmışam ömrüm boyu mən,
həyatım, ilhamım, dilbərim mənim.
Nə deyim, bəlkə də dünyada sənsən,
ən böyük tədqiqat əsərim mənim..."

Düşündü, qəmləndi, susdu nəhayət,
topların səsinə qulaq asırdı.
Qədirim
    məktuba həyat, məhəbbət,
güllələr
    torpağa ölüm yazırdı.

Yazdı zərfin üstə ünvanı, adı;
gözlədi səbirsiz poçtalyon qızı.
Məktubu alsa da,
        aparammadı,
Qədir aparası oldu o qızı.

Yerə üzü üstə elə düşdü ki,
söz deyə bilmədi heç son nəfəsdə.
Güllə kürəyini elə deşdi ki,
Qız öldü Qədirin qolları üstdə.

Keçdi keçilməyən o, neçə yerdən,
gördü gözləriylə min cür odu o.
Maxorka eşəndə,
        nədənsə birdən,
yazdığı məktubu xatırladı o.

Tüstülər, dumanlar doldu gözünə,
o səngər, o məzar gör harda qaldı.
Bir kədər, iztirab qondu üzünə,
məktub da o qızla məzarda qaldı.

Bir ömür ocaqtək söndü bir anda,
baharı soldurdu o boranlı qış.
Qədir
məktubuna ünvan yazanda,
faşist də
bir güllə hazırlayıbmış.

Gör harda o qıza qəbir qazıldı,
bu, bəlkə ən ağır bir faciədir.
O məktub, deyirəm,
kimə yazıldı,
kimə qismət oldu...
sən işə bax bir.

Bəlkə ömrü boyu unutmaz bunu,
eh, necə unutsun, neyləsin Qədir.
Əsgər evə yazır öz məktubunu,
torpaq burda pozur, nə qəribədir.

Salehəm,
yandınmı sən acı-acı,
həsrət uzandıqca ömür qısaldı.
Kiminsə ilk eşqi,
sənin də, bacım,
məhəbbət məktubun məzarda qaldı.

* * *

Bu gecə torpağın qədim çayları,
əsrlər, dövranlar stol üstədi.
Cihazlar, qranitlər, yerin layları,
lüğətlər, planlar stol üstədi.

İşləyir axşamdan əlində qələm,
bu, bəlkə yüzüncü tədqiqatıdı.
Cihaz dilə gəlib danışır bu dəm,
deyir ki, torpağın
"Arxey" qatıdı.

Qranit büllurdan seçilməyir heç,
bir an yayınmasın gərək diqqəti.
Burdamı dolaşdı
Qara qoç, Ağ qoç,
hanı ayaq izi Məlikməmmədin?

De, hansı rəssamdı bunları çəkən,
burda ulduzlarmı sayrışır indi?
Hər daş bir tarixi həqiqət ikən,
hər rəng bir əfsanə danışır indi.

Hökmü, mənzərəsi başqadır yerin,
xalqımın keçmişi yazılıb burda.
Bir para hay-küyçü tarixçilərin,
yazdığı necə də pozulub burda.

Dünyaya gəlmədik dərədə, düzdə,
neçə məqbərəm var, yer altındadı.
Muğan şəhərinin adı
yer üstdə,
özü bəlkə yerin bu qatındadı?

Torpağın rəngini, qışı, baharı
bir kiçik zərrədə baxıb seçir o.
Külüng qazmadığı daş süxurları,
fikriylə, zehniylə qazıb keçir o.

Olur, əziz dostum, elə bizdə də:
gözdən qan tökürük yaş əvəzinə.
Bəzən sözümüzdə, şerimizdə də
ayaq hökm eləyir baş əvəzinə.

Bəzən çəkilirik boğazdan dara,
ilham qurban gedir ilhamsızlara.
Görəndə ağı ağ, qaranı qara,
gözü düzəldirlər qaş əvəzinə.

Şahidi oluruq dava-dalaşın,
yanmırıq halına keçən hər yaşın.
Bəzən küt başına bir yekəbaşın
sığal da vururlar daş əvəzinə.

Düşünür, üzündə əsrin dəhşəti,
özü də özünə heyran olubdu.
Yer altda bir xalqın qəmi, nifrəti
o qədər qalıb ki, "uran" olubdu!

Uran!
gözlərinə inana bilmir,
kiçik bir zərrədə əsrin havası.
Rəngi açılsa da, şadlana bilmir,
atom, od diyarı, ölüm zonası!..

Uçur rahatlığı, asudalığı,
düşünür,
qəlbində başqa həyəcan.
Qoca Arximedin arzuladığı
budur –
İstinadgah nöqtəsi...
“uran?!”

* * *

Gecə yatmadı Qədir,
qaçdı şirin yuxusu.
Qəlbində uyuyurdu
fəqət əsrin qorxusu.
Saçlarının hərəsi
antenadır elə bil.
Dünyada nələr olur,
o başdan uzaq deyil.
Harda keçsə bir sınaq,
harda açılsa tüfəng,
Qədir onu biləcək,
nədir, onu biləcək.
Fikrindən çıxmayırdı
yatanda da Qədirin.
Faciəsi böyükdür
bu torpağın, bu yerin,
“Niyə ölüm zonası...
kim haqq verir sizə, kim?!
Bəs mənim məmləkətim,
yüz min illik tarixim?..”

* * *

Yuxuda görür ki, dəyişib aləm,
nə külüng qalıbdı, nə dəftər, qələm.
Raketlər sancılır torpağımıza,
İyirminci əsrin nizəsidir o,
görünür havada bir şimşək kimi,
buludlar sallanıb göbələk kimi.
yer ürək kimi.
Yanır Azərbaycan, odlar diyarı,
daşı torpağına qarışıb yanır.
Dünyanı yandırdı Sabir əşarı,
indi öz heykəli alışıb yanır.
Qulaq ver nifrinə, naləyə, aha,
yaralar ürəkdə bir iz salıbdı.
Xəzərin yerində su yoxdur daha,
indi Xəzər boyda quyu qalıbdı.
Qədir haray çəkir...
yerdə zəlalət,
yüyürür yanında neçə min nəfər,
yanır qəbiristan... başqa fəlakət, –
ölülər dirilib,
ölür dirilər.

Nizami bir səhəng su ilə gəlib,
bilməyir söndürsün odun hansını.
Fərhad Bisütunu külünglə dəlib
Gəncəyə döndərir suyun ağzını.

Qalxır Xiyabani əlində bayraq,
"Sənsiz"i dilində gəlir Üzeyir.
Alovlar içində əl-qol ataraq,
Koroğlu
– tez cəngim çalınsın! – deyir.

Qədir
– Mən sağamsa, – deyir qəzəblə –
Hələ Azərbaycan yaşayır demək.
Qalsın bu torpağın tarixi hələ,
mən onun özünü axtaram gərək.

Dəmir çəkmə geyib dolaşır indi,
köynəyi zirehdən, qələmi tuncdan.
Yazır dəftərində: "Bura bağ idi,
bir heykəl var idi...
burda da liman...

Marağa şəhəri... qədim Urmiya.
Savalan burdaydı...
burdaydı Səlmas.
Kainat alışıb yanıb olmaya,
qalan tək mənəmmi?
Yox, ola bilməz!

Minillik layları gəzdikcə bir-bir,
susub dinləyirdi yerin səsini.
Çəkmək istəyirdi o zaman
Qədir
qədim Azərbaycan xəritəsini.

İndi...
alovlarda yanıbdı vətən,
axtarır o, itmiş bir qitəsini.
Ağlaya-ağlaya çəkir yenidən
doğma Azərbaycan xəritəsini.
"Mənim Araz çayım...
axardı burdan,
sərhədə düşmüşdü...
bəs bura nədir?"

Arazın yerini dəyişib bu an,
başqa bir tərəfdən xətt cızır Qədir.
"Araz burdan axsın,
quraqlıq, səhra,
çöllərə arzumuz, hökmümüz axsın.
Yox, Araz sərhədə düşməsin daha,
qoy sərhəd Araza düşüb
düz axsın..."
Yerdən kül götürür,
Kimə nə desin?
Nə qalıb yer üstdə böyük ölkədən?!
"Şöhrəti dünyaya sığmayan kəsin,
külü bir ovucmuş...
kimdi bu görən?
Sən xalqam,
qoy xalqlar eşitsin məni,
qitələr, torpaqlar eşitsin məni.
Bütün qəbilələr eşitsin məni,
uzaq qərinələr eşitsin məni.
Şahid ol, ey günəş!
Sən eşit bir də,
bir xalqın minillik səsi yanıbdı.
Torpaq yanmayıbdı yalnız bu yerdə,
torpaqda Babəklə, Həzi yanıbdı.
Əyilib öpürəm,
ey ana torpaq!
Bağışla sən məni müqəddəs həyat.
Yerin alt qatını axtardım, ancaq,
yerin üst qatını
itirdim, heyhat...

Od olmaz, dağ olmaz bunca dünyada,
nə gündüz bilinir, burda nə axşam,
sən öz beşiyində yanmısan oda.
Of, vətən,
sən yoxsan... mən yaşayıram..."

Yer indi başqa bir planet olmuş,
nə həyat özü var, nə insan izi.
Səmada bir günəş qalıb elə bil,
yer üstdə bir Qədir –
                    yalnız ikisi.

Günəşi çağırır qəlbində həsrət,
səsi kainata yayılır onun.
Bir kəs köməyinə yetişmir fəqət,
özü öz səsinə ayılır onun.

Necə də gurlayır səs qulağında,
fikri uçan dağda, yanan düzdədi.
Günəş
          pəncərədə, göz qabağında,
          qələmi, dəftəri stol üstədi.
Baxır,
          qabağına bir həyat çıxıb,
ölüm zonasından salamat çıxıb.

* * *

Doldu akt salonu, tutuldu yerlər,
gecə keçirildi.
Adi gecəmi?
Yox, yox danışmadı od tələbələr,
açıldı, ən güclü silahlar kimi.

Yumruqlar deyirdi, bu, ola bilməz,
millətlər hərraca qoyula bilməz!

Kürsüdə bir ölüm söhbəti, bir şər,
Atalar dedikcə odlanırdılar.
Yerdə bir məhəbbət şerini gənclər
bu əldən o ələ addadırdılar.

Açılır Dehlidə sülh konqresi,
Moskva məktub da göndərib hələ.
Qədir! —
yekdil oldu hamının səsi,
yazıldı rektorun imzası ilə.

* * *

Qədir gəldi düz evə,
– Salam, anacan, salam.
– Salamına qurbanam.
Yanıb gözüyün altı,
anan ölsün, az işlə.
Bozbaşım var, gəl otur,
kəkotusu içində,
dağotusu içində...

Qədir gəlib oturur,
– Təzə xəbər var, ana.
Hindistana gedirəm.
– Haraya?
– Hindistana.
– A bala, orda nə var?
– Ana, sülh konqresi...
Gərək orda danışam,
nitq eləyəm.
– Necə, sən?
– Hə, mən... nə olar, lap mən.
Səknə arvadın oğlu...
– Davadan qayıtdığın
dünən, ya bu gün, Qədir.
İndi də Hindistana...
eh anan ölsün, Qədir.
Onlara de, ağalar,
nədir ölüm zonası?
De ki, anam soruşur,
səkkiz övlad anası.
Nəvələrim böyüyür,
nəvələri de, varmı?
Nəvələri qırılsa,
onlar dözə bilərmi?
De ki, anam dözməyir,
ağlayır da arabir.
De, dərdin alım, Qədir...

Ana-bala söhbəti
şirin oldu, bal oldu.
Qədir çıxdı qapıdan,
ananın gözlərində
dünya bir sual oldu.

* * *

Hələ tərpənməyib yerindən qatar,
Perronda nə qədər təzə gül-çiçək.
Bu axşam
Qədiri yola salırlar.
– De, Qədir.
Sən orda deyəsən gərək.
Qoy öz arşınıyla ölçməsin heç kəs.
– Mənim adımdan da söz alıb de, bir.
– Alimlik eləmə, təsir eləməz.
– Alovlu nitq elə sən orda, Qədir.
– De, qorxma, tarixi danış sinədən.
Ən qədim xalqlardan qədimik de, sən.
– Bir eynək.
– Mənə də bir avtoqələm,
(Hər insan ürəyi, başqa bir aləm).
Susub dinləyirdi dostları Qədir.
– Mənim adımdan da söz alıb de, bir...

* * *

Qar ələnir...
Moskvada indi qışdı.
Puşkinin də qıvrım saçı
vaxtından tez ağarmışdı.
Göyərçinlər,
dən yeyirlər
metroların qabağında:
divarların qırağında.

***Azərbaycan ədəbiyyatının, onun təkrarsız poetik dünyasının 50 ildən artıq bir zaman çərçivəsində keşiyində duran, onu göz bəbəyi kimi qoruyan, həyatın enişli-yoxuşlu, girintili-çıxıntılı yollarından fədakarlıqla keçən qüdrətli sənətkarımız Nəriman Həsənzadənin yaradıcılığı müqayisəolunmaz dərəcədə zəngin və rəngarəngdir...***

***...Ata-ana üçün böyük sevinc, ümid gətirən bu balaca oğlanın gələcəkdə kim, nəçi olacağını Tanrıdan başqa heç kəs bilmirdi.***

***Hələ bir-iki yaşında ikən Tanrı Alməhəmməd kişini öz dərgahına apardı, lakin eyni zamanda bu balaca oğlana onu həmyaşıdlarından fərqləndirən istedad, bacarıq, qabiliyyət, bir sözlə, vergi verdi.***

***Bəlkə də bu istedadı, qabiliyyəti ona verməklə ata niskilini, bir növ "unutdurmaq", "yaddan çıxarmaq", bir növ başını qatmaq, onu ovundurmaq, özünü tək, atasız hiss etməmək üçün vermişdi Tanrı. Kim bilir?..***

***...Hələlik isə Poylu stansiyasında balaca bir oğlan vardı və o, anası ilə birgə meşəyə gedər, oradan odun gətirər, ana sacda xamralı bişirər, onu satıb güzəranlarını keçirərdilər. Xamralı bişəndən sonra adətən ana sacda balaca Nərimana kökə bişirər, içərisinə kərə yağı qoyub "döymənc" düzəldərdi. Nəriman üçün dünyanın ən ləziz neməti idi bu "döymənc". Xüsusən də səhərlər.***

***Yayın cırhacırında stansiyadan keçən qatarların sərnişinlərinə sərin su sataraq əldə etdiyi halal "qazancını" sevinə-sevinə anasına gətirəndə də, uzun qış gecələrində Nabat ananın danışdığı şirinli-acılı xatirələrə qulaq asanda da, balaca Nərimanın heç ağlına da gəlməzdi ki, Azərbaycan poeziyasına şairin dostu Xəlil Rza Ulutürkün təbirincə desək, "...həyatda son dərəcə zərif, incə, bədii yaradıcılıq aləmində kompromis tanımayan, mərd, prinsipial... cəsur, açıq sözünü düz üzə deyən məfkurə qəhrəmanı" gələcək...***

**Güldanə Əmrullahqızı,**
***filologiya elmləri üzrə fəlsəfə doktoru***

***"Poylu – beşiyim mənim"***
***kitabına ön sözdən.***

Qədir gedir bir taksidə,
peyklərin təzə şəkli.
“Vyetnamdan əlini çək!”
neçə şüar, daha nələr.
Udur onu qədim şəhər,
böyük şəhər.
Bu dünyadan küsən könlü
bu aləmlə barışmışdı.
Qədir başqa Qədirlərə,
taksi başqa taksilərə
qarışmışdı.

* * *

Uçdu “İl-18” təyyarəsilə,
tez çatdı.
O, yolu kəsəmi gəldi?
Dehliyə elə bil bir alim deyil,
bir xalqın kədəri, əsəbi gəldi.

* * *

Dehlinin bir küçəsində,
gündüzündə, gecəsində
qaval vurub oynayırlar,
məclis qurub oynayırlar.
Bir qız gəlir: qara xallı
qara saçlı,
yaşıl başlı,
gül camallı.

Təbəssümü dodağında,
yaraşığı boğazında,
barmağında,
ayağında.
Qız oynayır: çalır, gülür,
gülür, çalır.
Qədir baxır, heyran qalır.
Qız oynayır nəğməsiylə.
Gülüş verir,
sevinc verir o, hamıya
qəm səsiylə.
Hindistanın sevincini...
qız üzündə gətiribdi.
Hindistanın kədərini
qız gözündə gətiribdi.

Məclis qurur,
rəqs eləyir o ceyran qız.
Qavalına
baş söykəyib mürgüləyir
Hindistanı oyadan qız...

* * *

Axşamı o, qalxdı məxmər kürsüyə,
boşaldı bir sinə dəftər kürsüyə.
Danışdı, heç kəsi o, aldatmadı,
özü ər oğluydu, durdu ər kimi.
Döyüb sinəsinə əl-qol atmadı,
zəhləmizi tökən natiqlər kimi.

– Tarixdən bilirik: xanlar və
şahlar, –
bəzən "Allahlar",
göydə yer üzünü bölüşdürdülər,
yerdə göy üzünü bölüşdürdülər,
qırılıb qan tökdü günahsız bəşər.
Od tutub alışdı yenə bədənim,
bir əl silkələyir dünyanı sanki.
Ölüm zonasıdı diyarım mənim,
yeni Xirosima və Naqasaki?!
Keçmişim,
bu günüm var mənim az-çox,
atalar sözüylə ölçülməlidir...

Mən dedim qədimdir tarixi yerin,
bir şey də çatdırım nəzərinizə,
Burda kralların, baş nazirlərin
təbrik teleqramı oxundu bizə.
Bəli, narahatdı qəlbi zamanın,
cavabsız qalıbdı bəzi suallar.
Cənablar,
ağ saçlı mənim anamın
sizin Konqresə tapşırığı var.
Bir də açılmasın qanlı güllələr,
yerdə yaşayırıq, qoruyaq yeri.
Anam,
həbs olunsun deyir, alimlər,
dünyanın davakar sərkərdələri.

Əsrin qorxusuyla yaşayırıq biz,
          söndürmək olarmı odu tufanla.
Şairlər, alimlər vətəni Təbriz
          indi hədələnir ölümlə, qanla.

Bəlkə də səhvdir,
                    qoy deyim mən də,
bu söz ürəyimi çoxdan deşirdi.
Qərb odlu silahlar icad edəndə
Şərq muğamat üstdə fikirləşirdi.
Mən tədqiq etsəm də layları bir-bir,
vaxt olur, əlimdə qələmim əsir.
Fikirlər üstümə kölgələr salır,
əsərim əlimdə yarımçıq qalır.

* * *

Bir hind alimiylə Qədir o axşam
                    həmsöhbət oldu.
Qonağa nəzakət, hörmət, ehtiram!
Arada dostyana bir ülfət oldu.

– Sizlə, cənab Qədir,
                    biz də razıyıq.
Gözəl nitq etdiniz, düzü, kürsüdə.

Xalqlar ayrıldıqca birləşir artıq,
yaşamaq dərd olmur torpaq üstündə.
Handinin, Nehrunun bu torpağını
hifz edib yaşatdı qoca Hindistan.

Alim çox danışdı...
                    dərin qırışlar
ekvator xətti tək keçdi alnından.
Yerin tarixini düşünən başlar,
yerin taleyini düşündü bir an.

Sabah yola düşür, ayrılır Qədir,
bu görüş, yeni bir əsəri olsun.
Mənim şerimin də son iki sətri
o gələn qatarın relsləri olsun.

*1965/1966*

# Poylu – Beşiyim Mənim

*...Bu dünyanın gözəl vaxtı Poyluda qaldı,*
*bir qız mənə süzgün baxdı, – Poyluda qaldı.*
*Göy üzündən ulduz axdı, – Poyluda qaldı,*
*taleyimin dalısınca getdim Poyludan, –*
*beşiyimin görüşünə gəldim sonradan!..*

# YADDAŞIMIN SARAYI

*Dünya tək pəncərə deyil, —*
*dünya yaşamaq yeriymiş...*

*Nə qızıldır, nə gümüş, nə ləlü, nə mirvaridir,*
*sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.*

**M.Füzuli**

*Qarayazı, Kür qırağı, göy çəmən,*
*qoca palıd, tüstülənən od-ocaq.*
*Saç ağardı, unutmadım sizi mən,*
*hansı şair sizi bir də yazacaq?!*

**S.Vurğun**

**...R**omalılar Kür çayını bu yerdən keçib,
Poylu, səndən tarix keçib, bir vətən keçib.
Azərbaycan mən keçdiyim körpüdən keçib,
yazılmayan tariximiz bu torpaqdadı,
yazılanlar, pozulanlar Plutarxdadı.[1]

Burda Qasid qılınc çəkib Pompeyin üstə,[2]
leş axtaran o quzğunun, o leyin üstə.
Qalib gedib, şəhid dönüb biləyin üstə,
Poylu, sənin alovuna-tüstünə gedib,
o, üstünə gələnlərin üstünə gedib.

Nə heykəli ucalıbdı, nə büst qoyan var,
nə millətin tarixini düz oxuyan var.
Bir sayılan varmı, deyəm məni sayan var?!
Dedim daşa dönmüşlərə
bir daşa yazın,
tariximiz, taleyimiz unudulmasın.

Sünnü-şiyə qırğınları boş qoydu yurdu,
bir millət öz bədəninə min yara vurdu.
“Kəskin silah” ad verdilər,
“basılmaz ordu”[3] –

düşmən odu körüklədi hey zaman-zaman,
nə Türkiyə "başa düşdü", nə bunu İran.

Fətəli şah "...cur əst" dedi – "şor su" – Xəzərə,[4]
rusun hərbi gəmiləri doldu Xəzərə.
Nadir şah[5] da Borçalını verdi İberə,[6]
"Azadlığım" Moskvadan qoşunla gəldi,
silahların lüləsində qurşunla gəldi.

Stalinin[7] ağır oldu hökmü nəhayət, –
qədim – ulu məskənindən sürüldü millət.
Burda Budaq[8] haray çəkdi, orda Hidayət,[9]
nə İrəvan teatrı, nə oba qaldı,
nə boynunda bircə qatar kəhrəba qaldı...

* * *

**...A**çıb sinə dəftərimi varaqlayırdım,
gedən gedib, qalanları soraqlayırdım.
Qabağıma kim çıxırdı, qucaqlayırdım,
üz-gözündən oxşadırdım –
filankəs olar, –
ya Abbasdı, ya Əvrəşdi, ya Əvəz olar.

Bir kənd köçüb aman allah! –
tək qalan mənəm,
Beşiyimdən məzaracan aldanan mənəm,
dünya yenə cavan qaldı, qocalan mənəm,
məndən sonra aparıblar gözəl Poylunu,
uşaqlara tapşırıblar vağzal Poylunu.

Müşfiq[10] əsən küləklərə verdi köksünü,
şerimizə o gətirdi “Poylu” sözünü.
Sındırdılar bir ürəyin şah güzgüsünü,
kim Müşfiqi görübdüsə,
                    kaş sağ olaydı –
gözlərindən öpəydim ki, agah olaydı.

...Uçub durna qatarıtək gedib ahıllar,
tat Rzalar, kürd Əlilər, bığlı Alılar.
Başı dəri papaqlılar, beli şallılar,
qara saçlı o Papışdan bir səda qalıb, –
dümağ saçlı Fatma nənə abidə qalıb.

Daha yoxdu, darıxanda üstə qaçdığım,
düyün düşən sözlərimə ilgəy açdığım
Əhməd qağa,
            şahanə bir şah qardaşdığım
kəndimizin adətiydi, biz and içərdik –
şax qaldırıb özümüzə qardaş seçərdik.

Yadımdadı, Pirli kəndi, Bayram müəllim,
onda divar qəzetində çıxmışdı şerim, –
alqışladı ilk “Ağlaram” şerimi mənim.
Vidadiyə nəzirəydi, gəlmişdi haqdan,
şeir üstə ağlayıram elə o vaxtdan.

(Vidadinin həyatını tədqiq eləyən,
deyir Poylu məktəbində oxuyub erkən.
Yüz il əvvəl o oxuyub, yüz il sonra mən.
Bizi harda görüşdürdü həyat, şairim?!
Mənim sinif yoldaşımsan,
                    Ustad şairim!).

* * *

Rüstəm dekan işləyirdi...
işi durirmu?
Kənddən gələn uşaqları oxutdururmu?
Millət yenə elçi gedib mağar qururmu?
Varlı-kasıb dünyasıdı, indi dünyamız,
nə qalıbsa, kənddə qalıb – abır-həyamız.

...Dəftərindən köçürməyə qoymadı Məhər,
Sol əlinin kölgəsində yazdı birtəhər.
Təbaşiri yeyirdi ki, şəkərdi, şəkər,
deyirdilər dərs keçiblər ona beşikdə, –
O sinifdə birinciydi, mən də eşikdə.

Təhsilimiz təzə-təzə "test"lərə keçir,
nə deyirlər: yazhayazdı, köçürhaköçür,
müəllim gah belə ölçür, gah elə ölçür!
Yenə rüşvət əleyhinə rüşvət alan var,
mənim doğru dediyimdə yoxsa yalan var?!

Mən görürəm, ədalıdı bir para gənclər,
burda Qərbin havasına rəqs eləyirlər.
Orda gedib əl açırlar, boyun əyirlər.
Mühacirin həyəti var,
həyatı yoxdu,
yadlar açan süfrələrin o dadı yoxdu.

...Beşiyimi yelləyibdi Kürün ləpəsi,
laylayımı qatarların yeknəsək səsi.
Tanrım, necə şirin imiş ana ləhcəsi, –
"Ölöm!" deyə çağırsaydın, ana, sən məni,
mən ölməzdim, – yaşadardın təzədən məni.

Əvəlikli, umaclı bir aş bişirəydin,
ya xəngəlin yuxasını kəsib sərəydin.
Bir baş qoyun pendirini pay göndərəydin,
mən Gəncədə oxuduğum illər olaydı,
bir də "Ana" – çağırdığım dillər olaydı.

...**B**ir gün qəmli oturubsan çıxıb eyvana,
bir qaraçı gəlibdi ki, fal açsın, ana.
Deyibdi ki, dövlət quşu qonub başına,
bir oğulun olacaqdı, – sən demə təksən, –
amma onun o gününü görməyəcəksən.

Sən də ona deyibsən ki...
eh, nə deyibsən, –
"Təki mənim oğlum olsun", – niyə deyibsən?
Onda təzə hamiləydin, heç bilməyibsən,
yuxuda da deyiblər ki, bu gün, ya sabah, –
oğlun bir az böyüyəndə şair olacaq.

Gözəl anam,
gözəlliyin xəlvətdə qaldı,
şirinliyin bir nabatda, bir qənddə qaldı.
Mən də getdim, tək məzarın bu kənddə qaldı.
Dağ ətəyi, yovşan kolu
nazik bir cığır,
gedib sənin baş daşıyın üstünə çıxır.

Ledilərin geyindiyi ağ əlcəkləri,
sən geysəydin, qızdırardı soyuq əlləri.
Qarayazı meşəsinin əsən yelləri
saçlarını gah öpərdi, gah darıyardı,
əllərin də nə sızlardı, nə ağrıyardı.

Bilərdilər qadındakı qadınlıq nədir,
mehribanlıq, ya nəzakət, ya qılıq nədir.
Mənim evdar anamdakı xanımlıq nədir!
O qaraçı düz deyirmiş demə, o zaman,
biz yerdəyik,
göydə verir hökmü, Yaradan.

**...P**ıçıltılar eşidirəm:
"Bizim Nəriman", –
mən əzəldən sizinkiyəm, mən sizə qurban.
El-obamız, adətimiz çıxmaz yadımdan,
yenə sizin içinizdə biriniz mənəm,
bir ölkənin Xalq şairi! – yerliniz mənəm.

Şairlərin içində də çox həris olur,
ilhamsızın həyasızı daha pis olur,
ədəbiyyat ədəbdisə, ədəbsiz olur.
Üç cavanın bəyənmişəm mən ilhamını, –
Mirdaməti, Səadəti, bir də Ramini.

Ocaq görsən, Pirə getsən heç lağ eləmə,
məni ona, onu mənə yamaq eləmə.
Bir xalçanı sökə-sökə yumaq eləmə,
Bir hünəri görürsənsə, bacar kəşf elə,
qıfıl əgər açılmırsa, açar kəşf elə.

Özgəsinin süfrəsində gözüm olmayıb,
sözüm olub, söz deməyə üzüm olmayıb.
Bəlkə də heç bu söz üçün lüzum olmayıb,
arpadımı-buğdadımı əkib-biçdiyim,
öz əlimin əməyidi yeyib-içdiyim.

Burda bizim bir eyvana göz dikibdilər,
evimizi uçurdublar, mülk tikibdilər.
Yolumuzu bağlayıblar, bənd çəkibdilər,
bir nişanə axı nəydi, a poylularım?
Poylu məndən nişanəydi, a poylularım!

Ürək yenə xatırladı ötən çağları,
hanı bizim "Damcılı"nın buz bulaqları?!
Mən Baratı, Cığateli, Məmməd İlqarı
nəfəsindən tanıyıram, – əsil şairdi,
biri vardı, –
barmağıyla heca sayırdı.

Yıxılmadım, yarılsam da mən Kəpəz kimi,
taleyimə yellər əsdi amma tərs kimi.
Şair – xalqın ürəyindən qopur səs kimi,
qaytar xalqım,
o ürəkdə yer eylə mənə,
sən ilham ver ilhamımın sehrilə mənə.

Poylulara danışdıqca "Poylu röyamı",
gah gələcək yada düşdü, gah Nuh əyyamı.
Göyərçinlər böyütmüşdü mənim anamı,
göyərçinə döndü anam,
uçdu da getdi,
göy çatdadı, yer titrədi, sel-su da getdi.

Bəzəmədi o qurduğu aşiyanını,
mən bəzədim məzarının dörd bir yanını.
Həyatımın ləzzətini, güzəranını
şairliyin ovsununa dəyişdim ana,
öz içimdə dondum ana, mən bişdim, ana.

Bu Tay mənim,
səsim çatdı O Taya bəlkə?!
Ya Təbrizə, ya Mərəndə, ya Xoya bəlkə?!
Mən "yuxulu" gəlib-getdim dünyaya bəlkə?!
Mən bir ayıq görmədim ki, ayılda məni,
Araz axma, gözlə məni, sahildə məni.

* * *

**...G**əncə mənim ilk məhəbbət beşiyim oldu,
soruşmayın, tələbə qız onda kim oldu?
Bəlkə mənim alın yazım, taleyim oldu?
O qızlara dediyini mənə demirdi,
can verirdim,
canıyanmış can istəmirdi.

Unudulmaz Gəncədəki təhsil illəri,
Qəşəm, köçür öz sinəndən o fəsilləri.
Sərvazın da yorulmasın yazan əlləri,
Mən də Gəncə dibçəyində qalxdım,
boy atdım.
Palıd kimi dibçəklərə
sonra sığmadım.

"Çıx sinifdən"... –
müəllimən sözü sərt dedi,
dərsdə şeir yazdığımı görüb pislədi.
Yetmişimdə – yubileydə üzr istədi,
nə o görüş unudulur, nə də o yaddaş,
kaş Şəfiqə müəllimə sağ olaydı, kaş.

**...P**oylularım, yadınıza Poylu düşürmü?
Kür daşırmı, sel gəlirmi, dolu düşürmü?
Kəndə icra başçısının yolu düşürmü?
Yollarınız düzəlirmi, təmir olurmu?
Bir fəsəli bişirməyə xamır olurmu?

"Ağstafa" dağ çayıdı, gümüştəhərdi,
yay gələndə çimib-çıxan gümüşdənərdi,
Nizami[12] də –
Zəlimxandan[13] qaçıb gələrdi,
Tökülərdi neçə kənddən uşaq Poyluya,
Aran Poylu mat qalardı yaylaq Poyluya.

Ağstafa "paytaxt" idi məndən ötəri,
onu görmək – bir baxt idi məndən ötəri.
Ən uzaq yer Qazax idi məndən ötəri,
sonra yazdım ana yurdum, doğma vətənim,
Ağstafa mənimkiymiş, Qazax da mənim.

Kənd də deyil, qəsəbədi bizim Poylumuz,
şəhərlərə burdan düşür amma yolumuz.
Soruşsalar,
deyərsiniz şair oğlumuz –
dəmiryolçu Alməhəmməd kişinin oğlu,
unutmadı, bizdən yazdı, sevindi Poylu!

Heç anamın isti sacı unudularmı?
Mən gördüyüm ana-bacı, unudularmı?
O qızların uzun saçı unudularmı?
Mən dünyaya gələn günü çinar əkiblər,
mən unutsam, qoca çinar mənə nə deyər?!

Söyüdlərin kölgəsində xumarlanmışam,
üz-gözümə gün düşübdü, gündə yanmışam,
nə çağırıb oyadıblar, nə oyanmışam,
itib-gedib o zamandan o yuxularım,
bax, beşiyim buydu mənim, a poylularım!

Ruhlar məni yuxularda izləyirdilər,
ruhlar məndən özlərini gizləyirdilər,
səslərindən tanıyırdım, – səsləyirdilər,
Çoban Əfqan,[14] unutmadım əzəldən səni,
səndən sonra ağızlardan yığdım mən səni...

Yol üstündə bulaq suyu, –
                                        yanırdı haqdan,
odqarışıq su içmişəm mən o bulaqdan,
yarpız yığıb dürməyimə qatmışam arxdan,
yerin altı gizləməyib odunu məndən,
yerin üstü yarpızının dadını, məndən.

Söyüd mənim sevgilimdi o suda, – bilmir,
yuyub salxım saçlarını quruda bilmir,
məndən başqa bunu heç kəs Poyluda bilmir, –
hər gələndə kölgəsində "qonaq" qalıram,
zaman keçir, o gəncləşir,
                                        mən qocalıram.

Yazda iydə ağacları çiçəkliyərdi,
ətirlənib cavanları məst eliyərdi.
Qızlar açıq yaxasını düyməliyərdi, –
iki iydə dənəsiydi köynəyin altı,
qocalar da eynək taxıb oğrun baxardı...

Oğlanlar da elə bil ki, toy toğlusuydu,
qanlarını təzələyən eşq duyğusuydu.
Gözlərimiz o zamandan göz oğrusuydu,
bu qız mənim, o qız sənin
bölüşdürərdik,
qızları da özümüzə gülüşdürərdik.

İndi mənə göstərməyin o dostu-yarı,
mən öləydim, görməyəydim bu ağ saçları.
Yerli-dibli kəsibsiniz o ağacları,
xatirələr yer üzündən yoxa çıxıbdı,
Füzuli də
"dərd əlindən dağa çıxıbdı".

Bu dünyanın gözəl vaxtı Poyluda qaldı,
bir qız mənə süzgün baxdı, – Poyluda qaldı.
Göy üzündən ulduz axdı, – Poyluda qaldı,
taleyimin dalısınca getdim Poyludan, –
beşiyimin görüşünə gəldim sonradan!

Gün çıxanda, mənə verdin saçaqlarını,
aç sinəni, doldur, – dedin, – qucaqlarını.
Yığ başına qonşuların uşaqlarını, –
əvvəl öyrən kənddən-kəndə gedən yolları,
Poylu, səndən başlayırmış Vətən yolları!

* * *

**...B**izim Qorki İnstitutu Moskvadaydı,
ürək başqa, beyin başqa bir havadaydı.
Məcnun könül gah şəhərdə, gah səhradaydı,
biz Xəlillə[15] bir sinifdə dərs oxuyurduq,
Avropaya pillə-pillə "qədəm qoyurduq".

Bondi bütün dərslərində "Puşkin" deyərdi,[16]
özü köhnə bakılıydı,
fəxr eləyərdi.
Anikst də Evripidi vərəqləyərdi,
Svetlova "Qrenada"dan sual verərdik,
o lətifə danışardı, biz də gülərdik.

Sürgünlərdə çürüdülər balkar türkləri,[17]
Kaysın özü balkar idi, dərdi bəşəri.
Kuqultinov Davidin də kalmık əsəri
üzə çıxdı məhbəslərin dar qapısından,
Mamakayev "Çeçen!", – deyə köçdü dünyadan.

Lefortovo zindanının keçdik yanından,
gizli üsyan edirdik ki, əzilir İnsan.
Vətənimin tarixinə düşdü bu zindan,
kinpərəstə tapşırmayın vətənpərəsti, –
məşhurdu ki, Rusiyanın Puşkinə qəsdi!

Salyanda da, Gəncədə də toyumuz oldu,
baxtımıza çıxan qızlar gözəl qız oldu.
Biri Sara, o biri də Firəngiz oldu,
"Sağdış" olduq, "soldış" olduq bir-birimizə,
sahib çıxdıq əslimizə və nəslimizə.

Bir-birindən gözəl idi iki şux pəri,
hərəsi bir gənc şairin ilk şah əsəri.
Əbədiyyət sayırdıq biz o xoş günləri,
baxtımızı yazan yazdı bizdən xəbərsiz,
sən ki, varsan, duaçıyam sənə, Firəngiz.

Əbədiyyət – hərəkətdi, əylənə bilməz,
bu yürüşdə o başqa bir ənənə bilməz.

Mən yüz deyim nəmənədi?! –
"nəmənə" bilməz,
Yer üzünün qanunları göylərdən gəlir,
gedən gedir, gələn nəsə, o gələn gəlir!

Bu dünyanın sərt üzünə baxma fərəhsiz,
şimşəklərlə əlbəyaxa gül açdı nərgiz.
Üzüyünü, sırqasını satdı Firəngiz, –
"Yandı bağrım, döndü közə"– ey Ulutürküm!
Kitabların çıxdı üzə, ey Ulutürküm!

Can satılır, – oyaq satır, yatan satılır,
satan alır, alan satır, satan satılır,
Əzan gedir... – aşağıda Quran satılır,
zəmanəyə kim deyəcək Nəsimi kimdir, –
Cəmiyyətdə dəb düşübdü: qazanc və gəlir!

Xəlil şeir oxuyanda – göy gurlayardı,
alqış nədir, bir salona leysan yağardı.
Güləndə də uğunardı, seldə axardı
kirpiyində sıralanan üç göz yaşıydı,
köhnə yazı makinası yol yoldaşıydı.

Moskvada tanıdım mən Nazim Hikməti,
qürbət eldə tez tanıyır millət milləti.
Bir şerimi bəyənmişdi, ülfət eylədi, –
mənə Bakı Sovetindən mənzil istədi,
bir qaçqının bir evsizə dost töhfəsiydi.

O Vurğundan danışanda ovsunlanardı,
Rəfilini, Rəsulu da tez-tez anardı.
Türk görəndə içindəki türk oyanardı,

qucaqlardı o gah məni, gah da Xəlili,
böyük dünya şairiydi, vətən zəlili.

Oğul doğdu Azərbaycan qadını, Nazim, –
Nazim qoydum mən oğlumun adını, Nazim.
Bu sinədə o sinənin odunu, Nazim,
istədim ki, nəsil-nəsil yaşadan olsun,
sənsiz sənin hər əsrdə yaşıdın olsun.

Ulu türkün varisiydin, indi hardasan?
Dünya səndən doymamışdı, sən də dünyadan.

Dedin: "Nehru siyasəti yürüt, Nəriman".[18]
Heyif, sonra başa düşdüm mən bu hikməti,
şair, bir də təkrar elə o həqiqəti.

**...A**tam – "Ata" deyənəcən köçdü dünyadan,
Mir Cəlala[19] rast gətirdi Tanrım sonradan.
Mənə Püstə[20] xanımı da verdi Yaradan, –
biri atam, biri anam əvəzi oldu,
taleyimin bu, ən böyük töhfəsi oldu...

Hər papağın altda oğlum, bir oğul yatır,
qullar elə bilirlər ki, orda qul yatır.
İstedadın köməyinə istedad çatır, –
dahilərin fəryadına insan lal olur,
o insan ki, İnsan olur – Mir Cəlal olur.

Bir komsomol mükafatı, bir adi medal, –
bir-iki gün yaxasından asdı Mir Cəlal.
O da halal, o biri də min dəfə halal!
Tək "Manifest"[21] yazmamışdı böyük sənətkar,–
Arif kimi, Hafiz kimi... manifesti var!

Anan mənə oğul dedi, – ekrandan, Arif,
ad günümü sən keçirdin o zaman, Arif,
Sən itirdin, mən itirdim onu, can, Arif,
O qadının gözlərindən qeyrət oxudum,
Mir Cəlalın bəxş etdiyi evdə olurdum.

Siz həyatda nə itdiniz, nə itirdiniz,
Ey Mir Cəlal! – mircəlallar qoyub getdiniz.
Cilid-cilid cah-cəlallar qoyub getdiniz.
Məndən ötrü bir kəlam da şərəf-şan olur, –
"O şair ki, Şair olur – Nəriman olur".

Səməd Vurğun hər sözünü üzə şax dedi,
"Qarayazı... Kür qırağı... od-ocaq..." – dedi.
"Sizi bir də hansı şair yazacaq?" – dedi.
Saçlarına tumar çəkdi öz adətilə,
"Zəmanət" də yazdı mənə ustad əlilə.

Antik dövr, xronika[22] yox idi bizdə,
ilk pərdəni mən qaldırdım Baş səhnəmizdə.
Pompeyi mən danışdırdım öz dilimizdə,
bir də həzin bir pıçıltı[23] gətirdim dilə,
şerimizin nəfəsini qızdırdım belə.

Poemanın "qıfılını" bağlamışdılar,[24]
elə ki, mən açar saldım, qapı açdılar.
"Nəriman"la, "Zümrüd quşu" qoşalaşdılar,
Sonra "Kimin sualı var", sonra daha nə...
bəzən darı əkirdilər buğda yerinə.

Naxçıvanda bəyəndilər "Atabəylər"i,
"Pompey"i də, –
unutmaram mən o səfəri.
Mən illəri yola saldım, illər illəri,
Cəlil dostum zəng eləyib, – pyes yaz, – deyir,
Naxçıvanın Atabəyi əsər gözləyir.

...Məni İlyas Əfəndiyev qarşılamışdı,
teatra gəlişimi alqışlamışdı.
Mənim şeir dilimi də o xoşlamışdı.
tamaşaçım olub mənim böyük sənətkar,
ondan "İlyas teatrı" qaldı yadigar.

Ustad özü Şekspirə "ustad" – deyirdi,
yazıçıya yaz demirdi, yarat, – deyirdi.
Aktyora yatanları oyat, – deyirdi.
O da bəlkə bizim kimi adi bəşərdi? –
sənətindən söz düşəndə dahiləşərdi.

Katib idi, qoyub getdi ərizəsini,
vəzifədə ölən tutdu vəzifəsini.
Xalqa dedi ilk sözünü, son nəğməsini,
Mərahimin mizanları kəşf idi bəzən,
o da baxıb sevinirdi, deyirdi, – əhsən!

Sən kimləri yola saldın, ey gidi dünya,
bizə şəhid gedənlərin şahidi dünya.
Mənim qədim əcdadımın əcdadı dünya,
mənim "Poylu beşiyim"in beşiyi dünya,
evsizlərin evi dünya, eşiyi dünya.

* * *

Mən dünəni öyrəndim ki, sabahı görüm,
gizli qalan xəyanəti, gunahı görüm,
öz içimdə yaşatdığım Allahı görüm, –
daxıl  düşüm, yalvarım ki, rəhm elə, Allah,
düşmənimiz, ya dostumuz kimdi? – tanıyaq.

İnandığım adamlara ümid olmuşam,
"sait" ikən dəyişmişəm,
"samit" olmuşam.
Ayılmışam, sonra guya, sakit olmuşam,
səndən iraq olsun, oğlum, bədbəxt olmuşam,
axı mən də çoxlarına bir bəxt olmuşam.

Mən nə qədər qalstuklu nadan görmüşəm,
"şeytanlara" mən daş atan şeytan görmüşəm.
Hörmət-izzət əvəzinə, böhtan görmüşəm,
mənim Tanrım, nadanlardan qorusun məni,
şeytanlardan, böhtanlardan qorusun məni.

Bir müdrikdən soruşdular: ey ulu hakim,
ikiüzlü çıxan dosta gedim nə deyim?
Dedi: qafil, tanış eylə, dostluq eləyim,
yeddiüzlü "dostlar"ından qorun, bacarsan,
onda özün əl tutarsan, qapı açarsan.

Olanlara biz "qəsd" dedik, ey Dədə Qorqud!
Keçənlərə "güzəşt" dedik, ey Dədə Qorqud!
Əvəzində nə istədik, ey Dədə Qorqud?!
Mən nəfslə ləyaqəti üz-üzə gördüm,
deyirdilər köhnə dəbdi, mən təzə gördüm.

Sən də durma, mən inandım sənin andına,
qoyunları, keçiləri qoy sapandına.

Elə tuşla, elə at ki, – çat muradına,
solum xain, sağım zalım, Qaraca Çoban!
Bir az mən də nəfəs alım, Qaraca Çoban!

Bu dünyanın xiffətinə bir can neyləsin?
Gül əkirsən, alaq bitir, bağban neyləsin?
Aylar-illər xəstəsinə loğman neyləsin?
Qarışqa da qulağına girir bir filin,
Allah, Allah, gör qatili nədir bir filin?

Mən bir ömür yaşamışam, – ağlı-qaralı,
can nigaran, "can" dediyim ürək – yaralı.
Bir əsrə bəs eyləyər bir insan ağlı,
təsadüflər dünyasıdır, amma dünyamız,
bir təsadüf üstündədi hər ayağımız.

* * *

Ya Məhəmməd!
                    Yenə məni səsləyir Zaman,–
Mənə Cərcis[25] peyğəmbərdi xəbər yollayan:
"Niyyəti var, niyə gəlmir şair Nəriman?" –
iki dəfə yuxusunda görüb bir cavan,
iki dəfə ismarlayıb məni də ondan.

Ürəyimdən nələr keçib, əyan olubdu,
Yerin üstü yerin altda bəyan olubdu,
Peyğəmbərim tək qoymayıb, həyan olubdu,
Bu da mənim "həcc səfərim", ziyarətimdi,
Peyğəmbərin ismarıcı əmanətimdi.

Zəncir gördüm, yerin-göyün bir tilsimiydi,
Bu dünyaya atılmış bir tilov kimiydi.

Bəlkə də bu Peyğəmbərin öz təlimiydi, –
O qarmağa nə taxırdın atır, tuturdu,
Ağıl kəsən nə vardısa, unutdururdu.

Sən Allahın dərgahında əbədi haqsan,
Mən yuxulu yaşayıram, sənsə oyaqsan.
Mənə məndən yaxın ikən necə uzaqsan?!
Yerdə deyil, içimdədi işıqlı Türbən,
Səni sənin yanına da mənəm gətirən.

Bəlkə mənəm çağırdığın birinci zəvvar?
Ya Peyğəmbər, şair bunu yadında saxlar.
Vaqifin[26] də danışdığı sirli yuxular, –
Beyləqani vətənindən gələn səsiydi,
bu, səslərin doğmasıydı, müqəddəsiydi.

* * *

**N**azim,[27] oğlum, min illərdi axır Dəli Kür,
hirslənəndə yaxın durma, pələngə dönür.
Tək çıxmışdım, cüt qayıtdıq, Allaha şükür!
Heyf, indi nə anan var, nə Nabat nənən,
nəslimizi özün yaşat, gözləmə məndən.

Qızım, sənin xoş gününü anan da gördü,
Atabəylər ocağına gəlin köçürdü.
Sən köçəndə, dünyamızdan dünya köçürdü,
anan çaşıb sevgilinə "qardaş!" – demişdi,
qayınana nəydi, – hələ
o görməmişdi.

Mənim könül dəftərimin hər varağında,
Saranın bir gülüşü var Kür qırağında.
Gəncədəydik – bacımgildə[28], gənclik çağında,
Arpa çayı aşdı-daşdı, tufana döndü,
sel Saramı aldı qaşdı, sel qana döndü.

Məhəbbət! Nə deyim bu ülvi ada,
hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
başqa birisinə göz yaşı verir.

İstəyirdim belə yozum mən bu yuxunu,
heç bilmirdim məhəbbətin nə olduğunu.
Hara gəldi tuşlayırdım eşqin oxunu,
nə biləydim, haqdan gəlir sinəmdən gələn,
demə, xəbər verdiyimdən xəbərsizəm mən.

Sən "Görücü" adı verdin mənə, Qəzənfər,[29]–
"taleyini əvvəlcədən görən "bəxtəvər"!
Bir münəccim zəkasıyla yazdığın əsər
hələ neçə düyünləri bir-bir açacaq,
Nizami də: "Baxt" deyibdi, hünərdən qabaq.

**T**ağı[30] dostum, mübarəkdi sənin həyatın,
mən görəndə uşaq idi gözəl Salatın.
Şahbuz hara, Poylu hara? – gəldin apardın,
sən eşq ilə qədəm basdın Kür qırağına,
burdan gözəl axtarıblar İbrahim xana.[31]

Mən Saçlının saçlarını hörə bilmədim,
kitab verdim, məktubumu verə bilmədim.
Pakizəni Pakizədə görə bilmədim,

yanımdaymış, saxlayırmış gördüm özünü,
kəlağayın bir ucuyla sildi gözünü.

Kənddə yetim bir gədəydi "Dəli" Müseyib,
ev-ev ilan axtarardı gəlib Müseyib.
Bir gün qəfil eşitdik ki, ölüb Müseyib,
bir dürməyə yazıq uşaq ilan tutardı,
evdəkilər ondan sonra rahat yatardı.

Üzümə ilk ülgüc vuran dəllək Məhəmməd,
"Ta bu gündən oldun kişi" – demişdi xəlvət.
Bir qırmızı onluq verdim – ustaya xələt,
uşaq girib kişi çıxdım dəlləkxanadan,
iki dəfə dönüb baxdı, məni tanıyan.

Bir dulaşa düşürmüşdüm çıxıb ağaca,
qanadları yelpik idi, quyruğu haça.
Bir gün üzük oğurladı həmən dulaşa,
dedim görən hansı gəlin şərə düşübdü? –
baxt üzüyü barmağından yerə düşübdü.

Sağ çiynimə, sol çiynimə qonardı səhər,
bir dəfə də nə gətirdi? – bəzəkli kəmər.
Sapand ilə vurdu onu bir dəlikəmtər,
ölümünə bais oldu oğru pay-puşu,
şirnikdirən özümüydüm o fağır quşu.

...Bir qaraçı gözəli də çıxardı kəndə,
mən "Zülfiyə!" çağırardım, səsi gələndə.
İri halqa sırğaları salmışdı bəndə.
Hardasınız ay uşaqlıq illərim, harda?!
Böyüdükcə paklığımız itdi arada.

Boynundakı muncuqlardan tez tanıyırdım,
qızdırmanın içindəydim, odda yanırdım.
Məni çılpaq soyundurdu, bərk utanırdım,
bədənimə su səpəndə qəfil ayıldım,
dodaqlarım muçuqladı, səhəri qalxdım.

O da yəqin bir tabora qoşuldu getdi,
ya da bir at oğrusuna tuş oldu getdi.
Əldən uçdu, qanad açdı, quş oldu getdi,
hansı gülün budağında bir yuva seçdi?
Keçdi getdi, Allah bilir sərhəddi keçdi.

...İdarəmiz uzaq idi Kür qırağından,
Kənd Poyluya yollanardım, vağzal Poyludan.
Beş yumurta, bir də beçə – evdə olandan,
arayışa qol çəkmirdi kənd hökuməti,
nə xahişi eşidirdi, nə də minnəti.

Qurut tamam quruyunca mən "quruyardım",
onu oğru sağsağandan hey qoruyardım.
Qovurmalı soğançamı yeyib doyardım,
"Çilingağac" oynayardıq, ya "Dirədöymə",
hər əldə bir qayış kəmər, qoymahaqoyma.

Bizim comərd oğulları bilmirəm nədən,
Olimpiya oyununa yoxdu göndərən?!
Dəmir əyən, daş sındıran, tamaşa verən...
Azərbaycan bayrağıyla yanaşı durar,
xaricdə bir himnimiz də artıq oxunar.

Qırx yeddi il ovsunladı Bayramı Xəzər,
qara qızıl: sahildə ləl, dənizdə gövhər.
Bayram olub, Vaqif olub bizim neftçilər,

Vaqif Poylu pivəsinə "PP" – ad qoyub,
"Neftçi Vaqif" adını da camaat qoyub.

Poyludakı yarımkamız[32] bir mərkəz idi,
alış-veriş, axşamacan bəhsəbəs idi.
Bir toğluya iki çanaq buğda bəs idi,
dana, keçi, dəvə, kilim... nə istəsəydin,
gah bir şeyə dəyişərdik, gah nisiyəydi.

Kolayırdan, Xalfalıdan, Soyuqbulaqdan,
Kəsəməndən, Borçalıdan, Qaxdan, Qazaxdan,
Başkeçiddən, Qaraçöpdən, – yaxın-uzaqdan
tökülüşüb gələrdilər, – bazara girsin,
Anam da un alardı ki, çörək bişirsin.

Bir bazarda – keçi-qoyun bazarı vardı,
paltar-palaz, ayın-oyun bazarı vardı,
mal bazarı, yanında yun bazarı vardı,
qoca nalbənd çeşmək taxıb at nallıyardı,
bal satan da arıları qovalıyardı.

...Ceyrançölə tökülərdi yayda binələr,
təzə nehrə çalxayardı gözəl nənələr.
Yaşayırmı mən gördüyüm o ənənələr?!
Bir millətə qəsd eləmək istəsən əgər,
adətini əlindən al, yox olub gedər.

Adət də var "köhnəldikcə" təzə-tər qalır,
sevgi qalır, həyat qalır, xeyir-şər qalır.
Tariximə şərəfdisə,
o hünər qalır,
dilimizi əyə-əyə bir söz düzəldən,
özünü də, milləti də salmasın əldən.

Mehri bibim qara sapa düyün düyərdi,
pıçıldaya-pıçıldaya "mürgülüyərdi".
Nəzir yığıb o cinləri tez-tez söyərdi,
Bir gün itdi ağ pişiyim... düyün düy,– dedim,
pişik gəldi,
nəzir aldı məndən də bibim.

Davanın[33] lap ortasıydı, gedib birtəhər,
Qaraçöpdən qarğıdalı gətirirdilər.
Onda jımıx yeyirdilər, ot yeyirdilər,
uşaq idim, yaddaşımda qalır o vaxtdan,
gördüyünü böyükdən yox, soruş uşaqdan.

Kəndə alman əsirləri gətirmişdilər,
hasarlayıb hamısını "itirmişdilər".
Sarımeçən, sarıkirpik, şeytana bənzər...
Səngərlərdə şakaladnan bal yeyirdilər,
burda tutub tısbağanı bişirirdilər.

Biçinçilər uzaq-uzaq diyara getdi,
Xoxanoğlu...
heç bilmədim o hara getdi?
Lüt Əzizin qazandığı qumara getdi.
Amma Kürə tor atan da Lüt Əziziydi,
onun balıq soyutması əvəzsiziydi.

Bir əlbeşik qoymuşdular – Meşə Ağası!
Şəhərdəki qağamızın kəndçi qağası.
At belində, böyründə də boş berdanqası!
Meşənin bir tərəfini daşımışdılar,
Qağamın da tərifinə başlamışdılar.

Dilən kişi zurnasını hey pülüyərdi,
odda yanan ciyərlərə su çiliyərdi.
Nağara – dağ silkəliyər,
züy – məliyərdi,
qoca-cavan dingildəyib davalanardıq,
"Güləşəngi" havasına havalanardıq.

Mən görəndə ağsaqallar mehribanıydı,
ya vağzalda dəmiryolçu,
ya bağbanıydı.
Ağbirçəklər bir-birilə canhacanıydı,
"Qadan alem" deyə-deyə danışardılar,
qadasını aldıqlarım sayrışardılar.

"Cıppı Rüstəm!" bapbalaca, – boyu bir qarış,
altımışı addamışdı, üzündə qırış.
Amma Allah adamıydı, Allahsaxlamış,
qarğıdalı pörtdəməsi – "Badı-budu"ydu,[34]
bir dolçası on qəpiyə – qazancı buydu.

Sədi kişi baməzəydi, lap məzəsindən,
turp bağlardı köhnəsindən, ya təzəsindən,
sərnişinlər "tanıyardı" onu səsindən,
qatar gəlib çatanacan o da çatardı,
"Moskovski iridiska" – deyib satardı.

Sədi mənə bir saat da bağışlamışdı,
saatı da özü kimi haphaplamışdı.
...biləyimə, köynək üstən bərk bağlamışdı,
– Lemislərin saatıdı, saxla, – deyirdi,
saat yatır, amma Sədi tərifləyirdi.

...Nə dəmirçi Mirzə durur, nə "şeni" Məcid,
durur "Dəlmə"[35] dediyimiz yeraltı keçid.

Məndən xəbər alsaydılar:
hardadı Behişt? –
Mən deyərdim: yer altda yox, yer üstündədi,
bizim Poylu meşəsində – Kür üstündədi.

Suçu Məcid Kür suyunu təmizləyərdi,
– "tiflisdilər zibilləyir", – hərdən söyərdi.
Durultduqca – dağ suyudu, – için deyərdi,
indi təmiz suyumuz var, təmiz havamız...
o kişidən əmanətdi su anbarımız.

Burda kitab mağazası görmədim əfsus,
Poylu,
səndən kitab yazdım mən sənə məxsus.
Poylu mənsiz olmasın qoy, mən də Poylusuz –
dünya elə dəyişdi ki, "cənablar" nahaq, –
satdı kitab dükanını kitabdan qabaq.

Nizami də, Füzuli də "küçələrdədi",
heykəli var, kitabları quru yerdədi,
mətbəələr, nəşriyyatlar gözə pərdədi.
Poliqrafçı, nəşriyyatçı ölçür yolları,
gedir kitab əvəzinə Dubay malları.

Moskvada, ya Kiyevdə diplom alan da,
qazan satır, balıq satır daxıl dalında.
Bilən də o, bilməyənə tabe olan da,
adamların yaxşısını zay eləyirlər,
deyən yoxdu kimi-kimə tay eləyirlər?!

İskəndərdən[36] bir rəvayət danışım sizə,
bir əlində "Homer" olub, birində nizə.
O, Daranın mücrüsünü töküb dənizə,

Şahanə bir əsər qoyub Şah mücrüsünə, –
"İliada!" –
Bəs eyləyər – deyibdi – mənə.

Məmurların nitqində də şeir deyilmir,
mən bilmirəm, o Cavidi bilir, ya bilmir?!
Şeir üstə sürgün olmur, dara çəkilmir,
Qney Pompey yad ölkənin ərazisində,
Evripiddən şeir dedi son nəfəsində...

Allah, Allah, havaların qızan vaxtıdı,
ermənininin atəşkəsi pozan vaxtıdı,
sürülərin köç yolunu "azan" vaxtıdı.
Yaylaqların çəhlimindən səhraya düşdük,
biz haraya gedəsiydik,
haraya düşdük.

Yer üzündə bir erməni təhlükəsi var,
Xallı başda[37] millətimin qan ləkəsi var.
Boğazında qaçqınların son tikəsi var,
Bir vətənsiz hakimiyyət taxtına çıxdı,
o da mənim vətənimin baxtına çıxdı...

* * *

**A**zərbaycan, səndə qaldı gülüm-gülzarım,
bir gün Bavar torpağına düşdü güzarım.
Bir az orda kasadıydı şeir bazarım,
ürəyimin infarktından qan ağlayırdım,
yalnız alman cərrahına bel bağlayırdım.[38]

Bir əli bir ovsun idi, o biri neştər,
qulağımda "Baş sarıtel",
sinəmdə "Şüştər".

Bu mübtəda ürəyimin xəbəri – məstər!
Nə yaxşı ki, Nazim mənim yanımda oldu,
bu dəfə mən "oğul" oldum, o "ata" oldu.

Gah başıma sığal çəkir, gah da susurdu,
– Ye, – deyirdi, mən yemirdim, ona dözürdü.
Mən "küsürdüm",
guya məndən o da küsürdü,
mavi gözlüm söz deməmiş gülümsəyirdi,
– Bakıdan zəng eləyiblər, danış, – deyirdi.

Simax Şeyda[39] səhər gələr, axşam gələrdi,
o gələndə, palataya bayram gələrdi,
uzaq Kassel şəhərindən salam gələrdi,
Savalanın dost səsiydi Almaniyada,
tərcüməçi əvəziydi Elçin bala da.

Yusif,[40] inan, orda "öldüm", burda doğuldum",
Sən ki, mənim ürəyimi qorudun, oğlum,
mən də sənin ürəyinə minnətdar oldum.
Bir ömürün son sözünü bircə an deyir,
kim ki, deyir mən qorxmuram, o yalan deyir.

* * *

**Q**ərib Mehdi, teleqramın çatdı, qardaşım,
mən ölmədim, – bəlkə bu da baxtdı, qardaşım,
yaşayan biz, ömür verən Haqdı, qardaşım,
mən min illik bir yuxudan oyandım, Qərib,
bir də alın yazısına inandım, Qərib.

Məni Cərcis peyğəmbərim qaytardı, Qərib,
Ətağaya dediklərim qaytardı, Qərib,

məni Tanrım, məni Rəbbim qaytardı, Qərib,
mən dünyamı dəyişsəydim nə olasıydı,
"Azərbaycan!" – deyən bir səs azalasıydı...

Mən demirəm, yerdə məni Allah unudub,
məni Kürdə çimizdirib, gündə qurudub.
Yıxılanda
    gizli bir əl qolumdan tutub,
Möcüzədir həyatımız, həyat tərzimiz,
nə biçəcək, nə tikəcək hələ "Dərzimiz?!"

Məni sevən, məni duyan, məni əyən var,
ya qeybdən görən kimi, əl eləyən var.
Mənim sənə dediyimi – mənə deyən var,
sözü sözdən seçməliyəm söz demək üçün,
bu seçim də imtahandı bir ürək üçün.

Gəncə qədim anasıdır bütün Aranın,
Qərib, doğma övladıyıq biz bir ananın.
Beşiyimin şah beşiyi –
                    Azərbaycanın
yağmalandı süfrəsində duzu-çörəyi, –
qurban verdik Cavad xanı, Xudadat bəyi.

* * *

**...C**an, Ələkbər,[41]
                can odumdu bu can dəftəri,
Mahir[42], yenə təzələdin kinolentləri,
tarixə çək, lentə çəkmə sən bu günləri.
Rəfiqə[43] bu dastanıyla ovsun oxuyur,
bizdən sonra bizdən ötrü abidə qoyur.

Məni Poylu gözəlləri oxuyacaqlar,
sözlərimi ipək sapnan toxuyacaqlar.
Çərçivəyə salacaqlar, saxlayacaqlar.
Bu nəsildən, o nəsilə ötürəcəklər,
özlərilə azuqətək götürəcəklər.

Bizim qızlar qumaşlara bükülsəydilər,
evdən çıxıb, ürəklərə əkilsəydilər,
Rafaelin fırçasıyla çəkilsəydilər,
dünya sərgi salonları naxışlanardı,
bu alqışalayiqlərim
alqışlanardı.

...Bir sinifdə hallanırdı şairin adı,
soruşdular: "Nərimanın nədir həyatı?"–
professor cavab verdi, o yanılmadı:
"Bir yuxudur, intəhası "Cənnət" yuxusu",
bir də sözün dərgahında
Tanrı qorxusu".

Sadıq böyük Mir Cəlalın tələbəsiydi,
hər tədqiqat əsəri də qələbəsiydi.
Uluxanlı qayıtsaydı, bəlkə bəsiydi,
bəzən, ay dost, bu nə mənə, nə sənə çatır,
Professor qədəm basıb səksənə çatır.

Bir ömürdə – iki ömür yola salırıq,
biri ötən cavanlıqdı,
biri qocalıq.
Bu – nadanlıq, o biri də – peşimançılıq,
hər gələn bir ağıl verir dünyada bizə,
amma dünya əsa verir bir əlimizə.

* * *

**N**ərimanı[44] unutmayıb Kürün körpüsü,
Bütün Poylu camaatı, Kürün bu üzü.
Məhəbbətin, sədaqətin yoxmuş ölçüsü, –
Qoca Şərqin sabahına açıb qoynunu,
Poylu dördyol ayrıcında seçdi yolunu.

Gördüm o gün, dar cığırla qarınca gedir,
qarıncalar bir-birinin ardınca gedir.
"Müzakirə" – müzakirə dalınca gedir,
ələyirlər –
Nərimanov ələkdən keçir,
üyüdürlər –
unəvəzi hələ dən keçir.

Bu mərəkə mənimkidi, bəlkə İlahi?!
bir gördüyüm xal,
ikidi bəlkə ilahi?
Dünya özü bir çəkidi bəlkə İlahi?
Tərəzilər üstə keçir bəlkə həyatım,
necə bilim: harda yatdım, harda oyandım?!

Mənim Poylu eposumdu bu kiçik yazım,
damarımda dövr eləyir Kürüm, Arazım.
Bəlkə "Dədə Qorqud"umdu,
bəlkə "Manas"ım?
Bəlkə mənə bu şərbəti içirdən əl var? –
"Bu yazıya pozu yoxdu" – belə məsəl var.

Mən burda gül becərmişəm, alaq vurmuşam,
daş armuda bal armudu calaq vurmuşam.
Hər bəndimə iki misra dayaq vurmuşam,
sinəmdəki duyğuları boşaltmaq üçün,
bir el-oba dastanını yaratmaq üçün.

Bir alimin, bir rəssamın, ya bəstəkarın
əsərində görünmədi axar-baxarın.
Nə Poylunun səsi çıxdı, nə poyluların,
ürəyinə toxundular əksinə, Poylu!
nə yoğurub, nə yapdılar gör sənə, Poylu:
"Ölən Poyludan olsun, ağlayan Kəsəməndən".

Bəlkə də bir zarafatdı, ya bir qərəzdi?
Kəsəmənin kişiləri belə deməzdi.
Bu dünya borc dünyasıdı,
əvəz-əvəzdi,
Qaçaq Kərəm o bayquşa divan tutardı,
sünnü-şiyə davasını unutdurardı!

Mən Poyluda doğulmuşam, qış günü səhər,
əslimiz də, nəslimiz də Kəsəməndilər.
"Dəli Hasan" babam olub – əsl kişi, ər!
Bu mahalda iki "dəli" olubdu məşhur, –
biri Dəli Hasan babam, biri Dəli Kür.

Kəsəməndə Qaçaq Kərəm, İsrəfil Ağa,
qondu iki qartal kimi qoşa budağa.
Üz-üzəydi, göz-gözəydi, qabaq-qabağa,
ata-ata, bir-birini qoruyurdular,
dost idilər, ara dəydi, düşmən oldular.

Qan tökmədi "aynalı"lar comərd əlində,
Kərəm getdi, Ağa qaldı namərd əlində.
Kərəm orda haray çəkdi bu dərd əlində –
burda qatil "darağını" boşaltdı tamam,
ürəyimi ürəklərə boşaldammıram!

...Dedilər ki, Həsənəli götürüb suyu,
Kəsəmənə gedən yola ötürüb suyu,
gecə taxıl sulayırmış, "itirib" suyu, –
məndən giley eləyib ki, şair də guya,
"Kəsəmənə gedə bilmir, getsin Poyluya".

Mən onsuz da istəyirdim əzəldən sizi,
bu ərkyana giley üçün sevdim mən sizi,
Mən sizinəm, Poylu sizin, Kəsəmən sizin,
tapın İncə dərəsindən Sarıvəllini,
bir məclisdə deyibdi ki, keçib əllini!

**...G**ülgün, oğlum, sür maşını üzüyuxarı,
Kəsəmənə dönəsiyik əvvəl-axırı.
Gör, Bayramın qalıbdımı köhnə çaxırı,
sarımsaqlı bir pörtdəmə ziyafət olar,
bir də "ağzıxamırlı"dan – qiyamət olar.

Tapdıq qağa Kürü keçsin "Haçadil" atnan...
Dostum Bəkir Eyyubov da, dostum Baratnan.
Teymur qağa Zaməddinnən, Rövşən Fuadnan,
Atababa, – Ayaza de, biz də görüşək,
burda insan insan ilə bəzənsin gərək.

Nizamiyə şah misramtək hörmət eləyin,
"Cəmiyyət"dən Vidadini dəvət eləyin.
Akif mənim gəncliyimdi, diqqət eləyin,
İncəlinin dilindədi şeri Vurğunun,
yanımızda boş qalmasın yeri Vurğunun...

Bu döyüşdən o döyüşə atıldı Mehdi,
“Gətir oğlum” – deyə-deyə Osman da getdi.
Bir nəsilin kəlamını İsmayıl dedi:
“Sapı bizim özümüzdən olan baltalar!”,
əldən-ələ ötürüldü haman baltalar...

Hüseynin “harayına” gedib çatmadıq,
Mirvari də “səpələndi” torpağa artıq.
Gedənlərin heç birini biz qaytarmadıq,
Gələnlərin heç birinə “gəlmə”, demədik,
sirri nəydi bu “get-gəlin”, – nəydi bilmədik.

Yer üstündən yer altına dünya daşınır,
dağ daşınır, düz daşınır, səhra daşınır,
hardan gəlir, hara gedir, hara daşınır?
Biz xatirə deməyəmi qalırıq yalnız,
“Əvəz-əvəz” oyunudur, nədir dünyamız?!

Dərk etdikcə dərkedilməz olur kainat,
bu insandan o insana verilir həyat.
Min il qala bilməzdimi yaxşı bir övlad?!
Bilən yoxdu, Tanrım, nəyə can atdığını,
pozub heçdən başlayırsan yaratdığını.

Hanı Şumer, hanı Miken, ya Babilistan,
yaşayırmı İskəndəri görən bir insan?
Herodotdan öyrənirik, ya Plutarxdan,
ehramları tikiblər ki, ruh qayıdacaq, –
ruh – körpələr doğulanda qayıdır ancaq.

* * *

**...A**man Saleh, sən də bizi mağmun elədin,
evində tok vurdu səni, çovğun elədin.
Bizdən "xəlvət" elədin sən, "oğrun" elədin,
Əli deyir, Elman deyir "Saleh qeyb olub",
düşüb şeytan tələsinə, kim heyif olub!

Bağ salmışdı, bağı qaldı, bağbanı getdi,
xəstə yatır yatağında, loğmanı getdi,
bizə sağlıq diləyirdi, sağ canı getdi.
Gələn qonur, qonan uçur, – deyiblər, Saleh,
bir də geri dönəcəkmi o günlər, Saleh...

* * *

**...B**əlkə mənim "səhvlərimi" sapa düzən var?
söz ağzımdan çıxan kimi ağız büzən var?
Anan ölsün, ay Nəriman, səni üzən var, –
bəlkə indi asır-kəsir, yoxdu xəbərin,
Əli Rza Xələflini tapın – söz verin.

Külək əssə, kürəyimi çəpər eləyin,
Zəlimxana, Şəmistana xəbər eləyin,
Camala da, Hamletə də siz yer eləyin,
Musa dostdu, dost içində dostun köhnəsi,
hanı mənə "Əmi" deyən Məmmədin səsi?

Azad, səni tanıyandan çox şadam, Azad,
bağ yerinin qayğısından azadam, Azad.

Dəbdəbəyə, təntənəyə mən yadam, Azad,
deyibsən ki, müqəddəs yer o bağ yeridi,–
o bağda ki, şair qalır, –
"Ocaq" yeridi.

"Böyük-kiçik" adətimiz unudulmasın,
kirpik elə uzansın ki, göz tutulmasın.
Bizdə elə şey olarmı –
söz tutulmasın? –
onda necə milli ruhdu, mənəvi dəyər? –
Bizim İlham Pirməmmədov təsdiq eləyər.

İlham bizim Ana Kürün doğma səsidi,
İlham qardaşəvəzidi, dostəvəzidi.
O, Tanrının – elimizə bir töhfəsidi,
Həsrəti də həsrət qoyma heç kimə, Tanrım!
İki qardaş qardaş olsun Nazimə, Tanrım!

Köhnə çəpər qonşusuydu Mülkülü Həsən,
söz dilindən düşməmişdi, saz sinəsindən.
Səhər-səhər cəh-cəh ilə ötərdi bəzən,
Qarayazı meşəsində atnan gəzərdi,
salam verər, salam alar, çörək kəsərdi.

Soruşardı nə yazıbsan? – ürək verərdi,
nöqsanımı mən görməzdim, şair görərdi.
Oxuyanda əl gəzdirməz, göz gəzdirərdi, –
ürəyimə dəyməzdi ki, sınar nagahan,
oğlu Əziz – "Məftun Əziz" oldu sonradan.

* * *

**A**ğstafa dəyişibdi qabaqkı deyil,
"Vurğun bağı" mən gördüyüm o bağ ki, deyil.
Baxan baxır, görən görür – uşaqkı deyil?
O yerdə ki, daş üstünə daş qoyur əllər,
o torpaqda vətən himni oxuyur əllər.

Şair gəlib, Poyludadı deyin, Cümşüdə,
Şeir deyin, ya bayatı deyin Cümşüdə.
Ömür puçdu, söz bahadı, deyin Cümşüdə,
istəyirəm "ovsunları" mən duya bilim,
millətimi pis nəzərdən qoruya bilim.

Nemətimiz ermənininin, – yazır Moskva,
sənətimiz ermənininin, – yazır Moskva,
sərvətimiz ermənininin, – yazır Moskva,
Qafqazımız ermənininin, – yazır Moskva,
o da yalnız ermənininin, – yazır Moskva.

Buydumu dost şüarınız yüz ildən bəri?
"Cermux"a siz dəyişdiniz sisternləri?
"20 yanvar" qatilisən, ey "Sülh" əsgəri,
şüarınız mübarəkdi, daha nə danmaq, –
Bakıyla "dost",
İrəvanla hƏrbi ittifaq!

Zalımların qusduğu qan qızıl teştdədi,
Dilboz atlar bir-birini keçə-keçdədi.
Səfir Həsən Əzizoğlu Budapeştdədi,
orda türkün tarixini varaqlayacaq,
bir də Ramil Səfərovla maraqlanacaq.

Rusiyanın dar günündə qalxdıq ayağa,
rusun tankı, təyyarəsi getdi qabağa, –
Brandenburq qapısından düz Reyxstaqa!
Bakı nefti Moskvanın qan damarıydı,
Neft çıxaran Azərbaycan oğullarıydı.

Gah Qarabağ atlıları, gah başqa bir xan,
Rusiyada, ruslar üçün keçdi canından.
Qarabağı erməniyə "bağışlayırsan?!"
Port-arturda diz çökməyən, tövbə etməyən,
yeganə "rus generalı"
kimiydi, öyrən?!

Şamaxılı Baş memarın günahı nəydi? –
Kremli tikən əllər bir möcüzəydi.
Kərəməli möcüzəydi...
tərif üzəydi,
atamanın qılıncıyla tutuldu yası,
qoca tarix lənətlədi "Böyük Knyaz"ı.[45]

Füzulisiz füzulilər doğulur yenə,
Qubadlısız Nəbi, Həcər doğulur yenə.
Kəlbəcərsiz bir Kəlbəcər doğulur yenə.
Sabah Ali Baş Komandan "qalx" – desə, qalxaq,
biz "əlvida" deməmişik, –
"Salam!" Qarabağ!

Dünən "Heydər zirvəsi"ndən dunyaya baxdım,
teleskopsuz mən Ulduza, mən Aya baxdım.
Çilçırağı haqdan yanan Saraya baxdım,
Xınalıqda xınalanır Üçrəngli bayraq,
aç, İsmayıl Ömərovun ürəyinə bax!

* * *

"Beşik" üstə düşünürdüm, sancdı ürəyim,
gördüm yenə təqib edir məni taleyim.
Ey yarımçıq qalan nəğməm,
kimə nə deyim? –
eşitdim ki, nəşr etdirib Güldanə mənsiz,
xeyir-dua diləyibdi o mənə mənsiz.

Yaxşılığı, yamanlığı kim dana bilər,
pisi pisdi, yaxşıya da yaxşı deyiblər.
Sizə mənim canım qurban ellər, ay ellər,
məhv etməyi öyrədiblər bizdə hər kəsə,
fəxr etməyi öyrətməyib millət, nədənsə?!

Yaz, Aliyə, mən dedikcə, kompüterdə yaz,
nə yaxşı ki, zövq əhlisən, üstəlik həssas.
Mənim "Poylu beşiyim"dən deyirsən olmaz,
mən nə deyim saf ürəklə deyilən sözə,
ürəyimdən neçə bəndi çıxartdın üzə.

Desələr ki, ilham nədir? –
de ki, – eşq, həvəs,
sərkərdəni bada verər bəzən bir qərəz.
Qapaz ilə, yumruq ilə dahi yetişməz,
ögeylərə, doğmalara bölünsə vətən, –
o millətin sabahını unut bu gündən.

* * *

**H**ayıf, indi nə Nüsrət var, nə Akif Səməd,
Ağamalı Sadiqi də itirdi millət.
Özün "Yanıq Kərəmi" çal, yandır, Ədalət,
qəm gələndə qəm üstündə köklə sazını –
bu dünyaya qəmlə də de, etirazını.

Nüsrət – eşqin budağında bəhrə gətirdi,
Akif – İncə dərəsini şerə gətirdi,
Ağamalı – puçurladı, pöhrə gətirdi,
Davud getdi, – Cavanşirə yaşa! – deyəndə,
şair nəsrin ləngərini dərk eləyəndə.

Saza dəymə, başqa şeydi o haray-həşir,
aşıqlar öz matahını bazara çəkir.
Nə Qurbani yada düşür, nə Dədə Şəmşir,
nə Vaqifi oxuyurlar, nə Ələsgəri,
nə də Molla Cuma kimi sinədəftəri.

İlyas Tapdıq Hüseyndən danışsın gərək,
bu gör-götür dünyasıdı, görək-götürək.
Bizim Aslan müəllimi hardasa görək,
mən bilirəm darıxıbdı o məndən ötrü,
mən də bir az,
necə deyər, Şəmkirdən ötrü.

O zaman ki, tarazlığı bir az itirdik,
biz Rasimin Kollecinə pənah gətirdik.
O Kolleci elə bil ki, biz də bitirdik:
Cabiriydi, Söhrabıydı, onda bir də mən,
mehr-ülfət əsiriyik biz də əzəldən.

* * *

Qarabağdan qayıdanlar hasalı qalıb,
anam yoxdu, anamın bir misalı qalıb:
– "Qoşa relslər – qollarımdı uzalı qalıb, –
mən arxanca boylanıram gündə, ay oğul,
bir də nə vaxt dönəcəksən kəndə, ay oğul!?.."

Abır-həya gözəliydi, Azərbaycan, mənim anam.
Can dedikcə, candan kəsib, can payladın, canım anam.
Xanım ikən, bir xanımlıq görmədin sən, xanım anam.
Başındakı kəlağayın bir millətin həyasıydı,
Bu heykəli mən qoymasam, Poyluda kim qoyasıydı?!

Ağstafa, Qarayazı tamaşana dursun, ana!
Poylu – mənim beşiyimdi, burda anam dursun, ana!
Yanında mən, hüzurunda gərək
"Salam!" dursun, ana!
Bircə "Sağ ol" eşitsəydim poyluların öz dilindən,
Ana-bala yaşayardıq Kür üstündə biz yenidən.

…Ağstafa mənimkidir, sən də mənim, Azərbaycan,
səndən başqa nəyim vardır məndə mənim, Azərbaycan?!
Bir damlada bir ümmanı vəsf elədim, Azərbaycan,
mən Poyluya səndən baxdım – bu ümmanın damlasına,
Poylu, səndən boylanıram, Azərbaycan dünyasına.

# YADDAŞIMIN HARAYI

*Dünyanı bivəfa gördüm, —*
*qisas aldı dünya məndən...*

*Əvət, mən bilməzdim, dumanlı başlar,*
*haqqı deyil, haqsızlığı alqışlar.*

H.Cavid

*...Onda Səməd Vurğun daha yox idi,*
*Nizami Cəfərov gənc idi hələ.*

N.Həsənzadə

Yaşa könül!
Sən yelkənli qayıqsan, nəsən,
dalğalara, tufanlara sinə gərirsən,
qəzalardan qəzalara ömür sürürsən, –
Deyirlər ki, tora düşər quş, dimdiyindən,
düşdüm mən öz dilimdən yox, şeir dilimdən.

Dilim - ucaltdı məni,
Dilim - qocaltdı məni:

“Nəriman dedikcə nərimanlaşıb,
özüm də dəyişdim bu neçə ildə...”
/Məndən leninləşmək tələb etdilər,
“gözümü çıxardıb gözdən itdilər”/.

Mən onda bilmirdim, əziz Nəriman,
Ayaqda Əlheydər, başda Mirzoyan
Ortada iranlı Ağazadələr,
Sənə güllələnmək təklif ediblər.

İlahi, dahilər adi görünür,
yanır sağlığında odlar içində.
Özləri görünmür, adı görünür
sürgün dəftərində adlar içində.

Mənim tariximdən mən xəbərsizəm,
gərək tariximdən teştə qan süzəm.
Vətən,
    tarixçidən ya tarix istə,
ya şairə tapşır, ya jurnalistə.
Mən indi bildim ki, Kreml nəymiş? -
Hər türkün taleyi təhlükədəymiş.

"Nəriman"ı rus dilinə çevirmişdilər,
saqqız kimi çeynəyirdi məni "dişdilər".
Moskvadan – mətbəədən gətirtmişdilər,
Şaumyanı tələb etdi məndən bir "qoçaq", –
baş qəhrəman olmalıydı birinci daşnak.

Deyirdi ki, Kommunanın oydu rəhbəri,
Demirdi ki, erməniyə verib şəhəri.
Deyirdi ki, Moskvanın sadiq əsgəri!
Demirdi ki, on səkkizdə gedirdi vətən, -
oydu Bakı qırğınını təşkil eləyən.

Yəqin köhnə "kurator"un yadında olar,
istintaqa bənzəyirdi sual-cavablar.
Mənə "yazmaq öyrədirdi" bəzi cənablar,
Onda belə qarışıbdı buğdama - çovdar,
ey Nizami,
            "qoynu" qurda tapşırırdılar.

**A**rxivlərin dəftərini varaqlayırdım,
qovluqları hey açırdım, hey bağlayırdım.
Sənədlərin özü "itib", –
əl saxlayırdım,
görürdüm ki, astarı rus, üzü erməni!
Azərbaycan,
sən var ikən, danırdı səni.

"İstrafuil" yazılmışdı İsrafil adı,
o ki, Sovet İttifaqı Qəhrəmanıydı.
"Pravda"da çap olmuşdu adı, soyadı.
Bir millətin bu heysiyyət məsələsiydi,
yoxsa qoca Kalininin "səviyyəsiydi?!"

"**B**u heykəl qoyanın əli qırılsın,
qaldı torpağımız, daşımız üstə.
Heykəl – müstəmləkə embleması,
nadzordu, əfəndim, başımız üstə..."[46]
/Bir məmur hirsləndi: – O nadzor deyil,
bizim gözümüz də görür, kor deyil/.

"Aldığı arvada ərə gedənlər,
sizə kiçik olsun, bizə də rəhbər..."
/Gördüm, vəzifəyə gedən kişilər,
aldığı arvada ərə gedirlər/.

"Bəlkə su çıxsaydı yerin dibindən,[47]
ayaqlar altında qalmazdı vətən".
/Dedi: neft çıxmasa yerin dibindən,
Moskva çıxmazdı müharibədən!/.
Mənim hər sözümdən şübhəliydilər,
ya lap kütüydülər, ya dəliydilər.

Mən 57-də yazdım bunları,
2007-də başa düş barı.
Cavidi təzəcə əfv etmişdilər,
guya tutulanda "səhv etmişdilər".

"Ancaq yüz illərlə yad bayrağını
asdıq bayramlarda öz qapımızdan".
/Onda da dedilər, ölümə gedən,
qızıl əsgərləri təhqir edirsən/.

"Məni tuturdular,[48] Rəsulla Nigar[49] –
gedib generala ağız açdılar".

"Kimin sualı var?"[50] – yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər.
/Məhkəməmi qurdu İttifaqımız,
müstəntiq çatmırdı arada yalnız/.

Onda Rəsulbəyov[51] cavab istədi,
məni Akademik vermədi ələ.
Onda Səməd Vurğun daha yox idi,
Nizami Cəfərov gənc idi hələ.

Sinəsinə döyüb əl-qol açanlar,
Xeyrin qarşısına çıxır Şər kimi.
Deyin, iddialı danışmasınlar
bir para ortabab şairlər kimi.

Dalğalar çör-çöpü sahilə vurub,
üstündən qoşuntək keçdi a zalım.
Anasız uşağa bir şillə vurub,
ağlamaq öyrətmək gecdi, a zalım!

Qar yağır, boşalır göyün sinəsi,
adi görünsə də, adi sirr deyil.
Bu qar dənəsilə o qar dənəsi
oxşar olsalar da, şəkli bir deyil.

**...B**üroya qoydular bizim qəzeti,[52]
əvvəl, "redaktorun fəaliyyəti!".
Tərcümə dilində dərs oxudular,
təmizi təzədən təmiz "yudular".
Büroda – ağızdan çıxan "tüstü"lər,
desəm – nəfəsimi boğurdu, – yetər.
Orda "seçilmişlər" nitq elədilər,
Bir arxam var idi Büroda – Heydər.[53]
"Natiq"dən, "natiq"ə fərq qoyurdu o,
şairdən şairi qoruyurdu o.
Dedim: "Nəriman"ı bitirmək olmur,
sözümü kəsirlər, söz demək olmur...

Biləndə "Qlavlit" meydan sulayır,
gördüm, fikirlidi, o baş bulayır.
Çatılıb qaşları özünəməxsus,
bir ildırım çaxdı salonda: "Əfsus!" –

Dedi necə yazıbdısa, elə çap olsun,
istəyirdi böhtanlara bir cavab olsun.
Əvvəli də, axırı da etiraf olsun,
ürəyimdə deyirdim ki, pənah Allaha,
o beytlər, o misralar yox idi daha.

Onda bir az qorxuluydu "Müsavat" demək,
Nəsib bəyin, Xoyskinin adını çəkmək,
"türk" sözünü türk dilində dilə gətirmək.
Onda mənə deyirdilər yaz komsomoldan,
bir komsomol mükafatı verək, get dolan.

Onda mənim içimdəydi sonrakı tufan,
onda yaxşı tanımırdı məni "tanıyan".
Deyirdilər gənc şairdi hələ Nəriman...
Mən Caviddən, mən Hadidən qidalanırdım,
mən də "daşa dönmüşləri" görüb yanırdım.

Düzü,
    giley kimi qəbul eləmə,
qulsansa, məni də sən qul eləmə.
Yara göynəyəndə, "giley" deyilməz,
dağın Quzeyinə Güney deyilməz.

Hər nə demişəmsə, halal demişəm,
düzlük – bu əsrdə şöhrətdi mənə.
Amma bir sərçəyə qartal demişəm,
bunu da Şeyximiz[54] öyrətdi mənə.

...Dövlət mükafatı laureatı! –
İki əsər verdik, "bir səs çatmadı".[55]
Amma Komitədə bütün üzvlər,
laureat oldu –
                        beləydi xəbər.
Danmıram heç kəsin istedadını,
bir də halal olan mükafatını.
Niyə xatırladım onları bu gün? –
/Qarnım üçün deyil, qədirim üçün/.

Şairlik qədimdən asan olmayıb,
Yeri də qazıblar xəzinə üçün.
Sonra dedilər ki, onda nə  üçün,
Sözümü səmtinə yozan olmayıb.

Dişdilər əlavə diş axtarıbdı,
Zəmanə onlara zəmanət verib.
Nizami oğluna iş axtarıbdı,
Onu Vəliəhdə əmanət verib.[56]

Ovidiy[57] vətənə qayıtmayıbdı,
əsrdən əsrə çatıb gileyi.
Hadini oyaqlar oyatmayıbdı,
Özü oyananda, yatıb taleyi.

...Məni nazirlikdə infarkt etdilər,[58]
dərslik buraxmışdım… istəmirdilər.

"Muğam teatrı" bir gün eylədi,
mümkün olmayanı mümkün eylədi.
Şerimin əvvəli Əzan səsiydi,[59]
sonu millətimin salnaməsiydi.

Almayıblar Füzulinin bir salamını,
ondan rüşvət istəyiblər salam yerinə.
Amma şahlar əzbərləyib şah kəlamını,
işlədiblər saraylarda ənam yerinə.

Namərd qabağına mərd ürəklə çıx,
dönsən də torpağa, daşa dünyada.
Bayquş ulayanda – duz-çörəklə çıx,
bülbül oxuyanda – yaşa dünyada.

Yenə ürəyinə nə gəldi, şair,
yan "Yanıq Kərəmi" yada düşəndə.
Yaz ki, heca vəzni gözəldi, şair,
səs də bəstələnir nota düşəndə.

Əruzda yarandı "Leyli və Məcnun",
sərbəstdə Rəsuldu, hecada Vurğun.
Özünə doğmadı hər quşun səsi,
qarın – sükutu var, yağışın – səsi.
Sazın – "Ruhani"si, tarın – "Şüştər"i,
o da bəşəridi, bu da bəşəri.

Təbiət yaradır səsin rəngini,
sən axtar hər simin öz ahəngini.
Niyə gün çıxanda kölgəsiz olmur,
insan pəhriz tutur, yer pəhriz olmur.
Niyə qaratoyuq cəh-cəh vuraraq,
bülbülə nəzirə oxuyur ancaq.
Öyrən həqiqətdi, yoxsa röyadı, –
durna qatarında durnalar yatır .
Şirin əlindədi bütün meşələr,
gözüaçıq yatar amma gecələr.
Baxıb deməyin ki, dəniz duzludur,
balıqlar içdiyi tərtəmiz sudur.
Ən mahir toxucu, ən yaxşı memar,
hörümçəyi deyib qədim babalar.
Babildə deyiblər
Qalaktikada,
nə qədər dünya var müxtəlif adda.
İskəndər hüznlə boylanıb göyə,
birini mən tuta bilmədim, – deyə.

İskəndər yaşına çatanda Sezar,
qəlbini üzübdü gizli intizar:
deyib ki, dünyanı tutdu İskəndər,
fəth edə bilmədim yarısı qədər...

Şair, bir eyhamdı bu dediklərim,
amma ürəkləri mən fəth elədim.
Pərdələr üstündə döyünsə ürək,
"Poylu beşiyim" də dilə düşəcək.

* * *

**O** gün bir çadırda yığışmışdılar,
bir az gənclər idi, bir az yaşdılar.
Gördüm ki, yasda da: ayrıseçkilik,
(toyda, iclasda da ayrıseçkilik!).
Çadırda millətin soyuq nəfəsi,
sərhəddə erməni müharibəsi.
Ərazi-ərazi seçilmişdilər,
            ailə-ailə kiçilmişdilər,
qohum-əqrabaya bölünmüşdülər,
kül olub, başıma ələnmişdilər.

Rus dəyişmədimi əlifbamızı?
Fars ayırmadımı el-obamızı?
Erməni Məscidi yandırmadımı?
Bu, bizi ayıldıb qandırmadımı?!

Antalya dünyanın qız gözəliydi,
o da Türkiyənin öz gözəliydi.
Yazdım taleyimə mən bu səfəri,
Ağ dəniz sahili naxışlayırdı.
Orda, Qurultayda[60] dünya türkləri,
ortaq türk dilini alqışlayırdı.

* * *

Deyirlər, Məhəmməd yetim olubdu,
kömək durubdular –
gör kim olubdu!
Məhəmməd sonuncu Peyğəmbər kimi,
tək qala bilməzdi bir bəşər kimi.
Hökm beləydi ki, Rəbbin səsində -
İslam – varisidi Yer kürəsində.
Atasız böyüyüb Şeyx Nizami,
Ona da dayısı olubdu hami.
Təkləri Tək Tanrım tək qoymayıbdı,
dünyadan can doyub, göz doymayıbdı.
Əltutan olsaydı əgər insanlar,
Peyğəmbər yetişər, Nizami olar...

## İzahlar

1.Plutarx (b.e. I əsri) – Qədim yunan filosofu, yazıçı və tarixçi.

2.Qasid – Şərqi Zaqafqaziyada qədim Alban dövlətinin (e.ə. IV-VIII əsrlər) hökmdarı Oroyzun (Uruzun) qardaşı, gənc sərkərdə.

a)Qney Pompey (e.ə.106-48). Antik Roma siyasi, hərbi xadimi. Burada şairin Akademik Milli Dram Teatrında tamaşaya qoyulan "Pompeyin Qafqaza yürüşü" mənzum pyesi nəzərdə tutulur (red.).

3. I Pyotrun məxfi yazdığı vəsiyyətinə (1725) işarədir.

4.Fətəli şah (1766-1834) – İran şahı. 1813 və 1828-ci illərdə Rus-İran müharibələri zamanı İranı məğlub edən çar rusiyası müqavilə bağlananda rus hərbi gəmilərinin Xəzər sularına daxil olmasını tələb etmişdir.

Fars-rus müharibəsi zamanı Türkmənçay müqaviləsi (1828) bağlananda şah farsca demişdir: "Abi cur əst, bidehid!", yəni Xəzər şor sudur, verin getsin (red.).

5.Nadir şah - Nadir şah Əfşar(1688-1747) - İran şahı.

6.İberiya. Şərqi Gürcüstanın qədim adı. İberiya ərazisində e.ə. 4-3 əsrlərdə dövlət yaranmışdı.

7.Stalin – İ.V.Stalin (1879-1953). Kommunist partiyasının, Sovet dövlətinin, beynəlxalq kommunist və fəhlə hərəkatının rəhbərlərindən biri. Türk xalqlarına qarşı amansız olmuşdur.

8.Akademik Budaq Budaqov.

9.Hidayət Orucov – şair, ictimai xadim.

10. Müşfiq – Mikayıl Müşfiq.

11. Altay – şairin tələbə yoldaşı, yazıçı Altay Məmmədov.

12. Nizami – Nizami Cəfərov. Milli Elmlər Akademiyasının müxbir üzvü, Millət vəkili.

13. Zəlimxan – Ağstafa rayonunda kənd adıdır.

14. Çoban Əfqan – 20-ci illərin əvvəllərində Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində çobanlıq etmiş; 1955-ci ildə şair N.Həsənzadə onun şerlərini ağızlardan toplayıb ayrıca kitab halında nəşr etdirmişdir (red.).

15.Xəlil – Xalq şairi Xəlil Rza Ulutürk.

16. S.M.Bondi, A.A.Anikst, M.A.Svetlov - şairin M.Qorki adına Ədəbiyyat İnstitutundakı müəllimləri.

17.Kaysın Kuliyev, David Kuqultinov, Məhəmməd Mamakayev – şairin Moskvadakı tələbə yoldaşları, görkəmli şairlər.

18. Böyük türk şairi Nazim Hikmətə işarədir.

"İnsan hər yaşda gəncdir" – N.Hikmət yeni kitabını belə adlandırmışdı. İstəyirdi ki, kitabı N.Həsənzadə çevirsin və "Nehru siyasəti" deyəndə gənc şairin ehtiyatlı olmasını nəzərə alırdı (red.).

19. Mir Cəlal Paşayev – yazıçı, alim, pedaqoq. N.Həsənzadə aspiranturada oxuduğu illərdə elmi rəhbəri olmuş, Bakida oğlu üçün aldığı ikiotaqlı mənzili gənc şairə - aspirantına bağışlamışdır (red.).

20. Püstə xanım – Püstə xanım Paşayeva. Mir Cəlalın həyat yoldaşı.

21."Manifest" - M.Cəlalın məşhur "Bir gəncin manifesti" əsəri xatırlanır.

22. "Antik dövr… xronika…" – "Pompeyin Qafqaza yürüşü", "Bütün Şərq bilsin", "Atabəylər" əsərlərinə işarədir.

23. "Bir də həzin bir pıçıltı…" – N.Həsənzadə şerin hay-küydən uzaq, səmimi yazılmasının tərəfdarıdır. Hətta o, bir şerində "Ürəyində oxu, ürək eşitsin" - deyir (red.).

24. "Poemanın qıfılını…" – N.Həsənzadə poema janrında xalq həyatının geniş, epik-dramatik lövhələrlə təsvirini verməyi, konflikt və ziddiyyətləri açıb göstərməyi tələb edir.

25. Cərcis ibn Şöüb Peyğəmbərin türbəsi Beyləqan şəhərinin Orənqala düzündə, "Peyğəmbər qəbristanlığı"ndadır. Türbə 126-cı ildə tikilmiş, sonralar dəfələrlə bərpa və təmir edilmişdir. Cərcis Peyğəmbər qədim Romada doğulsa da, əslən Fələstinlidir (red.)

26.Vaqif Qurbanov – Cərcis Peyğəmbəri yuxuda görüb ismarıcını şairə çatdıran (red.)

27. Nazim – Şairin oğlu Nazim Həsənzadə.

28. “Bacımgildə...” – şairin kiçik bacısı Səriyyə xanım nəzərdə tutulur.

29.Professor Qəzənfər Paşayevin “Nostradamusun möcüzəli aləmi” kitabına (B., Təhsil, 2007) işarədir.

30.Tağı Əhmədov - Şairin yaxın dostu.

31. İbrahim xan - Qarabağ xanı, XVIII əsr.

32. Yarımka - “Yarmarka” sözünün kənd variantı (red.).

33. “Davanın lap ortasıydı...” – 1941-45-ci illər İkinci dünya müharibəsi nəzərdə tutulur.

34. "Badı-budu" – Qarğıdalını qovurub satırdılar.

35. "Dəlmə" – Hündür yerdən keçən dəmir yolu xəttinin altından salınmış kiçik tunel.

36. İskəndər - Makedoniyalı İskəndər.

37. “Xallı başda” – keçmiş sovet rəhbəri M.S.Qorbaçova işarədir (red.).

38.Alman cərrahı - Şairin ürəyində cərrahiyyə əməliyyatı aparan görkəmli alman kardioloqu, professor Albert Şömiq.

39.Simax Şeyda - şairin dostu, görkəmli yəhudi şairi.

40.Yusif - Şairi Almaniyada həkimlə görüşdürən azərbaycanlı Yusif Əliyev.

41. Ələkbər – Ələkbər Kazımovski - quruluşçu rejissor.

42. Mahir – Mahir Cahangirov - operator.

43. Rəfiqə – Rəfiqə Budaqova. “El taleyini yaşayan ömür. Nəriman Həsənzadə” televiziya filminin ssenari müəllifi, yazıçı.

44. Nəriman - Nəriman Nərimanov.

45.“Böyük” Knyazı - XIV əsr rus knyazı Dmitri Donskoy.

46. "Bu heykəl qoyanın…" – SSRİ zamanında Dağüstü parkda qoyulan ən uca heykələ (S.M.Kirov) işarədir. "Nəriman" (1968) poeması Moskvanın "Sovetski pisatel" nəşriyyatının mətbəəsində kitab şəklində çap olunduğu vaxt (1973), səlahiyyətli məmurlardan biri əsərin əlyazmasını Bakıya gətizdirmiş, müəllifə Bakı Kommunasının sədri Şaumyanın haqqında ətraflı yazmağı təkidlə tələb etmiş və mənfi cavab almışdır.

Poema rus dilində (1973) ixtisarla, sonralar isə Ümummilli liderimiz H.Əliyevin göstərişilə Bakıda (1978) yenidən nəşr edilmişdir (red.).

47."Bəlkə su çıxsaydı…" – "Nəriman" poemasından.

48. "Məni tuturdular…" – Sovet ordusunda hərbi xidmətdə ikən, anasının ölüm xəbərini (1954) Bakıda eşidən N.Həsənzadə əsgərlikdən qaçıb anasını dəfn etməyə getmiş, qayıdanbaş icazəsiz getdiyinə görə Bakıda onu hərbi tribunala vermişdilər (red.).

49. "Rəsulla Nigar..." – Xalq şairləri Rəsul Rza, Nigar Rəfibəyli.

50. "Kimin sualı var" yazmışdım o vaxt…" – N.Həsənzadə "Ədəbiyyat və incəsənət" qəzetində "Kimin sualı var" poemasından bir fəsil çap etdirmiş (1983), Yazıçılar İttifaqının o zamankı katiblərindən biri bəzi fikirlərin ona aid olduğunu zənn edərək (və sonra əsərə bütövlükdə siyasi rəng verərək), Baş redaktorun (N.Həsənzadənin - red.) vəzifədən götürülməsi barədə katibliyin iclasını çağırtdırmışdı. Akademik Həsən Əliyev məsələdən xəbər tutmuş, bu və əvvəlki fəsilləri də oxuduğunu, müəllifi təbrik etdiyini bildirmiş, ciddi narazılığını çatdırmışdır. Ondan üzr istəmişlər (red.).

51. Rəsulbəyov - şairin dostu və qohumu, keçmiş rabitə naziri Hüseyn Cümşüd oğlu Rəsulbəyov.

52. “Büroya qoydular bizim qəzeti” – “Ədəbiyyat və incəsənət” qəzeti.

53. "Orda “seçilmişlər” nitq elədilər" – Azərbaycan KP MK Bürosunda "Ədəbiyyat və İncəsənət" qəzetinin üçillik müzakirəsi (1976) təşkil olunmuşdu. N.Həsənzadə isə cəmisi altı aya yaxın bir dövr idi ki, Baş redaktor işləyirdi. Qəzetin üç illik fəaliyyəti zamanı olan nöqsanları onun ayağına yazmaq istəyirdilər (red.).

Heydər – Heydər Əliyev – Azərbaycan KP MK-nın Birinci katibi.

54. Şeyx - Nizami Gəncəviyə işarədir.

55. "…İki əsər verdik…" – Bakıda və Moskvada göstərilən və müvəffəqiyyət qazanan "Bütün Şərq bilsin" və "Atabəylər" pyesləri nəzərdə tutulur. Hər iki əsəri Akademik Dövlət Dram teatrının kollektivi dövlət mükafatına təqdim etmişdi (red.).

56. "Nizami oğluna..." – N.Gəncəvi "Leyli və Məcnun" poemasını Şirvanşah Sarayına oğlu Məhəmməd vasitəsilə göndərmiş və ona divanda bir iş verilməsini xahiş etmişdi.

57. "Ovidiy vətənə..." – Publiy Ovidiy Nazon (e.ə. 43 – b.e. 18-ci illəri) Böyük Roma şairi imperator Avqustun göstərişilə Dunay sahillərinə sürgün edilmiş, orada da dünyasını dəyişmişdir (red.).

58. "Məni nazirlikdə..." – 1996-97-ci illərdə N.Həsənzadə Mətbuat və İnformasiya nazirini sərəncamla əvəz etdiyi vaxt (keçmiş nazir deputat seçildiyi üçün vəzifədən getmişdi – red.) heç bir lazımi vəsaitlə təmin edilmədən çox az bir müddətə 58 adda dərsliyin nəşrini təmin etmiş və dərsliklər vaxtında məktəblilərə çatdırılmışdı. Bu şəraitdə işin belə tez görülməsini Baş nazirin müavini Elçin Əfəndiyev(Xalq yazıçısı) yeni dərsliklərin sərgisini gördükdən sonra "əsl möcüzə" adlandırmışdı (red.).

59."Muğam teatrı"nda şairin yaradıcılıq gecəsi başlananda Əzan səsi gəldi. Teatrın direktoru, Əməkdar İncəsənət xadimi Arif Qazıyev bir anlıq fasilə verərək, bunu Tanrının xeyir-duası kimi izah etdi (red.).

60. Şair Türkiyənin Antalya şəhərində keçirilən (17-20 avqust 2006-cı il) Dünya türklərinin X qurultayını nəzərdə tutur (red.).

61. Herodot da yazırdı: "Vaxtilə Frakiya torpaqlarından (Asiyaya – red.) köçürülmüş ermənilər də Frakiya silahları ilə silahlanmışdılar".

# KİTABIN İÇİNDƏKİLƏR

Nuru Paşa ........................................................................ 13
Qarabağdan gələn var... ..................................................... 35
Qafqaz ............................................................................ 63
Hadi və Əsgər ................................................................... 69
Kimin sualı var? ................................................................ 81
Zümrüd quşu ................................................................. 211
Vətənsiz ......................................................................... 361
Qaçaq Kərəm .................................................................. 383
Xarı bülbül ..................................................................... 387
Cavid ............................................................................. 395
Bəyanat ......................................................................... 403
Şəhid atası Şərif qağaya məktub ....................................... 419
Qadın ............................................................................ 431
Sabir .............................................................................. 455
Səfirə məktub ................................................................. 471
Həsrət ............................................................................ 477
Nizami ........................................................................... 493
Əsir uşaq ........................................................................ 571
Rəsul Həmzətova məktub ................................................. 585
Qız ürəyi ........................................................................ 595
Körpəylə söhbət .............................................................. 621
Biz bir ildə doğulduq... .................................................... 635
Şahid ol, Günəş .............................................................. 649
Poylu - beşiyim mənim ..................................................... 673